**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI**

**DİLQƏM QULİYEV**

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFI

**(1991-2011)**

*(Dərs vəsaiti)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24 fevral 2012-ci il tarixli 280 №-li əmri ilə təsdiq edilmişdir.*

- 11326 -

KİTABXANASI

**Bakı – Mütərcim – 2012**

*Kitabın nəşrinə mənəvi və maddi yardım göstərdiyi üçün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru prof. Ağacan Qulam oğlu Abiyevə müəllif öz dərin minnətdarlığını bildirir.*

**Rəyçilər:** **X.K.Qurbanov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor Azərbaycan DBTİA-nın güləş növlərinin nəzəriyyəsi və metodikası kafedrasının müdiri.*

**A.Ə.Əliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor Azərbaycan DBTİA-nın bədən tərbiyəsi tarixi və idarə edilməsi kafedrasının müdiri.*

**A.A.Məmmədov,**
*Azərbaycan Respublikasının GİN-nin kütləvi bədən tərbiyəsi və texniki idman növləri sektorunun müdiri*

**C.B.Bayramov**
*Azərbaycan Respublikasının GİN elm və təhsil şöbəsinin aparıcı məsləhətçisi*

**Quliyev D.Q. Müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı (1991-2011).** – Bakı, Mütərcim, 2012 – 216 s.

Dərs vəsaitində Azərbaycan Respublikası Prezidentinin Azərbaycanda 2012-ci ilin «İdman ili» elan edilməsi haqqında Sərəncamı, 1991-2011-ci illərdə bədən tərbiyəsi və idmanın inkişaf tarixi, müstəqilliyimizin iyirmi illiyi dövründə Yay, Qış Olimpiya Oyunlarında, Paralimpiya Oyunlarında, Dünya, Avropa çempionatlarında, birinciliklərində və beynəlxalq yarışlarda Azərbaycan idmançılarının çıxışlarının təhlili, fəslin sonunda isə tələbələr üçün hazırlanmış nümunəvi test sualları verilmişdir.

Dərs vəsaiti Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professor-müəllim, doktorant, magistrant və tələbələri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$Q \frac{4310020000}{026}$ 13-12

© AzDBTİA, 2012

**Azərbaycan Respublikasında 2012-ci ilin «İdman ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin**

## SƏRƏNCAMI

Azərbaycan Respublikasında idmanın inkişafı ildən-ilə geniş vüsət alır. Müstəqilliyimizi əldə etdiyimiz vaxtdan bu günə qədər Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülməsi bunun əyani sübutudur, Olimpiya oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal isə böyük tarixi nailiyyətdir.

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, tikilmiş müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilmişdir. Bakı şəhərində bədii gimnastika, güləş və boks üzrə dünya çempionatlarının, habelə bu il futbol üzrə qadınlar arasında dünya çempionatının keçirilməsi paytaxtımızın 2020-ci ilin Yay Olimpiya Oyunlarına ev sahibliyi üçün namizədliyinin irəli sürülməsi bir daha təsdiq edir.

Ölkəmizdə idmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, yeni idman və Olimpiya komplekslərinin tikilməsi zərurəti, eləcə də idmançılarımızın London olimpiadasında, dünya və Avropa çempionatlarında, rəsmi beynəlxalq yarışlarda yüksək göstəricilərinin təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2012-ci il Azərbaycan Respublikasında «İdman ili»elan edilsin.
2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2012-ci ilin Azərbaycan Respublikasında «İdman ili» elan edilməsinə dair tədbirlər planını hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 yanvar 2012-ci il

*Dərs vəsaiti Müstəqil Azərbaycan Respublikasının yaranmasının 20 illiyinə ithaf edilir.*

# GİRİŞ

Müstəmləkəçilik və totaltitar rejim xalqımızın yüz illər ərzində formalaşmış fiziki tərbiyə ənənələrinə ağır zərbə vurmuşdur. Hakim millətin hegomonluğunu təmin etmək məqsədilə başqa sahələrdə olduğu kimi, fiziki tərbiyə sahəsində də milli ayrı–seçkilik siyasəti yeridilmiş, Azərbaycan xalqının fiziki tərbiyə dirçəlişinin qarşısını almaq üçün mütərəqqi milli fiziki tərbiyə ənənənləri imperiyanın fiziki tərbiyəsinin əlavəsinə çevrilmişdir. İmperiya bütövlükdə əsarət altına salınmış xalqların, o cümlədən azərbaycanlıların ruslaşdırılmasına və beləliklə, müstəmləkə əsarətinin «möhkəmləndirilməsinə xidmət etmişdir».

Mərkəzdə xüsusi niyyətlə hazırlanmış fiziki tərbiyə sisteminin əsasında duran beynəlmiləlçilik və xalqlar dostluğu prinsipləri bu işdə xüsusilə mənfi rol oynamış, əslində başqa xalqlar kimi, Azərbaycan xalqını da milli zəmindən ayrı salmaq və ümumibəşəri sərvətlərdən məhrum etmək məqsədi daşımışdır. Əsrlər boyunca formalaşmış fiziki tərbiyə ənənələrinin aradan qaldırılmasına yönəlmiş imperiya siyasəti fiziki tərbiyə, əslində xalq və cəmiyyət arasındakı dialektik əlaqəni pozmuş, fiziki tərbiyənin humanist xarakterinə, demokratikliyinə, dini-mədəni əlaqələrinə mənfi təsir etmiş, xalqın dili və tarixi ənənələri sıxışdırılmış, milli dirçəliş yolunda ciddi maneyə çevrilmişdir. Bununla da Azərbaycan xalqı Ümumdünya fiziki tərbiyə prosesindən, yaşadığı regionun bir çox xalqları ilə bağlı minillər boyunca formalaşmış tarixi-mədəni əlaqələrdən ayrı salınmışdır. Azərbaycanda fiziki tərbiyə müstəmləkə qanunları əsasında maliyyələşdirilmiş, onun maddi-texniki bazasınm inkişafına əhəmiyyət verilməmişdir. Totalitar rejimlə birlikdə onun üçün səciyyəvi olan fiziki tərbiyə iflasa uğramışdır.

Beləliklə, ötən tarixi dövr ərzində bir sıra uğurlar qazanılmasına baxmayaraq, Azərbaycan hazırkı vəziyyətdə –müstəqillik qazandığı dövrdə iqtisadi və sosial həyatın durmadan artan ehtiyaclarını ödəməyə qadir olan fiziki tərbiyə sisteminə malik deyildir. Respublikada fiziki tərbiyənin məzmununda milli xüsusiyyətlər kifayət qədər nəzərə alınmamış, bu işin elmi-pedaqoji strategiyası müasir səviyyədə işlənilməmişdir.



Fiziki tərbiyənin məzmununu müəyyən edən elmi-pedaqoji prinsiplər hazırlanmadığından bəsit məlumatlı elmi informasiyaların qarışdırılması adi hala çevrilmiş, fiziki tərbiyənin təşkili və idarə edilməsində inzibati amirliyə üstünlük verilmişdir. Respublikamızın Prezidenti cənab İlham Əliyev milli dövlətimizi getdikcə möhkəmləndirilmək naminə həyatımızın bütün sahələrində öz bilik, bacarıq və qabiliyyətini göstərə bilən insanların fiziki cəhətdən sağlamlığının təmin olunması probleminin həllini həmişə cəmiyyətimizi təkmilləşdirməyin baş planı hesab edir.

Fiziki tərbiyənin mühüm pilləsi olan ali məktəblər müstəqillik qazandığı dövrdə öz qarşılarında duran çətin və mürəkkəb tarixi vəzifələrin öhdəsindən lazımınca gələ bilmir. Azərbaycan ali məktəblərinin fəaliyyətində milli-mədəni zəminlə ümumbəşəri dəyərlərin prinsipi pozulmuşdur: milli zəminə, türk dünyası və islam əxlaqının yaratdığı mənəvi dəyərlərə lazımınca əsaslanmayan fiziki tərbiyə ümumbəşəri dəyərlərdən də kifayət qədər bəhrələnə bilmir. Azərbaycan Republikası Təhsil müəssisələri mühüm elmi və mədəniyyət mərkəzlərinə çevrilməli, yüksək sivilizasiyalı demokratik cəmiyyət və dövlət modelinin işlənib hazırlanmasında öncül rol oynamalıdır. Buna görə də fiziki tərbiyə sistemi əsaslı surətdə yenidən qurulmalı, onun statusu və strukturunda köklü dəyişiklik edilməli, fiziki tərbiyənin forma və məzmunu tədqiq olunmalıdır. Çünki bu məsələ yetişməkdə olan gənc nəslin vətənpərvərlik, igidlik və qəhrəmanlıq tərbiyəsi məsələlərilə qırılmaz tellərlə bağlıdır.

Boloniya prosesi bu gün qloballaşan təhsil sahəsi üzrə Avropa birliyi məkanında baş verən prosesdir. Bu prosesə əsas səbəb 19 iyun 1999-cu ildə 29 Avropa dövlətləri tərəfindən keçirilən təhsil Nazirliyinin görüşündə qəbul olunmuş Boloniya Deklarasiysı olmuşdur. Boloniya Deklarasiysının əsas məqsədi Avropa təhsil müəssisələrində tələbələrə verilmiş biliklərin həyata keçirilməsini təmin etmək, eyni zamanda dünya səviyyəsində Avropa təhsilinin rəqabətliyini artırmaqdan ibarətdir.

Milli-mənəvi dəyərlərimizə xələl gətirməyərək və bu dəyərlərlə daha da zənginləşərək dünya miqyasında öz layiqli yerini tutmaqda olan Azərbaycan 2005-ci ildə Boloniya prosesinə qoşulmuş və bununla bağlı müvafiq öhdəliklər götürmüşdür. Bu öhdəliklərdən biri də ali təhsil müəssisələrində kredit sisteminin tətbiqidir. Azərbaycan DBTİ-da kredit sisteminin tədbiqinin vahid qaydada aparılmasını təmin etmək məqsədi ilə kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi

əsasnamə hazırlanmış, təsdiq olunmuş və sonradan ona qismən dəyişikliklər və əlavələr edilmişdir. Kredit sisteminin mahiyyəti və əsas şərtləri bu əsasnamədə öz əksini tapmışdır. Tələbə özünü idarəetmə sisteminin yaradılması və ona akademiyanın idarəolunmasında iştirak etmə hüquqlarının verilməsi və bu hüquqların qorunması tədrisin keyfiyyətini təmin edən əsas mexanizmlərdən biridir

Avropa birliyində Təhsil sisteminin inteqrasiyasını təmin edən amillərdən biri də bir sıra Avropanın, eləcə də dünyanın istənilən ölkələrlə Ali təhsil sənətlərinin və ixtisasların qarşılıqlı tanınmasıdır. Bu sahədə də akademiyanın əməkdaşları işlər görmüşlər. Biz artıq Avropa birliyinə qatılmışıq. Bugün Avropa ölkələri dostümüzdür, müttəfəkirimizdir. Bu dostluğa ehtiyyacımız var. Bizim dostumuz içərisində dili bir, inamı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq yalnız o günü susub gözləmək deyildir. Hazırlaşmaq lazımdır. Millətlər buna necə hazırlaşır? Mənəvi körpüləri sağlam tutaraq Dil bir körpüdür...inam bir körpüdür... Tarixi bir körpüdür...Ümid edirəm ki, akademiyanın bu sistemlə qazandığı idman naliyyətləri, biliklər seçdiyi ixtisaslar üzrə yüksək səviyyəli kadrlar kimi yetişməsinə zəmin yaradacaq və Avropanın, eləcə də dünyanın istəlinən məkanında diplmumuzun tanınmasına və tətbiq olunmasına gətirib çıxaracaqdır.

Beynəlxalq idman aləmində ilk addımlarını atan Azərbaycan Respublikası layiq olduğu yeri tutmağa səylə çalışır. Uzun illərdən bəri yaşadığımız müharibə şəraitinin ağırlığına, yurd-yuvasından qaçqın düşən soydaşlarımızla bağlı çətinliklərə, iqtisadi gərginliyə baxmayaraq idmançıların bütün problemlərinin həllində hər zaman dövlət qayğısı hiss olunur.

Respublikanın müstəqilliyə keçid dövründə də Azərbaycan gənclərinin qarşıladığı çətinliklər, şübhəsiz mövcud idi. Lakin 1993-cü ilin 15 iyununda xalqın çağrışına səs verərək ikinci dəfə hakimiyyətə qayıdan xalqımızın ümummilli lideri Heydər Əliyevin xususi diqqəti və qayğısı sayəsində başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəxsən təşəbbüs göstərərək, 2012-ci il yanvarın 16-da Azərbaycan Respublikasında «İdman ili» elan edilməsi haqqında Sərəncam imzalamışdır.**

Yanvaırn 16-da Nazirlər Kabinetinin məlum iclasında dövlətimizin başçısının həm də əsl idman həvəskarı, Olimpiya lideri kimi nitqi diqqəti cəlb etməyə bilməz. 2012-ci ildə Yay Olimpiya Oyunlarına idmançılarımızın ciddi hazırlığını qeyd edən prezident bildirdi ki, ötən il kifayət qədər lisenziyalar əldə etmişik. Dünya, Avropa çempionatlarında qələbələr qazanmışıq, yəni ümidlərimiz böyükdür.

2012-ci ildə 10 Olimpiya Kompleksimiz tikiləcək. Böyük Olimpiya stadionunun tikintisi artıq fəal fazaya kesəcək. Altmış beş minlik böyük Olimpiya stadionu tikilir. Tofiq Bəhramov adına Respublika stadionunda təmir-bərpa işləri aparılır ki, Bakıda qızlar arasında keçiriləcək dünya çempionatında hazır olsun. Digər idman obyektləri inşa edilməkdədir. Böyük gimnastika kompleksi, Bakı «Kristal» idman konsert kompleksi tikilir. Yəni bu sahəyə, həmişə olduğu kimi, böyük diqqət göstərilib. 2012-ci ildə həm ölkə daxilində olan hadisələr, həm Olimpiya Oyunlarına hazırlıq, Olimpiya Oyunlarının keçirilməsi nəzərdə tutulur.

Bütün bunları əsas gətirən dövlətimizin başçısı 2012-ci ilin «İdman ili» elan edilməsinin vacibliyini bəyan edərək, elə həmin gün də müvafik sərəncam imzaladı.

Belə bir təşəbbüsün reallaşması, əlbbətə, böyük hadisədir. Axı, Azərbaycanın bir idman ölkəsi olması sözdə deyil, əldə edilən uğurlarda öz təsdiqini tapır. Son illər bu sahədə qazanılan naliyyətləri, şübhəsiz ki, qazanılan medallar daha dəqiq əks etdirir. Elə il olmur ki, beynəlxalq yarışlarda qazanılan medalların sayı əvvəlki müqayisədə artmasın. Adicə bir faktı qeyd etmək lazımdır ki, ynicə başa vurduğumuz 2011-ci ildə qazanılan medalların sayı 1992-1997-ci illərdə qazanılan medalların ümumi sayından iki dəfə çoxdur.

Ötən il qazanılan nəticələri yüksək qiymətləndirərək, yeni başlayan ildə görüləcək işlərin çoxluğunu nəzərə çatdıran prezident nitqinin sonunda hamıdan fəallıq, tələbkarlıq, vicdan və qələbə əzmi gözlədiyini bildirdi.

2012-ci il doğrudan da idman ili kimi əlamətdar olacaq. Təkcə ona görə yox ki, Londonda Olimpiya Oyunları keçiriləcək və Azərbaycan idmançılarının tarixində ən böyük uğurları məhz orada qazanacağı gözlənilir. İl həm də Azərbaycan idman tarixi üçün əlamətdar olan bir sıra hadisələrin yubileyləri ilə zəngin olacaq. Milli Olimpiya Komitəsinin 20 illiyi, Prezident İlham Əliyevin Azərbaycan Respublikasında Olimpiya Hərəkatına rəhbərliyinin 15-ci il dönümü, Azərbaycan idmançılarının ilk Olimpiya medalı qazanılmasının 60-cı ildönümü və digər əlamətdar hadisələrlə zəngin olacaq.

## I FƏSİL

## 1991-1993-cü İLLƏRDƏ BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFI

1991-ci ildə mürəkkəb sosial-iqtisadi çətinliklərin məngənəsində sıxılan respublikamızda demək olar, bütün sahələrdə həyat səviyyəsi son dərəcə aşağı düşmüşdü, yaşayış şəraiti ağırlaşmışdı. Belə bir vaxtda cəmiyyətin əsas inkişafının tərkib hissəsi olan mədəniyyət və idman kimi mühüm sahələrdə acınacaqlı vəziyyət yaranmışdır. Əlbəttə, bunlar obyektiv səbəblər üzündən baş verirdi. Həmin illər müharibə hər şeyi bizdən asılı olmayaraq arxa plana atmışdır.

Vaxt vardı stadionlarda gözəl yarışlar keçirilirdi, cavanlar, elə yaşlı adamlar da tribunalara yığışırdılar, maraqlı oyunların şahidi olurduq. İdman özünə tərəfkeşlər toplayırdı. Amma, 1991-1993-cü illərdə stadionlar baxımsızlıq ucbatından dağıdılıb, tribunalar sökülür, hər tərəfi ot basıb, mal-qara otlağına çevrilmişdir. Balalarımızın gümrahlığına xidmət edə biləcək qurğular tamam unudulmuşdur. Bir vaxt vardı ki, Abşeronun Xırdalan qəsəbəsində hay-küylə, böyük həvəslə yaraşıqlı bir stadion tikildi. Nə qədər yaddaqalan yarışlar, görüşlər keçirilmişdi həmin stadionda. Hətta futbol komandaları öz məşqlərini məmuniyyətlə həmin stadionda keçirirdilər. Çünki yaxşı şərait yaradılmışdı. Abşeron rayonundan neçə-neçə adlı-sanlı idmançı yetişirdi, ustalığa namizədlərin, idman ustalarının sayı durmadan artırdı. Amma, vaxt gəldi 1991-1993-cü illərdə başqa qurğular kimi bu stadionun da başı üstünü qara buludlar aldı. Kommersiya dükanları, əkinlər, stadionun ərazisində kimin istədiyi kimi saldığı bağlar, xırlar onu dövrəyə aldı. Stadion öz funksiyasını itirdi, yararsız hala düşdü, min bir əziyyətlə ucaldılmış hasarlar uçulub töküldü.

İdman-sağlamlıq işlərində də həmin illərdə çoxlu çatışmamazlıqlar meydana çıxmışdı. Xüsusi ilə idmançıların beynəlxalq yarışlara getmələri yolunda səddə çevrilmiş maliyyə çətinlikləri deyilənlərə misal ola bilər. O, illərdə hər bir idmançının bu və ya digər xarici ölkələrə yarışa getməsi ən azı on-on beş min dollara başa gəlirdi. Əlbəttə, həmin illəri valyuta sarıdan böyük çətinliklər çəkən ölkəmizdə bunun nə demək olduğunu hamı yaxşı bilir. Lakin bütün bu problemlərə baxmayaraq Azərbaycan idmançıları ən mötəbər yarışlarda müstəqil



dövlətimizin üç rəngli bayrağını qaldırır, onların şərəfinə dövlət himnimiz səsləndirilirdi.

1991-ci ildən uşaq bağçalarında bədən tərbiyəsi müəllimi ştatı müəyyənləşdirilmişdir. Hər 140-160 uşağa bir müəllim verilmişdir. Həmin ildə uşaq, məktəbli, tələbə xroniki xəstəliklərə: bədən quruluşunun dəyişilikliyinə, ürək-damar əsəb sistemlərinin pozulmasına, görmə qabiliyyətinin zəifləməsinə məruz qalmışdırlar. Ölkədə məktəblilərin yalnız 20 faizi sağlam hesab olunurdu. Xəstəliklərin başlanğıcı məhz bağça yaşlarından başlanırdı. Gizli deyildir ki, uşaq bağçalarında gigiyena və sanitariya qaydaları çox vaxt pozulurdu. Sağlam və xəstə uşaqlar adətən eyni otaqlarda saxlanılırdı. Belə uşaqlarıp infeksiya xəstəlikləri sağlam uşaqlara da təsir edirdi. Beləliklə, bağçadan başlanan bu proses məktəblərədək davam edirdi.

1991-ci ildə Filippinin paytaxtı Manialda keçirilmiş Ümumdünya Şahmat Olimpiadasında qadınlardan ibarət komandamız ilk dəfə müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxış edərək 62 ölkənin nümayəndələri arasında altıncı yeri tutmuşdur. Almaniyanın Dyusburq şəhərində yeniyetmə və gənc şahmatçıların dünya birinciliyində də respublikamızın nümayəndələri uğurla iştirak etmişlər. Ukraynanın paytaxtı Kiyevdə sambo üzrə Avropa birinciliyində güləşçilərimiz müstəqil respublikamızın idman şərəfini uca tutmuşdular.

1991-ci ildə Qorki şəhərində UGİ məktəbləri arasında SSRİ birinciliyində komandamız VI yerdə olmuşdur. Balaşixada Moskva şəhərində 1991-ci il SSRİ çempionatında komandamız B qruppasında II, Qorki şəhərində SSRİ Spartakiadasında VI yeri tutmuşdur.

1991-ci ildə İtaliynın paytaxtı Romada sərbəst güləş üzrə Avropa çempionatında müstəqil Azərbaycanımızın istedadlı pəhləvanı Namiq Abdullayev böyük uğur qazanıb. O sübut edib ki, hazırda 52 kq çəki dərəcəsində qitənin ən güclü güləşçisidir. Təcrübəli və tanınmış rəqiblərlə mübarizədə həmyerlimiz fəxri kürsünün ən yüksək pilləsinə doğru inamla irəliləmişdir. Salonda səslənən doğma himnimiz və ucalan üçrəngli bayrağımız Namiqin yerli tamaşaçılara hədiyəsi kimi qarşılanmışdır.

1991-ci ildə İstedadlı Azərbaycan şahmatçısı Firuzə Vəlixanlı müxtəlif beynəlxalq turnirlərdə əla çıxış edərək müstəqil respublikamızın idman ictimaiyyətinə böyük sevinc bəxş etmişdir. Bu müvəffəqiyyətlərinə görə Beynəlxalq Şahmat Federasiyası (FİDE) ona beynəlxalq qrossmeyster adı verilmiş və Firuzə rəfiqəsi Aynur Sofiyevadan sonra

respublikamızda belə yüksək ad daşıyan ikinci qadın şahmatçısı olmuşdur.

1991-ci ildə Azərbaycan boksçuları beynəlxalq yarışlardan ölkəmizə 3 qızıl, 3 gümüş və 4 bürünc medal gətirmişlər.

KİC-ri 1992-ci ildən başlayaraq yenidən bərpa olunmağa başlamış və bu işlər 1993-cü ildə başa çatdırılmışdır. Həmin illərdən başlayaraq ölkəmizdə yenidən "Neftçi", "Məhsul", "Spartak", "Zenit", "Gənclik", (Burevestnik), "Lokomotiv", "Xəzər" (Vodnik) uğurla öz fəaliyyətlərinə başlamışlar. Həmkarlar İttifaqları idman təşkilatlarının yenidən bərpası işlərinin həyata keçirilməsi, sonradan onların fəaliyyətinin koordinasiyası, rəhbərlik və nəzarət məqsədilə 1993-cü ildə AHİK-n təşəbbüsü və təsisçiliyi ilə Azərbaycan Həmkarlar İttifaqları Assosiasiyası (AHİTA) yaradıldı.

Bu illər ərzində Həmkarlar İttifaqları təşkilatlarında yeni 11 idman təşkilatları yaradılmışdır. Onlardan, "Qarabağ", "Kimyaçı" idman cəmiyyətləri, "Pəhləvan", "Attila", "Bakılı", "Start", "Nizami", "Yasamal", "Təbriz", "Şahmat və dama", "Alpinizm və turizm" klubları.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Həmkarlar idman təşkilatları Assosiasiyası 1997-ci ildən başlayaraq Respublika GİT Nazirliyi, MOK ilə birlikdə iki dəfə olaraq Azərbaycanda "Zəhmətkeşlərin Respublika Spartakiadasının" və "Yeniyetmələrin respublika oyunlarının " keçirilməsinə başlamışdır.

Bu gün Həmkarlar İttifaqları (2002-i il) idman təşkilatları aşağıdakı formada xarakterizə olunur: İdman cəmiyyətləri - 6 ("Spartak", "Zenit", "Məhsul", "Qarabağ", "Kimyaçı", "Gənclik")İdman klubları - 6 ("Pəhləvan", "Attila", "Şahmat və dama", "Alpinizm və turizm", "Nizami", "Yasamal"), 931bədən tərbiyəsi kollektivləri, bədən tərbiyəsi və idmanla məşğul olanlar - 240089 nəfər, o cümlədən qızlar – 41393, UGİM-nin sayı -28, UGİM-də məşğul olanlar - 6817 nəfərdir.

Respublikanın Həmkarlar İttifaqları şurasının strukturuna daxil olan könüllü idman cəmiyyətlərilə birlikdə Həmkarlar İttifaqının tabeçiliyində vahid bir cəmiyyətdə Həmkarlar İttifaqının bədən tərbiyəsi və idman cəmiyyəti strukturunda birləşdirilmişdir. Sonralar, həmin birləşmiş cəmiyyət özünü doğrultmadığına görə onda birləşdirilmiş ayrı-ayrı sahələrə xidmət edən idman cəmiyyətləri 1992-ci ildən başlayaraq yenidən əvvəlki strukturuna bərpa olunduğundan "Zenit" idman cəmiyyəti 1993-cu ilin avqustun 10-da özünün təsis konfransını



keçirərək yenidən bərpa olunmuşdur. "Zenit" idman cəmiyyəti müstəqil struktur kimi Ədliyyə Nazirliyi Kollegiyasının 22 sentyabr 1993-cü il tarixli qərarı ilə qeyd olunmuş və onun rəsmən fəaliyyət göstərməsinə icazə verilmişdir.

Hazırda "Zenit" idman cəmiyyəti aviasiya, ağır maşınqayırma sənayesi, avtomobil nəqliyyatı və yol təsərrüfatı, elektrik stansiyaları və elektrotexnika sənayesi işçilərinə və onların ailə üzvlərinə xidmət edir. Cəmiyyət Sumqayıt və Gəncə şəhərlərində özünün şəhər şuralarını yaratmış və onların nəzdində uşaq gənclər idman məktəbləri açmışdır. Bundan başqa Cəmiyyətin Respublika Şurasının Bakı şəhərində uşaq-gənclər məktəbi və "Azal" güləş idman klubu fəaliyyət göstərir.

"Zenit" idman cəmiyyətinin Bakıda, Gəncədə və Sumqayıtda fəaliyyət göstərən idman məktəblərində və idman klubunda idmanın 7 növü: Yunan-Roma, sərbəst, cüdo, sambo güləşi, ağır atletika, boks və taekvando növləri inkişaf etdirilir. Bu növlər üzrə fəaliyyət göstərən 13 bölmədə *106* qrupda *1141* nəfər yeniyetmə və gənc məşğul olur.

Bütövlükdə, cəmiyyətin xidmət sahəsindəki müəssisə və təşkilatların bədən tərbiyəsi kollektivləri də daxil olmaqla cəmiyyətin fəaliyyət dairəsində idmanın 21 növündə 9610 nəfər adam məşğul olur.

Cəmiyyətin idmançıları Respublika, Dünya və Avropa yarışlarında uğurlu çıxış edirlər. Cəmiyyətin 24 idmançısı respublika yığma komandasının üzvləridir. Cəmiyyətdə kütləvi idmanın inkişafına böyük diqqət yetirilir.

1992-ci ildə yığma komandamız Türkiyənin - İzmir və Ankara şəhərlərində yoldaşlıq görüşləri və birlikdə təlim məşq toplanışı keçirtmişlər. (Azərbaycan Respublikasının Əməkdar Məşqçisi L.Mehtiyevin rəhbərliyi altında). Yoldaşlıq görüşündə Azərbaycan komandası qalib gəlmişdir. Oktyabr ayında Bakıda Beynəlxalq turnir keçirildi və bu turnirdə Ukraynanın, Gürcüstanın, Türkiyənin və İran İslam Respublikasının Tehran və Təbriz şəhərlərinin yığma komandası çıxış etmişdir. Bu turnirdə Azərbaycan idmançılarından Mehdiyeva Nərgiz, Orucov Mirzə, Məmmədəliyev Ceyhun, Quliyev Asif fərqlənmişlər.

1992-ci ildə Həmkarlar İttifaqlarında edilmiş struktur dəyişikliklər nəticəsində bu idman təşkilatları da ləğv olunmuş və xidmət sahələri üzrə fəaliyyət göstərən əvvəlki idman cəmiyyətləri yenidən bərpa olunmağa başlamışdır. Belə idman cəmiyyətlərindən biri də "Gənclik" TİC Respublika Şurası olmuşdur. Artıq 1992-ci ildə respublikanın ali və orta ixtisas təhsil məktəblərində təhsil alan tələbə gənclərin bədən tərbiyəsi və idmana kütləvi surətdə cəlb olunması, onların fiziki hazır-

lıqları inkişaf etdirilməşdir. Habelə, müstəqil respublikamızın tələbə idmançılarının beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edə biləcək bir təşkilatın yaradılmasına ehtiyac duyulurdu.

Bütün bunları nəzərə alaraq, 1992-ci ilin may ayının 15-də Təhsil Nazirliyi, Respublika İdman Komitəsi və Azərbaycan Həmkarlar İdtifaqları Şurasının təsisçiliyi ilə keçmiş "Burevestnik" idman cəmiyyətinin varisi kimi "Gənclik" Tələbə İdman Cəmiyyətinin Respublika Şurası bərpa olunmuşdur.

Hal-hazırda təhsil müəssisələrində fəaliyyət göstərən 10 idman klubunun sədri Respublika Şurası tərəfindən əmək haqqı ilə təmin olunur.

1993-cü ildə ilk dəfə olaraq müstəqil respublikamızın tələbə – idmançıları ABŞ-da keçirilən tələbələrin 17-ci Ümumdünya Universiadasında iştirak etmişlər. Ümumiyyətlə, cəmiyyətin yetirmələri 1992-ci ildən etibarən 4 dəfə Tələbələrin Ümumdünya Universiadasında 9 dəfə ayrı-ayrı idman növləri üzrə tələbələrin dünya çempionatlarında iştirak edərək, respublikamıza 33 medal, o cümlədən 5 qızıl, 8 gümüş və 20 bürünc medal gətirmişlər.

Qeyd etmək lazımdır ki, əldə olunmuş medallar arasında ən yüksəyi tələbələrin 21-ci Ümümdünya Universiadasında qazanılmış ilk gümüş medaldır.

Respublikamızda fəaliyyət göstərən idman qurumlarından biri də "Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasıdır (TİCRŞ). Azərbaycan Həmkarlar İttifaqları Təşkilatları Assosiasiyası (AHİTA) nəzdində fəaliyyət göstərən bu qurum tələbə gənclər arasında idmanın inkişafına öz töhfəsini verərək, gənclərin sağlam həyat tərzinin təşkilini təmin edir. Təsadüfi deyildir ki, orta və ali təhsil ocaqlarında yüksək hazırlıqlı idmançıların yetişməsində və idman növlərinin hərtərəfli inkişafında "Gənclik" TİCRŞ-nin böyük rolu var. Cəmiyyət həmçinin tələbələr arasında idmanın bir çox növləri üzrə respublika səviyyəli spartakiada və universiadaların, eləcə də çempionat və birinciliklərin də təşkili ilə məşğuldur. Tələbə idmançılar onun rəhbərliyi dəfələrlə ümumdünya universiadalarında və idmanın ayrı-ayrı növləri üzrə tələbələrin dünya çempionatlarında iştirak edərək, respublikamızın adını yüksəklərə qaldırıb, dəfələrlə beynəlxalq arenalarda himnimizi səsləndiriblər.

"Gənclik" TİCRŞ respublikada fəaliyyət göstərən 35 ali və 76 orta ixtisas məktəblərində oxuyan idmançı tələbələri özündə birləşdirir və idman klubları vasitəsi ilə onlar arasında yarışlar keçirir. Bu təhsil



ocaqlarında 12 mindən artıq tələbə təhsil alır. Ölkəmizdəki ali və orta ixtisas təhsil müəssisələrində 23 idman növü üzrə 294 bölmə fəaliyyət göstərir. Bu bölmələrdə 3844 nəfər tələbə-idmançı məşğul olur. Sevindiricidir ki, onlardan 552 nəfərini qızlar təşkil edir.

Hazırda respublika üzrə ali və orta ixtisas təhsili məktəblərində 29 idman klubu mövcuddur və burada 119 məşqçi, 74 nəfər təlimatçı dərsdənkənar idman məşğələlərində idmanın sirlərini tələbələrə öyrədilir. Təsadüfi deyildir ki, son 3 ilin statistik hesabatına əsasən, bu idman bölmələrində 67 idman ustası, 256 idman ustalığına namizəd, 330 birinci dərəcəli, 10223 kütləvi idman dərəcəli idmançı yetişmişdir. Eyni zamanda, "Gənclik" cəmiyyətinin basketbol (oğlanlar) və voleybol (oğlanlar, qızlar) üzrə 3 yığma komandası ölkə kuboku və çempionatlarında mübarizə aparır.

TİSRŞ 1992-2003-cü illər ərzində ali və orta ixtisas məktəbləri arasında 6 universiada və 6 spartakiada, idmanın ayrı-ayrı növləri üzrə isə 118 respublika çempionatı və birincilikləri keçirmişdir. Bu tədbirlərdə 22 mindən çox tələbə idmançı iştirak edib,

Azərbaycanın tələbə gəncləri 5 dəfə - keçirilən Tələbələrin Ümumdünya Universiadasında və 9 dəfə ayrı-ayrı idman növləri üzrə tələbələrin dünya çempionatlarında iştirak edərək, 33 medal əldə etmişlər (5 qızıl, 8 gümüş və 20 bürünc).

1991-1993-cü illərdə Azərbaycan idmançıları Olimpiya idman növləri üzrə Avropa və dünya çempionatlarında **18** medal qazanılmışlar (Onlardan 7 qızıl, 9 gümüş, 2bürünc).

**Azərbaycan idmançılarının dünya və Avropa çempionatlarında qazandığı medalların dinamikası (1991-1993) (Olimpiya idman növləri üzrə)**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| Avropa | 7 | 5 | 2 | 14 |
| Dünya | | 4 | | 4 |
| Yekun: | 7 | 9 | 2 | 18 |

**Azərbaycan idmançılarının dünya və Avropa çempionatlarında qazandığı medalların qrafiki (1991-1993) (Olimpiya idman növləri üzrə)**




**Azərbaycan idmançılarının Avropa çempionatlarında qazandığı medalların dinamikası (1991-1993). (Olimpiya idman növləri üzrə)**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| Avropa | 7 | 5 | 2 | 14 |

Cədvəldən göründüyü kimi 1991-1993-cü illərdə Avropa çempionatında 14 medal qazanılmışdır (onlardan 7 qızıl, 5 gümüş, 2 bürünc).

**Azərbaycan idmançılarının dünya çempionatlarında qazandığı medalların dinamikası (1991-1993) idmançıları Olimpiya idman növləri üzrə**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| | | | | |
| Dünya | | 4 | | 4 |

Cədvəldən göründüyü kimi 1991-1993-cü illərdə dünya çempionatında 4 medal qazanılmışdır (onlardan 4 gümüş). Təəssüflər olsun ki, həmin illəri qızıl və bürünc medal qazanan olmamışdır.



1991-1993-cü illərdə ixtisaslı bədən tərbiyəsi müəllimlərinin tərkibi də qənaətbəxş deyildi. Ali təhsilli bədən tərbiyəsi müəllimləri təxminən 50 faiz təşkil edirdi. Qırxbeş faiz orta ixtisas təhsilli idi. Bədən tərbiyəsi müəllimlərinin beş faizini isə heç ixtisas təhsili yox idi. Elə məktəblərdə var idi ki, orada bədən tərbiyəsi dərslərini qeyri-ixtisasdan olan müəllimlər- hərbi hazırlıq və digər fənn müəllimləri aparırdılar.

Digər təkbətək idman növlərində olduğu kimi boksda da beynəlxalq uğurlarımız müstəqillik dövründə xeyli artıb. Müstəqil Azərbaycan boksunu beynəlxalq aləmdə uğurla təmsil edən ilk idmançımız Ədalət Məmmədov olub. O, 1992-ci ilin aprelində Şotlandiyanın Edinburq şəhərində keçirilən Avropa çempionatında super ağır çəkidə bütün rəqibləri məğlub edərək, qızıl medal əldə etmişdi. Qeyd edək ki, Ədalət bununla da Avropa çempionu olan ilk boksçumuz kimi öz adını Azərbaycan boksu tarixinə yazmış oldu. Həmin il o, həm də Kanadanın Monreal şəhərində keçirilən gənclərin dünya birinciliyində bürünc medal qazanıb.

1992-ci ildə boksçularımız həm də bir neçə beynəlxalq turnirdə öz qüvvəsini yoxlamış və bu yarışlardan vətənə 5 qızıl və 5 bürünc medal gətirmişlər.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə ölkəmizin Olimpiya Hərəkatında yeni bir dövrü başlandı. 1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması və onun Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınması Azərbaycana müstəqil bir dövlət kimi öz idman potensialını tam nümayiş etdirmək imkanı verdi.

1992-ci il yanvarın 14-də Azərbaycan Respublikasının Milli Olimpiya Komitsinin (MOK) təsis yığınacağı keçirilmişdir, Yığıncaqda MOK-nin Nizamnaməsi qəbul edilmiş, onun struktur orqanları yaradılmış və Yuri Hüseynov komitənin przidenti seçilmişdir. 1992-ci il martın 10-da Azərbaycan Respublikasının MOK Ədiliyyə Nazirliyndə rəsmi qeydiyyatdan keçərək hüquqi şəxs statustu almışdır. 1992-ci il sentyabrın 11-də MOK-un növbədənkənar sesiyasında Məhəddin Allahverdiyev MOK-un prezidenti seçilmişdir. 1992-ci il noyabrın 2-də Avropa Olimpiya Komitəsinin Akarulkoda keçirilmiş Baş Assambleyasında Azərbaycan Respublikasının MOK bu Komitəyə üzv qəbul olunmuşdur Monakoda Beynəlxalq Olimpiya Komitəsinin növbəti 101-ci sessiyası keçirilmişdir. 1993-cü il sentyabrın 23-də Toplantıda müstəqillik qazanmış on səkkiz ölkənin MOK-un BOK tərəfindən tanınması məsələsinə də baxılmışdır, Sessiyanın qərarına əsasən

BOK 18 ölkənin, o cümlədən Azərbaycan Respublikasının MOK-un rəsmən tanımışdır. Azərbaycan respublikası MOK-un nümayyəndələri qitə olimpiya təşkilatının tədbirində ilk dəfə iştirak etmişlər. 1993-cü ilin oktyabr ayında Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında Azərbaycan MOK də təmsil olunmuşdur

1992-ci ilin ən yaxşı idmançılarında Nazim Hyseynov (cüdo) – Olimpiya çempionu Valeriy Belenkiy (Gimnast)-Olimpiya çempionu Ceyhun Məmmədov (Sambo)- İki qat Avropa, 3 qat Dünay çempionu Zülfiyyə Hüseynova (Sambo) –Avropa çempionu, Valeriy Timoxin (stend atıcılığı)- Dünya Kubokunun qalibi-92-olmuşlar.

1992-ci ilin martında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təsis konfransı keçirlib. AFFA-nın o vaxtkı respublika Dövlət Bədən Tərbiyəsi İdman Komitəsi, ictimai təşkilatlar və digər futbol xadimləri iştirak edirdilər. Təsisçilərin xahişi ilə F. Musayev Azərbaycan Futbol Federasiyaları Assosasiyasının prezidenti seçilməyə razılıq verdi və AFFA-nın prezidenti seçildi.

Ölkənin ilk milli çempionatı 1992-ci ildə keçirilib. İlk çempionatda güclülər dəstəsində 26, birinci dəstədə 12 komanda iştirak edib. Elə həmin ildə Azərbaycan Respublikası mövcud konstitusiyası, FİFA və UEFA-nın nizamnamələri əsasında AFFA nizamnaməsi işlənib hazırlanmış və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində təsdiq edilmişdir. Elə həmin ildəcə AFFA-nın maddi texniki bazasının inkişaf etdirilməsi haqqında qərar layihəsi hazırlanıb Nazirlər Kabinetinə təqdim edildi.

1992-ci ilin iyununda FİFA-nın hüquqi strukturları AFFA-nm işləyib hazırladıqları sənədlərlə tanış olduqdan sonra AFFA FİFA-ya cəlb edilmiş üzv sifəti ilə qəbul olundu. Beləliklə biz dünya çempionatlarından başqa bütün beynəlxalq yarışlarda iştirak etmək hüququ qazandıq. İlk beynəlxalq matç 1992-ci ilin oktyabrında qonşu Gürcüstanda Gürcüstan və Azərbaycan yığma komandaları arasında keçirildi.

MDB ölkələri arasında MDB ölkələri çempionatların «Sodrujestvo» kuboku uğrundakı yarışlardakı ilk təmsilçilərimiz 1993-cü ildə «Neftçi» FK olub.

1993-cü ilin iyununda UEFA-nın 7-ci fövqəladə konqresində iştirak edən AFFA nümayəndə heyəti UEFA rəhbərləri ilə görüşmüş və onları Milli Assosasiyanın nizamnamə qaydaları və digər sənədlərlə tanış etmişlər.

1993-cü ilin dekabrında UEFA-nın icraiyyə müvəqqəti komitəsinin iclasmda Azərbaycan Futbol Federasiyaları Assosasiyası UEFA-ya müvəqqəti üzv kimi seçilmişdir. Məhz elə həmin televiziyanın, səfirliklərin, qərb firmalarının məlumatına əsasən Azərbaycanda son dərəcə qeyri-sabit siyasi vəziyyətin olması (1993-cü ilin iyun hadisələri ilə əlaqədar) bəzi rayonlarda hərbi əməliyyatların aparılması Azərbaycandakı matçlara gəlməli olan xarici nümayəndə heyətlərinin təhlükəsizliyi üçün real təhlükənin mövcudluğu barədə UEFA-nın Baş katibi Gerhard Ayqner bəyanat vermişdir. Və buna görə də qeyd olunurdu ki, Azərbaycanda Avropa çempionatının rəsmi matçlarını keçirmək qeyri-mümkündür. Ona görə də Azərbaycan Avropa çempionatının püşkatma mərasiminə buraxılmayacaq.

AFFA prezidenti F.Musayev G.Aynerlə və eləcə də UEFA-nın digər rəsmləri ilə görüşlərdə məsələnin belə kəskin şəkildə qoyulmasına öz etirazını bildirmişdir.

Bundan sonra məsələni yerindəcə araşdırmaq üçün UEFA Azərbaycana nüfuzlu komissiya göndərəcəyini vəd etmişdir. 1993-cü ilin payızındı AFFA-nın təkidi ilə UEFA-nın idman qurğuları komitəsinin sədri E.Uolkerin (Böyük Britaniya) rəhbərliyi altında FİFA və UEFA-nın komissiyası Azərbaycanda təhlükəsizlik məsələlərinin öyrənilməsi, qonaqların qəbul edilməsi ilə bağlı infrastrukturun və idman qurğularının yoxlanılması məqsədilə respublikamıza gəlmişdir.

AFFA nümayəndələri qonaqları idman qurğuları ilə bərabər, Azərbaycan xalqının mədəniyyəti, məişəti, Bakı şəhərinin görməli yerləri ilə geniş şəkildə tanış etdilər. Qonaqlar teatrlara, muzeylərə, səhiyyə, təhsil obyektlərinə arapılmış, mədəniyyət abidələrimizlə tanış edilmişdir. Məhz bundan sonra komissiya üzvləri respublikada normal ictimai-siyasi vəziyyətin hökm sürdüyünə əmin olmuşdur. Bu da UEFA üçün müsbət yekun sənədin hazırlanmasına zəmin yaratmışdır.

Komissiya Sumqayıtdakı M.Hüseynzadə adına şəhər stadionunun UEFA matçları üçün qəbul edildiyini bildirmiş və eyni zamanda T.Bəhramov adına respublika stadionu ilə əlaqədar ciddi iradlarını bildirmişdir. Komissiyanın məlumatından sonra Azərbaycan Avropa çempionatı 96-nın püşkatma mərasiminə dəvət olundu.

1993-cü ildə Türkiyənin Bursa şəhərində keçirilən boks idman növü üzrə Avropa çempionatında ölkəmizi təmsil edən gənc Rövşən Hüseynov yaşlılar arasında keçirilən bu yarışda uğurla çıxış edərək 51 kq çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək çempion adını qazanmışdır. İki ay sonra isə Yunanıstanda keçirilən gənclər arasında Avropa birinciliyində Rövşən yenə uğurla çıxış edərək qızıl medala

11326

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

layiq görülmüşdür. Digər idmançımız Xanlar Mahmudov isə 48 kq çəki dərəcəsində bürünc medal əldə etdi.

1993-cü ildə 62 uşaq-gənclər şahmat məktəbində və həmçinin ümumtəhsil məktəblərində 40 minə yaxın uşaq və yeniyetmə şahmatla məşğul olurdu.

Sərbəst güləşçilərimiz 1993-cü ildən yığma komandanın idmançıları Avropa, Dünya, Olimpiya Oyunlarında 15 qızıl, 9 gümüş və 12 bürünc medal qazanmışlar.

Aleksey Fatyanov 1993-cü ildə üç təkanla tullanmada 16. 89 m. nəticə ilə Znamenski qardaşları beynəlxalq turnirində ikinci yeri tutdu. Həmin il A.Fatyanov Amerikada tələbələrin Universiadasında 16. 50 m. nəticə ilə 7-ci yeri, V.Əsədov isə Alma-Atada keçirilən beynəlxalq Xasanov memoralında 16. 72 m. nəticə ilə ikinci yeri tutdu.

Avropa yeniyetmələrinin ikinci Yay Olimpiya günləri 1993-cü ildə Hollandiyanın Valkensvad şəhərində keçirilmişdir. Bu günlərdə 43 ölkədən 1875 idmançı iştirak etmişdir. Valkensvadda yeniyetmə idmançılar 8 idman növü (atletika, gimnastika, cüdo, üzgüçülük, tennis, basketbol, voleybol, voliseped) üzrə 80 dəst medal uğrunda mübarizə aparmışlar.

1993-cü il iyun ayından sonra, idmanın başqa növləri kimi sərbəst və yunan-Roma güləş növü də Olimpiya Oyunlarında, dünya və Avropa çempionatı və birinciliklərində, beynəlxalq turnirlərdə, mötəbər idman tədbirlərində Müstəqil Azərbaycan Respublikası bayrağı altında və ölkəmizin şərəfini layiqincə təmsil edib, yüksək nəticələr, uğurlar əldə etməyi Azərbaycan sərbəst və yunan-Roma güləş Federasiyası qarşısına məqsədlər qoydu.

Elə 1993-cü ildə İstanbulda keçirilən Avropa çempionatında müstəqil Azərbaycan bayrağı altında qitə çempionatında vətənə gümüş medal 63 kq-da İlham Abbasov gətirdi.

Həmin il gənclərin Avropa çempionatmda – Avstraliyada 58 k çəki dərəcəsində Rövşən Hacıyev qızıl medala layiq görüldü. Yunan-Roma güləşi üzrə İstanbulda keçirilən Avropa çempionatında Natiq Eyvazov qızıl medala və 74 kq çəki dərəcəsində Azad Əliyev gümüş medala layiq görüldü. Bu sərbəst və yunan-Roma güləşçilərinin müstəqil Azərbaycan bayrağı altında iştirak etdikləri rəsmi yarışların ilk və parlaq uğurları idi.



**Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında qazandığı medalların dinamikası (1991-1993)**

| İllər | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1991 | 11 | 8 | 10 | **29** |
| 1992 | 11 | 3 | 9 | **23** |
| 1993 | 14 | 14 | 10 | **38** |
| **Yekun** | **36** | **25** | **29** | **90** |

**Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında qazandığı medalların qrafiki (1991-1993)**




Statistikadan məlum olur ki, Aərbaycan idmançıları 1991-1993-cü illərdə 90 medal qazanmışdır (36 qızıl, 25 gümüş, 29 bürünc), 1991-ci ildə 29 medal qazanmışdısa (11 qızıl, 8 gümüş, 10 bürünc), 1992-ci ildə 23 medal qazanmışdısa (11 qızıl, 3 gümüş, 9 bürünc), 1993-cü ildə isə 38 medal qazanmışdır (14 qızıl, 14 gümüş, 10 bürünc). Təəsüflər olsun ki, dövlət müstəqilliyini əldə etdiyi 1991-1993-cü illərdə Azərbaycanda bədən tərbiyəsi və idman, iqtisadiyyat və digər sahələrdə baş verən qanunsuzluqlar və dağıdıcılıq siyasəti idmana da olduqca güclü zərbələr vurmuşdu.

Respublikanın müstəqilliyə keçid dövründə də Azərbaycan gənclərinin qarşıladığı çətinliklər, şübhəsiz mövcud idi. Lakin 1993-cü ilin 15 iyununda xalqın çağrışına səs verərək ikinci dəfə hakimiyyətə qayıdan xalqımızın ümummilli lideri Heydər Əliyevin xususi diqqəti

və qayğısı sayəsində başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı. O vaxt Azərbaycanda çox problemlər var idi. Birinci növbədə, xaosa, hərc-mərcliyə son qoymaq, Azərbaycanda ictimai-siyasi sabitliyi yaratmaq lazım idi. Onun üçün də çox ciddi inzibati tədbirlər görmək lazım idi. Ona görə də prezident Heydər Əliyevin səyləri məhz idman sahəsinə yönəlmişdir.

**1993-cü ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi.** Bu görüşdə prezident qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar. Bu qayğı ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etməlidir. Dövlət başçısı ölkədə idmanın inkişafı üçün geniş imkanlar yaradılacağını bildirdi.



## II FƏSİL

## 1994-2003-cü İLLƏRDƏ BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFI

Beynəlxalq idman aləmində ilk addımlarını atan Azərbaycan Respublikası layiq olduğu yeri tutmağa səylə çalışır. Uzun illərdən bəri yaşadığımız müharibə şəraitinin ağırlığına, yurd-yuvasından qaçqın düşən soydaşlarımızla bağlı çətinliklərə, iqtisadi gərginliyə baxmayaraq idmançıların bütün problemlərinin həllində hər zaman dövlət qayğısını hiss olunur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanda Olimpiya Hərəkatının genişlənməsinin də təşəbbüskarı və ilhamçısı oldu. 1994-cü ilin aprelində ölkə başçısı Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rananı, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu qəbul etdi. Qəbulda Azərbaycanda Oimpiya Hərəkatının vəziyyəti və onun inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi apardı.

Bu görüşdən sonra 1994-cü il iyulun 26-da Azərbaycan Respublikası Prezidentinin 861 saylı fərmanına əsasən Respublika Gənclər və İdman Nazirliyi yaradıldı. 1994-cü ili respublikanın idman həyatında dönüş ili adlandırmaq olar. Heydər Əliyevin fərmanına əsasən 1995-ci ildə Azərbaycan respublikasında idman fondu yaradıldı. Azərbaycan Respublikası Prezidentinin Fondundan müstəsna hal kimi İdman fonduna 2 milyard manat vəsait ayrılmışdır. Həmin fərmana əsasən Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədi ilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratdı.

Azərbaycanın müstəqilliyinin bərpası suveren ölkənin dünyaya interqasiyasına, beynəlxalq təşkilatlarda təmsil olunmasına, həmin təşkilatların keçirdiyi mötəbər tədbirlərdə iştirakına real hüquqi zəmin yaratdı. Azərbaycan bütün sahələrdə, o cümlədən idmanda da beynəlxalq arenaya çıxmağa imkan qazandı. Azərbaycan Resbublikası MOK-un nümayəndələri qitə Olimpiya təşkilatının tədbirində ilk dəfə iştirak etmişlər. 1993-cü ildə Avropa Olimpiya Komitəsinin Baş

Assambleyasında Azərbaycan MOK-u da təmsil olunmuşdur. 1994-cu il aprelin 20-də Xuan Antonio Samarançın rəhbərliyi ilə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) nümayəndə heyəti Bakıda olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev BOK.-un prezidenti X.A.Samarançı, MOK Assosiyasıyasmm Prezidenti Mario Vaskes Ranani və Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Jak Roqqu Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Çoudrini qəbul etmişdir.

1994-cü ildə «Qara Qaplan» və Ordu İdman Klubu bazasında WKF növləri üzrə Milli Karate Federasiyası yaradılmış və elə həmin ildən də Beynəlxalq Şotokan Karate-do Federasiyasının üzvü olmuşdur. Beynəlxalq Şotokan Karate-do Federasiyası bu gün dünyanın 100-dən çox ölkəsini birləşdirən Şotokan istiqamətli növlər üzrə dünyanın ən böyük idman təşkilatıdır. Təşkilatın prezidenti və şef-təlimatçısı karate-do üzrə dünyada 10-cu danın yeganə sahibi Sensey Xirokazu Kanazavdır.

1994-cü ildə Yokaqame şəhərində (Yaponiya) Azərbaycanın yığma komandası karate üzrə dünya çempionatında kimite üzrə bürünc mükafatçı olmuşdur.

1994-cü ildə sərbəst güləş üzrə ABŞ-ın Çikako şəhərində keçirilən Yeniyetmələrin dünya birinciliyində 74 kq çəki dərəcəsində Məhəmməd İbrahimov qızıl, 65 kq çəki dərəcəsində Dalqatov gümüş medala sahib oldular. Elə həmin il İtaliyanın Roma şəhərində keçirilən Avropa çempionatında sərbəst güləş üzrə Namiq Abdullayev 52 kq çəki dərəcəsində qızıl medal qazanmışdır. Türkiyənin İstanbul şəhərində keçirilən dünya çempionatında isə sərbəst güləş üzrə 52 kq çəki dərəcəsində Namiq Abdullayev gümüş, 97 kq çəki dərəcəsində Davud Məhəmmədov gümüş medal qazanmışdır. Yunan-Roma güləşi üzrə isə, ABŞ-ın Çikaqo şəhərində yeniyetmələrin dünya birinciliyində 40 kq çəki dərəcəsində İlkin Əhmədov, Zahid Tahirov (47 kq), Vüqar Aslanov (63 kq) qızıl medal qazanmışlar.

Dünyanın 56 ölkəsinin idmançıları arasında Ülvi Quliyev, Füzuli Musayev, Əhməd və Rəhman Hətəmov qardaşları və Yaşar Bəşirov ilk dünya mükafatçıları olmuşlar. Azərbaycan karateçilərinin qələbələri ildən-ilə daha da artmışdır.

1994-cü ilin yanvarında Azərbaycan nümayəndə heyəti Mançestrdə (İngiltərə) Avropa çempionatı iştirakçısı olur. Avropa çempionatının 1-ci seçmə qrupunda bizimlə birlikdə Rumuniya, Slovakiya,



Polşa, Fransa və İsrail də iştirak edib. (seçmə qrup yarışlarının nəticələri əlavə olunur)

1994-cü ilin mayında UEFA-nın Vyanada (Avstriya) keçirilən 22-ci konqresində Azərbaycanın Milli Assosasiyası təntənəli şəkildə UEFA üzvülüyünə qəbul edilmişdir. Elə həmin ilin iyununda Azərbaycanın nümayəndə heyəti FİFA-nın Çikaqoda (ABŞ) keçirilən 49-cu konqresində iştirak etmiş və həmin konqresdə Milli Assosasiyanın FİFA-ya təntənəli qəbul mərasimi olmuşdur.

Müstəqil Futbol Federasiyaları Assosasiyası Beynəlxalq futbol qurumlarının səlahiyyətli üzvü olduqdan sonra yenicə təşəkkül tapmış Müstəqil Azərbaycanın Avropa ölkələri və eləcə də dünyada tanınması sahəsində ilk addımlarını atmağa başladı.

Həmin dövrdə Azərbaycan Ermənistan münaqişəsinin 51 ölkənin təmsil olunduğu UEFA müstəvisinə çıxaran Ermənistanın futbol qurumunun rəhbərliyi nəyin bahasına olursa olsun UEFA səviyyəsində keçirilən tədbirlərdə işğal olunmuş Dağlıq Qarabağı özlərinin ərazisi kimi təqdim etməyə çalışdılar. Hətta onlar Xankəndi (o vaxtki Stepanakert) futbol komandasının Ermənistan çempionatında iştirak etməsini reallaşdıran sənədlər paketi hazırlayıb UEFA-ya təqdim etmişdilər.

AFFA prezidenti F. Musayevin UEFA-dakı görüşləri zamanı tutarlı faktlara istinadən söylədikləri və əgər belə bir hadisə baş verərsə qitə futbol qurumundan imtina edəcəkləri haqda xəbərdarlığı Avropa futbol qurumun belə bir qərar çıxarmaqdan daşındırdı. Ən başlıcası isə həmin ildə UEFA üzvü olan ölkələrin xəritəsi tərtib edilərkən ilk dəfə olaraq belə bir nüfuzlu Beynəlxalq təşkilat DQVM-nı Azərbaycanın ayrılmaz hissəsi kimi göstərmiş və vilayətin paytaxtının Xankəndi olduğunu qəbul etmişdir. Xatırladaq ki, həmin dövrdə ilk dəfə olaraq Avropa qi'təsi üçün tərtib olunmuş xəritədə Azərbaycanın ərazisi Avropaya bütöv dövlət kimi təqdim olundu.

1994-cü ildə Azərbaycanı UEFA kuboku uğrunda keçirilən matçlarda ilk dəfə Tovuzun «Turan» komandası təmsil edib.

Avropa çempionatı 96-nın seçmə oyunlarına hazırlıq məqsədi ilə yoxlama görüşləri keçirmək üçün Azərbaycanın olimpiya yığma komandası Türkiyədə olub. Bir qədər sonra Kişinyovda Moldava komandası ilə Azərbaycan yığma komandası arasında yoldaşlıq oyunu keçirilib.

Avropa seçmə qrup yarışlarındakı ilk görüşümüz 1994-cü ilin sentyabrında Rumıniyanın komandası ilə olub. Elə həmin ildəcə

AFFA-nın prezidenti F. Musayev Avropa Çempionatının keçirilməsi üzrə UEFA komitəsinin üzvü seçilib.

1994-cü ildə "Lokomotiv" MDB ölkələrinin "Lokomotiv" beynəlxalq idman klubları assosasiyasına daxil edilmişdir. Mərkəzdə Respublikanın 4 əməkdar məşqçisi fəaliyyət göstərir.

Futbol təşkilatımız 1994-cü ilin mayında UEFA-nın Vyanada keçirilən 22-ci konqresində UEFA-ya, 1994-cü ilin iyununda FİFA-nın Çikaqoda keçirilən 49-cu konqresində FİFA-ya üzv qəbul olunmuşdur. Milli yığma komandalarımız dünya və Avropa çempionatlarında iştirk etmişdi.

1994-cü ilin dekabrında Azərbaycanın futbol tarixində ilk dəfə üç hakimimizə – Tahir Süleymanova, Asim Xudiyevə və Xaqani Məmmədova FİFA referisi dərəcəsi verilmişdir. 1994-cü ildə Rövşən Hüseynov boks üzrə Dünya Kubokunun sahibi olmuşdur.

Möhtərəm Prezidentimizin Azərbaycan xalqının fiziki cəhətdən sağlamlığının möhkəmləndirilməsinə, onların asudə vaxtının təşkilinə göstərdiyi qayğının parlaq təzahürü Dövlət qərarı ilə Gənclər və İdman Nazirliyinin, digər idarə və təşkilatların qarşısına qoyduğu tələblərdir. Biz bu qərar və sərəncamları əldə rəhbər tutaraq, öz işimizə məsuliyyətlə yanaşmalı, işlərimizi yenidən, müasir tələblərə cavab verən səviyyədə qurmalıyıq. Bədən tərbiyəsi və idman məşğələlərini daim diqqət mərkəzində saxlamalı, ona tələbkarlıqla yanaşmalıyıq.

Başqa cür ola da bilməz. Axı hamı asudə vaxtını maraqlı keçirməlidir. Asudə vaxtın səmərəli təşkili, sağlamlandırıcı tədbirlər isə cansağlığının rəhnidir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev səhiyyə işçiləri ilə görüşündə demişdir: « Hər bir adam üçün, elə cəmiyyət üçün də cansağlığından böyük sərvət yoxdur. Adamların cansağlığının mühafizəsi və möhkəmləndirilməsi birinci əhəmiyyəti olan işdir». Xalqın cansağlığı ölkənin sərvətidir. Heydər Əliyev Azərbaycan gənclərinin sağlamlığını «dövlət əmlakı» adlandırır və ona görə Azərbaycan dövləti insanların sağlamlığının keşiyində dayanır, adamların cansağlığının möhkəmləndirilməsini birinci dərəcəli vacib məsələ sayır.

«Biz bu gün müstəqil dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Bizdən sonra gələn nəsillər fiziki cəhətdən daha da möhkəm, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. Hesab edirəm ki, bu sahədə çox işlər görməliyik, bir çox tədbirləri həyata keçirməliyik.



Biz bunu ümumxalq hərəkatına çevirməliyik. Ona nail olmalıyıq ki, bədən tərbiyəsi və idman Azərbaycanın hər bir gənci üçün, hər bir vətəndaşı üçün ənənəyə çevrilsin. Müstəqil Azərbaycanı gələcəkdə də yaşatmaq, onu daha da möhkəmləndirmək, dünya miqyasında böyük dövlətə çevirmək üçün gənclərimiz həm şüurlu, həm zehni, həm mənəvi cəhətdən, həm də fiziki cəhətdən hazırlaşmalıdırlar.

Biz işimizi elə qurmuşuq ki, bədən tərbiyəsi və idmanın inkişafı üçün maddi-texniki baza yaradılsın. Şübhəsiz ölkəmizdə idmanın inkişafında heç kəs öz köməkliyini əsirgəməməlidir. Müxtəlif təşkilatlar, kommersiya strukturları da öz xeyirxah münasibətlərini bildirməlidirlər. Güman edirəm ki, bildirəcəklər də, çünki bu ayrı-ayrı adamların şəxsi işi deyil, xalqımızın, Azərbaycanın ümummilli işidir.

Təəssüf ki, idman üçün, bədən tərbiyəsi üçün keçmişdə yaradılmış böyük maddi-texniki bazanın əksəriyyəti dağıdılıbdır. Bizim xalqımıza ayrı-ayrı adamlar nə qədər xəyanət ediblər. Bakıda vaxtı ilə respublika stadionu tikilib. O xalqımıza xidmət edib. Amma iki ilin içərisində bəzi rəhbər vəzifəli şəxslərin məsuliyyyətisizliyi nəticəsində bu stadion bərbad vəziyyətdədir.

Bunlar hamısı Azərbaycan xalqına, gənclərimizə məxsusdur, onların bu gününə və gələcəyinə məxsusdur. Bu gün mən sizə bir daha deyirəm: heç kəsə imkan verə bilmərik ki, xalqın sərvəti, vəsaiti, necə deyərlər, xalqın bütün çalışqanlığı ilə yaranmış və xalq üçün olan, xalqa xidmət edən obyektlər ayrı-ayrı əllərə keçsin. Mən çox sevinirəm ki, fevral ayında belə qərar qəbul etdim və çox məmnunam ki, bu qərar həyata keçirilibdir. Gənclər və İdman Nazirliyinə, Nazirlər Kabinetinə tapşırdım ki, fevral ayında gənclər forumunda verdiyim göstərişlərin hamısı axıra qədər yerinə yetirilsin. Bu əmrlər ancaq və ancaq gənclər üçün yeni imkanlar yaratmağa yönəldilibdir. Gənclər bizim bu günümüz, gələcəyimizdir.

Azərbaycan idmanı elmi əsaslar üzərində və xarici təcrübə əsasında daha da inkişaf edibdir. Respublikamızda idman təhsili təşəkkül tapıbdır. 1930-cu ildə Azərbaycanda bədən tərbiyəsi və idman üzrə ali məktəb yaranıbdır. Orta ixtisas məktəbləri təşkil edilib, bədən tərbiyəsi və idman üzrə elmi-tədqiqat işləri aparılıb, alimlərimiz meydana çıxıb, idmana dair əsərlər yazılıb. Bunların hamısı göstərir ki, bədən tərbiyəsi, idman hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi Azərbaycan xalqının vətəndaşlarının da həyat tərzinin mühüm hissəsidir. Əmin olduğumu bildirmək istəyirəm ki, gənclərimiz xalqımızın gözəl

ənənələrindən istifadə edərək öz sağlamlığını qoyuracaq, özlərini fiziki cəhətdən möhkəmləndirəcək, mətinləşdirəcəklər.

Azərbaycan bir dövlət kimi, böyük təbii sərvətlərə malik olan bir ölkə kimi böyük gələcəyini biz sizinlə birlikdə qurmalı, yaratmalıyıq. Gənclər Azərbaycanın gələcəyini öz çiyinlərində irəliyə aparmalıdırlar. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gəncləri məhz bu müqəddəs məqsədlərə sadiq qalacaqlar və öz həyat tərzləri, istedadları ilə ölkəmizin gözəl gələcəyini təmin edəcəklər».

1994-cü ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 49 medal qazanmışdır (Onlardan 12 qızıl, 15 gümüş, 22 bürüc).

Olimpiya idman növü üzrə 18 medal qazanmışdır. (Onlardan: 7 qızıl, 4 gümüş, 7 bürüc)) Qeyri-Olimpiya idman növlərindən isə 31 medal qazanmışdır (Onlardan: 5 qızıl, 11 gümüş, 15 bürüc).

**«Biz bu gün müstəqil dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Bizdən sonra gələn nəsillər fiziki cəhətdən daha da möhkəm, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. Hesab edirəm ki, bu sahədə çox işlər görməliyik, bir çox tədbirləri həyata keçirməliyik».**

1995-ci ildə beynəlxalq yarışlarda lüksək nailiyytlər əldə etmiş idmançılarlar və məşqçilərlə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: «Biz müstəqil dövlət kimi gəncik. Müstəqilliyimizi də, dünya birliyində, beynəlxalq aləmdə tutduğumuz yeri də möhkəmləndirməyə çalışırıq və Azərbaycanı dünyada hamıya tanıtmaq istəyirik. Ancaq aydındır ki, bu bir günlük, yaxud bir illik iş deyil, uzun sürən bir işdir. Yəni müstəqil Azərbaycanı müstəqil bir dövlət kimi dünyada tanıtdırmaq üçün biz hələ bundan sonra da çox işlər görməliyik. Dünyada tanınmaq beynəlxalq təşkilatlar tərəfindən müstəqil Azərbaycan dövlətinin tanınması haqqında qəbul olunan qərarlardır. Bununla yanaşı, bu həm də dünya dövlətləri ilə Azərbaycan Respublikası arasında yaranan ikitərəfli, bərabərhüquqlu əlaqələrdir».

Azərbaycan bayrağı dünyada rəsmən, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir dəfə Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələndə olur. Şübhəsiz, BMT-nin qarşısında başqa ölkələrlə yanaşı, Azərbaycanın da bayrağı daim dalğalanır. Əlbəttə, başqa ölkələrdə bizim səfirliklər Azərbaycanın bayrağını daim saxlayırlar. Lakin bayrağın qaldırılması məsələsində, qeyd etdiyim kimi, Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də ki, idmançılarımız



beynəlxalq yarışlarda çempion adı qazanarkən, Azərbaycan himni səslənir, Azərbaycan dövlət bayrağı qaldırılır.

Bilirsinizmi, tikmək, qurmaq çətindir. Amma dağıtmaq üçün elə böyük cürət lazım deyildi. Fürsət düşən kimi dərhal dağıdırlar. Mənim xatirimdədir; həmin o stadionun tikilməsinə hələ Böyük Vətən müharibəsindən əvvəl başlanmışdı. 1941-ci ildə Vətən müharibəsi başlayanda bütün tikililər, o cümlədən bizim stadionun tikintisi də dayandırıldı. Müharibə qurtarandan sonra o stadionun tikintisinə yenidən başlandı. Bunların hamısı mənim yadımdadır. 1952-ci ildə o stadionun təntənəli açılışı oldu. Mən həmin təntənəli mərasimdə iştirak edən şəxslərdən biriyəm.

Təəssüf ki, idman üçün kütləvi bədən tərbiyəsi üçün keçmişdə yaradılmış böyük maddi – texniki bazanın əksəriyyəti dağıdılıbdır. İndi təsəvvür edin, bir görün, bizim xalqımıza ayrı-ayrı adamlar, cinayətkarlar nə qədər xəyanət ediblər. Bakıda vaxtilə respublika stadionu tikilib, ondan uzun illər istifadə olunub və o, xalqımıza xidmət edib. Amma 2 il içərisində bəzi quldurların, oğruların, şərəfsiz adamların cinayətkar hərəkəti nəticəsində və Azərbaycanın rəhbər vəzifəli şəxslərinin məsuliyyətsizliyi, bəlkə də xalqa qarşı xəyanətkar mövqe tutduğuna görə bu stadion indi bərbad vəziyyətdədir. Biz orada futbol yarışları keçirə bilmirik.

Biz o gün nə qədər böyük iftixar hissi ilə sevinirdik ki, nəhayət, bizim Bakıda da belə gözəl, nəhəng, o vaxt üçün çox əzəmətli idman stadionu yaradılıb. Elə sonrakı illərdə də bu qurğulardan həmişə səmərəli istifadə olunub. Stadion 40 min yerlik olsa da, futbol yarışları zamanı oraya 60 mindən çox adam yığışırdı. Mən bunların hamısının iştirakçısıyam. O yarışlarda sonrakı dövrlərdə də olmuşam».

Bilirsiniz, iki il öncə idi, burada beynəlxalq futbol yarışı keçirilməliydi. Dedilər ki, Bakı stadionunda keçirmək olmaz, Sumqayıtda keçirmək lazımdır. Mən çox narahat oldum, nə cür ola bilər ki, Bakı kimi böyük bir şəhərdə futbol yarışı keçirmək mümkün olmasın? Müəyyən tədbirlər görüldü. Azərbaycan futbol komandası Bolqarıstan komandası ilə görüşdü. Bu 1988-ci ildən indiyə qədər Bakı stadionunda ilk futbol yarışı idi.

Siz gəncsiniz, bəlkə də bunları xatırlaya bilmirsiniz. Amma Bakı stadionunda keçirilmiş futbol yarışları bizim nəslin yadındadır. Stadion tamamilə dolu olurdu. Tamaşaçılar orada həm idman yarışına baxırdılar, həm də istirahət edirdilər. Bunlar böyük hadisələr və respublikamızda çox gözəl bir ənənə idi. Stadionun bərpa olunması bir

daha onu göstərir ki, biz yaxşı, dəyərli ənənələrimizi bərpa edə bilərik və etməliyik.

Tələb edirəm ki, bu tədbirlər axıra çatdırılsın, idmanın və bədən tərbiyəsinin maddi-texniki bazası bundan sonra daha da möhkəmləndirilsin, inkişaf etdirilsin, respublikamızda həm gənclər, həm də bütün əhali idmana və bədən tərbiyəsinə cəlb oluna bilsin.

Xatirimdədir, «Gənclik» kompleksinin əsası 60-cı illərdə qoyulmuşdur. 70-80-ci illərdə biz buraya çox vəsait qoyduq. Burada, Azərbaycanın ən gözəl guşələrindən biri olan Xəzər dənizinin sahilində – Abşeronda, Bakıda, Zuğulbada gözəl «Gənclik» kompleksi yarandı. Mən çox məmnunam ki, bir neçə illik fasilədən sonra yenidən bu kompleksdəyəm. Bura mənim üçün doğma yerdir. Bu kompleksin yaranması və inkişaf etməsi üçün mən çox zəhmət çəkmişəm, çox işlər görmüşəm.

Məhz Prezidentin göstərişi sayəsində Tofiq Bəhramov adına Respublika stadionuna dövlət büdcəsindən 600 milyon manat ayrılmış, təmir və bərpa edilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, Zuğulbadakı «Gənclik» beynəlxalq turizm mərkəzi nazirliyin sərəncamına verilmişdir. Möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə vaxtilə yaradılmış dünya standartlarına cavab verən Mingəçevir avarçəkmə bazasının yenidən idmançıların ixtiyarına verilməsi üçün lazımi işlər görülür.

1995-ci ildə Respublika birinciliyində 3500 və Respublika kubokunda 510 idmançı iştirak etmişdir. Bundan əlavə, Azərbaycandan kənarda beynəlxalq turnirlərdə ötən il 1124 idmançı təmsil olunub. Həmin ildə 52 qızıl, 45 gümüş və 37 bürünc medal qazanılmışdır.

1995-ci ildə ölkəmizdə qadın basketbolunda dirçəliş müşahidə olunur. Bakıda yaradılan «Aypara» klubu ilk dəfə olaraq, klub komandalarının Avropa turnirində çıxış etmək qərarına gəlir. Güclü Avropa komandaları ilə gücünü sınayan «Aypara» Ankarada keçirilən yarışlarda sonuncu yeri tutur.

1995-ci ildə gənc Azərbaycan boksçuları Avropa birinciliyində S.Bağırov, R.Aslanov bürünc medala, ən ağır çəkidə isə R.Süleymanov gümüş medala layiq görülmüşdür.

Həmin ildə 38 dünya çempionatı, birinciliyi və kubok yarışında 264 nəfər, 27 Avropa çempionatı, birinciliyi və kubok yarışında 214 nəfər, 61 beynəlxalq turnirdə isə 646 idmançı və məşqçilərimiz iştirak etmişdir.



Xalqımızın Ümummilli Lideri Heydər Əliyev idmançılarımızla görüşdə demişdir:

«Biz müstəqil dövlət kimi gəncik. Müstəqilliyimizi də, dünya birliyində, beynəlxalq aləmdə tutduğumuz yeri də möhkəmləndirməyə çalışmalı, Azərbaycanı dünyada hamıya tanıtmalıyıq. Xalqımızı, millətimizi, dövlətimizi tanıtmaq üçün mühüm vasitələrdən biri də idmandır, idman yarışlarında yüksək adlar əldə etməkdir.

Sevindirici haldır ki, bizim dövlət tərəfindən aparılan siyasi tədbirlərlə yanaşı, bir çox başqa sahələrdə də respublikamızı, xalqımızı dünyada tanıtmaq üçün gərəkli işlər görülür və onlar öz nəticələrini verir. Bu baxımdan idmançıların gördükləri iş yüksək qiymətə layiqdir. Sizin qazandığınız hər bir çempion adı, layiq olduğunuz hər bir qızıl, yaxud gümüş medal və ya başqa bir yüksək ad Azərbaycanı tanıdır. Siz də bu yarışlarda mütəmadi iştirak edərək və xüsusən yüksək adlar qazanaraq Azərbaycanın adını ucaldırsınız.

Ona görə də mən qeyd edirəm ki, sizin nailiyyətiniz eyni zamanda böyük siyasi xarakter daşıyır, dövlətçiliyimizin nailiyyəti kimi qiymətləndirilməlidir. Biz bunu məhz belə qiymətləndiririk. Bütün bunlara görə, respublikamızı, xalqımızı, Azərbaycanı, dünyada, beynəlxalq yarışlarda layiqincə təmsil etdiyinizə görə, yüksək adlar qazandığınıza görə Azərbaycanın şan-şöhrətini ucaltdığınıza görə mən sizi təbrik edirəm və sizə bu nailiyyətlərinizə görə təşəkkürümü bildirirəm. Çox sağ olun».

«Sizin bu nailiyyətləriniz bir də ona görə qiymətlidir ki, respublikamızın həyatında çətinliklər çoxdur, problemlər çoxdur. Problemlərdən biri də budur ki, biz idmana istədiyimiz qədər diqqət yetirə bilmirik, vəsait ala bilmirik, idmanın inkişafı üçün lazımınca şərait yarada bilmirik. Amma buna baxmayaraq, lazımi maddi imkanlar olmadığı halda siz bu adları almısınız. Bu çox qiymətlidir və onu sübut edir ki, bizim xalqımız müstəqil olanda, sərbəst olanda, özü öz taleyinin sahibi olanda yüksək nailiyyətlər əldə edə bilərlər.

Sizin bu nailiyyətləriniz bir də onu göstərir ki, Azərbaycanın idman sahəsində böyük potensialı var. Keçmiş illərdə Azərbaycan idmançıları Sovet İttifaqının komandaları tərkibində çıxış edirdilər. O vaxtlar biz çox təəssüflənirdik ki, bizim idmançılar, yəni azərbaycanlı idmançılar beynəlxalq yarışlarda lazımi qədər yüksək ad ala bilmirlər. Ümumittifaq yarışlarında da bizim idmançılar çox zaman başqa respublikaların idmançılarından geri qalırdılar. Sözün düzü, bu bizi çox narahat edirdi. Mən uzun zaman respublikaya rəhbərlik etdiyimə

görə bu problemi həmişə hiss edirdim və çox narahat olurdum ki, niyə bizim idmançılar yüksək adlar ala bilmirlər? Bə'zən belə deyirlər ki, güləşdə bizim idmançılar müəyyən bir çempion adı ala bilərlər, amma digər idman növlərində ala bilmirlər.

Düzü o illər mən bu fikirlərlə razı olmurdum və açıq da deyirdim ki, bunlar doğru fikirlər deyildir. Bizim xalqımız, millətimiz fiziki cəhətdən, genetik cəhətdən çox sağlam xalqdır, çox sağlam millətdir. Buna görə də ola bilməz ki, bizim idmançılar yüksək nailiyyətlər qazana bilməsinlər. İndi bir baxın və özünüz deyin: keçmiş illərdə nə vaxt Azərbaycan idmançılarının beynəlxalq yarışlarda bu qədər yüksək nailiyyəti olubdur? Bunlar həmin azərbaycanlılardır, həmin köklərdən gələn insanlardır. Əksinə, indi, - bayaq mən qeyd etdim, - maddi vəziyyətimiz, maliyyə vəziyyətimiz təxminən beş-altı il əvvəlki dövrə nisbətən daha çətindir, ağırdır. Amma idmançılarımızın bu qədər yüksək adlara nail olduqlarını görməmişdik. Bu müstəqilliyimizin nəticəsidir. Bu müstəqilliyimizin, dövlət müstəqilliyimizin nəticəsidir. Deməli, biz müstəqil olanda, özümüz öz taleyimizin sahibi olanda bütün imkanlardan istifadə edib yüksək nailiyyətlər qazana bilərik».

Ölkə Prezidenti Heydər Əliyevin bədən tərbiyəsi və idmanın inkişafına daim qayğı və diqqəti, əməli köməyi öz bəhrəsini verməkdədir. Son iki il ərzində dövlət başçısı respublikanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, onların problemləri ilə yaxından maraqlanmış, öz tövsiyyələrini vermişdir.

1995-ci ilin avqustunda UEFA prezidenti Lennart Yohansson və UEFA-nın baş katibi Herhard Ayqner Bakıya gəlmişlər.

Azərbaycanın üç görkəmli futbol mütəxəssisi – Ələkbər Məmmədov, Anatoli Banişevski və Kazbek Tuayev ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə «Şöhrət» ordeni ilə təltif olunmuşlar.

1995-ci ildə Mexiko şəhərində (Meksika) Azərbaycanın yığma komandası dünya çempionatının gümüş mükafatçısı olmuşdur, şəxsi kumitedə isə Füzuli Musayev kumite üzrə dünya çempionu adına layiq görülmüşdür.

1995-ci il fevralın 2-də Azərbaycan Respububliкasının Prezidenti Heydər Əliyev Atlanta şəhərində keçiriləcək XXVI Yay Olimpiya Oyunlarına hazırlıq haqqında Sərəncam vermişdir.

1995-ci ilin dekabrında Azərbaycan hakimlərindən Asim Xudiyevə, Xaqani Məmmədova və Tahir Süleymanova növbəti il üçün FİFA referisi dərəcəsi verilmişdir.



1995-96-cı illər mövsümündə Avropa kuboklarında ölkəmizi «Neftçi» (Bakı), «Kəpəz» (Gəncə) FK-ları təmsil etmişlər. Komandalarımızın rəqibləri «Austra-Memfis» (Vyana) və «Apoel» (Nikoziya) komandaları olmuşlar. Elə həmin ildəcə Azərbaycanın 14 yaşlı və 16 yaşadək futbolçuları ilk dəfə Danimarkada keçirilən «Komm Mit» turnirində iştirak etmişdir.

1995-ci il oktyabrında Azərbaycanın yığma komandası Hollandiyada mini futbol üzrə çemponatında iştirak etmişdir. Elə həmin ildə Azərbaycanın 16 yaşınadək və 18 yaşlı futbolçulardan ibarət iki yığma komandası İspaniyada «Komm Mit» turnirində iştirak etmişdir.

1995-ci ilin dekabrında AFFA ilə Türkiyə Futbol Federasiyası arasında əməkdaşlıq müqaviləsinə uyğun olaraq Azərbaycanın 10 yeniyetmə futbolçusu Türkiyənin «Trabzonspor» FK-da həftəlik təlim məşq toplanışında olublar.

1995-ci ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 58 medal qazanmışdır (Onlardan 23 qızıl, 13 gümüş, 22 bürüc).

Olimpiya idman növü üzrə 19 medal qazanmışdır. (Onlardan: 5 qızıl, 7 gümüş, 7 bürüc). Qeyri Olimpiya idman növlərindən isə 39 medal qazanmışdır (Onlardan: 18 qızıl, 6 gümüş, 15 bürüc).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin göstərişi ilə Tofiq Bayramov adına Respublika stadionunun təmiri üçün dövlət büdcəsindən 600 milyon manat ayrıldı, təmir və bərpa edilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, Zuğulbadakı «Gənclik» beynəlxalq turizm mərkəzi nazirliyin sərəncamına verilmişdi.

1996-cı il yanvarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Neftçi» idman sağlamlıq mərkəzinin 60 illiyinə və mərkəzin Olimpiya qurğusunun açılışına həsr olunmuş mərasimdə iştirak etdi. Bu gün burada "Neftçi İdman Mərkəzinin abadlaşdırılması, bərpa olunmuş, yeniləşdirilmiş, təmir edilmiş, kompleksi ilə tanış olduq. Gördüyümüz şəxsən məni çox sevindirir. Həm "Neftçi" İdman Cəmiyyəti, həm də Dövlət Neft Şirkəti, Gənclər və İdman Nazirliyi, həm Suraxanı rayonunun İcra Hakimiyyəti birlikdə çox iş görüblər, bu kompleksin müasir səviyyədə çatdırılması üçün tədbirlər həyata keçiriblər və böyük nailiyyətlər əldə ediblər. Mən bunu bəyənir, təqdir edirəm və bu işləri görənlərin hamısına təşəkkürümü bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu kompleks "Neftçi" İdman Cəmiyyətində idmanın daha da yüksəklərə qaldırılmasına, Azərbay-

can gənclər içərisindən idman ustalarının hazırlanmasına və idmanın kütləviliyiynin təmin olunmasına xidmət edəcəkdir.

Həmin mərasimdəki çıxışında ölkə başçısı Azərbaycanda idman sahəsində olan böyük potensialı hərəkətə gətirməyin, onu inkişaf etdirməyin, ona qayğı göstərməyin vacibliyini vurğulayaraq demişdir: «**Məhz buna görə də son illər biz Azərbaycan dövləti bütün çətinliklərə baxmayaraq, müstəqil Azərbaycan Respublikasında idmanın inkişafı üçün lazımi vəsait ayırmağı zəruri hesab etmişik və bundan sonra da bu tədbirləri görəcəyik.**»

Müstəqil respublikamızda gənclərin problemlərini aradan qaldırmaq məqsədi ilə möhtərəm Prezidentimizin sərəncamına əsasən 2 fevral 1996-cı ildə Respublika sarayında müstəqil Azərbaycan gənclərinin I forumu keçirilmişdir. Heydər Əliyev gənclərin problemlərinə toxunarkən idmanın və bədən tərbiyəsinin indiki vəziyyəti haqqında öz fikir və mülahizələrini söylədi və bu sahədə öz qayğısını dəfələrlə vurğuladı.

Azərbaycan Respublikası gənclərinin birinci forumunda Heydər Əliyev demişdir: «**Mən inanıram ki, mütəqil Azərbaycanda, cəmiyyətimizdə sağlam həyat tərzi get-gedə özünə üstün yer tutur. Bizim cəmiyətimizdə sağlam həyat tərzi əsas amillərdən biridir.** Sağlam **həyat tərzi təgcə gənclər üçün deyil, hər bir insan üsün vacibdir. Bu, insanın şəxsi sağlamlığıdır, onun ailəsinin sağlamlığıdır. Bu hər bir insanın ömrünün uzadılmasıdır, hər bir insanın nəslinin sağlam olmasıdır. Sağlam həyat tərzi də insanlarda gənclərdən başlayır. Əgər biz gənclərin hamısını sağlam həyat tərzinə yönəldə, onları fiziki, və əqli cəhətdən sağlam böyüdə bilsək, onda cəmiyyətimizdə də sağlam həyat tərzi hökm sürəcək və müstəqil Azərbaycanın gələcəyini təmin edən insanlar daha da sağlam, daha da güclü olacaqdır».**

«Biz müstəqil dövlət kimi gəncik. Müstəqilliyimizi də, dünya birliyində, beynəlxalq aləmdə tutduğumuz yeri də möhkəmləndirməyə çalışmalı, Azərbaycanı dünyada hamıya tanıtmalıyıq. Xalqımızı, millətimizi, dövlətimizi tanıtmaq üçün mühüm vasitələrdən biri də idmandır, idman yarışlarında yüksək adlar əldə etməkdir.

Sevindirici haldır ki, bizim dövlət tərəfindən aparılan siyasi tədbirlərlə yanaşı, bir çox başqa sahələrdə də respublikamızı, xalqımızı dünyada tanıtmaq üçün gərəkli işlər görülür və onlar öz nəticələrini verir. Bu baxımdan idmançıların gördükləri iş yüksək qiymətə layiqdir. Sizin qazandığınız hər bir çempion adı, layiq olduğunuz hər bir qızıl, yaxud gümüş medal və ya başqa bir yüksək ad Azərbaycanı



tanıdır. Siz də bu yarışlarda mütəmadi iştirak edərək və xüsusən yüksək adlar qazanaraq Azərbaycanın adını ucaldırsınız.

Ona görə də mən qeyd edirəm ki, sizin nailiyyətiniz eyni zamanda böyük siyasi xarakter daşıyır, dövlətçiliyimizin nailiyyəti kimi qiymətləndirilməlidir. Biz bunu məhz belə qiymətləndiririk. Bütün bunlara görə, respublikamızı, xalqımızı, Azərbaycanı, dünyada, beynəlxalq yarışlarda layiqincə təmsil etdiyinizə görə, yüksək adlar qazandığınıza görə Azərbaycanın şan-şöhrətini ucaltdığınıza görə mən sizi təbrik edirəm və sizə bu nailiyyətlərinizə görə təşəkkürümü bildirirəm. Çox sağ olun».

Ölkə Prezidenti Heydər Əliyevin bədən tərbiyəsi və idmanın inkişafına daim qayğı və diqqəti, əməli köməyi öz bəhrəsini verməkdədir. Son iki il ərzində dövlət başçısı respublikanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, onların problemləri ilə yaxından maraqlanmış, öz tövsiyyələrini vermişdir.

Beynəlxalq Olimpiya Komitəsinin hamiliyi altında 23 iyunda təşkil olunan Qaçış Günü tədbiri çərçivəsində Bakıda müxtəlif məsafələrə qaçış üzrə yarışlar keçirilmişdir.

1996-cı il oktyabrın 26-30-da ilk dəfə boks üzrə AİBA prezidenti Ə. Çoudrinin kuboku uğrunda beynalxalq turnir keçirilmişdir. Turnirdə 10 ölkə iştirak etdi. Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Soudrinin şərəfinə keçirilən bu turnir ildən ilə öz nüfuzunu artırmış və 2004-cü ildə isə Afina Olimpiya Oyunlarına lisenziya verən nüfuzlu turnirlərdən biri olmuşdur. Həmin turnirdə boksçularımız 4 qızıl, 5 gümüş, və 13 bürünc medal qazanmışlar. Respublikamız komanda hesabında birinci yeri tutdu. Ümumiyyətlə, 1996-cı ildə boks üzrə Azərbaycanda iki turnir keçirilmişdir. Həmin turnirlərdə Azərbaycan boksçurları 26 medal qazanmışdır (Onlardan: 5 qızıl, 7 gümüş 14 bürünc).

Həmin il oktyabrın 25-26-da Pakistanın İslamabad şəhərində keçirilən «İslam oyunları» beynəlxalq yarışlarda iştirak edən T.Kobina 400 m. məsafəyə qaçışda 59,5 san. Qət etmişdir. Nəticə ilə bürünc medala layiq görülmüşdür.

1996-cı ildə «Kəpəz» FK Moskvada MDB ölkələri çempionatların «Sodrujestvo» kuboku turnirində iştirak edib. FİFA referisi X.Məmmədov «Sodrujestvo» turnirinin oyunlarına hakimilik etmişdir.

1996-cı ilin fevralında Azərbaycanın görkəmli futbolçusu Anatoli Banişevskinin anadan olmasının 50 illik yubileyi qeyd edilmişdir.

AFFA Banişevskini hökumət mükafatı ilə təltif etməyi Azərbaycan Respublikası prezidenti cənab Heydər Əliyevdən xahiş etmişdir. Prezidentin fərmanı ilə A. Banişevski «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Azərbaycanın milli yığma komandası dünya çempionatı 98-ə hazırlıq proqramı çərçivəsində təlim məşq toplanışı üçün 2 həftəliyə Kiprdə olmuş və orada Kipr, Estoniya, Farer adaları yığma komandaları ilə yoldaşlıq görüşləri keçirmişdir.

1996-cı ilin aprelində Respublika müstəqillik qazandıqdan sonra ilk dəfə Bakıda Azərbaycan və Türkiyə milli yığma komandaları arasında beynəlxalq futbol matçı keçirilmişdir.

AFFA-nın nümayəndə heyəti UEFA-nın şərqi Avropa ölkələrinə yardım bürosunun Riqada keçirdiyi müşavirədə iştirak etmişdir. Müşavirə də Azərbaycan da daxil olmaqla Şərqi Avropa dövlətlərinə yardımın gücləndirilməsi sayəsində birgə qərarlar işlənib hazırlanmışdır.

1996-cı ilin iyulunda AFFA prezidenti Fuad Musayev Sürixdə FİFA-nın 50-ci konqresində iştirak etmişdir. 1996-cı ilin noyabrında AFFA Gənclər və İdman Nazirliyi ilə birlikdə 1983-1984-cü il təvəllüdlü futbolçuların Azərbaycan birinciliyi keçirmişdir.

1996-1997-ci illərdə UEFA-nın dərc edilmiş reytinq cədvəllərində MDB ölkələri içərisində Azərbaycan Beynəlxalq səviyyəli görüşlərin nəticələrinə görə həmişə yüksək pillələrdə olub. Bu da bir faktdır ki, həmin dövrlərdə rəsmi oyunlarda çıxış edən Azərbaycan yığma komandasının heyətində bütünlüklə milli futbolçular çıxış edirdi.

Azərbaycan Milli komandası 1998-ci il Dünya çempionatının seçmə oyunları çərçivəsində ilk qələbəsini 1996-cı il avqustun 31-də Bakıda keçirilən Azərbaycan-İsveçrə oyununda qazanıb - 1:0. Təsadüfi deyil ki, həmin matçı stadionda izləyən Azərbaycan Respublikasının prezidenti H.Əliyev oyundan sonra öz fikirlərini belə açıqlamışdır. «Mən keçmiş illərdə, 70-ci illərdə bizim komandanın futbol yarışlarında iştirakını xaytırlayıram. Deyə bilərəm ki, mən heç vaxt Azərbaycan futbol komandasının bu qədər gözəl oynamasını görməmişəm. Bu da bizim müstəqilliyimizin nəticəsidir, dövlət müstəqilliyimizin nəticəsidir.»

1996-cı ildə Azərbaycanın yeniyetmə boksçuları Avropanın 19 ölkəsinin iştirakı ilə İtaliyanın Aosta şəhərində keçirilən beynəlxalq turnirdə böyük müvəffəqiyyət qazanmışlar. Onlar 1 qızıl (Məmmədov Ağası), 1 gümüş (Məmmədov Azər) və 3 bürünc medal qazanaraq III yeri tutmuşlar. 1997-ci ildə Makedoniyanın Bitola şəhərində keçirilən yeniyetmələrin II Avropa çempionatında Azərbaycanın 4 boksçusu finala çıxmış və 4 gümüş medal qazanmışlar, 30 ölkənin içərisində IV yeri tutmuşlar. Nəhayət, 1998-ci ildə Latviyada keçirilən III Avropa çempionatında 1 qızıl (Çupalayev Murad), 1 gümüş (Acalov Fərhad) və 1 bürünc (Tağıyev Etibar) əldə edərək komanda hesabında 29 ölkə içərisində IV-V yerləri bölüşdürmüşlər.

1996-cı ildə ən ağır çəkili boksçumuz Ədalət Məmmədov XXVI Olimpiya Oyunlarında 2 döyüşdə nokautla qalib gələrək beşinci olmuşdur.

Respublikada bədən tərbiyəsi və idmanın inkişafı məlum olduğu kimi əsasən iki sahədə: birinci kütləvi bədən tərbiyəsi və idman, ikinci isə yüksək idman ustalığı üzrə aparılır.

1996-cı ildə «Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı haqqında» Prezident H.Əliyevin sərəncamı ali məktəblərdə tələbə idmanının inkişafı və bədən tərbiyəsi, idmanın təşkilində çatışmamazlığı kəskin surətdə irad tutub. Bundan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının nəzdində ali məktəblər üzrə fakultətif kurs təşkil olunur, idman klubları yaradılır və möhkəmlənir, müəllimlərin ixtisasının artması üzrə ixtisas prinsipi tədbiq edilir, idman sağlamlıq düşərgələri yaradılır – bütün bunlar tələbələrin, məzunların və müəllimlərin fiziki hazırlığının yaxşılaşmasına imkan yaradıb.

14 avqust 1996-cı ildə Milli Olimpiya Komitəsinin üzvləri ilə görüşdə Prezidentimiz Heydər Əliyev demişdir ki, **«Şəxsən mən söz vermişəm və indi də təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz».**

Azərbaycan Respublikası GİTN və yerli idarələrinin 1996-cı ildə 54 Respublika miqyaslı gənclərlə iş sahəsində, 1031 yerlərdə keçirilən gənclərlə iş üzrə, 562 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 105 beynəlxalq miqyaslı idman yarışları, 60 respublikada keçirilən beynəlxalq miqyaslı yarış, 80 respublika miqyaslı yarış, 1687 yerlərdə keçirilən kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 48 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 894 yerlərdə keçirilən idman yarışları keçirilmiş, 68 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır. O, cümlədən: 22 qızıl, 17 gümüş, 29 bürünc.

Ümumiyyətlə, idmançılarımız 1996-cı ildə ayrı-ayrı idman növləri üzrə 80-dən çox beynəlxalq turnirlərdə iştirak edib, Avropa və Dünya Kuboku yarışlarında 68 medal qazanmışdır (Onlardan 22 qızıl, 17 gümüş, 29 bürünc).

Olimpiya idman növü üzrə 21 medal qazanmışdır. (Onlardan: 6 qızıl, 5 gümüş, 10 bürüc). Qeyri-Olimpiya idman növlərindən isə 47 medal qazanmışdır (Onlardan: 16 qızıl, 12 gümüş, 19 bürüc).

Həmin dövrdə ABF-nın həyatında ən əlamətdar hadisə Azərbaycanın kişilərdən ibarət milli yığma və veteranlardan ibarət komandaların ABŞ-da keçirilən ənənəvi Bob Kouzi turnirində iştirakı idi. Ümumdünya basketbolunun böyük səhnəsinə çıxış ABF fəaliyyətində mühüm addım oldu. 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ölkədə bütün idman hərəkatına yeni təkan, idmanın növlərinə isə yeni nəfəs vermişdir.

1997-ci ildə ABF-nın nümayəndəsi ilk dəfə olaraq, Münhendə FİBA-nın konqresində iştirak edir.

1997-ci ilin yanvar ayında "Gənclik" Beynəlxalq Turizm Mərkəzində rus daması üzrə V dünya çempionatı keçirilmişdir. Azərbaycanlı Üzeyir Abdullayev bu çempionatda dünya çempionu adını qazanmışdır. Aprel aylarında Bakı şəhərində ilk dəfə olaraq sambo güləşi üzrə XXV Avropa çempionatı keçirilmiş və bu çempionat samboçularımız üçün uğurlu olmuşdur. Azərbaycan samboçuları komanda hesabında birinci olaraq ayrı-ayrı qruplarında 21 medal, o cümlədən, 13 qızıl, 4 gümüş, 4 bürünc medal qazanmışdır. Karate - do üzrə yığma komandamız İtaliyanın Milan şəhərində keçirilən dünya çempionatında uğurla çıxış edərək 73 ölkənin komandaları arasında ikinci yeri tutmuşdur.

Dünyanın qabaqcıl dövlətlərinin təcrübəsi göstərir ki, dövlət himayəsi və təminatı olmadan bədən tərbiyəsi və idmanın inkişafının tələb olunan səviyyədə həyata keçirilməsi qeyri mümkündür. Bu məsələnin respublikamızda müsbət həlli məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlət rəhbərliyinə gəldiyi dövrə təsadüf edir. Onun bu sahədə atdığı əməli addımların qanunauyğun nəticəsi kimi **"Bədən tərbiyəsi və idman" haqqında ilk dəfə olaraq 23 dekabr 1997-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş qanunu göstərmək olar.** Bu qanun xalqımızın sağlamlığının möhkəmləndirilməsi, yüksək səviyyəli idmançıların hazırlanması sahəsində dövlət orqanlarının və ictimai təşkilatların vəzifəsini və səlahətlərini müəyyən etmişdir. "Bədən tərbiyəsi və idman" haqqında Azərbaycan Respublikası qanununun brinci maddəsinə əsasən respublikada bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissələrindən biridir.



Bu qanunun 1-ci maddəsinə əsasən respublikada bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissələrindən biridir

Məlum həqiqətdir ki, 1997-ci il iyulun 31-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi nə İdman İnstitutunun iclas salonunda Azərbaycan Respublikası Milli Olimpiya komitəsinin (MOK) növbəti hesabat-seçki konfransı keçirilmişdir. Konfransda olimpiya oyunları proqramına daxil olan 24 idman növü federasiyasından 22-nin və 10 qeyri-olimpiya növü federasiyasından 9-nun prezidentləri, idman cəmiyyətləri və klublarının sədrləri və dövlət idman təşkilatlarının rəhbərləri səlahiyyətli nümayəndələr kimi iştirak edirdilər. Dəvət olunmuş 128 nümayəndədən konfransda 119-u iştirak edirdi.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Konfrans iştirakçıları Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş idmançıların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Katiblik, hesablama, mandat və təftiş komissiyaları seçildi.

Vitse-prezidentin və təftiş komissiyası sədrinin hesabatları dinlənildi. Hesabat-seçki konfransında çıxış edən MOK İcraiyyə komitəsinin üzvləri, Azərbaycan idman federasiyalarının prezidentləri, ictimaiyyətin nümayəndələri Azərbaycanda idman hərəkatına daimi qayğı və yardımına görə dövlətimizin başçısı Heydər Əliyevə dərin təşəkkürlərini və minnətdarlığını bildirdilər. Natiqlər dedilər ki, Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıtmasından sonra respublikada idman hərəkatı keyfiyyətcə yeni səviyyəyə qalxmışdır. Son dörd ildə Azərbaycan idmançıları idmanın müxtəlif növləri üzrə və Avropa çempionatlarında, digər beynəlxalq yarışlarda 160 medal qazanmışlar. Təkcə son yarım ildə idmançılarımız 20 qızıl medal əldə etmişlər.

Sonra, gündəliyə uyğun olaraq, Azərbaycan Respublikası MOK-un yeni prezidentinin seçkisi başlandı. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin namizədliyi irəli sürüldü. Konfrans iştirakçılarına bildirildi ki, MOK İcraiyyə komitəsinin üzvləri, idmanın olimpiya növləri üzrə federasiyaların prezidentləri və respublikanın idman təşkilatlarının rəhbərləri İlham Əliyevə müraciət edərək Milli Olimpiya komitəsinin prezidenti seçilməsinə razılıq verməsini ondan xahiş etmişlər. Bildirildi ki, belə razılıq alınmışdır.

Sonra tanınmış idmançılar, idman xadimləri və klubların rəhbərləri çıxış edərək dedilər ki, İlham Əliyevin ölkəmizdə və xaricdə böyük nüfuzu vardır. O, uzun müddətdir ki, Azərbaycanda idmanın

inkişafı, gənclərin sağlamlığı işinə yorulmadan və təmənnasız xidmət edir.

Səsvermənin nəticələrinə əsasən ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev yekdilliklə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti seçildi.

Konfransda Beynəlxalq Olimpiya Komitəsinin prezidenti cənab Xuan Antonio Samarança, habelə konfrans iştirakçılarının yekdil qərarı ilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənablarına müraciətlər qəbul olundu.

Hesabat-seçki konfransında BOK-un Milli Olimpiya komitələri ilə əlaqələr departamentinin rəisi cənab Pere Miro Sellares iştirak edirdi. O, BOK-un prezidenti XA.Samarançın xüsusi tapşırığı ilə Bakıya gəlmişdir.

1997-ci ildə MOK ölkənin beynəlxalq idman nüfuzunu artırmaq, mötəbər idman yarışlarını keçirməyə qadir olduğunu sübut etmək sahəsində ciddi iş görməyin vacibliyini ön plana çəkdi. Bunun üçün birinci növbədə beynəlxalq əlaqələri qüvvətləndirmək, beynəlxalq yarış və turnirlər təşkil etmək tələb olunurdu. 1996-2003-cü illərdə 60 idman növü üzrə 24563 bölmədə 351070 nəfər məşğul olurdu (o cümlədən 74259 qızlar). Bakı şəhərində müstəqilliyimiz dövründə 118 beynəlxal miqyaslı yarış keçirilmişdir.

1997-ci ildə Milan şəhərində (İtaliya) Azərbaycanın yığma komandası finalda Venesuela komandasını irəli buraxaraq, dünyanın 72 ölkəsinin digər komandaları arasında gümüş mükafata layiq görülmüşdür. Bu görüşdə hətta yaponlarm özləri medalsız qaldılar. Rüstəm Mədətov isə 10-12 yaşlı uşaqlar arasmda dünya çempionu olmuşdur.

1997-ci ilin yanvar-fevral aylarında «Neftçi» FK Moskvada Rusiya futbolunun 100 iliyinə həsr olunmuş «Sodrujestvo» kubokunda iştirak etmişdir. AFFA-nın baş katibi Moskvada Rusiya futbolunun bir əsrlik tarixi ilə əlaqədar keçirilən tədbirlərdə fəxri qonaqlar içərisində olmuşdur. 1997-ci ildə Milli yığma komanda Kiprdə təlim məşq toplanışla-rında iştirak edərkən beynəlxalq turnirdə iştirak etmiş və 2-ci yeri tutmuşdur.

1997-ci ilin aprelində AFFA-nın dəvəti ilə Estoniyanın mütəxəssis layihəçiləri «Şəfa» stadionunun yenidən qurulması üzrə təkliflərin və layihələrin hazırlanması üzrə Bakıda olublar.

FİFA bayrağı altında Aşqabadda Türkmənistan və Azərbaycan yığma komandaları arasında beynəlxalq yoldaşlıq oyunu keçirilmişdir.



1997-ci ildə Birmingendə gənclər arasında Avropa çempionatında Sahib Batırov ikinci olmuşdur.

Hazırda respublikamızın boksçuları təcrübəli məşqçilər R.Cabbarov, T.Babanlı, S.Süleymanov, Ş.Əlimzanov, Q.Novruzov, T.Məmmədov, R.Məmmədov, Mamed Eyvazov və başqalarının rəhbərliyi altında məsul çempionatlara və olimpiya oyunlarına hazırlaşırlar.

Respublikamızda beynəlxalq həvəskar boksçular federasiyası tərəfindən tanınmış görkəmli hakimlər nəsli də yetişmişdir.

Bir qrup milli dərəcəli hakimlərimiz son illər imtahan verərək beynəlxalq (EABA) dərəcəli hakim adına layiq görülmüşlər. Bunlar respublikamızın keçmiş dəri əlcək ustaları X.Muradov, Z.Quliyev, T.Babanlı, B.Eynullayev, S.Əliyev, Q.Novruzov, K.Aydınov, Z.Kərimov, A.Kərimov, N.Xələfov və R.Yusifovdur.

1997-ci ildə İngiltərənin Birmingen şəhərində keçirilən gənclərin Avropa birinciliyində 35 ölkənin 205 boksçusu mükafat uğrunda 10 gün yarışmışlar. Gərgin döyüşlərdə həmyerlimiz Sahib Bağırov öz rəqiblərinə qalib gələrək finala vəsiqə qazanmış, lakin ağır zədə nəticəsində gümüş medalla kifayətlənməli olmuşdur. Bu gənc idmançımızın kolleksiyasına artıq üçüncü Avropa medalı kimi daxil olmuşdur.

1997-ci ildə Makedoniyanın Bitola şəhərində Avropa birinciliyində yeniyetmə boksçularımız bir daha öz ustalıqlarını nümayiş etdirərək dörd gümüş medal qazanmış və Azərbaycan komandasının 30 ölkə arasında IV yerə çıxmasına nail olmuşlar. Rüfət Hüseynov, Fərhad Acalov, Cavid Tağıyev və Orxan Sofiyev gözəl texnika və taktika nümayiş etdirdiklərinə görə xüsusi mükafatla təltif edilmişlər.

Növbəti Avropa birinciliyində 200-dən artıq idmançı 29 ölkədən Latviyanın Yurmala şəhərində toplamışdır.

Respublikamızı bu möhtəşəm yarışda təmsil edən idmançılardan üçü vətənə medallarla qayıtmışlar.

Murad Çupalayev Avropa birinciliyinin qalibi, Fərhad Aslanov gümüş, Etibar Tağıyev isə bürünc mükafatçısı olmuşdur.

İran İslam Respublikasında Beynəlxalq turnirdə qadın idmançılarımızdan Mehtiyeva Nərgiz və Axundova Sevinc fərqlənmişlər.

1997-ci ildə keçirilən İslam Ölkələri Qadınlarının İdman Oyunlarında Nərgiz Mehdiyeva həm tək, həm də qoşa yarışda (Sevinc Axundova ilə birlikdə) 3-cü yeri qazanıb. Bu oyunlarda komandamız da 3-cü yeri tutub. 1999-cu ildə İsfahanda keçirilən beynəlxalq turnirdə Sevinc Axundova və Alla Vlasyuk qoşa yarışlarda 3-cü nəticə göstəriblər.

1997-ci il 18-22 aprel tarixində Avstraliyanın Krats şəhərində paurlifinq üzrə keçirilən Avropa çempionatında 110 kq çəkidə çıxış edən Rüfət Ağayev üçnövçülükdə 720 kq. nəticə ilə III yerə çıxmışdır. 1997-ci il 6-10 avqust tarixində Yaponiyanın Tokio şəhərində keçirilən karate-do üzrə dünya çempionatında Musayev Xəyal bürünc medala layiq görülmüşdür. Ümumiyyətlə, "Spartak" KİC-nin yetirmələri bu illər yüksək naliyyətlər əldə etmişlər. Onlardan, Xəyal Musayev, Zahid Nəzərov, Maqsud Allahverdiyev, Sahib Rzayev, Azər Əliyev, Serqey Boçkov, Namiq Dadaşov, Sahib Rzayev, Könül Rzayeva, Elşan Hüseynzadə və b. Avropa çempionları və beynəlxalq yarışların qalibləri və mükafatçıları olmuşlar

Tokio şəhərində (Yaponiya) elə həmin şotokan karatenin digər versiyası üzrə keçirilən dünya çempionatında Azərbaycanın yığma komandası birinci yeri tutmuşdur.

1997-ci ildə seçilmiş yeni tərkib ilk növbədə respublikanın dövlət idman strukturları ilə əlaqələri qurdu, milli idman federasiyalarının vəziyyəti, fəaliyyəti öyrənildi. Federasiyaların fəaliyyəti canlandırıldı. MOK İcraiyyə Komitəsinin 1997-ci ildə keçirilmiş növbəti iclasında Sidney Oyunlarına hazırlıq konsepsiyası təsdiq olundu, Qış Olimpiya Oyunlarında iştirakla bağlı vəziyyət müzakirə edildi, komitənin komissiyaları yaradıldı, Milli Olimpiya Akademiyasının yaradılması haqqında qərar qəbul olundu. Beynəlxalq və qitə olimpiya komitələri, habelə Milli Olimpiya Komitələri Assosiasiyası ilə əlaqələrin qurulması və əməkdaşlığın gücləndirilməsi istiqamətində əməli addımlar atıldı.

1997-ci ilin iyun ayında idmana göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidenti Heydər Əliyev Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) İslandiyanın paytaxtı Reykyavik şəhərində keçirilən sessiyasında Olimpiya Hərəkatında (OH) böyük xidmətləri olan görkəmli şəxsiyyətlər üçün təsis edilmiş «Olimpiya ləyaqəti» mükafatına layiq görülmüşdür.

Azərbaycan Respublikası GİTN və yerli idarələrinin 1997-ci ildə 76 Respublika miqyaslı gənclərlə iş sahəsində, 1232 yerlərdə keçirilən gənclərlə iş üzrə, 648 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 126 beynəlxalq miqyaslı idman üarışları, 12 respublikada keçirilən beynəlxalq miqyaslı yarış, 91 respublika miqyaslı yarış, 1714 yerlərdə keçirilən kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 58 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 916 yerlərdə keçirilən idman yarışları keçirilmiş, 116 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır. O, cümlədən: 54 qızıl, 45 gümüş, 37 bürünc.

1998-ci il yanvarın 2-də Prezident Heydər Əliyev öz iqamətgahında Türkiyənin Ədirnə şəhərinin bələdiyyə başçısı Hamdi Sədəfçini və Ədirnənin tarixi Kırkpınar ağası Hüseyn Şahini Avropa Həvəskar Boks Assosiasiyasının (EABA) prezidenti akademik Emil Jeçev başda olmaqla Assosiasiyanın nümayəndə heyətini qəbul etmişdir. 1998-ci il noyabrın 13-14-də AOK Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş 27-ci Baş məclisində Azərbaycan MOK-un vitse prezidenti Ç. Hüseynzadə, baş katib A. Abiyev müvafiq olaraq AOK-un Olimpiya Oyunlarına hazırlıq və texniki əməkdaşlıq komissiyalarına üzv seçilmişlər.

1998-ci il dekabrın 5-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Milli Olimpiya Akademiyasının təşəbbüsü ilə təşkil olunmuş "Olimpizmin tarixi və fəlsəfəsi" probleminə həsr edilmiş I ümumrespublika elmi-metodiki konfransı keçirilmişdir. Konfransda müxtəlif ali təhsil ocaqlarının və idman təşkilatlarının, o cümlədən Rusiya və Gürcüstanın nümayəndələri, alim və mütəxəssislər üç bölmədə: "Olimpiya idmanına dövlət qayğısı; Olimpiya hərəkatının dövlət və qeyri-dövlət təşkilatları ilə əlaqəsi. Milli Olimpiya Komitəsinin Beynəlxalq Olimpiya hərəkatında yeri"; "Azərbaycan idmançılarının Olimpiya Oyunlarında uğurları; əlil idmançılar Olimpiya Hərəkatında; paralimpiya Oyunları" və "Azərbaycan idmançılarının Olimpiya Oyunlarındakı uğurlarının siyasi, ictimai, mənəvi və tərbiyəvi əhəmiyyəti. Olimpiya idmanının inkişafında kütləvi informasiya vasitələrinin rolu" adlı elmi məruzələr etmişlər.

Ümumiyyətlə, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Milli Olimpiya Akademiyasının təşəbbüsü ilə hər il beynəlxalq konfrans və seminarlar keçirilirdi.

Kadr hazırlığı bütün ali təhsil müəssisələrində həyata keçirilən fəaliyyətin zəruri tərkib hissəsidir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında bədən tərbiyəsi müəllimləri hazırlamaq sahəsində islahatlarla məhdudlaşır.

Azərbaycan Respublikasının Prezideneti Heydər Əliyev vaxtilə təməlini qoyduğu işlər nəticəsində ötən son 10 il ərzində Azərbaycanda 6 kişi və 3 qadın FİDE ustası, 4 beynəlxalq dərəcəli hakim hazırlanmışdır. Lakin 90 -cı illərin əvvəllərində şahmat tənəzzülə uğramış, bir çox şahmat məktəbləri bağlanmış, qismən dövlət və qeyri-dövlət qu-

rumları tərəfindən zəbt olunmuş, bir sıra məktəblərin binaları isə baxımsızlıq üzündən bərbad hala düşmüşdür.

İndi şahmat ölkəmizdə ikinci dərəcəli dövrünü yaşayır. Bu da ilk növbədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi qayğısı nəticəsində mümkün olmuşdür. 1998-ci ilin yanvar ayının ilk günlərində "Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında" 22 fevral 1998-ci il tarixli sərəncamı bu iki gənc şahmatçı üçün hazırlanmış xüsusi proqramın – müasir kompyuter və kompyuter proqramı, şahmat ədəbiyyatı və məcmuələr almaq, dünya şöhrətli mütəxəssislərin açıq təcrübəsində iştirak etmək, beynəlxalq turnirlərə, Avropa və Dünya çempionatlarına yüksək səviyyədə hazırlaşmaq üçün xarici dövlətlərdə təlim-məşq toplanışları keçirmək və s. tam şəkildə həyata keçirmələrini təmin etmək məqsədilə 120 milyon manat vəsait ayrılması Azərbaycanda şahmatın inkişafına güclü təkan oldu. Gənc şahmatçılar ölkə Prezidentinin etimadını doğruldaraq beynəlxalq miqyasda daha böyük uğurlar qazandılar. Teymur Rəcəbov dalbadal olaraq 5 dəfə Avropa çempionu olmuş, Dünya çempionatında da qalib gəlmiş, 1998-ci ildə beynəlxalq usta normasını yerinə yetirmiş, Vüqar Həşimov isə Avropa çempionatında gümüş medal qazanmış və o da beynəlxalq usta adını qazanmışdır. Onlar şahmat tarixində beynəlxalq usta adını qazanmış ən gənc şahmatçı olmuşlar.

01 may 1998-ci il tarixdən "Lokomotiv" BTİK-nin bazasında "Lokomotiv" idman-sağlamlıq mərkəzi yaradıldı. Həmin mərkəz 20-yə yaxın bədən tərbiyəsi və idman kollektivinə rəhbərlək edir. Mərkəzdə idmanın 12 növü üzrə bölmələr fəaliyyət göstərir. Bunlar aşağıdakılardır:

-Voleybol, futbol, basketbol, cüdo, sərbəst, yunan - Roma güləşi, boks, stolüstü tennis, oxatma, şahmat, karate, pauerliftinq. Həmin bölmələrdə 1400-dən artıq idmançı məşğul olur. İdmançılar 200-dən artıq respublika və beynəlxalq yarışlarda iştirak etmişlər. Bu müddət ərzində 38 idman ustası, bir idmançı şahmat üzrə beynəlxalq dərəcəli idman ustası, 80 idman ustalığına namizəd hazırlanmışdır. Mərkəzin idmançıları 45 idman növü üzrə Respublikanın müxtəlif yığma komandalarına daxil ediliblər. Aşağıda adları göstərilən idmançılar daha yüksək nailiyyətlər qazanmışlar: Şirinova Gülşən, Fatyanov Aleksey, Abbasov Farid, Quliyev Bəxtiyar, Ağayev Rüfət, Fətullayev Rasim, Məhərrəmov Emin, Ağayeva İlahə və b.



«Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 dekabr tarixli sərəncamı şahmata göstərilən yüksək diqqətin təzahürü olmuş və şahmatçılarımızın beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaratmışdır.

Azərbaycan Dama Federasiyası 1998-ci ildə Estoniyanın paytaxtı Tallin şəhərində keçirilən Avropa Dama Federasiyasının (EDS) təsis konfransında bu Federasiyaya üzv olmuş və onun keçirdiyi bütün Avropa yarışlarında iştirak etmişdir.

UEFA kubokunun Finlandiya-Farer adaları komandalarının görüşünü FİFA referisi A.Xudiyevin rəhbərlik etdiyi hakimlər briqadası idarə edib. Avqust ayında Gəncədə Azərbaycan və Gürcüstanın (A) və gənclərdən ibarət komandaları qarşılaşıb.

1998-1999-cu Avropa çempionatının seçmə oyunları. Azərbaycanın yeniyetmələrindən ibarət yığma komandası (U-18) Uelsdə 3-cü qrupda Moldova, Şimali İrlandiya və Uels yığmaları ilə qarşılaşıb. 1998-ci ilin sentyabrında AFFA-nın nümayəndə heyəti F. Musayev başda olmaqla Türkiyə futbolunun 75 illiyi ilə əlaqədar İstanbul və İzmir şəhərlərində keçirilən tədbirlərdə fəxri qonaq kimi iştirak ediblər.

Oktyabr ayının 22-dən 26-dək ölkəmizin yeniyetmələrindən ibarət (U-16) komandası Vyanada (Avstriya) Gürcüstan, Avstriya, Yunanıstan yığmaları ilə bir qrupda mübarizə aparıblar. 1998-ci ilin dekabrında AFFA-nın nümayəndə heyəti Romada İtaliya futbolunun 100 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə iştirak ediblər.

1998-ci ilin sentyabr ayında Yunanıstanda keçirilən I Avropa Kuboku yarışlarında Respublikamızın iki idmançısı-Rüfət Məmmədov və Əli İsmayılov fəxri kürsünün üçüncü pilləsinə qalxmış və bürünc medalla təltif olunmuşlar.

Badminton üzrə Milli komandamız 1998-ci ildə Norveçdə keçirilən dünya çempionatında yarımqrupda dördüncü yerə çıxıb. Həmin ildə Şimali Kiprdə keçirilən beynəlxalq yarışqda isə badmintonçularımız 4 ölkə arasında həm şəxsi, həm də komanda yarışlarında birinci yerləri tutublar.

1998-ci ildə Estoniyanın Tallinn şəhərində gənclər arasında «100» xanalı dama üzrə II Ümumdünya Olimpiadası keçirilmişdir. Bu mötəbər yarışda Azərbaycanı Fərhad və Fuad Hüseynov qardaşları və Ruzi Səmədov təmsil edərək ümumi komanda hesabında dünyanın ən güclü damaçılarını (Braziliya, Monqolustan, Hollandiya, İtaliya, Litva, Latviya, Estoniya, Rusiya, Ukrayna, Polşa, Belçika, İsrail, Fran-

sa) geridə qoyaraq, gümüş mükafatlara layiq görulmüşlər. Blits yarışında isə Fərhad, böyük üstünlüklə parlaq qələbə qazanmışdır. Şəxsi yarışlarda Fərhad Hüseynov kadetlər arasında (16 yaşa qədər) Olimpiadanın qalibi olmuşdur. Fuad Hüseynov isə gənclər arasında (19 yaşa qədər) II yerə layiq görülmüşdür.

MOK ölkənin beynəlxalq idman nüfuzunu artırmaq, mötəbər idman yarışlarını təşkil edib keçirməyə qadir olduğunu sübut etmək sahəsində ciddi iş görməyin vacibliyini ön plana çəkdi. Bunun üçün birinci növbədə beynəlxalq əlaqələri qüvvətləndirmək, beynəlxalq yarış və turnirlər təşkil etmək tələb olunurdu. Müstəqillik dövründə 60 idman növü üzrə 24563 bölmələrdə 351070 nəfər məşğul olur (o cümlədən 74259 qızlar) (1992-2003). Bakı şəhərində müstəqilliyimiz dövründə 118 (1996-2003) beynəlxal miqyaslı yarış keçirilmişdir. Ölkəmizin paytaxtı Bakı şəhərində 5 Avropa çempionatı (19), dünya sempionatı ( 19 ) 3 dünya kuboku (19) 32 beynəlxalq və b. yarışlar keçirilmişdir.

XII «Oimpiya Qaçış Günü»ndə Bakı və Sumqayıt şəhərlərindən 1500-ə qədər qaçış həvəskarı, o cümlədən xarici vətəndaşlar iştirak edirdilər.

10 may 1998-ci il tarixdə 75 nəfərdən ibarət qrup Qusar rayonunun ərazisində yerləşən Şahdağ massivinin adsız zirvəsinin fəth edib, bu zirvəyə dövlət başçımızın adını vermişlər. Heydər Əliyevin təsviri olan tunc barelyef Heydər zirvəsinin ən uca nöqtəsinə bərkidilmişdir. Barelyefin müəllifi Respublikanın Əməkdar heykəltaraşı Münəvvər Rzayevadır. Zirvənin hündürlüyü 3765 metrdir. Qrup Orqanlarının Baş Mühafizə idarəsinin üzvlərindən ibarətdir. Zirvəyə qalxanlar arasında bir İsveç vətəndaşı da olmuşdur. Qrupun ən gənc üzvünün 12, ən yaşlı üzvünün isə 65 yaşı var idi.

**1998-ci ildə Azərbaycanda Yeniyetmələrin birinci Ümumrespublika Oyunları keçirilmişdir. Oyunların gedişi göstərdi ki, bu tədbirin ənənə şəkilinə salınması məqsədəuyğundur. 1998-ci ildə Moskvada keçirilmiş Yeniyetmələrin Ümumdünya Oyunlarında Azərbaycan 102 idmançı ilə proqrama daxil olan 14 idman növünün 12-də təmsil olunmuşdur. Respublika İdmançıları Moskva Oyunlarında uğurla çıxış edərək cüdo və güləş növlərində medallar qazanmışlar.**

Olimpiya Hərəkatının təbliğinə və idmanın kütləviləşməsinə xidmət edən tədbirlərdən biri də hər il BOK-un himayəsi altında keçirilən Beynəlxalq Olimpiya Qaçış günüdür. Olimpiya Qaçış Günü



respublikamızda artıq ənənə halını almışdır. Hər il Respublikamızda Olimpiya Qaçış Günü keçirilir.

1998-ci il iyunun 28-də XII «Oimpiya Qaçış Günü» Bakı şəhərində dənizkənarı bulvarında keçirildi. Qaçış günü çərçivəsində qadınlar və kişilər arasında 21 km məsafəyə yarımorofon, 10 km məsafəyə qaçış, oğlanlar və qızlar arasında 4 və 2 km məsafəyə qaçış üzrə yarışlar, geniş mədəni-kütləvi tədbirlər proqramı həyata keçirilmişdir.

1998-ci ilin yanvar - may ayında Yeniyetmələrin Respublika Olimpiya oyunları keçirilmişdir.

1998-ci il iyulun 11-dən 20-dək Moskvada Ümumdünya Yeniyetmələr Oyunları keçirilmişdir. Bəşər tarixində ilk dəvə dünyanın müxtəlif ölkələrindən gəlmiş yeniyetmələr forma və məzmununa görə Olimpiya Oyunlarına oxşayan belə genişmiqyaslı idman bayramının iştirakçısı oldular.

Moskvada keçirilmiş Ümumdünya Yeniyetmələr Oyunlarının proqramı dörd hissədən ibarət idi: 1) 15 idman növü üzrə yarışlar; 2) mədəni-əyləncəli tədbirlər; 3) «Gənclik-elm-Olimpizm» beynəlxalq elmi forumu; 4) bəzi idman növləri üzrə nümunəvi yarışlar.

Moskvada Ümumdünya Yeniyetmələr Oyunlarında 15 idman növü üzrə, 131 ölkədən 5180 idmançı iştirak edirdi. Azərbaycan nümayəndə heyəti oyunlarda 107 nəfərdən ibarət olaraq, idmanın 12 növü üzrə iştirak etdi.

Azərbaycan idmançıları Ümumdünya Yeniyetmələr Oyunlarında 131 ölkə arasmda 25-ci yeri tutaraq 7 medal qazanmışdır (onlardan I qızıl, I gümüş, 5 bürünc).

Azərbaycan Milli Olimpiya Komitəsində elmi-metodiki sahədə də, böyük iş aparılırdı. Bu missiyanı həyata keçirmək məqsədilə Olimpiya Xartiyasının tələb və prinsiplərinə müvafiq olaraq 1998-ci ilin aprelində Respublika Milli Olimpiya Akademiyası yaradılmışdır.

Akademiyanın tərkibində altı komissiya fəaliyyət göstərir: təbliğat və Olimpiya təhsili; elm və metodika; mədəniyyət və incəsənət; kütləvi idman; Olimpiya veteranları və kütləvi informasiya vasitələri.

Olimpiya hərəkati, Olimpizmin tədqiqi və təbliği ilə məşğul olur. Belə ki, AOA yerli və beynəlxalq səviyyələrdə elmi konfranslar və seminarlar keçirir.

Azərbaycan Respublikası GİTN və yeri idarələrinin 1998-cı ildə 87 Respublika miqyaslı gənclərlə iş sahəsində, 1412 yerlərdə keçirilən gənclərlə iş üzrə, 803 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 133 beynəlxalq miqyaslı idman üarışları, 8 respublikada keçirilən beynəl-

xalq miqyaslı yarış, 93 respublika miqyaslı yarı, 1809 yerlərdə keçirilən kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 63 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 1034 yerlərdə keçirilən idman yarışları keçirilmiş, 168 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır. O, cümlədən: 60 qızıl, 45 gümüş, 63 bürünc.

Dünya birinciliyində 85 ölkə arasında Azərbaycan şahmatçıları qeyri-rəsmi hesabda 4-cü olmuşlar. Azərbaycan şahmatçılarının bu uğurları ölkə Prezidentinin diqqətindən kənarda qalmamış və 1999-cu ilin dekabr ayının 18-də T. Rəcəbov, V.Həşimov və R.Məmmədovu qəbul etmiş, istedadlı şahmatçıların gələcək inkişafları üçün dövlət qayğısının artırılması haqqında sərəncam imzalanmış və hər bir şahmatçıya hazırlıqları üçün 40 milyon manat vəsait ayrılmışdır. Azərbaycan şahmatçıları dünya və Avropa miqyaslı rəsmi və qeyri-rəsmi yarışlarda ölkəmizin idman şərəfini ləyaqətlə qorumuşlar. Onlardan beynəlxalq usta T.Zatulovskaya, 13 dəfə ölkə çempionu olmuş beynəlxalq usta E.Əliyeva, beynəlxalq qrossmeysterlər Aynur Sofiyeva, F.Vəlixnlı, E.Məhərrəmov, S.Quliyev, A Hüseynov, V.Həşimov, Eltac Səfərli, Şəhriyar, və Türkan Məmmədyarovlar ailəsi və b. göstərmək olar.

Ötən 10 il ərzində öz yaşıdları arasında Teymur Rəcəbov, İlahə Qədimova, Zeynəb Məmmədyarova və Pərvanə İsmayılova dünya çempionu, Qədir Hüseynov, Nicat Məmmədov və Teymur Rəcəbov Avropa çempionu olmuş, Faiq Ələsgərov, Vüqar Həşimov, Qədir Hüseynov, Rauf Məmmədov, Afaq Xudaverdiyeva dünya və Avropa çempionatlarında gümüş və bürünc medallar qazanmışlar. Komanda yarışlarında da şahmatçılarımız uğurla çıxış etmişlər. Qadınlardan ibarət komanda 1999-cu ildə 20 yaşınadək gənclər arasında dünya çempionatmda 2-ci yeri tutmuşlar. Ümumdünya Şahmat Olimpiadasında qadınlardan ibarət yığma komandamız uğurla çıxış etmiş və 18 yaşınadək qızlar arasında Dünya çempionu adını və beləliklə də beynəlxalq usta adını qazanmış Sumqayıt şahmat məktəbinin yetirməsi Zeynəb Məmmədyarova ölkəmizin şahmat tarixində ilk dəfə olaraq öz taxtasında şəxsi hesabda Olimpadanın bürünc medalını qazanmışdır.

Müstəqilliyini bərpa edənədək Azərbaycanda beynəlxalq usta adına sahib cəmi 5 şahmatçı olduğu halda, hazırda 15 beynəlxalq qrossmeyster, 18 beynəlxalq usta, 9 FİDE ustası və 6 beynəlxalq dərəcəli hakim vardır. Son 15 il ərzində şahmatçılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında Vətənimizi



layqincə təmsil edərək, yüksək nəticələrə nail olmuş, 72 medal, o cümlədən 24 qızıl medal qazanmışlar.

Əsasnaməyə uyğun olaraq Yeniyetmələrin Respublika Oyunlarının proqramına idmanın 14 növü üzrə yarışlar daxil edilmiş və oyunlar üç mərhələdə keçirilmişdir.

Oğlanlar arasında voleybol yarışlarının zona birinciliyində 41 komanda, 492 idmançı, futbol yarışlarında isə 52 komanda, 926 idmançı final yarışlarında iştirak etmək hüququ uğrunda mübarizə aparımşdır.

Bu idman növləri üzrə zona birinciliyi yarışları Respublikanın bir çox şəhərlərində, o cümlədən Naxçıvan MR, Bakı, Lənkəran, Masallı, Ağdaş, Quba, Yevlax, Qusar və Qaxda yüksək səviyədə təşkil edilmiş və gənc idmançılar üçün əsl idman bayramına çevrilmişdir. Final yarışlarının proqramı idmanın 14 növünü əhatə etmişdir. O, cümlədən, qızlar idmanın 11 növündə 42 dəst, oğlanlar isə 13 növdə 66 dəst medal uğrunda mübarizə aparmışlar. Oyunların final mərhələsində Respublikanın 57 şəhər və rayonlarından 2614 yeniyetmə idmançı (403 qız) iştirak etmişdir.

Ümumiyyətlə, Yeniyetmələrin Respublika Oyunlarının II və III mərhələlərində, yəni zona və final yarışlarında Respublikamızın 61 şəhər və rayonunundan 4032 yeniyetmə idmançı çıxış etmişdir.

Yeniyetmələrin Respublika Oyunlarında populyarlığı və kütləviliyinə görə futbol (1142 iştirakçı), voleybol (696 iştirakçı), atletika (411 iştirakçı), sərbəst güləş (396 iştirakçı), Yunan-Roma güləşi (340 iştirakçı), cüdo (250 iştirakçı) idman növləri fərqlənmişlər.

Danimarkanın Esbyorq şəhərində Avropa Yeniyetmələrinin Olimpiya Günləri tədbirində iştirak etməyə qitənin 48 dövlətindən 2500-dək nümayəndə iştirak etmişdir. Olimpiya günləri çərçivəsində 11 idman növü üzrə yarışların keçirilməsi planlaşdırılmışdı. Bu yarışlarda 48 dövlətdən 1625 yeniyetmə idmançı, o cümlədən, 855 oğan, 770 qız iştirak etdi. Mübarizə 87 medal dəsti uğrunda aparıldı. Yüngül atletika, üzgüçülük, və cüdo yarışlarında daha çox idmançı qələbə uğrunda mübarizəyə qoşuldu.

1999-cu ilin yanvarında MDB ölkələrində «Sotrujestvo» kuboku uğrunda turnirdə Azərbaycanı Gəncənin «Kəpəz» komandası təmsil edib.

Həmin ilin iyun ayında UEFA-nın həvəskarlar arasındakı keçirdiyi 1-ci regional kubok yarışlarında Azərbaycanının həvəskar fut-

bolçuları Gürcüstan, Rusiya və Türkiyə komandaları ilə Tbilisidə keçirilən yarışlarda iştirak edib.

İyul ayında FİFA-nın qadın üzrə Los-Ancelesdə (ABŞ) keçirilən 2-ci simpoziumunda AFFA nümayəndələri də təmsil olunub. AFFA prezidenti F.Musayev FİFA-nın fövqəladə konqresində iştirak edib. İyulun 12-dən 18-dək Danimarkda 15 yaşlı futbolçuların turnirində «Neftçi» FK-nun yeniyetmələrdən ibarət komandası yarışların gümüş mükafatçısı olub.

1999-cu ilin sentyabrında Cenevrədə Milli Assosasiyaların prezidentləri baş katiblərinin iştirakı ilə keçirilən 11-ci konfransda və UEFA-nın yeni mənzil qərargahının təqdim etmə mərasimində F.Musayev və Ç.İsmayılov iştirak edib.

Oktyabrda UEFA-nın yeniyetmə futbolunun inkişafı ilə əlaqədar Sankt-Peterburqda keçirilən 5-ci konfransda yeniyetmələr üzrə məşqçi İ.Kərimov iştirak edib.

1999-cu ilin axırlarında AFFA-nın təklifi, UEFA-nın maddi və mənəvi vəsaiti ilə «Şəfa» stadionunun tikintisinə başlanılıb. Qısa müddət ərzində istifadəyə verilən bu stadionda ölkəmizdə futbolun inkişafı üçün hər cürə şərait yaradılıb.

Müasir beynəlxalq standartlara cavab verən stadionda yaşıl örtüklü meydançanın kompyüterləşdirilmiş suvarma sistemi, 8000 yerlik plastik oturacaqlı üç tribunası, təkminləşdirilmiş işıqlandırma sistemi, mehmanxana kompleksi və yeməkxanası var. Bu stadion son 50 ildə ölkədə tikilib istifadəyə verilən yeganə idman kompleksidir.

1999-cu ildə Beynəlxalq dərəcəli idman ustası Əli İsmayılov Amerikadan -Dünya Çempionatından yeni bir bürünc medalla qayıtmışdır.

Ümumiyyətlə, 1999-cu il Azərbaycan boksçuları üçün çox uğurlu olmuşdur. İlk dəfə Bakıda keçirilən yeniyetmələrin Avropa birinciliyində idmançılarımız böyük ustalıq nümayiş etdirərək 4 qızıl, 1 gümüş, 4 bürünc medal və 2 fəxri komanda yeri qazanmışlar. Seymur Qurbanov, Etibar Tağıyev, Ruslan Əlimuradov, Əlibəy Dudayev qızıl, Aynudtin Abdullayev gümüş, Emil Məhərrəmov, Kazbek Məhəmmədov, Elnur Hacıyev və Amil Kərimov bürünc medallara sahib olmuş və Avropa qitəsində lider olduqlarını bir daha sübuta yetirmişlər.

Xorvatiyanın Zaqreb şəhərində hərbiçilərin II Ümumdünya Olimpiya Oyunlarında Tofiq Əhmədov bürünc medal əldə etmişdir.

Xorvatiyanın Riyeka şəhərindən isə Gəncə boks məktəbinin yetirməsi Şahlar Nağıyev gənclərin Avropa birinciliyində bürünc me-



dalını gətirmişdir. Finlandiyada keçirilən Avropa çempionatında Əli İsmayılov bürünc medal qazanmışdır.

İyirminci əsrin son Olimpiya oyunlarında iştirak etmək hüququ qazanmış Respublikamızın boksçusu M.Nurittinov, R.Xairov, A.Ələkbərov, Ə.İsmayılov, və M.Ariphacıyev 75 ölkənin 310 idmançısı ilə bərabər yarışa qoşulmuşlar.

Bu mötəbər yarışda R Xairov - V yer, gənc Vüqar Ələkbərov isə III yer tutaraq komandamıza çox vacib olan xallar qazanmışlar. Vüqar Ələkbərovun bürünc medalı Azərbaycan boks tarixində ölkəmizə gətirilən ilk olimpiya medalı idi.

Azərbaycan şahmatçılarının bu uğurları ölkə Prezidentinin diqqətindən kənarda qalmamış və 1999-cu ilin dekabr ayının 18-də T. Rəcəbov, V.Həşimov və R.Məmmədovu qəbul etmiş, istedadlı şahmatçıların gələcək nkişafları üçün dövlət qayğısının artırılması haqqında sərəncam imzalanmış və hər bir şahmatçıya hazırlıqları üçün 40 milyon manat vəsait ayrılmışdır.

Azərbaycan şahmatçıları dünya və Avropa miqyaslı rəsmi və qeyri-rəsmi yarışlarda ölkəmizin idman şərəfini ləyaqətlə qorumuşlar.

Esbyorqda bir həftə davam edən yarışlarda respublikamızdan olan 33 idmançı 7 idman növü üzrə iştirak etmişdilər (badminton, velosiped, tennis, həndbol (qızılar), üzgüçülük, yüngül atletika və cüdo). Azərbaycan idmançıları Avropa Yeniyetmələrinin Olimpiya Günləri yarışında 4 bürünc medal qazanaraq, ümumi komanda hesabında 34-cü yeri tutumuşdur.

Prezident Heydər Əliyevin «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiqi haqqında» 15 iyun 1999-cu il tarixli 168 № li sərəncamına müvafiq olaraq, respublikamızda başlanmış və uğurla həyata keçirilən islahatlar həlledici mərhələyə qədəm qoymuşdur.

İslahatın əsas mahiyyətini Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiyası, əsas prinsiplərini hümanistləşdirmə, demokratikləşdirmə, fərdiləşdirmə, diferensiallaşdırma, inteqrasiya və humanitarlaşdırma prinsipləri təşkil edir. Bunun üçün milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sisteminin formalaşdırlıması və təhsil alanın şəxsiyyət kimi yetişdirilməsi, onun təlim – tərbiyə prosesinin bərabər hüquqlu subyektinə çevrilməsi son dərəcə əhəmiyyətli və zəruridir.

Azərbaycanda bədən tərbiyəsi və idmana dövlətin qayğısı nəticəsində idmanın inkişafına təkan verən amillərdən biri maddi-texniki

baza ilə bağlıdır. Təcrübə göstərir ki, dünya ölkələrinin əksəriyyətində Milli Olimpiya Komitəsinin idman obyektləri, stadionları, kompleksləri, idman zalları, bazaları fəaliyyət göstərir. Azərbaycan Milli Olimpiya Komitəsi üçün belə maddi-texniki bazanın yaradılması zərurəti açıq-aşkar hiss olunur.

Başqa ölkələrdən fərqli olaraq Azərbaycan Milli Olimpiya Komitəsinin özünəməxsus idman kompleksləri və xüsusən inzibati binasının olmaması komitənin yeni rəhbərliyini ciddi narahat edirdi.

Bu bir tərəfdən normal iş aparmağa imkan verməmiş, digər tərəfdən beynəlxalq məclislərdə təmsil olunan Olimpiya Komitəsinin həm respublika, həm də beynəlxalq aləmdə imcinə xələl gətirmişdir.

Mövcud vəziyyəti aradan qaldırmaq üçün Olimpiya Komitəsi ilk növbədə özünün maddi-texniki bazasını möhkəmləndirməyi qərara aldı. Bakıda Komitə üçün beynəlxalq standartlara cavab verən inzibati bina, habelə Bakıda, Naxçıvanda və Gəncə şəhərində hər biri iki böyük zaldan ibarət Olimpiya İdman Kompleksləri tikmək qərara alındı. Bu məqsədlə bina və komplekslərin layihələrinin hazırlanması üçün tender müsabiqəsi elan olundu. Müsabiqədə yerli və xarici tikinti-layihə şirkətləri iştirak etdilər. Nəticədə müsabiqənin qaliblərinin təqdim etdiyi layihələr arasında elə 1999-cu ildə həmin obyektlərin tikintisinə başlandı.

Azərbaycan Respublikası GİTN və yeri idarələrinin 1999-cu ildə 94 Respublika miqyaslı gənclərlə iş sahəsində, 1491 yerlərdə keçirilən gənclərlə iş üzrə, 1012 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 146 beynəlxalq miqyaslı idman yarışları, 11 respublikada keçirilən beynəlxalq miqyaslı yarış, 98 respublika miqyaslı yarı, 1937 yerlərdə keçirilən kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 71 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 1206 yerlərdə keçirilən idman yarışları keçirilmiş, 166 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır. O, cümlədən: 70 qızıl, 45 gümüş, 51 bürünc.

Sevindirici haldır ki, gərgin iş sayəsində Bakıda hər biri 500 tamaşaçı tutan iki universial zaldan ibarət Olmpiya İdman Kompleksinin tikintisi və onun müasir inventar və avadanlıqlarla təchiz olunması Sidney Olimpiya Oyunlarının başa çatması dövrünə təsadüf etdi. 2000-ci oktyabrın 20-də Azərbaycan Olimpiya Komitəsinin yeni Olimpiya Kompleksinin təntənəli açılış mərasimi oldu. Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev, respublikamıza qonaq gəlmiş Avropa Olimpiya Komitəsinin prezidenti Jaq Roq, AOK-un baş katibi Mario Peskante və digər rəsm şəxslər iştirak etmişlər.



Beləliklə, 2 il ərzində Azərbaycanda Olimpiya Hərəkatının inzibati-idman mərkəzi yaranmışdır. Olimpiya Komitəsinin 4 mərtəbəli inzibati binası Bakının gediş-gəliş üçün ən əlverişli yerində, şəhərin idman mərkəzində, Gənclər və İdman Nazirliyi və Bədən Tərbiyəsi və İdman Akademiyasının qonşuluğunda tikilmişdir. Komitənin inzibati binasında yaradılmış hərtərəfli texniki və məişət şəraiti Komitənin bundan sonra daha səmərəli və məhsuldar işləməsinə zəmin yaradacaqdır. Hazırda Milli Oimpiya Komitəsinin tikinti-təsərrüfat işləri davam edir.

Qanunun yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2000—ci il tarixli 255 saylı sərəncamına əsasən "Bədən tərbiyəsi və idmanın inkişafının dövlət prorqramı" təsdiq edilmişdir.

Proqram 2000-2003-cü illəri əhatə edərək bu sahədə görüləcək işlərin məzmunununu və inkişaf yollarını müəyyən etmişdir. Dövlət proqramı bədən tərbiyəsi və idmanın inkişafı ilə məşğul olan, respublikada fəaliyyət göstərən bütün idman yönümlü təşkilatların, eləcə də aydiyyatı üzrə respublika nazirlikləri, komitələri, şirkətləri və Baş idarələrinin, həmçinin ictimai birlik və təşkilatların qarşısında konkret vəzifələr qoymuşdur. Ümummilli Liderimiz H.Əliyevin «Təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 3 iyun 2000-ci il tarixli 349 № - li fərmanı İslahat Proqramının gedişinə güclü təkan verdi.

Fərman ixtisasartırma təhsili və müəllimlərin təkmilləşdirilməsi işinin müasir tələblər səviyyəsində qurulmasını, bu proseslərdə yeni mexanizmlərə keçidin zəruriliyini tələb etdi.

Kadr hazırlığının tarixi və müasir aspektlərinin tədqiq olunmaması pedaqoji kadrların hazırlanması sahəsində bir sıra çətinliklər yaradırdı. Bu isə problemin əhəmiyyətini aktuallaşdırır.

Yeniyetmələrin Respublika Oyunları özündən əvvəlki Spartakiadalardan əsasən yüksək kütləviliyinə görə fərqlənmişlər. Bu, Olimpiya hərəkatının «İdman – hamı üçün» prinsipinin Azərbaycanda uğurla həyata keçirilməsinə parlaq şəkildə nümunədir.

MOK-un təşəbbüsü ilə 2000-ci il mayın 10-23-də Yeniyetmələrin II Respublika Oyunları təşkil olundu. Bu oyunlarda 14 idman növü üzrə keçirilmişdir.

Yeniyetmələrin II Respublika Oyunları 3 mərhələdə keçirilmişdir: I mərhələ – şəhər və rayondaxili yarışlar (mart 2000); II mərhələ – zona yarışları (mart-aprel 2000); III mərhələ final yarışları (may

2000). Zona yarışlarında 50 minədək idmançı öz gücünü sınamış, onlardan 5 min nəfəri finala vəsiqə qazanmışdı.

Yeniyetmələrin II Respublika oyunlarının təntənəli açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev çıxışında demişdir:

**«İki il bundan əvvəl – 1998-ci ildə Azərbaycanda Yeniyetmələrin birinci Ümumrespublika Oyunları keçirilmişdir. O vaxt başlıca məqsəd gənc idmançılarımızı ümumdünya oyunlarına hazırlamaq idi. Mən deyə bilərəm ki, biz buna nail ola bildik və gənc idmançılarımız Azərbaycanı Yeniyetmələrin Ümumdünya oyunlarında ləyaqətlə təmsil etmişlər. Ondan sonra görəndə ki, bu oyunlar Azərbaycanda idmanın inkişafına böyük təkan verir, biz qərara gəldik ki, bu oyunları ənənəyə çevirək və artıq ikinci dəfədir ki, bu oyunlar keçirilir. Bu, o deməkdir ki, bu ənənə yaşayır və bundan sonra da yaşayacaqdır.**

**«Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin, Həmkarlar İttifaqlarının təşəbbüsü ilə keçirilən və ənənə halını alan yeniyetmələrin Respublika oyunları, Azərbaycanda əlamətdar bir hadisəyə çevrilmişdir. Bu, ikinci oyunlardır. Əziz balalar, əziz gənclər, siz birinci oyunlarda da və bu gün, ikinci Oyunlarda da çox yüksək istedad, fiziki hazırlıq, böyük ruh yüksəkliyi nümayiş etdirirsiniz. Bu da bu gün Azərbaycan gənclərinin, uşaqlarının həyat tərzini, təhsilini, tərbiyəsini, fiziki hazırlığını göstərir. Bu, bizi sevindirir və əminəm ki, televiziya vasitəsilə bu Oyunları müşahidə edən hər bir Azərbaycan vətəndaşı bu gün sevinc hissi keçirir. Çünki hər bir insan üçün uşaq, gənc onun ən əzizi, ən sevimlisidir, onun üçün ən qiymətlidir.**

**Siz Azərbaycan xalqının gələcəyisiniz. Biz də istəyirik ki, xalqımızın gələcəyi bundan da gözəl, bundan da yaxşı olsun. Xalqımız bundan da firavan, xoşbəxt yaşasın, sevinc içində olsun. Bu gün sizin nümayiş etdirdiyiniz oyunlar, hər birinizin göstərdiyi məharət, çeviklik, iste'dad, bunlar hamısı bizə birlikdə ümid verir ki, Azərbaycanın gələcəyi həqiqətən parlaqdır, gözəldir. Çünki siz bunu bu gün nümayiş etdirirsiniz. Sizin kimi uşaqları, gəncləri, sizin kimi övladları olan xalq, fəxr edə bilər. Azərbaycanın Prezidenti kimi mən bütün Azərbaycan xalqı adından, bütün millətimiz adından bu gün böyük iftixar hissi keçirdiyimi bildirirəm. Çox məmnunam ki, siz həm gözəlsiniz, həm yüksək fiziki sağlamlığınız var, həm də yüksək iste'dadınız var, idmana, incəsənətə, gülməyə, çalıb-oynamağa məhəbbətiniz, sevginiz var.**

**Təbiidir ki, sizin hamınızın ən böyük məhəbbətiniz, ən böyük sevginiz məktəbədir, təhsilədir, elmə, biliyədir. Ancaq bunlar bir-biri ilə sıx bağlıdır. Siz fiziki cəhətdən nə qədər sağlam, nə qədər xoş əhval-**



**ruhiyyədə, nə qədər istedadlı olsanız, o qədər də tez bilik, təhsil alacaq, hərtərəfli inkişaf etmiş azərbaycanlı kimi böyüyəcəksiniz və Azərbaycanın xoşbəxt gələcəyini, ölkəmizin yüksəlməsini tə'min edəcəksiniz. Bu gün sizin göstərdiyiniz oyunlar, stadiondakı bu əhval-ruhiyyə, təkcə meydandakı çıxışlar deyil, tribunalarda oturan gənclərin də sizin idman nümunələrinizi də böyük həvəslə, sevinclə alqışlaması – bütün bunlar hamısı birlikdə bizim Azərbaycan gəncliyinin nə qədər gözəl, qüvvətli və nə qədər iste'dadlı olduğunu bir daha nümayiş etdirir. Mən sizi bir daha, bir daha təbrik edirəm. Sizə və sizin simanızda Azərbaycanın bütün uşaqlarına, bütün gənclərinə öz sevgimi, məhəbbətimi bildirirəm. Sizə bəyan edirəm ki, Azərbaycanın Prezidenti kimi mənim həyatım xalqımın bu gününə, gələcəyinə həsr olunubdur. Əziz uşaqlar, mənim həyatım sizin xoşbəxt gələcəyinizə həsr edilibdir. Sizi əmin edirəm ki, gördüyümüz bütün işlər Azərbaycanın dövlət müstəqilliyini, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcək, Azərbaycanın hər bir vətəndaşının rifah halının yaxşılaşmasını təmin edəcəkdir. Bunlar hamısı birlikdə sizə gələcəkdə daha da xoşbəxt, firavan həyat bəxş edəcəkdir. Siz Azərbaycan gəncliyinin Azərbaycan dövlətçiliyinə, Azərbaycanın müstəqilliyinə, gələcəyinə sədaqətli olduğunuzu bir daha nümayiş etdirdiniz.»**

**Biz idmançılarımıza öz qayğımızı heç vaxt əsirgəməmişik, onlara hər zaman kömək etməyə çalışmışıq və buna nail oluruq. Çünki biz hesab edirik ki, idman ölkəmizin siyasətinin ayrılmaz bir hissəsidir. İdmanla məşğul olan insan həm güclü olur, həm də onda ruh yüksəkliyi olur.**

**Bizim tərəfimizdən aparılan işlər Beynəlxalq Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirilir. Bu da bizi çox sevindirir. Deməli, biz düz yoldayıq».**

Hollandiyada keçirilən Avropa Olimpiya Günlərində ilk dəfə Azərbaycan idmançıları da çıxış edirdilər. Qızlar arasında 100 m məsafəyə qaçışda atletimiz Elvira Cabbarova 12,05 san nəticə göstərərək gümüş medal qazanmışdır. Beləliklə, Avropa Yeniyetmələrinin II Olimpiya Günlərində idmançılarımız 4 medal əldə etdilər (onlardan: 1 qızıl, 2 gümüş, 1 bürünc).

Ümumiyyətlə 1993-2003-cü illərdə Avropa Yeniyetmələrinin Olimpiya Günlərində 10 medal qazanılmışdır (onlardan 1 qızıl, 6 gümüş, 10 bürünc).

Azərbaycan MOK-u ölkəmizdə Olimpiya Hərəkatının və idmanın inkişafı ilə bağlı məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək, qısa müddət ərzində uğurlu göstəricilər əldə etmişdir. İdmançılarımızı Sid-

ney şəhərində keçirilən XXVII Yay Olimpiya Oyunlarına üyksək səviyyədə hazırlamaq və rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin yanvar 1998-ci il 20 yanvar tarixli sərəncamı MOK-un daha məqsədyonlü iş aparması üçün geniş imkanlar açdı.

2000-ci il noyabrın 21-də Azərbaycan prezidenti H. Əliyev AOK.-un prezidenti Jak Roqqu və baş katibi Mario Peskanteni qəbul etmişdir. Bakıda Azərbaycan MOK-un tikdiyi yeni Olimpiya kompleksinin təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, AOK-un prezidenti Jak Roqq və baş katibi Mario Reskante və icraiyyə komitəsinin üzvləri iştirak etmişlər. 2001-ci il fevralın 21-də Avropa Olimpiya Komitəsi Texniki Komissiyalarının (AOK) iclası, Azərbaycan Respublikasının MOK-un İcraiyyə Komitəsinin iclası və MOK-un Baş Məclisi keçirilmişdir.

2000-ci il yanvarın 28-dən 31-dək Leypsikdə Almaniya futbolunun 100 illiyinə həsr edilmiş tədbirlərdə AFFA-nın Baş katibi Ç.İsmayılov iştirak edib. Fevralda Azərbaycan Milli yığma komandası Maltada keçirilən beynəlxalq turnirdə iştirak edib. Apreldə AFFA-nın forumu keçirilib. Bir qədər sonra Bakıda Şərqi Avropa futbol federasiyaları rəhbərlərinin iştirakı ilə UEFA-nın 4 günlük seminarı keçirilib. Onun ardınca UEFA-nın Bakıda hakimlər və məşqçilərlə «Tərəqqi» kursu keçirilib. May ayında AFFA-nın növbədən kənar konfransı olub. İyul ayında Almaniya Futbol Federasiyasının 100 illiyi ilə əlaqədar «Leypsik-2000» beynəlxalq turnirində iştirak edən 51 ölkənin 49 komandasından biri də Azərbaycanın 16 yaşlılardan ibarət komandası olub. İyulun 12-dən 28-dək Varnada (Bolqarıstan) Azərbaycanın milli yığma komandası beynəlxalq turnirinin iştirakçısı olub.

Oktyabrın 19-23-ü San-Marinoda Azərbaycanın 16 yaşlılardan ibarət komandası Avropa çempionatının seçmə qrup yarışlarında iştirak edib. (Azərbaycan, San-Marino, Rusiya.)

2000-ci il daha bir gənc və istedadlı idmançımız Fərhad Acalov üçün uğurlu olmuşdur. O, dünya birinciliyində iştirak edərək bütün rəqiblərinə qalib gəlmiş qızıl medal və ən texnikalı boksçu kimi xüsusi kubokla təltif edilmişdir.

Bu yarışda iştirak edən ikinci həmyerlimiz Ruslan Məhəmmədov isə bürünc medala layiq görülmüşdür.

2000-ci ilin fevral ayında ölkəmizin yeniyetmə oğlanlardan və qızlardan ibarət milli yığma komandaları İran İslam Respublikasında keçirilən bynəlxalq yarışlarda iştirak etmişlər. Federasiya komandalarımızın bu turnirlərdə iştirak etməsi üçün öz imkanlarından istifadə edərək, müvafiq şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, qadınlardan ibarət milli yığma komandamız fəxri üçüncü yeri tutmuşdur.

ABF həmçinin dünyanın milli basketbol federasiyaları ilə əlaqələrin yaradılmasına böyük əhəmiyyət verir və bu istiqamətdə müəyyən işlər görür. Belə ki, qarşılıqlı əməkdaşlıq məqsədi ilə Türkiyə, Litva, Rusiya, Gürcüstan, Özbəkistan, Belorus, Ukrayna, Moldova, Bolqarıstan, Polşa, Sloveniya, Misir, Rumıniya, Macarıstan, Suriya, Yunanıstan basketbol federasiyalarına və ABŞ-ın Milli Basketbol Assosiasiyasına müvafiq müraciətlər göndərilmişdir. Türkiyə və Rusiya basketbol federasiyalarının rəhbərləri ilə görüşlər keçirilmiş və qarşılıqlı əmkdaşlıq haqqında razılıq əldə edilmişdir.

Azərbaycan Basketbol Federasiyası Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin dəstəyinə arxalanaraq, GUÖAM ölkələri basketbol komandalarının iştirakı ilə hər il FİBA-nın himayəsi altında böyük turnirin kiçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. 2000-ci ildən Bakı Baş Təhsil İdarəsinin və ABF-nın birgə qərarı ilə ümumtəhsil məktəbləri arasında basketbol üzrə şəhər birinciliyi bərpa edilmişdir.

2000-ci il aprel ayının 25-dən may ayının 2-dək basketbol üzrə kişilər arasında ölkə çempionatının birinci mərhələsinin oyunları keçirilmişdir. Qeyd etmək lazımdır ki, bu çempionatın nəticələrinə görə ölkəmizdə ilk dəfə olaraq, kişilərdən ibarət basketbol komandalarının birinci və ikinci dəstələri təşkil olunmuşdur.

ABF Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Gənclər və İdman Nazirliyinin təşkil etdiyi Yeniyetmələrin II Olimpiya Oyunlarının keçirilməsində iştirak etmişdir. Mingəçevir və Cəlilabad şəhərlərində basketbol üzrə seçmə oyunlar keçirilmişdir. Eyni zamanda, Federasiya basketbol oyunlarına xitmət edən hakimlər briqadalarının komlektləşdirilməsində təşkilatçılara yaxından kömək etmişdir.

26-28 may 2000-ci tarixdə Türkiyənin Antalya şəhərində Beynəlxalq Basketbol Federasiyasının 45-ci Baş Assambleyası keçirilmişdir. Azərbaycan Basketbol Federasiyasının baş katibi bu mühüm tədbirlərdə fəal iştirak etmiş və faydalı görüşlər keçirmişdir.

2000-ci ilin may ayının 31-də Azərbaycan Basketbol Federasiyasının hesabat-seçki konfransı keçirilmişdir. Konfrans aşkarlıq və

demokratiya ruhunda keçmiş və bütün məsələlər obyektiv müzakirə olunmuş və öz həllini tapmışdır.

İlk dəfə olaraq, 2000-ci ilin iyun ayının 1-dən 7-dək Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Ümumdünya uşaq gününə həsr edilmiş Respublika mini-basketbol yarışları keçirilmişdir.

2000-ci il iyun ayında Rusiyanın paytaxtı Moskva şəhərində Beynəlxalq Tələbə Basketbol Liqasının (BTBL) təsis konfransı keçirilmiş və bu hadisəyə həsr edilmiş tələbələr (kişilər) arasında beynəlxalq basketbol yarışları keçirilmişdir. Azərbaycanın tələbələrdən ibarət yığma komandası qeyd olunan turnirdə iştirak etmişdir. Eyni zamanda, Federasiyanın nümayəndəsi BTBL-in təsis konfransında iştirak etmiş və Azərbaycan Liqa Şurasının üzvü seçilmişdir.

Hər il ənənəvi olaraq, FİBA bayrağı altında Avropa ölkələri çərçivəsində 13-14 yaşlı yeniyetmələr arasında «BAM» adlı basketbol turniri keçirilmişdir. Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin tövsiyyəsi ilə Azərbaycan Respublikasında yeniyetmələr arasında basketbol idman növünü daha da populyarlaşdırmaq və inkişaf etdirmək məqsədi ilə ABF «BAM» hərəkatına qoşulmaq qərarına gəlmişdir. Bu məqsədlə 2000-ci ildə ölkəmizdə ilk dəfə olaraq, 13-14 yaşlı yeniyetmə basketbolçular arasında «BAM» turniri keçirilmişdir. Yarışlarda oğlanlardan ibarət 16 komanda (1986-1987-ci illər təvəllüdlü basketbolçular arasında ən yüksək göstərici) və qızlardan ibarət 6 komanda iştirak etmişdir.

«Azərbaycan BAM turniri»ndə qızlar arasmda Qaradağ Rayonunun UGIM komandası, oğlanlar arasında isə «Bakılı» İdman Klubunun yeniyetmələri qalib gələrək, Bolqarıstanda keçirilən «Avropa BAM Turniri» ndə iştirak etmək hüququ qazanmışlar.

2000-ci ilin iyun ayının 13-dən 16-dək Bolqarıstanın Veliko Turnova şəhərində qızlar arasında «Avropa BAM Turniri»nin seçmə oyunları keçirilmişdir. Bolqarıstan, Rumıniya və Albaniya komandaları ilə bir qrupda yarışan Azərbaycan komandası fəxri üçüncü yeri tutmuş, FİBA-nın kuboku və bürünc medalları ilə təltif edilmişdir.

Oğlanlar arasında «Avropa BAM Turniri» nin seçmə oyunları isə 2000-ci ilin sentyabr ayının 8-dən 10-na kimi Bolqarıstanın Botevqrad şəhərində keçirilmişdir. Bu yarışlarda komandamızın rəqibləri Türkiyə, Bolqarıstan, Bosniya və Herseqovina komandaları olmuşdur.

Azərbaycan idmançılarının Sidney Olimpiadasında uğurlu çıxışı ölkəmizdə bütün idman növlərində olduğu kimi, basketbolçularımızda



da böyük ruh yüksəkliyi yaratmışdır. Belarus Respublikasının Minsk şəhərində 2000-ci ilin sentyabr ayının 2-dən 4-nə kimi MDB ölkələri Basketbol Federasiyalarının müşavirəsi keçirilmişdir. ABF-nin nümayəndəsinin də iştirak etdiyi bu tədbirdə gündəlikdə duran əsas məsələ MDB ölkələri Basketbol Federasiyaları Assosiasiyasının yaradılması olmuşdur.

Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin, ABF-nın fəaliyyəti Beynəlxalq Basketbol Federasiyası (FİVA) tərəfindən müsbət qarşılanmış və bunun nəticəsində komandalarımız yüksək səviyyəli beynəlxalq yarışlarda iştirak etmək üçün dəvət almışlar. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə məsləhətləşmələrdən sonra qərara alınmışdır ki, Avropa çempionatında Azərbaycanın kişilərdən ibarət yığma komandası öz qüvvəsini sınasın.

Komandamızın bu mötəbər yarışlarda var qüvvəsi ilə çıxış etməsi üçün ABF Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi ilə birgə bütün mövcud imkanlardan maksimum istifadə etmişdir.

2000-ci ilin oktyabr ayının 14-dən 18-dək Rusiya Federasiyasının Rostov-Don şəhərində yeniyetmə qızlar arasında beynəlxalq basketbol turniri keçirilmişdir. Azərbaycanın milli yığma komandası bu yarışlarda iştirak etmiş və 6 komanda arasında 5-ci yeri tutmuşdur.

Eyni zamanda, 2000-ci ilin oktyabr ayının 27-dən noyabr ayının 2-dək Beynəlxalq Basketbol Federasiyasının qərarı ilə Bakı şəhərində basketbol məşqçilərinin seminarının birinci mərhələsi keçirilmişdir. Seminara Avropa Basketbol Məşqçilərinin Asossiasiyası tərəfindən ezam edilmiş beynəlxalq mütəxəssislər - cənab Laslo Killik və cənab Maurizio Mondoni rəhbərlik etmişlər. Bu seminarda 38 nəfər basketbol mütəxəssisi iştirak etmiş və onlardan 15 nəfəri növbəti mərhələyə seçilmişdir.

Kişilərdən ibarət milli yığma komandamız noyabr ayının 11-dən 18-dək İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş «İmam Əli Kuboku» uğrunda 1-ci beynəlxalq basketbol turnirində iştirak etmişdir. Komanda keçirdiyi bütün 5 oyunda qalib gəlmiş və Kubokun sahibi olmuşdur. Səfərdən qayıdarkən komandamız Rəşt şəhərinin idman cəmiyyətinin təklifi ilə yerli komanda ilə yoldaşlıq görüşü keçirmiş və qalib gəlmişdir.

2000-ci ilin kişilər və qadınlar arasında Azərbaycan çempionatının yekun mərhələsi noyabrın 27-dən dekabr ayının 2-dək yeni istifadəyə verilmiş Olimpiya Mərkəzində keçirilmişdir. Əsasnaməyə uyğun olaraq, kişilər arasında çempionatda Bakının 6 komandası, Cə-

lilabad və Şəki komandaları iştirak etmişlər. Qadınların birinciliyində 4 iştirakçının hamısı Bakını təmsil etmişdir.

Dekabrın 8-dək 16-dək Slavyan Universitetinin idman zalında kişi və qadın komandaları arasında Bakı Kuboku uğrunda yarışlar keçirilmişdir. 12 kişi və 4 qadın komandasının iştirak etdiyi bu yarış gərgin idman mübarizəsi şəraitində keçirilmişdir.

Dekabrda Azərbaycan və Türkiyə basketbol federasiyaların nümayəndələri arasında rəsmi görüş keçirilmişdir. Görüşdə Azərbaycan basketbolunun inkişafı Türkiyə BF tərəfindən metodik və plastik yardım göstərilməsi məsələləri müzakirə edilmişdir.

2000-ci ildə Respublikada bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı 355189, o cümlədən qızların sayı 82918; inkişaf etdirilən idman növlərinin sayı 67; bədən tərbiyəsi və idmanın inkişafı ilə məşğul olan təşkilatların ümumi sayı, 628, O cümlədən: a)bədən tərbiyəsi kollektivləri 455, idman cəmiyyətləri federasiyaları 122, İdman federasiyaları 51; Uşaq-gəncləri idman məktəblərinin sayı 175; İxtisaslaşdırılmış Olimpiya Ehtiyyatları UGİM-nin sayı 16; UGİM və İOEUGİM-də məşğul olanların ümumi sayı 94052, O cümlədən qızlar 15502; Məşqçi-müəllimlərin sayı 4020, Bədən tərbiyəsi və idman kadrlarının sayı isə 12335-ə çatmışdır.

Azərbaycanda idman və Olimpiya Hərəkatının inkişafında respublika prezidenti Heydər Əliyev cənablarının müstəsna xidmətləri vardır. Bu xidmətlər ölkədaxili idman quruculuq işlərini, idmançılara diqqət və qayğının, millətin sağlamlığı və fiziki tərbiyəsini özündə birləşdirməklə yanaşı, beynəlxalq idman və olimpiya əlaqələrinin də tam dairəsini əhatə edir. Bu illər ərzində Azərbaycan Prezidenti Heydər Əliyevin Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Soudri ilə görüşləri, Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emel Jeçevi və Assosiasiyasının İcraiyyə Komitəsinin bütün üzvlərini, Afrika Boks Assosiasiyasının prezidenti, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu və komitənin baş katibi Mario Peşkanteni qəbul etməsi istər Milli Olimpiya Komitəsinin, istərsə də respublikanın digər idman təşkilatlarının beynəlxalq əlaqələrinin güclənməsinə son dərəcə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikası GİTN və yeri idarələrinin 2000-ci ildə 103 Respublika miqyaslı gənclərlə iş sahəsində, 1536 yerlərdə keçirilən gənclərlə iş üzrə, 1108 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 151 beynəlxalq miqyaslı idman üarışları, 12 respublikada keçirilən beynəlxalq miqyaslı yarış, 106 respublika miqyaslı yarış, 2018 yerlərdə



keçirilən kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 83 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri, 1292 yerlərdə keçirilən idman yarışları keçirilmiş, 160 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır. O, cümlədən: 53 qızıl, 38 gümüş, 69 bürünc.

**2000-ci ildə Azərbaycan Respublikasında keçirilən tədbirlərin dinamikası**

| № | Tədbirlərin adı | Tədbirlərin sayı | İştirakçıların sayı |
|---|---|---|---|
| Respublika səviyyəli yarışlar | | | |
| 1. | Respublika çempionu və kubok yarışlar | 72 | 28635 |
| 2. | Respublika birinciliyi (gənclər) | 46 | 4930 |
| 3 | Respublika birinciliyi (yeniyetmələr) | 47 | 7010 |
| 4. | Respublika səviyyəli spartakiadalar | 3 | 4273 |
| 5. | Kütləvi idman tədbirləri | 31 | 2929 |
| Yerlərdə keçirilən tədbirlər | | | |
| 1. | Bakı şəhəri üzrə | 166 | 12645 |
| 2. | Respublikanın digər şəhər və rayonları üzrə | 2490 | 161000 |
| Beynəlxalq səviyyəli yarışlar | | | |
| 1. | Dünya çempionatı, birinciliyi və kuboku | 35 | 216 |
| 2. | Avropa çempionatı, birinciliyi və kuboku | 37 | 28 |
| 3. | Beynəlxalq turnirlər | 54 | 305 |
| 4. | Təlim-məşq toplanışı | 26 | 297 |

2001-ci il aprelin 5-də Avropa Olimpiya Komitəsinin (AOK) iclası Bakıda keçirilmişdir. İclasda Jak Roqqun Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidentinə namizəd göstərilməsi haqqında qərar qəbul edilmişdir. 2001-ci il aprelin 7-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilmişdir (DBTİA). Tədbirdə Avropa Olimpiya Komitəsinin (AOK) vitse-prezidenti Patrik Hikey və komitənin İcraiyyə Komitəsinin digər üzvləri iştirak etmişlər.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və yerli İdarələrin rəhbərliyi ilə 1996-2000-ci illərdə 414 respublika miqyaslı

gənclərlə iş sahəsində, 6702 yerlərdə keçirilən gənclərlə iş üzrə, 4133 qaçqın-köçkün gənclər və şəhid ailələri ilə, 9165 yerlərdə kütləvi bədən tərbəyəsi və idman tədbirləri, 323 respublika səviyyəli kütləvi bədən tərbiyəsi və idman tədbirləri keçirilmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və yerli İdarələrin rəhbərliyi ilə 1996-2000-ci illərdə 661 beynəlxalq miqyaslı idman yarışları, 103 respublikada keçirilən beynəlxalq miqyaslı yarışlar, 468 respublika miqyaslı idman yarışları, 5342 yerlərdə idman yarışları keçirilmiş və 698 beynəlxalq miqyaslı yarışlarda medallar qazanılmışdır (o cümlədən 259 qızıl, 190 gümüş, 249 bürünc).

2001-ci ilin yanvar ayında «Sotrujestvo» kuboku. Azərbaycanı «Şəmkir» FK təmsil edirdi. Yanvar ayında Moskvada FİFA prezidenti Blatterin keçirdiyi iclasda AFFA-nın baş direktoru O.Zeynalov da iştirak etmişdir.

12-17 fevral. Labenada (Bolqarıstan) keçirilən beynəlxalq turnirdə milli komandamız da təmsil olunub. İyunun 11-dən 15-dək İtaliyanın Koversiano şəhərində UEFA-nın keçirdiyi məşqçilər kursunda Azərbaycan nümayəndəsi də təmsil olunub. İyunun 5-dən 9-dək Buenes-Ayresdə (Argentina) FİFA-nın növbədən kənar konfransında AFFA prezidenti F.Musayev iştirak edib. İyulun 15-dən 16-dək UEFA-nın 3-cü «tərəqqi» kursları (tibb kursları) Bakıda keçirilib.

Oktyabrın 8-dən 1-dək UEFA-nın «tərəqqi» kursları (Məşqçilər üçün) Bakıda keçirilib.

Oktyabrda «Şəfa» stadionunun ikinci növbəsinin tikintisi ilə əlaqədar nümayəndə heyəti Bakıya gəlir. Noyabrın 3-dən 6-dək futzal üzrə qitə kubokunun yarışlarında Azərbaycanı «Turan Air» komandası təmsil edib.

2001-ci il aprelin 18-də Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin yaranması respublikada bədən tərbiyəsinin sosial rolunu daha da artırmaq üçün istehsal gimnastikasının, kütləvi turizmin, əhalinin yaşadığı yerlərdə bədən tərbiyəsinə marağın artmasına və idman kolletivlərində bədən tərbiyəsi və idmanın inkişafına təkan verir. Həmin ili MOK-un dəstəyi ilə Bakıda Bodibildinq üzrə Avropa çempionatı, yeniyetmələr arasında boks üzrə ilk dünya çempionatı keçirilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin idman-sağlamlıq kompleksinin açılış mərasimində Azərbaycan Prezidenti, Ali Baş Komandan Heydər Əliyev çıxışında bildirmişdir: «Tikmək, yaratmaq, qurmaq, abadlaşdırmaq həmişə cəmiyyətdə, xalqda böyük minnətdarlıq hissi doğurmuşdur. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Ona görə də burada son illər aparılan bu işlər, tikilmiş bu gözəl binalar, doğrudan da gözəl bir idman-sağlamlıq kompleksinin yaranması və sizin əsas binanın ətrafının abadlaşması, gözəlləşməsi təqdirəlayiqdir. Mən bunu yüksək qiymətləndirirəm və bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu gün müstəqil Azərbaycan dövlətinin Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının yaxşı işləməsi, yaxşı fəaliyyət göstərməsi, öz fiziki sağlamlığını daim saxlaması, hətta möhkəmləndirməsi, yaxşı istirahət etməsi üçün çox gözəl imkanlar yaranıbdır. Bu imkanlar göz qabağındadır. Bu, məni sevindirir. Çünki təhlükəsizlik orqanlarının əməkdaşları həmişə gərgin işləmişlər. Bu gün isə Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra, müstəqil dövlət olandan sonra milli təhlükəsizlik orqanlarının işçiləri daha da çox işləməlidirlər və onlardan daha da gərgin iş tələb olunur. Gərgin iş tələb olunmaqla yanaşı, onlara qayğı göstərilir, onların həm şəxsi həyatının, həm də iş şəraitinin bu gərgin işə dözməsi üçün layiqli olması təmin edilir.

Bu baxımdan, hesab edirəm ki, indi Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin böyük bir kompleksi var və bu kompleks həm yaxşı işləməyə, həm də yaxşı istirahət etməyə böyük imkanlar yaradır. Bir daha qeyd etmək istəyirəm ki, burada son illər görülən işləri mən yüksək qiymətləndirirəm. Bunların hamısı səmərəli iş üçün lazımdır. Bu işlərin belə səviyyədə aparılması münasibətilə milli təhlükəsizlik naziri Namiq Abbasovun fəaliyyətinə yüksək qiymət verirəm. Qurmaq, yaratmaq, abadlaşdırmaq ənənəsi Azərbaycanda həmişə olubdur.

Bəli, təbiidir. Ona görə də bütün bunların hamısı çox sevindirici haldır. Keçmişə nəzər salaraq demək istəyirəm ki, tarixdə Azərbaycanın təhlükəsizlik orqanları işçilərinin belə iş şəraiti, belə istirahət şəraiti heç vaxt olmayıbdır.

İndi burada idman-sağlamlıq kompleksi yaranıbdır. Bizim təşkilatda o vaxtlar da idman-sağlamlıq proqramı var idi. Moskvadan əmr vardı ki, hər bir çekist gərək mütləq daim fiziki hazırlıqla məşğul olsun. Yadımdadır, məcburi olaraq, bilmirəm həftədə iki dəfə idi, yoxsa üç dəfə idi, yəqin Yusifzadənin yadındadır, mütləq fiziki hazırlıqla məşğul olmaq üçün iş vaxtından bir saat ayrılırdı. Mənim özüm də həmin proqram çərçivəsində çalışan adamlardan olmuşam.

Ancaq o vaxt bizim nə imkanımız vardı? O vaxt bizim o binanın yanında «Dinamo» klubu vardı, onu da bizə həmişə vermirdilər. Çünki o həm bizim idi, həm da Daxili İşlər Nazirliyinin idi. Orada başqa idmançılar da olurdular. Məsələn, işimiz saat 9-da başlayırdı,

biz saat 8-də oraya gəlirdik. Kimi volleybol oynayırdı, kimi boksetbol oynayırdı, kimi ştanq qaldırırdı, sonra kim isə adicə gimnastika edirdi. Mən özüm bunların hamısından keçmişəm. Düzdür, bəziləri zorla gəlirdilər. Hətta proqramın bu hissəsini buraxanları o vaxt cəzalandırırdılar. Bu məcburi idi. Nəyə görə məcburi idi? Çünki hərbi qulluqda olan belə adamlar gərək fiziki cəhətdən sağlam olsun, möhkəm olsunlar.

O vaxt bizim belə çarhovuzumuz, belə imkanlarımız da yox idi. Yenə də deyirəm, «Dinamo»nun bir zalında hamımız yığışırdıq, kim ora düşə bilmirdisə ətrafda bulvarda qaçırdı. Yaxud da, bizim orada bədən tərbiyəsi təlimatçımız vardı, o bizi dəstə ilə düzürdü, gimnastika üzrə ayrı-ayrı idman təmrinləri yerinə yetirməyimizə rəhbərlik edirdi. Ona görə də o vaxt biz bu çətinliklər içərisində yaşamışıq, gərgin işləmişik. Amma indi isə müstəqil Azərbaycanda çox gözəl imkanlar yaranıb».

Dekabrın 29-da (2001) Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində Müasir olimpiya idman mərkəzinin təntənəli açılışı olmuşdur. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Maştağa qəsəbəsində idman kompleksinin açılış mərasimdə çıxışında bildirdi: «Əlbəttə, burada çox gözəl kompleks yaradıblar. Respublikamızda beləsi yoxdur. Olimpiya Komitəsi Bakıda birini yaratdı, amma bu, ondan üstündür. Əsas odur ki, gənclərin hamısı buradan səmərəli istifadə etsinlər. Burada hər bir idman növü üçün imkan var. Binanın daxilində də çox şey var və eyni zamanda da burada istirahət parkı yaranıbdır. İki-üç ildən sonra bu ağaclar böyüyəcəkdir. Burada həm istirahət etmək, gəzmək olar, həm də idmanla məşğul olmaq mümkündür. Hər halda, gənclərin sağlam həyat tərzi üçün çox əhəmiyyətli bir kompleksdir».

Prezident Heydər Əliyev idman mərkəzinin ərazisini, müasir tələblərə cavab verən səviyyədə basketbol, mini-futbol, tennis, yüngül atletika meydançalarını, eləcə də yeni salınmış istirahət parkını gəzdi. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Dilqəm Quliyev dövlətimizin başçısı Heydər Əliyevə və Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə «Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı» kitabını təqdim edərək dedi:

«Cənab Prezident, çox fərəhli haldır ki, Azərbaycana uzun illər sədaqətlə xidmət edirsiniz. Bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də xidmətləriniz göz qabağındadır. Mən bu barədə tədqiqat aparmışam və bu kitabı ərsəyə gətirmişəm. Bu kitab 1970-2000-ci illərdə idman sahəsindəki uğurlardan bəhs edir».

Respublikamızın rəhbəri kitabın müəllifinə və idmançılara təşəkkürünü bildirdi. Sonra prezident Heydər Əliyev idman mərkəzinin qarşısına toplaşanlara yaxınlaşdı, onlarla səmimi görüşdü.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyev Maştağa qəsəbəsində yeni, dünya standartlarına cavab verən idman kompleksin açılış mərasimdə çıxış etdi.

Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin çıxışında bildirmişdir: «Bu gün Maştağa qəsəbəsində yeni, dünya standartlarına cavab verən idman kompleksi tikilib idmançılarımızın sərəncamına verilir. Mən bu münasibətlə sizin hamınızı təbrik edirəm.

2001-ci ildə Azərbaycanın idmanı üçün çox uğurlu il olubdur. Bundan əvvəlki illər də bizim üçün uğurlu olub, amma 2001-ci il bizi xüsusilə sevindirir. Çünki, adətən, olimpiya oyunlarından sonrakı ildə idmançılar o qədər də böyük nəticələr göstərmirlər, daha çox istirahətə üstünlük verirlər. Ancaq Azərbaycanda 2001-ci ildə idmançılarımız çox yüksək nəticə-lər göstərmişlər. Bir il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında idmançılarımız çox yüksək nəticələr göstərmişlər. Bir il ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında idmançılarımız 173 medal qazanıblar, onların 54-ü qızıl medaldır. Sevindirici haldır ki, Azərbaycanda idman hərtərəfli inkişaf edir. Bütün idman növləri inkişaf edir. Bizim üçün ənənəvi olan növlərdə, eyni zamanda Azərbaycan üçün yeni olan növlərdə də idmançılarımız beynəlxalq yarışlarda ən yüksək kürsüyə sahib olurlar. Bir il ərzində stend atıcılığı, boks, güləş, ağır atletika, cüdo, karate, taekvando və başqa idman növlərində idmançılarımız Avropa, dünya çempionatlarının medallarına layiq görülmüşlər.

Bizim fəaliyyətimiz beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Beynəlxalq Olimpiya Komitəsinin keçmiş prezidenti cənab Samaranç və indiki prezident cənab Roq Bakıda olarkən, eyni zamanda müxtəlif beynəlxalq konqreslərdə son illər ərzində Azərbaycanda idman sahəsində görülən işləri çox yüksək qiymətləndirmişlər. Bizə beynəlxalq idman qurumları tərəfindən böyük hörmət göstərilir, böyük inam göstərilir, məhz bu inamın və hörmətin nəticəsində Azərbaycanda dünya səviyyəli yarışların keçirilməsi mümkün olmuşdur.

Bilirsiniz ki, Azərbaycanda yeniyetmələr arasında boks üzrə Avropa və dünya çempionatları keçirilmişdir. Avropa Olimpiya Komitəsi icraiyyə komitəsinin iclası Azərbaycanda, Bakıda keçirilmişdir. Gələn il isə böyüklər arasında sərbəst güləş üzrə Avropa çempionatı keçiriləcəkdir.

Azərbaycanda idmana olan qayğı dövlət səviyyəsindədir. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev idmançılarımıza daim diqqət və qayğı göstərir. Məhz bu qayğı və diqqətin nəticəsində bütün bu uğurları əldə etmək mümkün olmuşdur.

Bizdə gözəl idman ənənələri var. Eyni zamanda, hazırda güclü potensialımız, güclü gənc idmançılarımız var. Bayaq dediyim kimi, Azərbaycanda bütün idman növləri sürətlə inkişaf edir. Ən sevindirici odur ki, biz gələcəyə də çox nikbinliklə baxırıq. Çünki yeniyetmə idmançılarımız çox yüksək nəticələr göstərirlər.

Bizə olimpiya oyunlarının medalları lazımdır, dünya və Avropa çempionatlarının medalları lazımdır. Ancaq eyni zamanda bizə sağlam gənclər lazımdır, sağlam millət lazımdır. Buna görə də Milli Olimpiya komitəsi çalışır ki, Azərbaycanda idmanın kütləviliyini təmin etsin. Bu məqsədlə Azərbaycanın bütün bölgələrində yeni idman qurğularının tikilməsinə qərar vermişdir.

Keçən il Bakıda olimpiya idman kompleksi tikilib istifadəyə verilmişdir. Hazırda Naxçıvanda, Gəncədə, Bərdədə, Şəkidə idman komplekslərinin tikintisi gedir. Lənkəranda idman kompleksinin tikilməsi haqqında qərar verilmişdir. Nəhayət, burada, Maştağa qəsəbəsində biz yeni, çox gözəl idman kompleksinin açılışına toplaşmışıq. Deyə bilərəm ki, bu idman kompleksinin tikilməsinin təşəbbüskarı da məhz cənab Prezident olmuşdur. Bir neçə ay bundan əvvəl Maştağa qəsəbəsinin nümayəndələri cənab Prezidentə müraciət etmişdilər ki, burada yeni idman kopleksinin tikilməsinə kömək göstərsin. O da bizə tapşırıq vermişdi ki, biz bunu icra edək. Biz də bunu etmişik və bu gün burada gözəl idman bayramımızı bir yerdə keçiririk.

Cənab Prezident, mən söz verirəm ki, Milli Olimpiya Komitəsi öz işini bu istiqamətdə davam etdirəcək və azərbaycanın hər bir bölgəsində buna oxşar idman kompleksləri, qurğuları tikiləcəkdir.

Əziz dostlar, mən sizi bu idman kompleksinin açılışı münasibətilə bir daha təbrik edirəm. İdmançılara uğurlar, yeni-yeni qələbələr arzulayıram. Sağ olun».

Azərbaycan Otüstü Hokkey yığma komandası 6 dəfə Devis Kubokunun qrup yarışında iştirak edib. Hər il komanda daha yüksək nəticələr əldə edir və 2001-ci il Devis Kubokunun yarışında, baxmayaraq ki, bizim komandamız turnirdə ən gənc idi, qrupda 2-ci yeri tutmuşdur. Azərbaycanın 1 nömrəli tennisçisi Emin Ağayev Peşəkar tennisçilər Assosiasiyasının "ATP Tour" turnirində iştirak edib, qalib gəlib. ATP reytinqi qazanıb və dünya Tennisçiləri arasında 260-cı yerə layiq görülmüşdür. Emin "Australian Open" və "Rolan Garros" kimi turnirlərin 1-ci mərhələsində iştirak edib və 2001-ci il Beynəlxalq Tennis Federasiyasının "Vorld of Tennis" kataloquna daxil edilib .

2001-ci ildə 14 yaşında Teymur Rəcəbov şahmat tarixində gənc beynəlxalq qrossmeyster adını qazanan şahmatçı olmuşdur. 2001-ci ilin sentyabr ayında Buenos-Ayresdə (Arentina) dünya çempionları A.Karpov, Se Tsuin və dünyanın ilk 30 super qrossmeysteri sırasına daxil olmuşdur. Y.Polqar, V.Korçnoy, N.Şort kimi qrossmeysterlərin iştirak etdiyi XV kateqoriyalı turnirdə iştirak edərək, Teymur 2-3-cü yerləri bölüşdürmüşdür. Onun bu uğurları Beynəlxalq Şahmat Federasiyası tərəfindən yüksək qiymətləndirilmiş və ona 2001-ci ilin şahmat tacı uğrunda dünya çempionatına fərdi dəvətnamə verilmişdir. Teymur və Vüqarla yanaşı digər istedadlı gənc şahmatçılar 10 yaşınadək oğlanlar arasında Avropa çempionu və mükafatçısı, dünya birinciliyinin bürünc mükafatçısı olmuş Qədir Hüseynov, 10 yaşınadək oğlanlar arasında Moskva çempionu Rauf Məmmədov Avropa birinciliyinin bürünc mükafatçısı olmuşdur.

2001-ci il Beynəlxalq Tennis Federasiyasının "Vorld of Tennis" kataloquna daxil edilib. 19 yaşlı Nicat Ramazanov Portuqaliyada məşq edərək, bir-neçə Portuqaliya və Beynəlxalq turnirlərdə iştirak edib və "Vayokv Open " turnirinin qalibi olub.

Azərbaycanın yeniyetmə tennisçiləri artıq 5 ildir ki, beynəlxalq turnirlərdə iştirak edirlər və yaxşı nəticələr göstərirlər. Bu illir ərzində onlar hər il Avropa çempionatı, Avropa inkişaf çempionatı və Bolqarıstanda, Türkiyədə, Rusiyada, Gürcüstanda, Ukraynada, İsraildə, İngiltərədə, Almaniyada və başqa ölkələrdə beynəlxalq turnirlərdə iştirak ediblər və bu il (2001) Azərbaycan tennisində ilk dəfə olaraq 16-yaşlı tennisçilər arasında 20 nəfər Avropa reytinqini qazanıb. Onlardan Fərid Şirinovu xüsusi qeyd etmək lazımdır. 2001-ci il 16 yaşlı yeniyetmələr arasında keçirilən Avropa çempionatında o, mərhələləri keçərək 128 iştirakçı arasında 16-cı yeri tutmuşdur. Fərid öz yaşıdları arasında Avropada 58-ci yerdədir və indi 18 yaşlı Tələt Rəhimov ilə artıq öz gücünü ATP turnirində sınayırlar. 14 - yaşlı yeniyetmələr arasında da Azərbaycan tennisçiləri yaxşı nəticələr əldə ediblər. Fəx-

rəddin Şirinov 2001-ci ildə Kiprdə keçirilən "Smal State Europe Championship" turnirində 4-cü yeri tutmuşdur. Tennisçilərin az yaşlı yetirmələri də öz güclərini beynəlxalq səviyyədə sınayıblar. ETA-nın 12-yaşlı tennisçilər arasında Azərbaycanda və Moskvada keçirilən turnirlərdə iştirak ediblər. Bu il 3 tennisçi - Fərid Şirinov, Nərminə Bağırova və Ramin Hacıyev İspaniyanın müxtəlif tennis akademiyasında təlim-məşq prosesini davam etdirirlər.

Artıq iki ildir ki, Bakıda Avropa Tennis Assosiasiyasının rəsmi təqvimində olan "Az TF Cup" Beynəlxalq reytinqli turnir keçirilir. Bu turnirdə Azərbaycan tennisçiləri ilə yanaşı Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan və Belorus yeniyetmələri iştirak ediblər.

2001-ci ildə Azərbaycanda ilk dəfə olaraq ETA-nın rəsmi təqmində olan veteranlar arasında "Baku Vet Cup" turniri keçirilmişdir. Beynəlxalq Tennis Federasiyası tərəfindən əlil idmançılara böyük qayğı göstərilir və Azərbaycan tennisçisi Vladimir Moiseyev beynəlxalq səviyyədə sıxış edib və yaxşı nəticələr göstərib. O, İtaliyada keçirilən ağıreşidən tennisçilər arasmda "Dresse Maere Cup" beynəlxalq turnirinin qalibi olmuşdur. Beynəlxalq turnirlə yanaşı Azərbaycanda ildən ilə tennis turnirləri və bu turnirlərdə iştirak edən idmançıların sayı artır.

2001-ci ilin sentyabr ayında Buenos-Ayresdə (Argentina) dünya çempionları A.Karpov, Se Tsuin və dünyanın ilk 30 super qrossmeysteri sırasına daxil olan Y.Polqar, V.Korçnoy, N.Şort kimi qrossmeysterlərin iştirak etdiyi XV kateqoriyalı turnirdə iştirak edərək Teymur 2-3 yerləri bölüşdürmüşdür. Onun bu uğurları Beynəlxalq Şahmat Federasiyası tərəfindən yüksək qiymətləndirilmiş və ona 2001-ci ilin şahmat tacı uğrunda dünya çempionatına fərdi dəvətnamə verilmişdir. Teymur və Vüqarla yanaşı digər istedadlı gənc şahmatçılar 10 yaşınadək oğlanlar arasında Avropa çempionu və mükafatçısı, dünya birinciliyinin bürünc mükafatçısı olmuş Qədir Hüseynov, 10 yaşmadək oğlanlar arasında Moskva çempionu Rauf Məmmədov Avropa birinciliynin bürünc mükafatçısı olmuşdur. Dünya birinciliyində 85 ölkə arasmda Azərbaycan şahmatçıları qeyri-rəsmi hesabda 4-cü olmuşlar.

2001-ci ildə isə seçmə komandamız yenidən Beynəlxalq yarışlarda hüquq qazanaraq, Sloveniyada keçirilən «Bahar» Kubokunda iştirak etmiş 16 k omandalar arasında Avstriya 3:1 və Şotlandiya komandasma 3:2 hesabı ilə qalib gələrək 12-ci yeri tutmuşdular.

Bu il, bundan başqa komandamız Qazaxıstan Prezidentinin şərəfinə keçirilən turnirdə 6 komandanın arasında, Gürcüstan komandasına 3:0 qalib gələrək 5-ci yeri tutmuşdular. Avropanın Top Kuboku çərçivəsində keçirilən 2 oyunda, «Azəroyl» klubu Macarıstanın «Kometa» klubuna hər iki oyunda 3:0 hesabı ilə uduzmuşdular.



Bu illər ərzində Vasif Talıbov, Akif Vəliyev, Andrey Sarıyev, Eldar Əliyev kimi peşəkar oyunçular hazırlanmışdır.

Böyük voleybolla yanaşı Respublikada çimərlik voleybolunun inkişafı üçün AVF, Gənclər, idman və turizm nazirliyilə birlikdə müvafiq tədbirlər görmüşdür;

2001-ci ilin iyul ayında «Lokomotiv» İSM-nin çimərlik voleybolu üzrə açıq birinciliyi keçirilmiş, 20 kişi və 4 qadın komandaları iştirak etmişdilər.

«Lokomotiv» İSM-nin komandaları birinciliyin qalibləri olmuşdular.

2001-ci ilin avqust ayında isə Gənclər, İdman və Turizm nazirliyinin təqvim planına uyğun olaraq AVF-sı respublikanın ilk çimərlik voleybolu üzrə çempionatını keçirmişdir. Çempionatda 50 kişi və 7 qadın komandaları iştirak etmişdir.

Azərbaycan Voleybol Federasiyası voleybolun inkişafı sahəsində işlərini daha da gücləndirib, yeni nailiyyətlər qazanmaq əzmindədir.

Nəhayət ki, Avropa Voleybol Konfederasiyasının kuboku uğrunda yarım il bundan əvvəl start götürülmüş, turnir finiş xəttinə çatdı. Ötən ilin payızında Bolqarıstanın «Sikonko» komandası ilə oyunla bu turnirə qatılan bakının yenicə formalaşmış «Azərreyol» komandası bu yarışda qələbəyə doğru inamla addımlamış və bu yolda keçirdiyi görüşlərdən bərkiyib püxtələşmiş, oyundan-oyuna ustalığını artırmışdır. Komandamız Avropanın Top komandalar turnirində Almaniyanın «Bayern», İsveçrənin «Zeyler», Rusiya çempionatının liderlərindən biri «Universitet» komandaları ilə qrup yarışlarında, Ukraynanın «Dinamo»suna isə pley-offda qalib gələrək Bakıda keçirilən final mərhələsinə layiyqli vəsiqə qazandı.

Baş məşqçi Faiq Qarayev jurnalistlərlə söhbətində bildirdi ki, komandanın qarşısına elə ilk günlərdən təkcə qələbə qazanmaq deyil, gözəl qələbəyə nail olmaq vəzifəsi qoyulmuşdu. «Biz bu gün buna nail olduq. Sübut etdik ki, biz bu finala layiq komandayıq» - dedi F.Qarayev.

Beləliklə, final oyunlarından iki gün əvvəl Bakıya gətirilən Avropa Voleybol Konfederasiyasının Kuboku növbəti Top komandalar kuboku yarışlarına qədər Bakıda qalacaq. Bu qələbədə F.Qarayev başda olmaqla bütün komanda üzvlərinin - komandanın kapitanı Alla

Həsənovanın, Oksana və Yelena Porxomenko bacılarının, Yelena Şabovtanın, İrina Siminyaqinanın, Marina Kuzminanın, Alla Teterinanın, Oksana Məmmədyarovanın, İnessa Qorxmazın, Valeriya Korotenkonun, İlahə Ağayevanın, Səbinə Əjdərovanın xidmətləri təqdirə layiqdir.

Qaliblər AVK-nin qızıl medalları ilə mükafatlandırılmışlar. «Olimpiya dünyası» qəzeti də Kubok sahiblərinə öz xüsusi hədiyyələrini - iki ədəd musiqi mərkəzini təqdim etmişdir. Lakin bütün bu qələbələr onlar üçün yaranmış münbit zəmin olmasaydı, mümkün olmazdı. Bu zəmini isə Milli Olimpiya Komitəsi rəhbərliyi, şəxsən onun prezidenti İlham Əliyev, Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi yaratmışdır.

Yeri gəlmişkən final görüşündən dərhal sonra İlham Əliyevin voleybola və ümumiyyətlə, idmana olan qayğısına minnətdarlıq rəmzi olaraq, Avropa Voleybol Konfederasiyasının vitse - prezidenti Yan Xronik ona CEV-in fəxri medalını təqdim etdi.

2001-ci il dünya çempionatında 7 ağır atletimiz iştirak edirdi.

Süleymanov Elxan 62 kq çəkidə çıxış edərək 280 kq (125-155) nəticə ilə 10-cu yerə, Mirzəyev Turan 69 çəkidə 325 kq nəticə ilə (147,5+177,5) 7-ci yerə, Həsənov Natiq 85- kq çəkidə 350 kq (160+190) nəticə ilə 11-ci yerə, 56 kq çəkidə çıxış edən Mirzəyev Aqşin isə 13-cü yerə çıxmışdılar.

Paşayev Nizami 94 kq çəkidə 405 kq (182,5+222,5) nəticə ilə 2-ci yeri tutmuşdur və gümüş medala layiq görülmüşdür.

Əliyev Emil isə 105 kq çəkidə 370 kq (170+200) nəticə göstərərək 18-ci yerə, Məmmədov Aydın 105 kq çəkidən yuxarı çıxış edərək 317,5 kq (140+177,5) nəticə ilə 23-cü yerə çıxmışlar.

2002-ci ilin yanvar ayından "Spartak" cəmiyyətin Lənkaran şəhər şurasının bərpa olunması planlaşdırılır. Cəmiyyət öz ətrafına kifayət qədər təcrübəli məşqçi və idmançı toplamış, UGİM perspektivli yeniyetmələr cəlb edilmişdir. Cəmiyyət idmanın kütləviliyinə və zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsinə xüsusi xidmət yetirmiş, əmək kollektivləri və Həmkarlar İttifaqları təşkilatları ilə sıx əlaqə saxlamışdır. Bu baxımdan sağlamlıq Spartakiadalarının, toplanış və turizm yürüşlərinin əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Təkcə rabitə işçiləri arasında 1995-2000-ci illər arasında keçirilən Sağlamlıq Spartakiadasında 3500-dən çox fəhlə və qulluqçu iştirak etmişdir ki, Azərbaycan Müstəqillik qazandıqdan sonra təxminən 1000 nəfər artmış, idmanın bütün növləri üzrə yarışlar keçirilmişdir,



qaliblərə diplomlar, vımpellər və pul mükafatları verilmişdir. Bundan başqa kommunal ticarət, mədəniyyət işçiləri, həmçinin inşaatçılar arasında spartakiadalar keçirilmişdir.

Gənc əlillər arasında keçirilən yarışlar da ictimayyətdə maraq doğurmuşdur. Bakı şəhəri, respublika və Beynəlxalq yarışlarda, çempionatlarda cəmiyyətin idmançıları fəal iştirak etmişlər.

Qeyd etmək lazımdır ki, "Spartak" KBTYC Respublika Şurasının yaradıldığı vaxtdan etibarən Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın böyük xidmətlərini nəzərə alaraq ANYK-in icraiyyə komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin kollegiyasının birgə qərarına əsasən 2000-ci il 28 dekabr tarixində cəmiyyətin 65 illik yubileyi təntənəli surətdə keçirilmişdir. Yubileydə Respublika Şurasının bir sıra işçiləri, bədən tərbiyəsi fəalları və cəmiyyətin veteranları ANYK-in və GİTN-nin fəxri fərmanları ilə təltif edilmişdir.

2001-ci ilin iyun ayında İngiltərədən yeniyetmə boksçularımız beş Avropa medalı ilə qayıtmışlar.

Zaur Teymurov gümüş, Namiq Dadaşov, Faiq Həsənov, Bəhruz Babayev, Fərhad Əsədullayev isə bürünc medal qazanaraq Azərbaycan komandasının III fəxri yerə çıxmasını təmin etmişlər.

Sentyabr ayında isə Bosniyanın Sarayevo şəhərində iki idmançımız - Ruslan Əlimuradov və Əlibəy Dudayev gənclər arasında keçirilən Avropa birinciliyində bürünc medala layiq görülmüşlər. Respublikamızın boks məktəbinin yetirmələri müstəqil Azərbaycan bayrağı altında Rumıniyada, İtaliyada, Tailandda, Rusiyada, Türkiyədə, İranda, Pakistanda, Polşada, Çexiyada, Finlandiyada, ABŞ-da və s. xarici ölkələrdə keçirilən beynəlxalq turnirlərdə uğurla çıxış edərək onlarla medallar qazanmış və ölkəmizin idman nüfuzunu yüksəklərə qaldırmışlar. 13-20 oktyabr 2001-ci il Bakı şəhərində keçirilən dünya birinciliyində Elnur Qədirov gümüş medal qazanmışdır.

Lvovda (2002, avqust) start döyüşlərinə qoşulan 11 boksçumuzdan 6-ı yarımfinal mərhələsinə qədər gəlib çıxdıqdan sonra finala üç nəfər vəsiqə ala bilmişdir. 45 kq, 48 kq və 60 kq çəkilərdə döyüşən Tural Məmmədov, Elşən İsmayılov və Tural Nağıyev yarımfinal yarışlarında məğlub oldular. Bü isə birinciliyin bürünc mükafatçısı deməkdir. Elşən İsmayılov ötən il Bakıda keçirilən dünya çempionatında da üçüncü olmuşdu. Tural Nağıyev isə Bakıda daha yaxşı çıxış etmiş və gümüş medal qazanmışdı. Bu dəfə isə Tural Nağıyev bürünclə kifayətlənməli oldu.

Yarımfinal mərhələsini adlayan Elçin Əlizadə (71kq), Səbi Sailov (75 kq) final görüşündə qalib gələrək qitə çempionu adını qazandılar. Rahib Bəylərov isə birinciliyi gümüş medalı ilə başa vurdu. 5-13 may 2002-ci il dünya çempionatında (Macarıstan) Elnur Qədirov 75 kq, çəkidə qızıl medal qazanmışdır.

Hazırda respublikamızın boksçuları təcrübəli məşqçilər R.Cabbarov, T.Babanlı, S.Süleymanov, Ş.Əlimzanov, Q.Hovruzov, T.Məmmədov, R.Məmmədov, M. Eyvazov və başqalarının rəhbərliyi altında məsul çempionatlara və Olimpiya Oyunlarına hazırlaşırlar.

Respublikamızda beynəlxalq həvəskar boksçular federasiyası tərəfindən tanınmış görkəmli hakimlər nəsli də yetişmişdir.

Azərbaycanın ilk görkəmli hakimi Abbas Ağalarov olmuşdur. O, Umumittifaq dərəcəli hakim və beynəlxalq dərəcəli hakimlə İ.Odinov, İ.Haşımov, V.Yujanin, A.Kryuçkov və A.Əliyevin adları da iftixarla çəkilir. Son illərdə AİBA-nın beynəlxalq dərəcəli hakimləri A.Abiyev və B.Kipiani, H.Quliyev, T.Babanlı, B.Eynullayev, S.Əliyev, Q.Hovruzov, K.Aydınov, Z.Kərimov, A.Kərimov, H.Xələfov və R.Yusifovdur.

Görkəmli boksçularımız və hakimlərimizin beynəlxalq aləmdə məşhur olmaları respublikamızın dünyanın qabaqcıl boks dövlətləri sırasına çıxarmışdır.

Baltimorda yaşayan bakılı İsrafilbəyov qardaşlarından böyüyü Emilin peşəkar boks aləmindəki uğurları davam etdi. Emil sonuncu döyüşünü bu günlərdə yaşadığı Baltimor şəhərinin "Mayk avenyu" idman zalında Şimali Karolina ştatından olan peşəkar boksçu Şakir Aşanteyə qarşı keçirib. 8 raunddan ibarət olan bu döyüşdə Emil nokautla qalib gəlib. Elə ilk raundda Emil rəqibini nokdaun vəziyyətinə salıb. Sonra isə 4-cü raundda görüş başa çatıb. Bu, həmyerlimizin peşəkar rinqdə 22-ci qələbəsidir. Maraqlıdır ki, bu qələbələrin 16-sı nokautla qazanılıb.

Mayın 3-dən 12-dək (2002) Macarıstanda keçirilən yeniyetmələr arasında boks üzrə ikinci dünya çempionatında Azərbaycan 10 boksçu ilə təmsil olunmuşdur. Azərbaycan boksçuları komanda hesabında dördüncü olmuşlar. 75 kq. çəki dərəcəsində Elnur Qədirov birinci yer, Elçin Əlizadə (71 kq.) və Zaur Teymurov (81 kq.) üçüncü yerləri tutmuşlar.

Azərbaycan boksçuları 2002-ci ildə 38 medal (14 qızıl, 9 gümüş və 15 bürünc) qazanmışlar. Onlardan 12-i (4 qızıl, 2 gümüş, 6 bürünc) Avropa və Dünya çempionatlarında qazanılıb.



12 sentyabr 2002-ci il tarixdə Milli Olimpiya Komitəsinin Gəncə şəhərində tikdirdiyi yeni olimpiya idman kompleksinin təntənəli açılış mərasimi keçirildi və mərasimdə Azərbaycan prezidenti Heydər Əliyev də iştirak edirdi.

Olimpiya kompleksi dünyanın ən yüksək standartlarına cavab verir, iki salondan ibarətdir. Burada həm məşq etmək, təlim-məşq toplanışları keçirmək, həm də ən yüksək səviyyəli beynəlxalq yarışlar keçirmək mümkün olacaqdır.

Son üç il ərzində Azərbaycan beynəlxalq yarışlar meydanına çevrilibdir. Qısa müddət ərzində Azərbaycanda yeniyetmələr arasında boks üzrə Avropa çempionatı, sonra isə dünya çempionatı keçirilmişdir. Şahmat üzrə, bobibildinq, sərbəst güləş üzrə Avropa çempionatları Azərbaycanda keçirilmişdir.

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyev çıxışında bildirdi ki, Azərbaycanda keçirilmiş bütün beynəlxalq yarışlar ən yüksək səviyyədə təşkil olunmuşdur. Bunu təkcə biz yox, bu yarışlarda iştirak edən qonaqlar, idmançılar da deyirlər. Ümumiyyətlə, beynəlxalq idman qurumları tərəfindən Azərbaycana böyük inam, hörmət var. Bizim fəaliyyətimizə çox yüksək qiymət verilir. Bir faktı diqqətinizə çatdıra bilərəm. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti beynəlxalq konfransların birində Avropa milli olimpiya komitələri prezidentlərinin qarşısında çıxış edərək demişdir ki, Avropanın bütün olimpiya komitələri Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətindən nümunə götürməlidirlər. Hesab edirm ki, bundan yüksək qiymət ola bilməz.

Biz idmançılarımızla fəxr edirik. Hər dəfə Azərbaycanın milli bayrağı qaldırılanda, Azərbaycanın dövlət himni səslənəndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Fəxr edirik ki, onun ölkəsinin nümayəndəsi qələbə qazanıb, onun ölkəsi zəfər çalıbdır.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, idmana dövlət tərəfindən də qayğı çox yüksək səviyyədədir. Cənab Prezident şəxsən bu məsələlərlə mütəmadi olaraq maraqlanır, öz göstərişlərini verir, idmançılara məşğul olan bütün insanlara, mütəxəssislərə öz köməyini göstərir. Əgər bu qayğı, diqqət, kömək və xoş münasibət olmasaydı, biz bu uğurları qazana bilməzdik.

2002-ci il mayın 2-4-də sərbəst güləş üzrə 45-ci Avropa çempionatı Bakı şəhərində keçirilmişdir. Bakı idmankonsert kompleksinə toplaşmış dünyanın ən məşhur güləş ustaları burada pəhləvan ulduzları güclərini sınamışlar.

Avropa çempionatında üç qat olimpiya çempionu, dünya və Avropa çempionatlarının dəfələrlə qalibi Aleksandr Medved, Atlanta olimpiadasının qalibi 7 qat çempionu Valentin İordanov, veteran güləşçimiz Muxtar Dadaşovun idman mübarizəsində daimi rəqibi olmuş dünya çempionu Vaxtanq Balavadze, Levan Tediaşvili, Olimpiya çempionu Məmməd Ayıkı və başqa məşhur güləş ustaları məsul şəxs kimi iştirak edirdilər.

Beləliklə Azərbaycan idmançıları bir medal dəsti ilə çempionatı başa vurdular. Bunu güləşçilərimiz üçün uğur qəbul etməliyik.

Mayın 3-də Azərbaycan Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyev sərbəst güləş üzrə 45-ci Avropa çempionatının fəxri qonaqlarını qəbul etmişdir.

Sərbəst güləş üzrə Avropa çempionatının Bakıda keçirilməsi heç də təsadüfi deyil. İdmanın bu növündə Azərbaycanın əsrlərdən davam edən ənənələri var, Azərbaycan pəhləvanları Avropada və dünyada güləşin inkişafına töhfələr vermişlər. Avropa Güləş Federasiyasının rəhbəri dedi ki, çempionatların təşkili məsələləri ilə əlaqədar onların irəli sürdüyü bütün tələblər Azərbaycanda ən yüksək səviyyədə yerinə yetirilmişdir. O, əmin olduğunu bildirdi ki, yaxın illərdə Azərbaycan paytaxtında güləş üzrə dünya çempionatı da keçirilmişdir.

Prezident Heydər Əliyev əmin olduğunu vurğuladı ki, indiki çempionat yüksək səviyyədə başlandığı kimi, yüksək səviyyədə də başa çatacaq və sərbəst güləş tarixinə daha bir parlaq səhifə Bakıda sərbəst güləş üzrə 45-ci Avropa çempionatı kimi yazılacaqdır.

2002-ci ildə MOK-un dəstəyi ilə Bakıda cüdo, voleybol, basketbol, atletika və başqa idman növü üzrə bir sıra Beynəlxaq turnirlər və Avropa çempionatları keçirilmişdir.

2002-ci il Yaponiya və Koreyada keçirələcək Dünya çempionatının seçmə qrup yarışları ötən il start götürdü və bu ilin oktyabrında başa çatdı. Əvvəlki seçmə qruplarından fərqli olaraq yığma komandamız qrup yarışlarını 5 xalla başa vurmuş və qrupun favoritlərindən sayılan Slovakiya yığmasını təkrar Bakı qarşılaşmasında 2:0 hesabı ilə məğlub etmişdir.

1 sentyabr 2002-ci ildə Almaniyanın Berlin şəhərində badminton üzrə klublararası Avropa kuboku yarışları keçirilib. Beş gün davam edən yarışda qitənin 30-a yaxın ölkəsindən müxtəlif klublar güclərini sınayıblar. Ölkəmizi burada badminton üzrə milli yığma komandamızın üzvləri Mirzə Orucov, Ceyhun Məmmədəliyev, Cavanşir Əlizadə, Nərgiz Mehdiyeva və Sevinc Axundova təmsil ediblər.



Ümumiyyətlə, badmintonçularımız bu illər ərzində SSRİ birinciliyində, SSRİ Spartakiadasında, (VI) Dünya çempionatında (III), İslam İdman Oyunlarında (III), Gənclər arasında Avropa birinciliyində, Beynəlxalq turnirlərdə və b. yarışlarda iştirak etmiş və müvəffəqiyyətlər qazanmışlar.

2002-ci ildə Şahmat üzrə Avropa çempionatının Bakıda, 2003-cü ildə gənclər arasında dünya çempionatının Naxçıvanda keçirilməsi isə Azərbaycanda şahmatın beynəlxalq miqyasda etirafı kimi qiymətləndirilmişdir.

2002-ci ildə Polşanın Mlava şəhərində kadetlər arasmda keçirilən «100» xanalı dama üzrə dünya çempionatında Elşən Zeynalov bürünc mükafata layiq görülmüşdür. Müstəqilliyimiz dövründə dövlətin və Milli Olimpiya Komitəsinin diqqəti və qayğısı sayəsində Azərbaycan bü gün dünyanın idman mərkəzlərindən birinə çevrilib. Digər idman növləri kimi gimnastika da diqqətdən kənarda qalmayıb. Xüsusilə, 2002 - ci il oktyabrın 7-də Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra bu sahədə mühüm canlanma hiss olunmağa başlayıb. Azərbaycanda gimnastikanın keçmiş ənənələrini geri qaytarmaq, adıçəkilən idman növlərinin inkişafını təmin etmək məqsədi ilə geniş miqyaslı tədbirlər planı həyata keçirilməyə başlandı. Federasiyanın məqsədyönlü və səmərəli fəaiyyəti nəticəsində bu gün ölkə gimnastikası, sözün əsl mənasında özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Gimnastikanın bütün növlərinin maddi-texniki bazasının gücləndirilməsi, idman növlərinin kütləviləşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Ölkə gimnastikasının inkişafı istiqamətində fəal iş aparan federasiya idmançıların mütəmadi olaraq, müxtəlif beynəlxalq turnirlərdə iştirakını da təmin edir. Hazırda maddi-texniki bazanın gücləndirilməsi məqsədi ilə gimnastikanın bütün növlərini əhatə edəcək idman kompleksinin inşası planlaşdırılmışdır.

9 noyabr 2002-ci il tarixdə Şəkidə yeni, müasir Olimpiya idman kompleksi açılmış və idmançıların sərəncamına verilmişdir.

Bu kompleks ən yüksək dünya standartlarına cavab verir. İki böyük salondan ibarətdir, eyni zamanda, üzgüçülüklə məşğul olmaq üçün hovuzu da var. İdmançıların istirahəti üçün burada kotteclər, yaşayış binaları da nəzərdə tutulubdur. Burada həm təlim-məşq toplanışları, həm də ən yüksək səviyyəli beynəlxalq yarışlar keçirmək mümkün olacaqdır.

Mərasimin açılışında Azərbaycan prezidenti Heydər Əliyev çıxışında demişdir: Bizim Milli Olimpiya Komitəsi son illərdə, doğrudan da, çox böyük işlər görür. Biz bu yaxınarda MOK-un 10 illik yubileyini qeyd etdik. Amma onun həqiqi fəaliyyəti son beş ildədir. İdmançılar İlham Əliyevi özlərinə başçı, prezident seçəndən sonra, o, elə böyük həvəslə, elə böyük ruh yüksəkliyi ilə, elə məhəbbətlə bu işdən yapışıbdır ki, onu bundan hec cür ayırmaq mümkün deyildir. Bu da təsadüfi deyildir.

Birincisi, cavan insan kimi o, gənclərin tələbatını yaxşı bilir. İkincisi də, gənc siyasətçi kimi yaxşı bilir ki, ölkəmizin gələcəyi, respublikamızın gələcək həyatı gənclərdən asılıdır və onlardan ötrü şərait yaratmaq lazımdır. Müstəqil dövlətimiz üçün bunun çox böyük əhəmiyyəti var.

Mən MOK-un prezidentinə təşəkkür edirəm ki, belə işlər görür və ümidvaram ki, bu iş bundan sonra da davam edəcək, Azərbaycanın başqa bölgələrinə də yayılacaqdır.

Mən inanıram ki, birincisi, şəkililər də bu kompleksdən istifadə edəcəklər. İkincisi, bu kompleks öz gözəlliyi ilə, müasir şəraiti ilə gəncləri daha da tərbiyələndirəcəkdir. Onların mənəvi səviyyəsini artıracaqdır. Üçüncüsü də, dediyim kimi, bizim gələcəyimizə sağlam nəsil hazırlayacaqdır.

İdman cəmiyyət üçün ən vacib sahədir. İdmanla məşğul olan hər bir insan, hətta adi bədən tərbiyəsi ilə məşğul olan hər kəs tamam sağlam olur. Sağlam olmaq üçün həkimə müraciət etmək, dava-dərman qəbul etmək, iynə vurdurmaq lazım deyildir. Sadəcə, hər gün idmanla məşğul olun. Mən bir dəfə demişəm, yenə deyirəm: mən gənc vaxtlarımdan idmanı sevmişəm, idmanla məşğul olmuşam, bu gün də məşğul oluram. Ona görə də, görürsünüz, sizin qabağınızda belə dayanmışam. Ona görə hamınızı idmanla məşğul olmağa dəvət edirəm Özü də burada gənclərin öz yeri, orta nəslin, yaşlı nəslin də öz yeri var.

İdman eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. Biz müstəqil dövlətik. İstəyirik ki, bizi hər yerdə tanısınlar, hər yerdə bilsinlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir.

Bizim gənclərimiz ona görə sağlam olmalıdırlar ki, ordumuz güclü olsun, Mən sizə deyə bilərəm ki, son illər Azərbaycanda aparılan işlər ölkəmizin ordusunu gücləndiribdir. Bizim ordumuz indi Azərbaycan torpaqlarını qorumağa və Azərbaycana qarşı hər bir hərbi təcavüzün qarşısını almağa qadirdir.



Ancaq onu demək lazımdır ki, hər bir müstəqil dövlətin gərək daim güclü ordusu olsun. Azərbaycanın da güclü ordusu da var, amma bundan da güclü, bundan da yüksək səviyyədə olmalıdır. Ona görə Azərbaycanda gərək sağlam gənclər yetişsin. Azərbaycan ordusunda fiziki cəhətdən sağlam gənclər xidmət edəcəklər və onu gücləndirəcəklər. Mən dedim ki, bizim ordumuz qarşısında duran vəzifələri həll etməyə qadirdilər.

2002-ci ildə Ümumrespublika üzrə bədən tərbiyəsi kadrları 27569 çalışırdı. Onlardan ümumtəhsil məktəblərində 17358, texniki-peşə məktəblərində 459, orta ixtisas məktəblərində 536, ali məktəblərdə 1005, idman məktəblərində 5140, bədən tərbiyəsi kollektivlərində 1090, idman klublarında 665, idman cəmiyyətlərində 907, digər təşkilatlarda isə 409 mütəxəsis işləyirdi.

1993-2001-ci illərdə Ölkəmizin paytaxtı Bakı şəhərində 5 Avropa çempionatı, 4 dünya sempionatı 3 dünya kuboku 32 beynəlxalq və b. yarışlar keçirilmişdir. Beynəlxalq Həvəskarlar Boks Assosiasiyasının prezidenti Ənvər Çoudrinin şərəfinə Bakıda keçirilən boks üzrə 10 qat ənənəvi beynəlxalq turnir, yeniyetmələr arasında boks üzrə Avropa və dünya çempionatı, qadın voleybol komandaları arasında Avropa top-komanda kuboku uğrunda yarışların final mərhələsi, həndbolçuların Avropa miqyaslı beynəlxalq turniri keçirilmişdir.

Moskvanın meri Yuri Lujkovun dəvəti ilə MDB ölkələrinin və Baltikyanı ölkələrin milli olimpiya komitələri və Yeniyetmələrin Beynəlxalq İdman Oyunlarının iştirakçısı olan ölkələrin idmanın idarə edilməsi üzrə dövlət orqanları rəhbərlərinin 2002-ci il martın 21-də keçirilmiş birinci ümumi iclasında İlham Əliyev demişdir: "Azərbaycanda beynəlxalq yarışlar keçirmək üçün hər cür şərait və müvafiq təcrübə var və biz gələcəkdə də belə yarışların yüksək səviyyədə təşkilinə zəmanət verə bilərik".

Tədqiqat göstərir ki, keçmiş sovet komandası tərkibində sərbəsi güləşçilərimiz 24 ildə (1966-1990) 9 medal qazanılmışdısa ( o cümlədən 4 qızıl, 4 gümüş, 1 bürünc), müstəqilliyimizin 15 ilində isə (1991-2006) 14 (o cümlədən 6 qızıl, 4 gümüş, 4 bürünc) medal qazanmışlar. Biz, belə nəticəyə gələ bilərik ki, Respublikamızda bütün idman növləri kimi, sərbəst güləş idman növü üzrə müstəqilliyimiz dövründə qazanılmış medalların əsas səbəbi dövlətimizin bədən tərbiyəsi və idman göstərdiyi diqqət və qayğısının təzahürüdür.

MOK yaradılmasının 10-cu ildönümü münasibətilə "Respublika" sarayında keçirilən təntənəli mərasimdə Azərbaycan Milli Olim-

piya Komitəsinin Prezidenti, millət vəkili İlham Əliyev qeyd etdi ki, bu 10 ildə Azərbaycan idmançıları müxtəlif beynəlxalq yarışlarda 800-cək medal qazanıb. Milli Olimpiya Komitəsinin yaradılması və Olimpiya Oyunlarında Azərbaycanın öz bayrağının dalğalanması xalqımızın azadlığının və ölkəmizin suverenliyinin bəhrəsidir. Bu gün Azərbaycan beynəlxalq yarışların mərkəzinə çevrilib. Təkcə bu il ölkəmizdə iki Avropa çempionatı, onlarla beynəlxalq turnir keçirilib. "Biz təkcə Olimpiya deyil, qeyri-olimpiya idman növlərinin də inkişafına çalışırıq, Əsas məqsədimiz fiziki cəhətdən sağlam nəslin yetişməsinə şərait yaratmaq, Olimpiya Hərəkatının genişlənməsinə, idmanın inkişafına, kütləviliyinə nail olmaqdır. Bu qazanılan uğurlarla kifayətlənə bilmərik. Bizim əsas məqsədimiz Azərbaycanı güclü idman dövlətinə çevirmək, ölkəmizdə hamının idmanla məşğul olması üçün yüksək şərait yaratmaqdır. Bunu gerçəkləşdirmək üçün böyük əzmimiz və hər cür imkanımız var". Tədbirdə çıxış edən xarici qonaqlar Azərbaycan idmanını qazandığı uğurları qeyd edərək bu işdə Milli Olimpiya Komitəsinin, şəxsən onun rəhbəri İlham Əliyevin böyük xidmətlərini razılıqla vurğuladılar. Azərbaycanda inşa edilən olimpiya-idman komplekslərinə heyran olduqlarını deyən Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov, bütün bunlara görə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentinə BOK adından dərin təşəkkür etdi.

Türkiyə Olimpiya Komitəsinin baş katibi, Dünya İdman Jurnalistləri Assosiasiyasının rəhbəri Toqay Bayatlı Azərbaycanda Olimpiya Hərəkatının 10 il ərzində 50 ilə bərabər yol keçdiyini vurğulayaraq İlham Əliyevin MOK rəhbəri kimi fəaliyyətinin bir çox ölkələr üçün nümunə olduğunu dedi. Azərbaycan MOK-un yubiley təntənələrində Rusiya, Moldova, Litva, Belarus, Gürcüstan və s. ölkələrin milli olimpiya komitələrinin rəhbər nümayəndələri də iştirak edirdilər. Fəxri qonaqlar sırasında olan Bolqarıstan Olimpiya Komitəsinin baş katibi Beltko İvanov başçılıq etdiyi **təşkilatın mükafatını – "Sülh və Olimpizim" medalını, Litva Olimpiya Fondunun rəhbəri Aldimantas Qudiskis Litva Milli Olimpiya Komitəsinin ulduzunu İlham Əliyevə təqdim etdi.**

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev həmin mərasimdə orta məktəblərdə idmanın və bədən tərbiyəsinin kütləviliyinin artırılmasına diqqətin artırılmasının zəruriliyini vurğuladı. Dövlət başçının sözlərinə görə, hazırda bu sahədə vəziyyət onu qane etmir. "Ən önəmlisi isə odur ki, Azərbaycanda idman kütləvi xarakter alsın. Hər bir uşaq, hər bir yeniyetmə, hər bir gənc idmanla məşğul



olsun. Sonralar peşəkar idmana qatılmasalar da, idman hazırlığı gələcək həyatlarında onlara böyük kömək olacaq".

**2003-cü il iyunun 5-də Azərbaycan idmançılarının XXVIII Yay Olimpiya Oyunlarına hazırlığının daha yüksək səviyyədə, mütəşəkkil formada təşkil və təmin edilməsinə Azərbaycan Respblikasının Prezidenti HIham Əliyevin imzaladığı «XXVIII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında» sərəncamı əsas zəmin yaratmış oldu.**

Heydər Əliyevin bədən tərbiyəsi və idmana qayğısı sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycanda hər il müxtəlif idman növləri üzrə keçirilən beynəlxalq miqyaslı, nüfuzlu turnirlər həmin idman növlərinin ölkəmizdə daha sürətlə inkişafı, populyarlaşmasına təkan verir. Azərbaycan Gimnastika Federasiyasına prezident seçildiyi ilk vaxtlarda Mehriban xanım Əliyevanın ölkəmizdə bədii gimnastika üzrə beynəlxalq turnirlərin keçirilməsi barədə təklifi də məhz bu məqsədə xidmət edir. 2003-cü ildə Azərbaycanda tramplin və tamblinq idman növü ilə 150-yə qədər idmançı məşğul olurdu ki, onların da əksəriyyəti Gimnastika məktəbinin yetirmələri idi. Eyni zamanda, paytaxtın bir neçə idman mərkəzində, həmçinin Dəvəçi şəhərində də trampIinq və tamplinq inkişaf etdirilirdi.

2003-cü ilin iyul ayının 6-12-Taylantın Banqkok şəhərində keçirilmiş boks üzrə dünya çempionatında ölkəmizin şərəfini layiqincə qoruyan boksçularımız Ağasi Məmmədov (54 kq) qızıl medal qazanaraq ölkəmizin idman tarixində boks üzrə ilk dünya çempionu olmuşdur.

Azərbaycanı boks idman tarixində ilk dünya çempionu Ağasi Məmmədov olmuşdur

2003-cü ildə 12 yaşlı Aslanlı Aslan «64» xanalı dama üzrə Avropa çempionatında iki bürünc mükafata sahib olmuşdur. 2003-cü ildə Belorusun Minsk şəhərində «100» xanalı dama üzrə gənclərin Avropa çempionatında Nərgiz Məmmədova III yeri tutaraq, bürünc mükafatı qazanmışdır.

29 dekabr 2003-cü il tarixdə paytaxtın «Avropa» mehmanxanasında AFFA-nın növbəti VI hesabat seçki konfransı keçirilmişdir.

Beləliklə 26 səs toplayan «Neftçi» Futbol Klubunun prezidenti Ramiz Mizəyev AFFA-nın yeni prezidenti seçildi.

Daha sonra 25 nəfər arasından təşkilatın yeni İcraiyyə Komitəsinin 12 nəfərlik tərkibi seçilmişdir. Onların arasından prezidentin təqdimatı ilə 3 nəfər «vitse» - Rauf Əliyev birinci vitse-prezident, Elşad Nəsirov və Fətulla Hüseynov isə vitse prezident seçildilər. İcraiyyə Komitəsi Fuad Əsədovu təşkilatın baş katibi vəzifəsinə təsdiq etdi.

Tədbirdə qonaq qismində iştirak etmək üçün beynəlxalq qurumun nümayəndəsi, FİFA/UEFA kommisiyasının üzvü olmuş Marsel Bens də gəlmişdir.

2003-cü il avqustun 9-10-da Azərbaycanda ilk dəfə olaraq Bakı şəhərində bədii gimnastika üzrə «A» kateqoriyalı Dünya Kubokunun mərhələ yarışları keçirilmişdir. Yarışlarda 17 ölkənin idmançıları iştirak etmişdir. Dinarə Gimatova çoxnövçülükdə və topla hərəkətlərdə bürünc medallar qazanır və gürzlərlə çıxış edərək gümüş medala layiq görülmüşdür. Bu yarışın paytaxtımızda keçirilməsində Azərbaycan Bədii Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın böyük rolu olmuşdur.

Beynəlxalq Gimnastika Federasiyasının vitse -prezidenti Andre Qaisbuxler yarışların bağlanış mərasimində çıxış edərək bildirdi ki, gimnastların mübarizəsi yüksək səviyyədə keçdi, idmançılar və onların məşqçiləri, hakimlər, qonaqlar üçün çox əlverişli şərait yaradılmışdı. O, buna görə Milli Olimpiya Komitəsinin rəhbərliyinə və şəxsən Azərbaycan Bədii Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etdi. O, dedi ki, gələn ilin aprelində Bakıda Dünya kuboku yarışları, 2005-ci ildə isə idmanın bu növü üzrə Dünya çempionatı keçiriləcəkdir.

Beynəlxalq Gimnastika Federasiyasının rəhbərliyi Andre Qaisbuxler bu idman təşkilatının bayrağını Mehriban xanım Əliyevaya təqdim etdi

2003-cü il avqustun 9-da Azərbaycanın Baş Naziri, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Avropa Paralimpiya Komitəsinin prezidenti Bob Praysı qəbul etmişdir.

Yüksək vəzifəyə təyin olunması münasibətilə İlham Əliyevi təbrik edən və bundan məmunluq duyduğunu bildirən Avropa Paralimpiya Komitəsinin başçısı dedi ki, bu təyinat ölkədə siyasi sabitliyin daha da möhkəmlənməsi, iqtisadi tərəqqiyə, habelə Azərbaycanda idman hərəkatının inkişafına xidmət edəcəkdir. O, bildirdi ki, Azərbaycan idmançılarının dünya çempionatlarında, olimpiya və paralimpiya oyunlarında qazandıqları nailiyyətlər, habelə ölkədə idman obyektləri tikintisinin geniş vüsət alması bütün dünyada məlumdur.

2003-cü ildə futbol klublarının, AFFA nümayəndələrinin, Gənclər, İdman və Turizm Nazirliyinin, Ədliyyə Nazirliyinin, FİFA-nın və UEFA-nın iştirakı ilə Sürix müqaviləsi imzalanmış, AFFA-nın yeni Nizamnaməsinin layihəsi hazırlanmışdır. Futbol klubları AFFA bayrağı altında oynamağa razılıq vermiş, növbəti ölkə çempionatı bərpa olunmuşdur.



2003-cü ildə Azərbaycan boks tarixində ilk dəfə olaraq dünya çempionu adını Ağasi Məmmədov qazanmışdır. 2003-cü ildə Respublika çempionatında 3200 nəfər, birinciliyində 3500 və Respublika kubokunda 510 idmançı iştirak etmişdir. Bundan əlavə, Azərbaycandan kənarda beynəlxalq turnirlərdə 1124 idmançı təmsil olunub. 38 dünya çempionatı, birinciliyi və kubok yarışında 264 nəfər, 27 Avropa çempionatı, birinciliyi və kubok yarışında 214 nəfər, 61 beynəlxalq turnirdə isə 646 idmançı və məşqçilərimiz iştirak etmişdir.

Polşada idman akrobatikası üzrə kişilər və yeniyetmələr arasında keçirilən Avropa çempionatında 18 ölkədən 250 idmançı mübarizə aparıb. Qitə birinciliyində akrobatlarımızın iştirakı uğurlu olub. Belə ki, kişilərin qrup hərəkətlərində Elşən Seyfullayev, Nemət Ağayev, Elnur Məmmədov və Rəşad Sadıqıovdan ibarət dördül 17,55 xal toplayaraq, yarışda dördüncü yerə yüksəlib. Rəzzaq Babayev və Əlibəy Hüseynovdan ibarət cütlük aktivinə 15,89 xal yığaraq, altıncı olub. Qarışıq qlşa yarışlarda isə idmançılarımız 10-cu (45.00) yerdə qərarlaşıblar.

Beləliklə 3 gün davam edən yarışda komandamız 12 xalla 9-cu yerə layiq görülüb. Yeniyetmələrin komanda birinciliyində isə akrobatımız 7 xalla 16-cı yerə çıxıb.

İsveçdə güllə atıcılığı üzrə keçirilən Avropa çempionatında ölkəmizi İradə Aşumova, Nigar Bağırova və Emil Əhmədov təmsil ediblər. İradə Aşumova 15-ci yerə çıxaraq, növbəti dəfə lisenziya xalı qazanıb. Lakin Nigar Bağırova və Emil Əhmədov il 15-likdə yer ala bilməyiblər.

Çinin Makau vilayətində uşu üzrə dünya çempionatı keçirilib. Ölkəmizdən B. Səlimov və R.Mehdiyev çempionatın gümüş mükafatına layiq görülüblər.

Martın 10-da Rusiyanın Sankt-Peterburq şəhərində kişilər arasında sambo üzrə dünya çempionatında 35 ölkəni təmsil edən 300 idmançının qatıldığı yarışda ölkəmizi 7 samboçu təmsil etdilər. Təmsilçimiz Hakim Nəzərəliyev (57 kq) bütün rəqiblərinə qalib gələrək, qızıl medal qazanıb. Ümumi hesabda komandamız 6-cı olub.

1997-2003-cü illərdə Azərbaycan futbolu dərin böhran içində idi. Futbol ictimaiyyətinin AFFA rəhbərliyi ilə ədalət uğrunda mübarizəyə qalxdığına görə klublar etiraz əlaməti olaraq, 11-ci milli çempionatı dayandırmışlar. Sonradan çempionat xüsusi Təşkilat Komi-

təsinin nəzarəti altında davam etdirilsə də, AFFA rəhbərliyi nəticələri tanımamışdır. Klublarımız Avropa miqyaslı turnirlərdə iştirak etməkdən məhrum olmuşlar.

1993-2003-cü illərdə Azərbaycan idmançıları beynəlxalq yarışlarda qazandıqları nailiyyətlər sürətlə artmağa başladı. Məsələn, 1993-cü ildə idmançılarımız vətənə 38 (14 qızıl, 14 gümüş, 10 bürünc) medal gətirmişdilərsə, 2003-cü ildə medalların sayı 188-zə çatmışdır (64 qızıl, 54 gümüş, 70 bürünc). Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycan idmançıları 1379 medal qazanmışlar (o cümlədən 479 qızıl, 376 gümüş, 524 bürünc).

Olimpiya idman növləri üzrə 1993-cü ildə idmançılarımız vətənə 13 medal (6 qızıl, 5 gümüş, 2 bürünc) gətirmişdilərsə, 2003-cü ildə medalların sayı 74-də çatmışdır (17 qızıl, 21 gümüş, 36 bürünc). Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycan idmançıları 411 medal qazanmışlar (o cümlədən 116 qızıl, 126 gümüş, 169 bürünc).

Qeyri-Olimpiya idman növləri üzrə isə Olimpiya idman növləri üzrə 1993-cü ildə idmançılarımız vətənə 25 medal (8 qızıl, 9 gümüş, 8 bürünc) gətirmişdilərsə, 2003-cü ildə medalların sayı 114-də çatmışdır (47 qızıl, 33 gümüş, 34 bürünc). Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycan idmançıları 991 medal qazanmışlar (o cümlədən 374 qızıl, 253 gümüş, 364 bürünc).

1993-2003-cü ci illərdə 39 akrobatika, 987 basketbol, 414 boks, 989 sərbəst güləş, 209 cüdo, 500 yunan-Roma güləşi, 176 sambo, 16 su polosu, 2583 voleybol, 65 idman gimnastikası, 18 velosiped idmanı, 27 akademik avarçəkmə, 46 baydarka və kanoy qayıqlarında avarçəkmə, 25 atıcılıq idmanı, 1506 yüngül atletika, 20 yelkənli qayıq idman növü, 93 üzgüçülük, 18 süya tullanma, 493 əl topu, 125 atıcılıq, 6 müasir beşnövçülük, oxatma, 33 tennis, 516 stolüstü tennis, 152 ağır atletika, 37 qılıncoynatma, 18 fiqurlu konkisürmə, 2639 futbol, 10 şaybalı hokkey, 2946 şahmat, 1536 dama, 4051 nərd, 74 karate-do, 1 badminton, 17 otüstü hokkey üzrə idman qurğusu fəaliyyət göstərmişdir. Ümumiyyətlə 1993-2003-cü illərdə Azərbaycanda 24583 idman qurğusu fəaliyyət göstərmişdir. Ayrı-ayrı idman növləri üzrə 361046 nəfər məşğul olmuşdur. Onlardan 361046 qızlar təşkil etmişdir.

Avropa Olimpiya Komitəsi yarandıqdan sonra onun baş məclisində Olimpiya Hərəkatının inkişafına təkan verəcək qitə səviyyəli yarışları təşkili və keçirilməsi tez-tez müzakirə obyekti olmuş və 1991-ci ildə ilk dəfə olaraq brüsseldə Avropa Yeniyetmələrinin I Olimpiya



Günləri keçirilmişdir. Bundan sonra bu günlər iki ildən bir təşkil olunmuşdur

1991-2003-cü illərdə Avropa Yeniyetmələrinin Olimpiya Festivallarında illər üzrə 312 ölkə arasında 15492 idmançı iştirak etmişdir.

Heydər Əliyev əhalinin kütləvi idmanla daha geniş surətdə məşğul olması üçün Azərbaycan bölgələrində idman qurğularının tikintisi sürətləndirilməsi üçün qarşıya bir vəzifə qoymuşdur. Məhs bu baxımdan 1993-2003-cü illərdə Azərbaycan Respublikasında 13 Olimpiya İdman Kompleksi (OİK) tikilib istifadiyə verilmişdir: Bakı OİK (21.10. 2000), Bakıda MOK-un yeni inzibati binası (27. 03.2001), Maştağa OİK (29.12.2001), Naxçıvan OİK (15.6.2002), Gəncə OİK (12. 9. 2002), Şəki OİK (09.11.2002), Bərdə OİK (07.10.2003). Lənkəran OİK (09.10.2003), Quba OİK (11.10.2003), Bakıda atıcılıq stendi (08.9.2003), Taekvondo sarayı (10.10.2003) və b.

Eyni zamanda, Bakıda otüstü xokkey üçün stadion, çimərlik voleybolu üçün meydançalar, basketbol, taekvando, voleybol, qılıncoynatma və s. xüsusi salonlar inşa edilmişdir. Dövlətin bədən tərbiyəsi və idmana qayğısı nəticəsində Bakının ən iri idman obyektlərindən olan idman sarayı, idman konsert kompleksi, idman Akademiyasının stadionu təmir olundu.

2003-cü illərdə İdman qurğularının sayı 25283-ə çatmışdır. O, cümlədən, tribunaları 1500 və daha çox yer tutan stadionlar 216, sadə idman qurğuları 11217, kompleks idman qurğuları 558, örtülü idman zalları 9x18,12x24 1672, Atıcılıq tirləri 4338, üzgüçülük hovuzları – cəmi 119, o cümlədən örtülü 28, müəssisələrin, təşkilatların, idarələrin bədən tərbiyəsi və sağlamlıq mərkəzləri 462 fəaliyyət göstərmişdir.

2003-cü ildə Respublikamızda 7.-i idman cəmiyyəti, 72.-i idman klubu, 70 idman federasiyası fəaliyyət göstərirdi (onlardan 24 Olimpiya idman növləri, 46-sı isə qeyri-Oimpiya İdman növləridir).

2003-cü ildə Respublikamızda 45 idman növü üzrə 2 beynəlxalq turnir, 75 çempionat, 133 birincilik, 13 turnir, 5 açıq birincilik, 1 açıq çempionat, 14 kubok, 7 açıq turnir keçirilib. İl ərzində düzənlənən yarışda 16.437 idmançı iştirak edib ki, onların 3097 nəfəri qızlar və qadınlar olub.

Paytaxt idmançıları 2003-cü ildə dünya birinciliyi, çempionat və kuboklarından 169 medal qazanıblar ki, onlardan 69-u (16 qızıl, 18 gümüş, 36 bürünc) Olimpiya, 100-ü (45 qızıl, 26 gümüş, 29 bürünc) isə qeyri-Olimpiya idman növləri üzrə olub.

Paytaxt idmançılarının 2003-cü il beynəlxalq miqyaslı yarışlarda iştirakına nəzər salarkən bir çox idman növlərində əldə edilən uğurlar xüsusilə diqqəti cəlb edir. Belə ki, 2003-cü ilin ən böyük idman hadisələrindən biri boks üzrə Tailandda keçirilən dünya çempionatı olub. Məhz həmin yarışda ölkəmizin idman tarixində ilk dəfə Azərbaycan boksçusu - Ağasi Məmmədov dünya çempionu tituluna yiyələnib. Tofiq Əhmədov və Ruslan Xairov bürünc medal əldə ediblər. Adı çəkilən idman növü üzrə Avropa çempionatında Şahin İmranovun gümüş medal qazanması da təqdirəlayiqdir.

Polşanın Varşava şəhərində gənclər arasında boks üzrə keçirilən qitə birinciliyində təmsilçilərimiz Rahib Bəylərov və Elnur Qədirov gümüş, İtaliyanın Roma şəhərində keçirilən, məktəblilərin Avropa birinciliyində isə Famil Süleymanov qızıl, Anar Sadıqov, Rüstəm Səfiyev bürünc medallara sahib olublar.

2003-cü ilin ən yaddaqalan hadisələrindən biri cüdo üzrə yeniyetmələr arasında Avropa çempionatının paytaxtımızda keçirilməsi idi. Bu yarışda təmsilçilərimizdən Ramilə Yusubova, Elman Nəşibov, Elşən Kərimov 1-ci, Nicat Şıxəlizadə, Seymur Rzayev, Timur Əlixanov, Anar Əliyev 2-ci, Mehman Novruzov 3-cü yerləri tutublar. Ağırçəkili paytaxt idmançısı Mövlud Mirəliyevin Yaponiyanın Osaka şəhərində keçirilən cüdo üzrə dünya çempionatında üçüncü yer tutması da ilin ən böyük idman uğurlarındandır.

Gənclərin Avropa birinciliyində isə (Bosniya və Hersoqovina) Namiq Sultanov bürünc medala layiq görülüb.

2003-cü il yunan-Roma güləşi sahəsində də paytaxt idmançıları qələbələr qazanıblar. Rusiyanın Rostov şəhərində yeniyetmələr arasında təşkil edilən Avropa birinciliyində Turan Hüseynli gümüş, Rövşən Bayramov, Turqay Hüseynov bürünc medallara sahib olublar.

Türkiyənin İstanbul şəhərində gənclər arasında təşkil edilən DÇ da öz uğuru ilə yadda qalıb. Belə ki, təmsilçimiz Rövşən Bayramov bu yarışın qızıl medalına layiq görülüb.

Hərbçilər arasında Türkiyədə keçirilən dünya çempionatında Taleh İsrafilov, Elbrus Məmmədov qızıl, Natiq Eyvazov, Nazim Əlicanov gümüş, Əsgərxan Novruzov bürünc medal qazanıblar.

Odessa şəhərində veteran güləşçilərin dünya çempionatında Əfsər Namazəliyev qızıl, Elman Əlinağıyev bürünc medallar əldə ediblər.

2003-cü il sərbəst güləşçilərimiz də bir sıra uğurlara imza atıblar. Latviyanın Riqa şəhərində keçirilən qitə çempionatı Namiq Abdullayevin qızıl medal qazanması ilə yadda qalıb. Yeniyetmələrin Avropa



birinciliyində isə (Makedoniya) Anar İsmayılov qızıl, Elçin Həsənov gümüş, Allahverdi Vəliyev və Əli İsgəndərov bürünc medala sahib olublar. Sərbəst güləşdə ən böyük uğurumuz isə ötən il ABŞ-ın Nyu-York şəhərində keçirilən DÇ-də Arif Abdullayevin qızıl medal qazanması idi.

2003-cü ildə karatenin müxtəlif növlərində qazanılan uğurlar da az olmayıb. Polşada keçirilən 30-cu Avropa birinciliyində Pərviz Abdullayev, Rəfael Ağayev gənclər, Ceyhun Ağasıyev və Vüsal Rəhimov böyüklər arasında birinci yer tutublar.

VKF növləri üzrə Fransada gənclər arasında təşkil edilən dünya çempionatı da paytaxt idmançıları üçün qazanılan iki bürünc medalla (Rəfael Ağayev və Ceyhun Ağasiyev) yadda qalıb.

Karatenin aşihara növü üzrə Seymur Bünyadəliyev Danimarkada keçirilən DÇ-nin gümüş medalına sahib olub.

Kosika karate üzrə superliqa DÇ-də Kənan İsmayılov və Ramil Aruslanov bürünc medala layiq görülüblər.

2003-cü ilin yarışları sırasında qılınc oynadanlarımızın uğurları xüsusi yer tutur. Fransanın Orlean şəhərində təşkil edilən Qran-Pri turnirində DÇ-nin şəxsi yarışlarında komandamızın kapitanı Yelena Yemayeva ikinci yerə layiq görülüb. DÇ-nin komanda yarışlarında isə təmsilçilərimiz üçüncü yeri tutublar.

Ölkə idmanında ötən ilin yaddaqalan hadisələrindən biri Yunanıstanın Afina şəhərində ağır atletika üzrə keçirilən DÇ olub. Burada uğurla çıxış edən idmançımız Turan Mirzəyev 2 gümüş və 1 bürünc medal qazanıb.

2003-cü ilin nailiyyətləri sırasında kikboksinqçilərimizin xüsusi yeri var. Belə ki, Yunanıstanın Kos adasında keçirilən DÇ-də Emin Süleymanov (2 qızıl), Eduard Məmmədov, Elman Qazıbəyov qızıl, Zaur Məmmədrəhimov, Etibar Məmmədov, Kənan Sadıqov, Emil Cəfərov gümüş, Zaur Məmmədov, Elnur Dəryagir, Eldar Qazıbəyov, Şahin Mahmudov bürünc medallara yiyələniblər.

Ukraynanın Yalta şəhərində keçirilən DÇ isə kikboksinqçi Eduard Məmmədovun 5-ci dəfə dünya çempionu olması ilə əlamətdar olub. Həmin yarışda Ramin Səlimov bürünc medal qazanıb.

Avropa çempionatında isə (Macarıstan) Emin Süleymanov, Eduard Məmmədov, Eldar Qazıbəyov, Eldar İsmayılov, Elman Qazıbəyov qızıl, Araz Musayev, Rəfael Qarayev, Şahin Mahmudov, Vüqar Qasımov gümüş, Araz Musayev bürünc medallar əldə ediblər.

Güllə atıcısı İradə Aşumova İranın Tehran şəhərində keçirilən Asiya kuboku yarışında, stent atıcısı Zemfira Meftəhətdinova isə Avropa çempionatında (Çexiya) birinci yeri tutublar.

Taekvondoçularımızın da 2003-cü ildə bir sıra uğurları olub. Gənclər arasında keçirilən 14-cü Avropa çempionatında Gülarə Əzizova, İlkin Şahbazov birinci, Ziya Qasımov ikinci yerləri tutublar.

Samboçularımız da Bolqarıstanda keçirilən Avropa çempionatında iki qızıl (İslam Qasımov və Səid İbrahimov) qazanıblar. Rusiyanın Sankt-Peterburq şəhərində təşkil edilən DÇ-də isə samboçu Hakim Nəzərəliyev qızıla sahib olub.

Çinin Makau vilayətində uşu üzrə düzənlənən DÇ-də sanda istiqaməti üzrə iki təmsilçimiz - Baharəddin Səlimov və Rasəf Mehdiyev gümüş medala layiq görülüblər.

2003-cü il sentyabrın 05-də Yaxt Klubunun açılışı olmuşdur. Milli parkda inşa edilmiş bu idman qurğusu ölkədə yelkənli qayıq idman növünün inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Burada yaradıdlmış şərait təkcə daxili deyil, hə də beynəlxalq yarışların keçirilməsinə də imkan verir. Klubun təntənəli açılış mərasimində iştirak edən Azərbaylcan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir ki, dünya standartları səviyyəsində yaradılaraq idmançılarımızın istifadəsinə verilən bu yaxt klubdan təkcə yelkənli idman növü təmsilçiləri deyil, eyni zamanda digər idman növləri ilə məşğul olanlar də istifadə edə bilərlər.

2003-cü il sentyabrın 8-də stend atıcılığı üzrə İdman Kompleksinin açılışı olmuşdur. Son illər respublikamızda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idman qurğularının bərpası və yenilərin tikilməsi sahəsində görülən işlər göz önünə gətirdikcə dərin iftixar və daxili bir məmunluq duyursan. Milli Olimpiya Komitəsinin Bakıda və ölkənin digər bölgələrində tikib istifadəyə verdiyi, eləcə də tikintisi bu gün də davam etdirilən idman kompleksləri, yenidən həyata qaytarılan onlarca idman qurğuları idmanımıza qayğının daha bir göstəricisidir. Dövlət tərəfindən təmiri başa çatdırılan T.Bəhramov adına respublika stadionu və digər obyektlərin bərpası isə Gənclər, İdman və Turizm Nazirliyinin ciddi nəzarəti altında yüksək keyfiyyətlə həyata keçirilir. Yeni idman qurğuları tikintisinə gəldikdə isə stend atıcılığı üzrə kompleksin tikintisi bu yaxınlarda başa çatmaq üzrədir. Belə ki, bildiyimiz kimi artıq on ildən çoxdur ki, Bakıda stend atıcılığı üzrə tir yox idi. İdmanın bu növü üzrə böyük ənənəyə, idman naliyyətlərinə, olimpiya çempionuna malik olan ölkənin özünün atıcılıq



stentinin olmaması, olimpiya çempionu Zemfira Meftahətdinovanın məşq üçün başqa ölkələrə üz tutmasına səbəb olmaqla bərabər həm də bu növün inkişafına manelər yaradırdı. Buna görə də Sidney Olimpiadasından sonra Olimpiya Atıcılıq Kompleksinin tikintisi məsələsi qarşıya qoyuldu.

Tikinti işlərinə ilin əvvəlindən başlanılıb. Obyektin inşası üçün ayrılmış 15 hektar ərazi Bakı-Sumqayıt şossenin yaxınlığında, Motodromun arxasındadır. Bu müddət ərzində görülən işlərə nəzər saldıqda demək olar ki, obyekti planda nəzərdə tutulan vaxtda - ilin sonunda istifadəyə vermək imkan olacaq.

Tikinti iki mərtəbəli əsas bina və yardımçı binalardan ibarətdir. Əsas, binada ofis, məşqçilər üçün otaq, sinif oltaqları var. Hazırda binanın daxilində suvaq işləri aparılır, elektrik xətti səkilir.

Bir mərtəbəli iki yarımçıq binada silah saxlamaq, təmizləmək üçün otaqlar, tədris otaqları yerləşəcək.

«Biz söz vermişdik ki, Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün müasir şərait yaradılacaqdır. Bu, belə də oldu».

Ölkəmizdə idman inkişaf etdikcə onun maddi-texniki bazası da möhkəmləndirilir, səmərəli məşq üçün hər cür şəraiti olan, ən müasir beynəlxalq standartlara cavab verən yeni-yeni qurğular istifadəyə verilir. Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil edən idmançıların və onların məşqçilərinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına da ardıcıl qayğı göstərilir. Ötən həftə bu qayğının bir daha şahidi olduq. Oktyabrın 13-də MOK-un inzibati binasında Milli Olimpiya Komitəsi İcraiyyə komitəsinin iclasında Azərbaycanın baş naziri Milli Olimpiya komitəsinin prezidenti İlham Əliyev idmançılarımızın bir qrupuna pul mükafatı və 16 nəfərinə yeni mənzillərin orderlərini təqdim etdi.

Həmin tədbirdə Azərbaycan Bədən Tərbiyyəsi və İdman Akademiyasının prorektoru Dilqəm Quliyev «Azərbaycan idmanının dünəni və bu günü» kitabını İlham Əliyevə təqdim edərək dedi: Cənab Baş nazir, siz 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə idman, həqiqətən, sürətlə inkişaf edir. Mən «Azərbaycan idmanının dünəni və bu günü» kitabını yazmışam. Kitabda cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində bədən tərbiyəsi və idmana dövlət səviyyəsində göstərilən qayğı öz əksini tapmışdır. İcazə verin bu kitabı sizə təqdim edim.

2003-cü ildə dayaq idman növləri üzrə şəhər və rayonlarda, idman təşkilatlarında atletika üzrə 274, yunan-Roma güləşi 487, üz-

güçülük 93, boks 473, cüdo 379, velosiped 27, əl topu 170, stend atıcılığı 2, ağır atletika 152, Atıcılıq 19, voleybol 834, taekvando 38, kamandan ox atma 12, sərbəst güləş 952, bədii gimnastika 56, ot üstü hokkey üzrə 25 qrup fəaliyyət göəstərmişdir. Həmin qruplarda 2020 məşqçinin rəhbərliyi altında 36489 idmançı məşğul olmuşdur.

Heydər Əliyev idmançıların sosial vəziyyətlərini yaxşılaşdırmaq məqsədi ilə yüksək nailiyyətlər əldə etmiş idmançılar haqqında mükafat və təqaüdlərin verilməsi ilə bağlı sərəncam və fərmanlar imzalamışdır. Belə ki, Milli Olimpiya Komitəsinin təqaüdləri idmanın Olimpiya növlərində hər il, əvvəlki ildə dünya və Avropa çempionatlarında, dünya kuboku "A" kateqoriyalı beynəlxalq yarışlarda mükafata layiq yerləri tutumş idmançılar, eləcə də onların məşqçilərinə üç kateqoriya üzrə təqaüd nəzərdə tutulmuş və illər üzrə ödənilir.

I kateqoriya üzrə İdmançılar və onların məşqçilərinə 233 min 225 min manat, II kateqoriya üzrə 220 min 750 min manat və III kateqoriya 667 min 450 manat təqaüd verilir. Fərəhli haldır ki, hər il təqaüdlərin məbləği artırılır. Olimpiya qabağı 2003-cü ildə təqaüdlərin yeni növünü, lisenziya təqaüdünü də təsis etmişdir. İdmançıların, məşqçilərin, veteranların sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan Milli Olimpiya Komitəsi öz vəsaiti hesabına təqaüdlər təsis etmişdir və 1998-2002-ci illərdə 3 milyard manat məbləğində təqaüd verilmişdir.

Dövlətin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində Milli Olimpiya Komitəsi Azərbaycan idmanının inkişafında müstəsna xidmətləri ilə seçilən veteran idmançılar üçün də xüsusi təqaüd təyin etmiş və 1998-ci ildən bəri bu təqaüdlər ödənilir. 1998-2000-ci illərdə idmançılara və onların məşqçilərinə 2 milyard 220 milyon 350 min manat məbləğində təqaüd verilmişdir. Bu təqaüdlər 1998-ci ildə 309 milyon 600 min manat olmuşdusa, sonrakı illərdə onun miqdarı üç dəfəyə yaxın artmışdır.

Möhtərəm Prezidentimiz Heydər Əliyevin xüsusi sərəncamı ilə dövlət büdcəsindən ehtiyat fondundan şahmatçıların hər birinə 40 milyon manat vəsait ayrılmışdır.

**«İdmana xüsusi qayğını öz üzərimə götürürəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz»**- söyləyən **Ümummilli Lideri Heydər Əliyev axıra kimi idmançılarımızın qayğısına qaldı.** Belə ki, dövlətin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində 1995-2002-ci illərdə 24 "Şöhrət" ordeni, 45 "Tərəqqi" medalı, 21



"Əməkdar müəllim", 10 "Xüsusi Olimpiya təqaüdü" və 21 "Fərdi təqaüd" verilmişdir.

1994-2003-cü *illərdə Azərbaycan idmançıları Olimpiya idman* növləri üzrə Avropa və dünya çempionatlarında **89** medal qazanmışlar (Onlardan **32** qızıl, **22** gümüş, **35**bürünc).

**Azərbaycan idmançılarının dünya və Avropa çempionatlarında qazandığı medalların dinamikası (1991-1993) (Olimpiya idman növləri üzrə)**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | **Cəmi:** |
|---|---|---|---|---|
| Avropa | 24 | 10 | 11 | **45** |
| Dünya | 8 | 12 | 24 | **44** |
| **Yekun:** | **32** | **22** | **35** | **89** |

**Azərbaycan idmançılarının dünya və Avropa çempionatlarında qazandığı medalların qrafiki (1991-1993) (Olimpiya idman növləri üzrə)**




**Azərbaycan idmançılarının Avropa çempionatlarında qazandığı medalların dinamikası (1994-2003). (Olimpiya idman növləri üzrə)**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| **Avropa** | **24** | **10** | **11** | **45** |

Cədvəldən göründüyü kimi 1994-2003-cü illərdə Avropa çempionatında 14 medal qazanılmışdır (onlardan 24 qızıl, 10 gümüş, 11 bürünc).

**Azərbaycan idmançılarının dünya çempionatlarında qazandığı medalların dinamikası (1994-2003). Olimpiya idman növləri üzrə**

| Çempionatlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| **Dünya** | **8** | **12** | **11** | **44** |

Cədvəldən göründüyü kimi 1994-2003-cü illərdə dünya çempionatında 4 medal qazanılmışdır (onlardan 8 qızıl, 12 gümüş və 11 bürünc).

**Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların dinamikası (1994-2003)**

| İllə | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|
| 1994 | 12 | 15 | 22 | **49** |
| 1995 | 23 | 13 | 22 | **58** |
| 1996 | 22 | 17 | 29 | **68** |
| 1997 | 54 | 45 | 37 | **136** |
| 1998 | 60 | 45 | 63 | **168** |
| 1999 | 70 | 45 | 51 | **166** |
| 2000 | 53 | 38 | 69 | **160** |
| 2001 | 54 | 45 | 74 | **173** |
| 2002 | 53 | 45 | 77 | **175** |
| 2003 | 64 | 54 | 70 | **188** |
| **Ykun:** | **465** | **362** | **514** | **1341** |

**Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların qrafiki (1994-2003)**






**Azərbaycan idmançılarının Olimpiya idman növləri üzrə Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların dinamikası (1994-2003)**

| İllər | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1994 | 7 | 4 | 7 | **18** |
| 1995 | 5 | 7 | 7 | **19** |
| 1996 | 6 | 5 | 10 | **21** |
| 1997 | 3 | 12 | 7 | **22** |
| 1998 | 16 | 14 | 17 | **47** |
| 1999 | 14 | 14 | 21 | **49** |
| 2000 | 13 | 6 | 9 | **28** |
| 2001 | 12 | 16 | 22 | **50** |
| 2002 | 12 | 22 | 29 | **63** |
| 2003 | 17 | 21 | 36 | **74** |
| **Yekun:** | **105** | **121** | **165** | **391** |

**Azərbaycan idmançılarının Olimpiya idman növləri üzrə Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların qrafiki (1994-2003)**



**Azərbaycan idmançılarının qeyri Olimpiya idman növləri üzrə Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların dinamikası (1994-2003)**

| İllər | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1994 | 5 | 11 | 15 | 31 |
| 1995 | 18 | 6 | 15 | 39 |
| 1996 | 16 | 12 | 19 | 47 |
| 1997 | 51 | 33 | 30 | 114 |
| 1998 | 44 | 31 | 46 | 121 |
| 1999 | 56 | 31 | 30 | 117 |
| 2000 | 40 | 32 | 60 | 132 |
| 2001 | 42 | 29 | 52 | 123 |
| 2002 | 41 | 23 | 48 | 112 |
| 2003 | 47 | 33 | 34 | 114 |
| **Yekun:** | **360** | **241** | **349** | **950** |

**Azərbaycan idmançılarının qeyri Olimpiya idman növləri üzrə Avropa və Dünya Kuboku yarışlarında illər üzrə qazandığı medalların dinamikası (1994-2003)**






## III FƏSİL

## 2004-2011-ci İLLƏRDƏ BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAFI

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoüulmuş iqtisadi inkişaf sürətlə davam edir, yeni müəssisələr, iş yerləri açılır, yeni idman qurğuları istifadəyə verilir. Yeni yaradılan hər bir müəssisə dünya standartlarına cavab verir

Bilirsiniz ki, Azərbaycanda idmana böyük diqqət verilir və bu diqqət həmişə hiss olunubdur. Xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərə, idmana, idmançılara daim diqqət göstərirdi. Bu gün də bu siyasət davam edir və idmanda son illər ərzində əldə edilmiş uğurlar bizim işimizin ən gözəl təzahürüdür.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra Azərbaycan idmanının böyük uğurları başladı və ölkə idmanı özünün intibah dövrünə qədəm qoydu.

Azərbaycan Respublikasının *Prezidenti İlham Əliyev* 2004-cü il avqustun 4-də XXVIII Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində demişdir: "Son dörd il ərzində Azərbaycan beynəlxalq yarışlarda çox uğurla iştirak edib. İdmançılarımız beynəlxalq turnirlərdə, Avropa, dünya çempionatlarında qələbələr qazanmışlar. Azərbaycanda bir neçə beynəlxalq səviyyəli mötəbər yarış keçirilmişdir. Azərbaycan həqiqi mənada idman dövlətinə, ölkəsinə çevrilmişdir. Azərbaycanda yeni gənc nəsil yetişmişdir. Biz yeniyetmələrin hazırlığına böyük diqqət göstəririk. Əgər yeniyetmə idmanı olmasa, ümumiyyətlə, ölkədə idman inkişaf edə bilməz".

Azərbaycanda gözəl yeni nəsil-bizim gələcəyimiz-gənclər yetişir. Mən çox şadam ki, onlar vətənpərvərlik ruhunda tərbiyə alırlar. İdman vətənpərvərlik ruhunun daha da yüksəldilməsində çox mühüm rol oynayır. Hər dəfə beynəlxalq yarışlarda Azərbaycanın milli bayrağı qaldırılanda,dövlət himni səslənəndə hər birimizin qəlbi qürur hissi ilə dolur. Bu vətənpərvərlik bizə lazımdır.

Azərbaycan gənc, müstəqill dövlətdir. Ölkəmizin qarşısında çoxlu problemlər, çoxlu məsələlər durur. Bütün bu problemləri həll etmək üçün xalqımızın birliyi, səfərbərliyi lazımdır və əlbəttə ki, vətən-

pərvərlik burada çox mühüm rol oynayır. Mən çox şadam ki, Azərbaycan gəncləri bu gün ölkəmizin inkişafı, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi işində fəal iştirak edirlər.

Gənclər bizim gələcəyimizdir. Bilirsiniz ki, mən gənclərə həmişə böyük diqqətlə yanaşmışam. Bir müddət əvvəl özüm də gənc idim və idmanla da məşğul olurdum, bu gün də məşğulam. Həm də idmana rəhbərəlik edirəm. Gənəcləri belə möhkəm görəndə, onların vətənpərvərlik ruhunu görəndə çox sevinirəm. Azərbaycanın gələcəyi bax büdür, bu gənclərdir, idmançılardır, gənc nəsildir. O nəsil ki, daha da yaxşı şəraitdə yaşayacaqdır.

Biz gənclərin qayğıları ilə yaşayırıq. İndi məktəblərin tikintisi sürətlə gedir, geniş vüsət alıbdır. Bütün məktəblərdə kompyüter sinifləri yaradılacaqdır ki, gənclərimiz, şagirdlərimiz dünyada gedən bütün proseslərdən xəbər tuta bilsinlər. Bir sözlə, gənclər bu gün Azərbaycanın çox fəal təbəqəsidir və gələcəkdə Azərbaycanı onlar idarə edəcəklər. Biz Azərbaycanı onlara təhvil verəcəyik, iqtidarı onlara təhvil verəcəyik. Bir neçə ildən sonra indiki gənclər Azərbaycanda rəhbərliyə gələcəklər. Onlar gərək elə təhsil alsınlar, elə tərbiyə alsınlar ki, Azərbaycanı ləyaqətlə idarə etsinlər. Azərbaycan qarşısında duran bütün məsələləri həll etsinlər.

Azərbaycan gənclərinin sağlamlığı ən prioritet məsələlərdən biridir. Siz idmaçılar, çox yaxşı bilirsiniz ki, idmanla məşğul olan insanlar heç vaxt mənfi hərəkətlərə yol verməzlər. Əksinə onlar uşaqlar üçün, yeniyetmələr üçün nümunədir, örnəkdir. Hesab edirəm ki, apardığımız təbliğat işləri də çox uğurlu olubdur. Azərbaycan cəmiyyətində böyük hörmətlə, rəğbətlə yanaşırlar. Bilirəm ki, idmançı olmaq artıq uşaqlar üçün çox cəlbedici bir peşə olubdur. Bu onu göstərir ki, idmanla məşğul olan şəxs, medal qazanan şəxs, Azərbaycanı dünyada ləyaqətlə təmsil edən şəxslər, onların fəaliyyəti layiqincə qiymətləndirəcəklər.

Çox sevinirəm ki, bu gün Azərbaycanın idmanı hərtərəfli inkişa edir. Azərbaycanın müxtəlif yerlərində 8 olimpiya kompleksi tikilibdir. İndi daha 5 kompleksin tikilməsi nəzərdə tutulur. Beləliklə, biz verdiyimiz sözə sadiq çıxdıq. Azərbaycanın hər bir bölgəsində idmanla məşğul olmaq üçün gözəl şərait var və bu şərait dünya standartlarına cavab verir.

Sərbəst güləş üzrə Dünya kuboku yarışlarının rəsmi qonaqlarını (3.4.2004), Beynəlxalq Olimpiya Komitəsinin (BOK) vitse-prezidenti Vitali Smirnovu (19.4.2004), Azərbaycan Respublikanın prezidenti



MOK-un prezidenti İlham Əliyevə BOK-un «Olimpiya Ordeni»nin təqdimetmə mərasmi keçirilmiş (19.4.2004), Kalmikiya Respublikasının Prezidenti, FİDE-nin prezidenti Kirsan İlyumjinovu (23.6.2004), Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çunu (26.7.2004), FİFA prezidenti Yozef Blatteri, UEFA-nın vitse-prezidenti Şenes Erzoku və UEFA İcraiyyə Komitəsinin üzvü Mişel Platinini (13.10.2004) qəbul etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il noyabrın 30-dan dekabrın 1-dək Qətər dövlətində rəsmi səfər zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair sənədlərlə yanaşı Azərbaycan Respublikası MOK-un və Qətər Dövlət Milli Olimpiya Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu da imzalanmışdır. Sənədi Azərbaycan MOK-un baş katibi Ağacan Abiyev və Qətər Baş nazirinin birinci müavini, xarici işlər naziri Həməd bin Casim bin Cabir Al Tani imzalamışlar.

«Olimpiya Ordeni»nin verilməsi ilə əlaqədar olaraq qərar Beynəlxalq Olimpiya Komitəsi İcraiyyə Komitəsinin 2004-cü ilin fevralında Afinada keçirilmiş iclasında çıxarılmışdır. Bununla əlaqədar olaraq BOK prezidenti Jak Roq 2004-cü il martın 4-də İlham Əliyevə təbrik məktubu göndərmişdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə «Olimpiya Ordeni»ni təqdim etmək üçün Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov 2004-cü il arprelin 18-də Azərbaycana rəsmi səfərə gəlmişdi. Aprelin 19-da Bakıda həndbol üçün tikilmiş yeni idman kompleksinin açılışında ordenin təqdimatı olmuşdur. Təqdimat mərasimində Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev çıxış etdi.

İlham Əliyevin Olimpiya Hərəkatının inkişafında böyük xidmətləri olduğunu qeyd edərək, BOK-un vitse prezidenti Vitali Smirnov çıxışında demişdir: «Biz idmanın möhkəmləndirilməsi, gənclərin bədən tərbiyəsi ilə məşğul olması üçün görülən bütün işlərə görə ölkənin Prezidentinə, Olimpiya Komitəsinin prezidentinə minnətdarıq. Belə bir xəbəri də sizə çatdırmağı özümə böyük şərəf hesab edirəm ki, Beynəlxlq Olimpiya Komitəsi Respublika Prezidentinin, Olimpiya Komitəsinin prezidentinin görkəmli xidmətlərini nəzərə alaraq, onun ən ali Olimpiya mükafatı – «Olimpiya Ordeni» ilə təltif olunması barədə qərar qəbul etmişdir. Mən bu bayram günündə həmin mükafatı Sizə təqdim etmək istərdim. İcazə verin, Beynəlxalq Oimpiya Komitəsi tərəfindən göndərilmiş rəsmi sənədin mətnini oxuyum: «Hörmətli

cənab prezident! Dünya idmanının inkişafı işində xidmətinizə və Olimpiya Hərəkatının banisi Pyer de Kubertinin irəli sürdüyü Oimpiya ideyalarında sədaqətinizə hörmət nişanəsi olaraq Sizə Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – «Olimpiya Ordeni təqdim edilir.»

Azərbaycanda beynəlxalq yarışların keçirilməsi sahəsində böyük uğurlar qazanmışdır. Müxtəlif idman növləri üzrə dünya və qitə çempionatlarının, dünya kuboku yarışlarının Azərbaycana salınması artıq ənənə şəkilini alımşdır. 2004-cü ildə Bakıda Oimpiya Oyunlarına vəsiqə verən üç mötəbər turnir təşkil olunmuşdur.

2004-cü il yanvarın 5-də Heydər Əliyev adına Bakı İdman-Konsert Kompleksində qadınlar arasında voleybol üzrə Olimpiya lisenziya turniri keçirilmişdir. Turnirdə qitənin 8 ən güclü yığması – Almaniya, Hollandiya, Polşa, Rusiya, İtliya, Bolqarıstan, Türkiyə və Azərbaycan komandaları mübarizəyə qoşulmuşdular.

Voleybol üzrə Olimpiya lisenziya turnirinin təntənəli açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər. CEV-in baş katibi Yan Xronik də yarışları izləmişdi.

Yığmamız «A» qrupunda Polşa, Almaniya və Rusiya yığmaları ilə bərabər mübarizə aparmışdır. «B» qrupunda isə Bolqarıstan, Türkiyə, Hollandiya və İtaliya yığmaları qarşılaşmışlar.

İlk görüşdə Rusiya komandasına 3:1 hesabı ilə məğlub olan voleybolçularımız növbəti matçda almanlarla yarışmışlar. Qarşılaşma Almaniya millisinin 3:0 hesabı qələbəsi ilə başa çatmışdır. Voleyboçularımız sonuncu oyunlarında polşalılara 3:0 hesbı ilə qalib gəlsələr də, ümumi nəticədə qrupda sonuncu yeri tutaraq növbəti mərhələyə yüksələ bilməmişlər. 6 gün davam edən yarışda Almaniya komandası Afina-2004-ə yeganə vəsiqə qazanmışdır.

2004-cü il aprelin 17-dən mayın 2-dək Bakı İdman Sarayında Ənvər Çoudrinin boks üzrə Olimpiya təsnifat turniri keçirilmişdir. Bu turnirdə 35 ölknənin 100 boksçusu XXVIII Afina Yay Olimpiya oyunlarına lisenziya əldə etmək uğrunda mübarzə aparıb. 5 gün davam edən yarışlarda 6 çəki dərəcəsində Afina Olipiya oyunlarına vəsiqə qazanan idmançıların adları məlum olub.

Beynəlxalq Həvəskar Boks Assosiasiyasının baş katibi Canel Doqanelli açılış mərasimindəki çıxışında paytaxtımızda keçirilən bu yarışın beynəlxalq aləmdə özünəməxsus yer tutduğunu nəzərə çatdırıb. O, Azərbaycanda boksun çox yüksək səviyyədə inkişaf etdiyini, idmançılarımızın beynəlxalq yarışlarda uğurlar qazandıqlarını fərəhlə qeyd edib. AİBA respublikamızda boks idmanına göstərilən qayğını, boksçularımzın beynəlxalq yarışlarda əldə etdikləri uğurları nəzərə alaraq, ənənəvi keçirilən Ənvər Çoudri turnirinin Olimpiya lisenziyalı olmasını məqsədəuyğun sayıb. O, iştirakçılara uğurlar diləyib, Afinaya lizenziya uğrunda güclülərin qalib gəlməsini arzulayıb.

Yarışı 20 ölkədən 26 AİBA və EABA dərəcəli hakimlər idarə ediblər.

Boks üzrə Olimpiya təsnifat turnirində Azərbaycan boksçuları Ceyhun Əbiyev (48 kq), Ağasi Məmmədov (54 kq) və Əli İsmayılov (81 kq) Afina oyunlarına lisenziya qazanıblar.

Mayın 1-də Bakı İdman Sarayında Beynəlxlq Həvəskar Boks Assosiasiyasının prezidenti professor Ənvər Çoudrinin şərəfinə boks üzrə Olimpiya lisenziya turnirinin yarımfinal görüşləri keçirilmişdr.

Yarımfinal görüşlərini izləmək üçün Bakı İdman Sarayına gələn Prezident İlham Əliyevi salondakılar alqışlarla qarşıladılar.

Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Ceçev idmanın inkişafında böyük xidmətlərinə görə, assosiasiya adından Azərbaycan prezidenti İlham Əliyevə bu beynəlxaq təşkilatın xüsusi *mükafatını təqdim etdi. Dövlətimizin* başçısı *mükafata* görə minnətdarlığını bildirdi.

Görüşlər başa çatdıqdan sonra Azərbaycan prezident İlham Əliyev rinqə qalxaraq, Afina Olimpiadasına lisenziya qazanmış boksçularımız Ceyhun Abiyevi, Fuad Aslanovu, Ağasi Məmmədovu, Şahin İmranovu, Rövşən Hüseynovu, Ruslan Xairovu, Cavid Tağıyevi, Əli İsmayılovu və Vüqar Ələkbərovu, habelə onların məşqçiləri – baş məşqçi Məmməd Eyvazovu, məşqçilər Vaqif Kazımov və Əsgər Eyvazovu bu böyük nailiyyət münasibətilə təbrik etdi, idmançılarla xatirə şəkli çəkdirdi.

Aşağıdakı boksçular Bakıda keçirilən boks üzrə Avropa Olimpiya Təsnifat Turnirində XXVIII Afina Yay Olimpiya oyunlarına vəsiqə qazandılar. 48 kq – Ceyhun Abiyev (Azərbaycan), Atagün Yalçinkaya (Türkiyə), 54 kq – Ağasi Məmmədov (Azərbaycan), Kavacı Katsiqov (Belarus), 60 kq – Murad Kraçov (Rusiya), Vladimir Kravets (Ukrayna), 69 kq – Bülənt Ulusoy (Türkiyə), Vitali Qrusaç (Moldova), 81 kq – Əli İsmayılov (Azərbaycan), Məmmədov Aribhacıyev (Belarus), +91 kq – Aleksey Mazikin (Ukrayna).

Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turzm Nazirliyi və Azərbaycan Taekvondo Federasiyasının birgə təşkilatçılığı ilə keçi-

rilən bu mötəbər yarışda qitənin 37 ölkəsindən 120-ə yaxın ən güclü idmançı 8 çəki dərəcəsində qüvvəsini sınayıb. Dünya və Avropa taekvondo federasiyalrı rəsmilərinin də izlədiyi bu yarış özünün mötəbərliyi ilə diqqəti cəlb edib. Qeyri-Avropa ölkələrini təmsil edən 25 beynəlxalq dərəcəli referi yarışları idarə ediblər.

Taekvondoçularımızdan yalnız dünya çempionu Niyaməddin Paşayev Afina Olimpiya oyunlarına lisenziya qazanıb.

19 aprel 2004-cü ildə Bakıda dünya standartlarına cavab verən müasir «ABU ARENA» idman kompleksinin təntənəli açılışı olmuşdur.

İdman kompleksində üzgüçülük hovuzu, konfrans salonu, yardımçı otaqlar, xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizdə idmana göstərdiyi diqqət və qayğısı, eləcə də Azərbaycan Həndbol Federasiyasının tarixi, idmançıların uğurları Milli Olimpiya Komitəsinin fəaliyyətini əks etdirən fotoguşələr, qazanılmış kubok və mükafatlar yerləşdirilmişdir.

Azərbaycan Həndbol Federasiyası və ABU İdman Klubu tərəfindən bir il ərzində tikilən bu kompleksdə həndbol üzrə ən yüksək səviyyəli yarışların keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Eyniadlı otel isə dünya və Avropa səviyyəli yarışların iştirakçılarını qəbul edəcəkdir.

Prezident İlham Əliyev və Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov bu möhtəşəm idman obyektinin rəmzi açılışında iştirak etmişlər.

16-21 noyabr 2004-cü ildə Bakıda hərbçilər arasında cüdo üzrə 30-cu dünya çempionatı keçirilmişdir. Çempionatda 22 ölkədən 300-ə yaxın idmançı mübarizə aparmışdır.

Cüdo üzrə hərbçilərin 30-cu dünya çempionatının komanda yarışlarında ölkəmizin yığması qadınların komanda yarışlarında 3-cü, kişilərin mübarizəsində isə 1-ci olmuşdur. Fərdi yarışlarda Azərbaycanın hərbçi cüdoçuları 3 qızıl və 6 bürünc medal qazanmışlar.

17 dekabr 2004-cü ildə Bakı İdman Sarayında ilk peşəkar boks yarışı keçirilmişdir.

2004-cü il may ayının 11-də Heydər Əliyev adına İdman və Konsert Kompleksində Yeniyetmələrin IV Respublika Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Açılış mərasimindən öncə respublika idman ictimaiyyətinin nümayəndələri Fəxri Xiyabanda Ümummilli Liderimiz Heydər Əliyevin məzarını ziyarət edərək gül və əklil qoymuşlar. Sonra onlar Şəhidlər Xiyabanına gələrək, 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin məzarlarını yad etmiş, «Əbədi məşəl» xatirə kompleksinə də əklil qoymuşlar.



Yeniyetmələrin IV oyunlarında 16 idman növündə 154 proqram üzrə mübarizə aparılmışdır. Onlardan 95-i oğlanlara, 59-u isə qızlara aiddir. Yarışların final mərhələsində 6319 nəfər iştrak etmişdir.

Yeniyetmələrin IV Respublika Oyunlarında öz kütləviliyi ilə birinci yerdə gedən futbolda 1350 nəfər yeniyetmə öz qüvvəsini sınayıb. İştirakçıların sayına görə ikinci yerdə 1006 nəfərlə voleybol, üçüncü yerdə isə 546 nəfərlə basketbolçularımız qərar tutmuşlar.

Qılıncoyntma, bədii gimnastika və böyük tennis üzrə yarışların nəticələri ümumi komanda hesabına daxil edilməmişdir. Futbol yarışlarında 1350 nəfər iştirak edirdi. Kütləviliyinə görə ikinci yerdə voleybol, üçüncü yerdə isə basketbol üzrə yarışlar keçirildi.

2004-cü il aprelin 19-da Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovu, Kalmikiya Respublikasının prezidenti, FİDE-nin prezidenti Kirsan İlyumjinovu (23.06), Dünya Taekvondo Federasiyasının prezidenti Çanq Von Çunu (26.07), FİFA prezidenti Yozef Blatteri, UEFA-nın vitse-prezidenti Şenes Erzoku və UEFA İcraiyyə Komitəsinin üzvü Mişel Platinini qəbul etmişdir.

Həmin ilin aprel ayında ölkəmiz bir neçə beynəlxalq yarışa ev sahibliyi etdi ki, onlardan biri də sərbəst güləş üzrə Dünya Kuboku yarışı idi. Qeyd edək ki bu yarışda dünyanın hər qitəsini güclü bir komanda təmsil edirdi. Yarışda Azərbaycan, Kanada və Cənubi Afrika Respublikasının komandaları "A" qrupunda, Rusiya, İran və Kuba idmançıları "B" qrupunda mübarizə aparıblar. Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən təntənəli açılış mərasimində ölkəmizin başçısı Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev iştirak edib.

Sərbəst güləş üzrə Dünya kuboku yarışında ölkəmizi Namiq Abdullayev (55 kq), Abil İbrahimov (60 kq), Nazim Əlicanov (60 kq), Elman Əsgərov (66 kq), Rövşən Hacıyev (66 kq), Elşad Allahverdiyev (74 kq), Hacımurad Məhəmmədov (84 kq), Vüqar Qurbanov (84 kq), Rüstəm Qurbanov (84 kq), Rüstəm Ağayev (96 kq), Nikolay Tilegin (120 kq), təmsil ediblər. Gərgin şəraitdə keçən mübarizədə idmançılarımız inamla çıxış edərək, dünya kubokuna sahib olublar.

İranda gənclər arasında sərbəst güləş üzrə beynəlxalq turnirdə isə 4 pəhləvanımız iştirak edib. Anar İsmayılov (60 kq), ikinci Vəli Allayhverdiyev isə üçüncü yerə layiq görülüb.

Türkiyənin paytaxtı Ankarada sərbəst güləş üzrə 47-ci Avropa çempionatında ölkəmizi Namiq Sevdimov (55 kq), Abil İbrahimov (60 kq), Rövşən Hüseynov (66 kq), Elnur Aslanov (74 kq), Vüqar Qurbanov (84 kq), və Rüstəm Ağayaev (96 kq) təmsil ediblər. Təmsilçilərimiz Rüstəm Ağayev 3-cü yerə layiq görülüb.

İsveçin Haparanda şəhərində yunan-Roma güləşi üzrə Avropa çempionatı keçirilib. Ölkəmizi bu yarışlarda Rövşən Bayramov (55 kq), Vitali Rəhimov (60 kq) və Vüqar Aslanov (74 kq) təmsil ediblər. Qitə birinciliyində heç bir idmançımız mükafatlar sırasında yer ala bilməyib.

Bolqarıstanın Plovdiv şəhərində qılıncoynatma üzrə gənclər arasında dünya birinciliyi keçirilib. Bu mötəbər yarışda ölkəmizin idman şərəfini Ramin Əmirov, Ruslan Əzizov və İlham Bünyatov qoruyublar. R.Əzizov 87 nəfər arasında 33-cü yeri tutub. İ. Bünyatov 59-cu, R.Əmirov 71-ci sırada qərarlaşıblar. Ölkəmiz 21 komandanın mübarizəsində 17-ci olub.

Belçikanın Gent şəhərində qılıncoynatma üzrə Afina Olimpiya Oyunlarına lisenziya verən qitənin zona turniri keçirilib. Ölkəmizi bu turnirdə Azərbaycan Qılıncoynatma Federasiyasının vitse-prezidenti Yaşar Məmmədovun rəhbərliyi altında sablyaçı Ruslan Əzizov təmsil edib. O, bu yarışda 10-cu yeri tutub İdmançımız gənclər arasındakı son dünya reytinqində 311 qılıncoynadalar arasında 54-cü sırada olmuşdur.

Aprelin 23-35-də paytaxtımızda bədii gimnastika üzrə Dünya kuboku mərhələ yarışının keçirilməsi ilin ən mötəbər idman hadisələrindən biri sayılmışdır. Dünyanın 22 ölkəsindən 50-ə yaxın gimnastın iştirak etdiyi yarışın təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də iştirak edib. Respublikamız bu yarışda 5 gimnastla təmsil olunub. Komandamızın lideri Afina Olimpiadasına lisenziya qazanmış Dinarə Gimatova ilə birlikdə, yarışda Anna Qurbanova, Vəfa Hüseynova, Dina Qorina və Valeriya Yeqay mübarizə aparıblar. Təmsilçilərimiz Dinarə Gimatova gürz ilə hərəkətlərin cəmində bürünc medal qazanıb. Ümumilikdə isə əldə edilmiş medalların sayına görə ölkəmiz üçüncü olub.

Gimnastımız Anna Qurbanova Riqada keçirilən beynəlxalq «Baltik halqası» turnirində uğurla çıxış edib. O, gürzlərlə hərəkətin finalında 25,1 xal toplayaraq gümüş medala layiq görülüb. Halqa ilə hərəkətlərdə isə gimnastımız 5-ci olub. Qurbanova digər iki növdə 6-cı yeri tutub. Beləliklə, idmançımız yarışı 4-cü pillədə başa vurub. O



həmçinin hərəkətin ən gözəl şəkildə ifasına görə turnirin xüsusi mükafatına layiq görülüb.

Rusiyanın Ulyanovski şəhərində Ulyanovski vilayətinin qubernatoru V.A.Şamanovun mükafatları uğrunda bədii gimnastika üzrə beynəlxalq turnir keçirilib. Yarışda ölkəmizi Dinarə Gimatova, Vəfa Hüseynova, Dina Qorina və Valeriya Yeqay təmsil ediblər. D. Gimatova çoxnövçülük yarışlarında 94,148 xal toplayaraq, ümumi nəticədə 4-cü olub. Topla hərəkətlərdə 22,833 xal toplayaraq, 6-cı yeri tutan V. Yeqay halqa ilə hərəkətləri 21:33 xalla 8-ci pillədə başa vurub. D. Qorina lentlə hərəkətlərdə 21,799 xal toplayaraq, 6,cı olub. V. Hüseynova topla hərəkətlərdə 20,366 xal əldə edərək, 8-ci yeri tutub.

2004-cü il iyunun 22-də Azərbaycan Milli Olimpiya Komtəsinin inzibati binasında «Olimpiya ruhu» sərgisinin açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos mərasimdə iştirak etmişlər.

2004-cü ildə Azərbaycan rəqqasları ilk beynəlxalq uğurlarını qazanıblar. Həmin il suveren ölkəmizin bayrağı İngiltərə çempionatının Avropa proqramı üzrə gənclər arasında (21 yaşaqədər, 13/x) bürünc medallarının sahibləri Eldar Cəfərov və Anna Sajinanın şərəfinə qaldırılır. Sonralar böyüklər arasında 10 rəqs üzrə İngiltərə çempionatının gümüş, eyni yaş kateqoriyasında və gənclər arasında Hollandiya çempionatının (Assen, 11-14 noyabr, 2004-cü il) Avropa proqramı üzrə qızıl medallarını qazanan rəqqaslarımız Gran Prix de Paris Bersu yarışlarında (29/1 2005-ci il) gümüş medal əldə etmişlər.

Yunanıstan Mədəniyyət Nazirliyinin sponsorluğu ilə bu ölkənin Bakıdakı səfirliyinin təşkil etdiyi sərgi «Antik Olimpiya Oyunları», «Müasir Olimpiya oyunlarının bərpası» və «Afina-2004» mövzularını əhatə etmişdir. Birinci və ikinci bölmələr Yunanıstan muzeyləri və arxivlərinin eksponatları əsasında hazırlanmışdır. Sonuncu bölmə isə Afina Olimpiya oyunlarının idman qurğularından bəhs etmişdir.

Dövlət başçısı sərginin açılışını bildirən lenti kəsmişdir. Sonra MOK-un akt salonunda respublikamızın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilmişdir. Yığıncaqda Azərbaycan Prezidenti İlham Əliyev və Yunanıstan Prezidenti Konstantinos Stefanopulos nitq söyləmişlər.

Azərbaycan Respublkasının Prezidenti, MOK-un prezidenti İlham Əliyev nitqində qeyd etmişdir ki, səfər çərçivəsində müxtəif tədbirlər olmuşur. Çox sevindirici haldır ki, belə tədbirlərdən biri də

Milli Olimpiya Komitəsində açılan bu sərgidir. Mən əminəm ki, bu sərgi böyük maraqla qarşılanacaqdır.

Yunanıstan prezidenti Konstantinos Stefanopulos nümayəndə heyəti adından Azərbaycan Prezidenti İlham Əliyevə qədim Olimpiya Oyunlarına həsr olunmuş albom bağışlamışdır.

Görüşdən sonra iki ölkənin prezidentləri və görüşə toplaşanlar «Olimpiya ruhu» sərgisi ilə tanış olmuşlar. Böyük maraq doğuran bu sərgi bir həftə davam etmişdir.

2004-cü il iyulun 31-də Azərbaycan Milli Olimpiya Komitəsinin inzibati binasında Rusiya Olimpiya Komitəsi ilə Azərbaycan Olimpiya Komitəsi arasında idman sahəsində qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Müqaviləni Azərbaycan tərəfindən MOK-un birinci vitse-prezidenti, gənclər, İdman və Turizm naziri Əbülfəz Qarayev, Rusiya tərəfindən isə Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Tyaqaçov imzalamışlar.

2004-cü ildə Azərbaycan rəqqasları ilk beynəlxalq uğurlarını qazanıblar. Həmin il suveren ölkəmizin bayrağı İngiltərə çempionatının Avropa proqramı üzrə gənclər arasında (21 yaşaqədər, 13/x) bürünc medallarının sahibləri Eldar Cəfərov və Anna Sajinanın şərəfinə qaldırıml. Sonralar böyüklər arasında 10 rəqs üzrə İngiltərə çempionatının gümüş, eyni yaş kateqoriyasında və gənclər arasında Hollandiya çempionatının (Assen, 11-14 noyabr, 2004-cü il) Avropa proqramı üzrə qızıl medallarını qazanan rəqqaslarımız Gran Prix de Paris Bersu yarışlarında (29/1 2005-ci il) gümüş medal əldə etmişlər.

2004-cü ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 191 medal qazanmışdır (Onlardan 62 qızıl, 43 gümüş, 86 bürünc)

Əgər 1988-2000-ci illərdə Azərbaycanda üç beynəlxalq turnir və bir Avropa çempionatı keçirilmişdirsə, 2001-2004-cü illərdə üç Olimpiya təsnifat turniri, 4 dünya çempionatı, 3 Avropa çempionatı, dünya və Avropa kubokları, müxtəlif idman növləri üzrə 16 beynəlxalq turnir keçirilmişdir. 2005-2007-ci illərdə isə həmin turnirlərin sayı daha çox oldu. Bütün bunlar Azərbaycanın və onun idmanının şöhrəti, ölkəmizin iqtisadi qüdrətinin göstəricilərindəndir.

İnsanın vətənpərvərlik hissinə malik olması ən ali əxlaqi-mənəvi məziyyətləri sırasında ilkinlərdən hesab olunur. Çünki vətənpərvərlik dedikdə onun əsas komponentləri olan doğulduğun torpağı, yaşadığın ölkəni sevmək, onun uğrunda çalışmaq, ona əməlləri ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlərlə yanaşı, insanın ləyaqətlilik, əqidəlilik, vicdanlılıq, sədaqətlilik əlamətləri də başa düşülür. Bu da təbidir. Axı Vətən anadır. Onun qədrini bilməliyik, çətinliklərinə dözməliyik. Torpağı qoruyarsan Vətən olar, qorumazsan kəfən.Vətən sevgisi, Vətənə sədaqət, onun çiçəklənməsi üçün çalışmağa hazır olmaq ən çətin anlarda belə adamların qüvvələrini vahid məqsəd – Vətənin azadlığı, xilası naminə səfərbər edir. Bu cəhətdən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Azərbaycan Mədəniyyətinin dostları Fondunun prezidenti, «Yüzilliyin mesenatı» Beynəlxalq Xeyriyyə Fondunun «Yaqut xaç» ordeninə təqdim olunmuş, «2005-ci ilin adamı» mükafatna layiq görülmüş, Milli Məclisin deputatı Mehriban Arif qızı Əliyevanın təşkilatçılığı, xeyriyəçiliyi və vətənpərvərliyi buna parlaq misaldır. Mehriban xanım Əliyevanın nəinki bu gün gördüyü işlərə, həm də bu işləri necə gördüyünə heyrandılar. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev fondunun fəaliyyəti çoxsahəlidir. Təhsil, səhiyyə, elm və texnologiya, idman, sosial problemlər – bütün bu sahələrdə Fond tərəfindən proqramlar hazırlanaraq həyata keçirilir.

Mehriban xanım Əliyeva deyir: «Fond yaradılan ilk gündən qarşımıza çox böyük və mühüm məqsədlər qoymuşduq. Biz arzu edirdik ki, cəmiyyətimizdə adımıza layiqli bir yer tutaq və Heydər Əliyevin dövlətçilik, azərbaycanlılıq, vətənpərvərlik fəlsəfəsini davam etdirməyə qadir olaq. Bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, hər bir insanı, hər bir təşkilatı, hər bir qurumu təmtəraqlı sözlər yox, tərif və parlaq epitetlər yox, gördüyü işlər və əldə edilən nəticələr xarakterizə etməlidir».

«Yeniləşən Azərbaycana yeni məktəb», «İnternat məktəbləri və uşaq evlərinin inkişafı» proqramları, «Diabetli uşaqlara ən yüksək qayğı», «Talasse miyasız yaşam» layihələri, «Qarabağ xanəndələri» albomları – bütün bunlar Heydər Əliyev Fondunun 2005-ci ildəki fəaliyyətinin yalnız bir qismidir. Məhz bu əməllərə görə Heydər Əliyev Fondu bu gün cəmiyyətdə böyük nüfuza malikdir və böyük dəstəyə, hörmətə malik olan bir qurumdur.

2005-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü və birbaşa iştirakı ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı şəkildə bərpa edildi. Bu, hər ay orta hesabla iki məktəbin bərpa olunması deməkdir. Bakıda, Xaçmazda, Əli Bayramlıda, Sumqayıtda, Şəkidə, Astarada, İsmayıllıda, Ağdam və Bərdədə, Beyləqanda, Gədəbəy, Saatlı, Zərdab, Yar( mlı, Qax, Göyçay, Qusar, Le-

rik, Salyan, Naxçıvan MR-nın Şahtaxtı kəndində və bir sıra kəndlərdə yerləşən və qəza vəziyyətində olan 132 məktəb inşa olunub istifadəyə verildi.

Fondun prezidentinin təşəbbüsü ilə «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramı işlənib hazırlanmışdır. Proqram üzrə uşaq evləri və internat məktəblərində mövcud problemlərin həll olunması üçün 4 əsas istiqamət müəyyən edilmişdir: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq.

Fondun rəhbəri Bakının və ölkəmizin əksər rayonlarındakı uşaq evləri və internat məktəblərində şəxsən olaraq, proqramın texniki dəstək istiqaməti üzrə işlərin başlanması üçün tapşırıq vermişdir.

Uşaq evləri və internat məktəblərində kitabxanalar yaradılmış, onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuş, əksər uşaq evləri və internat məktəblərində kompyuter avadanlığı quraşdırılmış, sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Bir çoxunda həkim və psixoloq otaqları yaradılmışdır.

Səhiyyə ilə bağlı 310 nəfər şəkərli diabetə düçar olmuş 14 yaşınadək uşaq himayəyə götürülmüşdür və onlar insulinlə təmin edilirlər. 2006-cı ildə Talassemiya Mərkəzinin tikilməsinə başlanacaqdır. Fondun prezidentinin təşəbbüsü ilə Diaqnostika Mərkəzinin də inşası nəzərdə tutulur.

2005-ci ildə Fonda 3 minədn çox adam müraciət edərək, müalicə üçün kömək istəmişdir. Onların hamısına yüksək səviyyədə tibbi yardım göstərilibdir. Xarici ölkələrin səhiyyə müəssisələri ilə əlaqələr yaradılmışdır və xəstələrin bəzilərini oraya göndərmək imkanı vardır.

Mehriban xanımın şəxsi təşəbbüsü ilə Azərbaycan milli musiqisinin incilərindən olan muğamın inkişafı və təbliği ilə əlaqədar görkəmli sənətkarlar dəvət edilməklə dəyirmi masa keçirilmiş və YUNESKO-nun baş direktoru Matsuranın iştirakı ilə Bakı şəhərində beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur.

2005-ci ildə Heydər Əliyev Fondunun həyatında daha mühüm bir hadisə baş vermişdir. Demək olar ki, Heydər Əliyev Fondu beynəlxalq fəaliyyətə başlamışdır. Keçən ilin dekabrında Heydər Əliyev Fondu ilə BMT-nin inkişaf Proqramı arasında kor və zəif görən insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsinə dair layihə sənədi və əməkdaşlıq sazişi imzalanmışdır.

Mehriban xanım Əliyevanın başçılığı altında Azərbaycan Gimnastika **Federasiyası 2005-ci ildə idman** sahəsinə də sanballı töhfələr veribdilər. Zəriflik, gözəllik, güc və incəsənəti özündə birləşdirən



gimnastikanın müxtəlif növlərinin ənənələrini bərpa etmək üçün əsaslı tədbirlər görülübdür.

**Mehriban xanım söylədiyi çıxışda demişdi: Bizim idman tariximiz olduqca zəngindir. İdmançılarımız bir sıra beynəlxalq yarışlarda Azərbaycan bayrağını yüksəklərə qaldırıb, himnimizin səslənməsinə nail olublar. Biz bununla fəxr edirik. Belə ki, idman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir.**

**Bu gün Azərbaycanın idman tarixində yeni səhifə açılır – ilk dəfədir ki, Azərbaycanın paytaxtı Bakı şəhərində Olimpiya idman növü üzrə dünya çempionatı keçirilir.**

Bu şərəf başqa idman növlərinə də nəsib ola bilərdi. Ölkəmizdə son illər idmanın fantastik sürətlə inkişafı bunu deməyə əsas verir və mən inanıram ki, bu, gələcəkdə belə də olacaqdır. Lakin dünya miqyaslı belə bir hadisə ilk dəfə məhz bədii gimnastikada baş verdi.

Biz, sadəcə olaraq, istəyirik ki, Azərbaycanda bədii gimnastika inkişaf etsin. İndi, bu çempionatın bizdə keçirildiyi bir vaxtda, deyə bilərəm ki, mənim üçün bu, üç ildə görülmüş işlərə verilən qiymətdir. İşlər isə, həqiqətən, çox görülmüşdür.

Belə ki, 2003-cü il avqustun 9-10-da Bakı şəhərində keçirilən bədii gimnastika üzrə Dünya kubokunun II mərhələ yarışı sözün həqiqi mənasında Azərbaycan gimnastika tarixinə qızıl hərflərlə yazıldı. Dinarə Gimatova bir gümüş, iki bürünc medal qazandı. Azərbaycan 17 ölkə arasında ikinci oldu ;

2004-cü il aprelin 23-25-də bədii gimnastika üzrə Dünya kubokunun mərhələ yarışında Azərbaycan gimnastı Dinarə Gimatova gürz ilə hərəkətlərdə bürünc medal qazanmışdır ;

2005-ci ilin mayında Dünya kuboku yarışı yüksək səviyyədə keçirilmişdir.

Heydər Əliyev Fondu bu gün ölkəmizin ictimai həyatının ən fəal iştirakçılarından biridir və öz əməlləri ilə cəmiyyətdə böyük hörmətə və dəstəyə malikdir. Biz əminik ki, Fond gələcəkdə də öz fəaliyyətini məhz bu cür davam etdirəcək və Azərbaycanın firavan gələcəyi, Azərbaycan xalqının xöşbəxt bugünü və sabahı naminə çalışacaqdır.

Deməli, müstəqilliyimiz, Vətən sevgimiz, hərbi vətənpərvərliyimiz Mehriban xanım Əliyevanın praktiki olaraq həyata keçirdiyi kimi: quru sözlə deyil, hər şeydən əvvəl təhsil, mədəniyyət, səhiyyə və başqa sahələrdəki işimizin səmərəli səviyyəsilə gücləndirilməlidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazandığı, ərazi bütövlüyü uğrunda mübarizə apardığı, erməni işğalçıları ilə üz-üzə dur-

duğumuz indiki vaxtda, xalqımızın birliyini təmin etməyin daha çox zəruri olduğu indiki dövrdə «İlin adamı» - Vətənin Mehriban qızı kimi şəxsiyyətlərin gördüyü işlər vətənpərvərlik nümunəsində bariz örnəkdir.

2005-ci il yanvarın 01-nə olan statistiki məlumata görə, Azərbaycan idman rəqsləri ilə məşğul olanların sayı 600-dən çoxdur, bu növün inkişaf və təbliğ edilməsi üçün 15-dən çox rəqs-idman kompleksi fəaliyyət göstərir.

2005-ci il aprelin 3-də Heydər Əliyev adına Bakı İdman-Konsert Kompleksində sərbəst güləş üzrə Dünya kuboku yarışının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban xanım Əliyeva mərasimdə iştirak edirdilər. Kompleksə toplaşanlar dövlətimizin başçısını alqışlarla qarşıladılar.

Xalqımızın ümumilli lideri Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq bir dəqiqəlik sükut elan edildi.

Turnirdə Azərbaycan komandası ilə bərabər dünyanın beş ən güclü komandası iştirak edirdi. Avropa qitəsini Rusiya, Cənubi Amerikanı Kuba, Şimali Amerikanı Kanada, Asiyanı İran, Afrikanı isə Cənubi Afrika Respublikasının idmançıları təmsil edirdilər. İdmançılar arasında Olimpiya, dünya və qitə çempionları vardı. Bakıya dünya şöhrətli veteran idmançılar, Rusiyanın, Belarusun, İranın güləş federasiyalarının prezidentləri, beynəlxalq və qitə güləş federasiyalarının rəhbərləri gəlmişdilər.

Azərbaycan, Kanada və Cənubi Afrika Respublikasının komandaları «A» qrupunda, Rusiya, İran və Kuba idmançıları «B» qrupunda mübarizə aparırdılar.

Azərbaycan Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin, Azərbaycan Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışın gedişi televiziya ilə 56 ölkəyə yayımlanırdı.

Yarışın mükafat fondu 120 min ABŞ dolları təyin olunmuşdu.

Dünya kuboku yarışının təntənəli açılış mərasimində ilk olaraq Azərbaycan Güləş Federasiyasının prezidenti Abbas Abbasov çıxış etdi. O dedi: «Zati-alləri, hörmətli cənab Prezident Beynəlxalq Güləş Federasiyasının hörmətli prezidenti cənab Rafael Martinetti! Hörmətli qonaqlar, xanımlar və cənablar! İcazə verin, Bakıda sərbəst güləş üzrə Dünya kuboku yarışının keçirilməsi münasibətilə bütün idmançıları və idmansevərləri Təşkilat Komitəsi və Azərbaycan Güləş Federasiyası adından təbrik edim, hamıya uğurlar arzulayım.



Bu bir həqiqətdir ki, möhtərəm cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra Azərbaycanda idmanın sürətli inkişafı ilə bərabər, ölkəmiz həm də beynəlxalq yarışlar meydanına çevrilmişdir. Bu baxımdan Beynəlxalq Güləş Federasiyasının bizə göstərdiyi yüksək etimadı xüsusi qeyd etmək istəyirəm. Dünya kuboku kimi bir yarışın Azərbaycanda keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyi nəticəsində ölkəmizdə yaranmış ictimai-siyasi sabitliyin nəticəsidir.

Xatırlatmaq istərdim ki, Dünya kuboku kimi çox mötəbər bir yarışın keçirildiyi bu İdman-Konsert Kompleksi unudulmaz Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmış və bu yaxınlarda kompleksə ümummilli liderimizin adı verilmişdir. Biz bu qərarı səmimi qəlbdən alqışlayırıq. İdmanın bütün növləri üzrə Azərbaycan idmanının şanlı keçmişi vardır. Respublikanın rəhbərliyi də, idmançılar da bilirlər ki, ölkəni dünyaya tanıtdıran onun mədəniyyəti ilə bərabər, həm də idmanıdır. Məhz idmandakı qələbə zamanı dövlətin himni səslənir, bayrağımız yüksəyə qaldırılır. Bu, Vətənini sevən hər bir vətəndaş üçün şərəf işidir. Belə duyğularla köklənmiş Azərbaycan güləşçilərinin qələbə sorağını xalqımız həmişə eşitmiş və onların uğurları ilə fəxr etmişdir. Bu gün də xalqımızın gözü Azərbaycan güləşçilərindədir. Fərəhli haldır ki, növbəti olimpiadaya güləşçilərimiz 8 lisenziya qazanmışlar.

Hörmətli qonaqlar və idmansevərlər, sizi bir daha salamlayır, hamınıza möhkəm cansağlığı və uğurlar arzulayıram.»

Sonra Beynəlxalq güləş federasiyasının prezidenti Rafael Martinetti çıxış edərək dedi: «Çox hörmətli cənab Prezident İlham Əliyev! Hörmətli xanımlar və cənablar! Azərbaycanın paytaxtında ilk dəfədir ki, sərbəst güləş üzrə Dünya kuboku kimi mötəbər bir yarış keçirilir. Bakıya belə bir hüququn verilməsi Azərbaycanda son vaxtlar güclü idmançıların yetişməsi və bu ölkədə milli güləşin ənənələri ilə bağlıdır.

Demək lazımdır ki, neft paytaxtı kimi tanınan Bakı getdikcə idman mərkəzi kimi də şöhrətlənir və Beynəlxalq Güləş Federasiyası Azərbaycanda yarış iştirakçıları üçün əla şərait yaradıldığını yüksək qiymətləndirir. İnanırıq ki, iki il öncə keçirilmiş 45-ci Avropa çempionatı kimi, Dünya kuboku yarışı da idmansevərlər üçün əsl bayrama çevriləcəkdir.

Sonra Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinetti Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə FİLA-nın təsis etdiyi xüsusi mükafatı təqdim etdi.

Azərbaycan Respublikasının dövlət himni səsləndi. İştirakçı ölkələrin xalqlarının milli rəqsləri ifa olundu. Qeyd etmək lazımdır ki, yarışların ilk görüşləri günün birinci yarısında keçirilmişdi. «A» qrupunda Kanada Cənubi Afrika Respublikasının komandalarının görüşündə kanadalılar qalib gəlmişdilər. "B" qrupunda isə Rusiya və Kuba komandaları qarşılaşmışdılar. Bu komandaların tərkibində beynəlxalq miqyaslı mötəbər yarışların qalibləri və mükafatçıları, Afina Yay Olimpiya oyunlarına lisenziya qazanan idmançılar olduğundan görüş böyük maraq doğururdu. 120 kq çəki dərəcəsində rusiyalı Olimpiya çempionu, ikiqat dünya, beşqat Avropa çempionu David Musulbeslə kubalı Aleksis Rodriqes arasında olan görüş xüsusilə gərgin mübarizə şəraitində keçdi.

Qarşılaşmada rusiyalı güləşçi David Musulbes rəqibini 4:0 hesabı ilə məğlub etdi və dünyanın ən güclü ağırçəkili pəhləvanı olduğunu bir daha sübuta yetirdi.

«B» qrupunda çıxış edən rusiyalılar Kuba komandasını 21:8 hesabı ilə məğlubiyyətə uğrada bildilər. Həmin gün açılış mərasimindən sonra Azərbaycan və cünubi Afrika Respublikasının güləşçiləri xalça üzərinə çıxdılar. İlk görüşdə 55 kq çəki dərəcəsində Sidney Yay Olimpiya oyunlarının qalibi Namiq Abdullayev Cənubi Afrika Respublikasından olan Vilyams Şaunla qarşılaşdı. Bir-birinin ardınca 9 xal qazanan Olimpiya çempionu görüşün müqəddəratını öz xeyrinə həll etdi. Görüşün sonuna yaxın rəqibin öz aktivinə iki xal yazması ümumi nəticəyə təsir etmədi. Görüş 9:2 hesabı ilə başa çatdı. Bu qələbədən ruhlanan komandamızın digər üzvləri Nazim Əlicanov (60 kq), Elman Əsgərov (66 kq), Elşad Allahverdiyev (74 kq), Vüqar Qurbanov (84 kq), Rüstəm Ağayev (96 kq) və Nikolay Teleqin (120 kq) çıxış etdikləri çəki dərəcələrində öz rəqiblərinə bircə xal belə verməyərək, qələbə qazandılar.

Dünya kubokunun növbəti turunda İran və Rusiya güləşçilərinin apardığı mübarizə turnirdə, həqiqətən də, zəif komandanın olmadığını göstərirdi. Qələbələrin sayına görə Rusiya komandası bu görüşdə birinci oldu. Lakin ümumi xal hesabında bərabərlik yarandı – 13:13. 96 kq çəki dərəcəsində çıxış edən iranlı pəhləvanın qazandığı təmiz qələbəni nəzərə alan hakimlər qaydaya görə, Rusiya idmançılarını məğlub elan etdilər. Yarışların ikinci günü «B» qrupunda mübarizə aparan Azərbaycan pəhləvanları Kanada idmançıları ilə görüşdülər. 55 kq çəki dərəcəsində keçirilən ilk qarşılaşmada komandamızın kapitanı Namiq Abdullayev dünya çempionu Mixail Çaparidze ilə üz-üzə



gəldi. Hər iki hissədə görüşü yüksək səviyyədə keçirən Namiq 4:0 hesabı ilə qələbə qazandı. 60 kq çəki dərəcəsində isə Abil İbrahimovun rəqibi ikiqat dünya çempionu Qia Sisairi oldu. Gərgin mübarizə zəminində keçən görüşdə Qia Susairi çətinliklə də olsa, pəhləvanımızı üstələdi-7:4. 66 kq çəki dərəcəsində xalçaya Elman Əsgərov və Evan Mak Dondd çıxdılar. Həmyerlimiz 8 xal üstünlüyü ilə komandamızın ikinci qələbəsinə imza atdı. 74 kq çəkidə mübarizə aparan Elşad Allahverdiyev – Stiv Roz qarşılaşması pəhləvanımızın 6:1 hesablı qələbəsi ilə sona yetdi. Ən gərgin mübarizə isə Nikolas Uqoalah ilə (84 kq) yığmamızın ən gənc üzvü Vüqar Qurbanov arasında oldu. Kanadalı pəhləvan elə ilk dəqiqələrdən güləşçimizə qarşı güclü müqavimət göstərsə də, görüşün son dəqiqələrinədə Vüqar komandamıza 4-cü qələbəni gətirdi-5:3. Rəqiblərimizin 96 kq çəki dərəcəsində güləşçisi olmadığından idmançımız Firdovsi Umudova texniki qələbə verildi. Ən ağır çəkili pəhləvanların (120 kq) mübarizəsində döşək üzərinə Nikolay Teleqin və Kolria Bell dəvət olundular. Qarşılaşma pəhləvanımızın təmiz qələbəsi ilə (10:0) sona yetdi. Beləliklə, yalnız bir görüşdə məğlub olan pəhləvanlarımız Dünya kubokunun finalında mübarizə aparmaq imkanı əldə etdilər.

Günün birinci hissəsinin son görüşü Kuba və İran pəhləvanları arasında oldu. Kuba pəhləvanlarını 17:10 hesabı ilə yarımfinal mərhələsində mübarizə aparmaq imkanı qazandılar.

Günün ikinci yarısında 3-cü yer uğrunda mübarizədə Amerika qitəsi təmsilçiləri-Kanada və Kuba pəhləvanları mübarizəyə qoşuldular. Bu görüşdə 27:0 hesabı ilə üstün olan kubalı pəhləvanlar 3-cü yeri tutdular. Yarışın final mərhələsində Dünya kubokunun qalibini Azərbaycan və Rusiya pəhləvanları arasında mübarizə müəyyənləşdirməli idi.

Xalçaya birinci 55 kq çəki dərəcəsində Namiq Abdullayev və Cardal Dondupov çıxdılar. Elə ilk dəqiqələrdən ustalıq nümayiş etdirən güləşçimiz hesabda irəli çıxdı və komandamıza ilk qələbəni qazandırdı. Lakin 60 kq çəki dərəcəsində təmsilçimiz Abil İbrahimov rəqibi Aleksandr Kontoyevin müqavimətini qıra bilmədi. Elman Əsgərov və Dmitri Kirilov görüşündə idmançımız komandamıza növbəti xalı gətirdi. 74 kq çəkidə Sergey Vitkovski Elşad Allahverdiyevi məğlub etdi. Vüqar Qurbanovla Teymuraz Kotçiyevin (96 kq) mübarizəsi idmançımızın qələbəsi ilə başa çatdı. Sonra Rüstəm Ağayev (96 kq) Aleksey Şemarovu 3:2 hesabı ilə uddu. Nikolay Telegin və David Mussulbesin qarşılaşması rus idmançısının xeyrinə başa çatdı. Buna baxmayaraq

ümumi hesabda (4:3) qalib gələn yığmamız ilk dəfə olaraq, Dünya kubokuna sahib oldu.

Sonda bir fərəhli faktı da qeyd etmək lazımdır. 2007-ci ildə paytaxtımız sərbəst güləş üzrə dünya çempionatına ev sahibliyi edəcəkdir. Bu isə Pekin-2008 Oyunlarına lisenziya verəcək çempionat olacaqdır.

2005-ci il aprelin 08-20-si tarixlərində Səudiyyə Ərəbistanı Krallığında tarixdə ilk dəfə I İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Yarışlarda 103 təmsilçimiz 14 idman növü üzrə (basketbol, voleybol, həndbol, su polosu, atletika, tennis, qılıncoynatma, stolüstü tennis, ağır atletika, taekvondo, üzgüçülük və karate) çıxış etmişdilər. 55 ölkənin iştirak etdiyi yarışlar Məkkə, Mədinə, Ciddə və Taif şəhərlərində keçirilmişdir. Azərbaycan idmançıları bu yarışlarda öz aktivlərinə 15 medal - 4 qızıl, 4 gümüş və 7 bürünc medal yazmışdılar.

2005-ci il yanvarın 19-da MDB kuboku uğrunda 4/1final turnirində «Neftçi» komandası Ermənistan komandasına 2:0 hesabı ilə qalib gəldi. Oyunun ikinci yarısının 2-ci dəqiqəsində «Neftci» komandasının 10 nömrəli oyunçusu hesabı açır. Oyunun 75 qəqiqəsində ikinci topu Ermənistan qapısından keçirir. «Neftci» komandası ilk dəfə olaraq MDB ölkələrinin dostluq kuboku uğrunda keçirilən turnirdə Moskvanın «Lokomotiv» komandasına 2:1 hesabı ilə uduzaraq gümüş medal qazandı.

2005-ci il fevralın 25-də «Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və İtaliya Milli Olimpiya Komitəsi arasında texniki və idman sahələrində əməkdaşlıq haqqında» saziş imzalanmışdır. Sənədi Azərbaycan MOK-un baş katibi Ağacan Abiyev və İtaliya MOK-un baş katibi Raffaele Paqnozzi imzalamışlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bədən tərbiyəsi və idman sahəsində birgə əməkdaşlığın genişləndirilməsi, xalqlar arasında dostluq və sülhün daha da möhkəmləndirilməsi məqsədilə MDB İK-nin və İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının (İTBK) təkliflərini nəzərə alaraq, 2005-ci il sentyabrın 23-27-də Bakı şəhərində MDB üzvü olan övlətlərin «Sülh və sağlamlığ dstluqdadır» devizi altında 5-ci Beynəlxalq İdman Oyunlarının keçirilməsi haqqında 2005-ci il martın 28-də sərəncam imzalamışdır.

Şamaxı Olimpiya Kompleksi 2005-ci il aprelin 26-da istifadəyə verilib. Kompleksdə üzgüçülük hovuzu, voleybol, basketbol, tennis, minifutbol meydançaları vardır. Habelə yeməkxana, idmançıların istirahəti üçün kotteclərlə təmin edilib. Açılışda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: **"Bu kompleksin**



**tikintisinə 2003-cü ildə başlanmışdır. Mən xatırlayıram ki, prezident seçkiləri ərəfəsində şamaxılılarla görüş məhz bu kompleksin, bu tikintinin önündə keçirilmişdir. O da xatirimdədir, söz vermişdim ki, kompleksin tikintisi başa çatacaq və bunun açılışını bir yerdə qeyd edəcəyik. Burada ən yüksək standartları nəzərdə tutulubdur. Böyük oyun zalı, üzgüçülük hovuzu, digər oyun meydançaları var, başqa obyektlər, fəaliyyət göstərir. Bir sözlə, dünyanın ən yüksək standartlarına cavab verən bu qurğu şamaxılalara xidmət edəcəkdir. Bilirsiniz ki, Azərbaycanda idmana böyük diqqət verilir və bu diqqət həmişə hiss olunubdur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev gənclərə, idmana, idmançılara daim diqqət göstərirdi. Eyni zamanda, ölkə daxilində idman geniş vüsət alır, Azərbaycanda yeni idman növləri çox sürətlə inkişaf edir, bizim üçün ənənəvi olan idman növləri də güclənir. Milli Olimpiya Komitəsi, Gənclər, İdman və Turizm Nazirliyi, bizim federasiyalarımız, idman cəmiyyətləri, əlbəttə ki, idmançılar, mişqçilər, idman mütəxəssisləri – biz hamımız vahid komanda kimi işləmişik və bu gün Azərbaycanın idmanındakı uğurları məhz bu ardıcıl, məqsədyönlü işin nəticəsidir. Kompleks təkcə Bakıda yox, Azərbaycanın hər yerində olmalıdır və Milli Olimpiya Komitəsi öz əməli işləri ilə artıq bunu sübut edibdir. 2000-ci ildə bizim təşəbbüsümüzlə başlanmış bu quruculuq işləri indi çox gözəl nəticələrini verir. Azərbaycanın müxtəlif yerlərində gözəl, müasir idman kompleksləri insanlarımızın, gənclərimizin sərəncamına verilir, burada həm idmançılar yarışsın, eyni zamanda hər bir insan öz sağlamlığını möhkəmləndirə bilsin.**

**Bu kompleks memarlıq baxımından da gözəldir və deyə bilərəm ki, son illər ərzində Şamaxıda tikilmiş bəlkə də ən yaraşıqlı binadır. Bu da çox vacibdir, çünki yeni ifrastrukturun yaranması, yeni, yaraşıqlı binaların tikilməsi bizim şəhərlərimizi gözəlləşdirir. Mən istəyirəm, hamımız istəyirik ki, Azərbaycanda tikilən bütün binalar gözəl olsun, həm rahat, həm də memarlıq baxımından yaraşıqlı olsun. Hesab edirəm ki, bu binada bütün amillər öz əksini tapmışdır".**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bədən tərbiyəsi və idman sahəsində birgə əməkdaşlığın genişləndirilməsi, xalqlar arasında dostluq və sülhün daha da möhkəmləndirilməsi məqsədilə MDB İK-nin və İdman Təşkilatları Beynəlxalq Konfederasiyasının (İTBK) təkliflərini nəzərə alaraq, 2005-ci il sentyabrın 23-27-də Bakı şəhərində MDB üzvü olan dövlətlərin «Sülh və sağlamlıq dostluqları» devizi altında 5-ci Beynəlxalq İdman Oyunlarının keçirilməsi haqqında 2005-ci il martın 28-də sərəncam imzalanmışdır.

2005-ci il sentyabrın 24-də Bakıda Zəhmətkeşlərin V Beynəlxalq İdman Oyunları start götürdü. Burada 9 ölkə – Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Gürcüstan, Moldava, Qazaxıstan, Türkmənistan və Qırğıstan 1145 atleti mübaizə aparırdı. Onlar badminton, voleybol, ağırlıqqaldırma, daris, atletika, futzal, stolüstü tennis, kəndiratma, üzgüçülük, stritbol idman növləri üzrə keçirilmişdi. Oyunlarda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyamızın əməkdaşları və tələbəlri də iştirak etmişdir.

Sentyabırın 26-da 800 m qaçış üzrə 35 yaşından yuxarı keçirilən mübarizəsində Anatoli Kolomets (2.15.85) birinci, həmyerlimiz atletika kafedrasının baş müəllimi idman ustası Sadıx Sadıxov (2.16.21) ikinci, Mixail Ostaşevski (2.23.52) isə üçüncü olmuşdur.

400 m. məsafəyə qaçış üzrə 35 yaşa qədər qadınlar arasında keçirilən yarışlarda III kursda təhsil alan tələbəmiz Bənövşə İsmayılova IV yerlə (1.08.40) nəticələnmişdir. Akademiyanvn idman işləri üzrə prorektoru idman ustası Dilqəm Quliyev veteranlar arasında (50 – 60 yaş), (100 m. 14.80; 800 m. 3.21.51; yerindən uzununa- tullanma 2.17) birinci yeri tutmuşdur.

35 yaşından yuxarı qrupda paytaxtımızın «Spartak» idman cəmiyyətinin «Rabitə» voleybolçuları qalib gəliblər. Belarus komandası 2-ci, «Neftçi» İSM-in komandası üçüncü olub.

Mini futbol yarışlarında 35 yaşa qədər qrupda Moskva futbolçuları 1-ci olublar. Sonrakı yerləri yerli «İqlim» və Gürcüstan komandaları tutublar.

Yuxarı yaş qrupunda Ukrayna komandası qalib gəlib. Azərbaycanın «Kömrükçü» və «Avtomobilçsi» komandaları da mükafatçılar sırasına düşmüşlər.

Azərbaycan idman tarixində ilk dəfə olaraq Yay Olimpiya Oyunlarının proqramına daxil olan bədii gimnastika üzrə 27-ci Dünya çempionatı keçirilmişdir.

Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində 47 ölkənin iştirakı ilə 27-ci Dünya çempionatı yüksək səviyyədə keçirilmişdir. Həmin çempionatda qrup hərəkətləri üzrə Azərbaycan yığma komandası ilk dəfə olaraq iştirak edib və 5 lentlə çıxış edərək 8-ci yerə layiq görülmüşdür.

Anna Qurbanova, Dinarə Gimatova, Vəfa Hüseynova həmin çempionatda individual hərəkətlər proqramında Azərbaycanı təmsil edərək komanda hesabmda 5-ci yeri tutmuşlar (47 komanda arasında).



**Mehriban xanım deyir: «2002-ci ilin oktyabrında mən Gimnastika Federasiyasının prezidenti seçildikdən sonra biz, ilk növbədə, idmanın bu növünün inkişafı üçün kompleks strategiya hazırladıq. Onu iki bərabər hissəyə bölmək olar. Onlardan biri gimnastikanın son dərəcə geniş yayılmış kütləvi idman növünə çevrilməsinə, digəri isə beynəlxalq əməkdaşlıq sistemi yaradılmasına istiqamətləndirilmişdir».**

**Təkcə onu misal göstərmək olar ki, bədii gimnastika üzrə MDB ölkələri arasında ilk dəfə dünya çempionatının Bakıda keçirilməsi tarixi bir hadisədir. Son 10 ildə Azərbaycanda çox yüksək səviyyəli xeyli beynəlxalq yarışlar keçirilmişdir. Lakin bu idmanın olimpiya növü üzrə ölkəmizdə keçirilən ilk çempionatdır.**

**Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm. Ölkə Prezidenti və Milli Olimpiya Komitəsinin Prezidenti kimi onun gördüyü işlər göz qabağındadır. Sözsüz ki, biz hamımız ona minnətdarıq. Gimnastika Federasiyasının rəhbəri və ölkə Prezidentinin xanımı kimi mən xüsusi vurğulamaq istəyirəm ki, onun qayğısı, yardımı, onun diqqəti olmasaydı, yəqin ki, belə bir çempionatın keçirilməsi yalnız arzu olaraq qalardı.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İham Əliyevin 04 mart 2005-ci il tarixli sərəncamına əsasən hər il 05 mart günü ölkəmizdə «Bədən tərbiyəsi və idman günü» kimi qeyd olunur.**

**2005-ci il 8-17 noyabrda dünya çempionatı**

Bu çempionatda Azərbaycandan olan iştirakçıların sayı 4 nəfərdən ibarət idi.

Azərbaycan yığma komandası bu yarışa bir neçə təlim-məşq prosesində ümumi və xüsusi fiziki hazırlıq məşğələləri keçdikdən sonra gəlmişdir. Yığma komandanın üzvləri – Mirzəyev Turan (77 kq), Paşayev Nizami (94 kq), Səmədov Əlibəy (94 kq), Nahiyev Alan (105 kq) çəkidə çıxış etmişlər.

Mirzəyev Turan 77 kq çəki dərəcəsində 25 iştirakçı arasında iki əllə birdən qaldırma hərəkətində 140, 144 kq çəkiləri dəf etmiş təkanla qaldırma hərəkətində birinci yanaşmada 175 kq-ın öhdəsindən gəlmiş, lakin sonrakı cəhdləri uğursuz olmuşdur. Nəticədə o, iki hərəkətin cəmində 319 kq-la (144+175) 11-ci yerlə kifayətlənmişdi.

XXVIII Olimpiya Oyunlarında «sıfır» nəticə göstərməsi Paşayev Nizamini ruhdan salmamışdır. O, gərgin məşqlər hesabına dünya çempionatına yüksək səviyyədə hazırlaşa bilmişdi. Nizaminin çıxış etdiyi çəkidə 30 idmançı iştirak etmişdir.

Nizami iki əllə birdən qaldırma hərəkətində 177 kq, 182 kq, 185 kq qaldırmaqla bu hərəkətdə çempion adına layiq görülmüşdür. O, ikinci hərəkətdə – iki əllə təkanla qaldırmada əvvəlcə 212 kq, sonra 216 kq çəkiləri qaldırsa da, üçüncü yanaşmada 220 kq-ın öhdəsindən gələ bilməmişdi, bu hərəkətdə 4-cü nəticə göstərmişdi. Beləliklə, iki hərəkətin cəmində Nizami Paşayev 401 kq nəticə göstərməklə qızıl medala layiq görülmüşdü və 2-ci dəfə dünya çempionu adını almışdı.

Elə bu çəkidə çıxış edən Səmədov Əlibəy iki əllə birdən qaldırma hərəkətində 155 kq-la, təkanla qaldırmada isə 185, 195, 200 kq nəticə ilə 18-ci yerə çıxmış və iki hərəkətin cəmində 355 kq nəticə ilə 20-ci yeri tutmuşdur.

Naniyev Alanın çəki dərəcəsində 17 idmançı iştirak etmişdir. Alan iki əllə birdən qaldırma hərəkətində 187 kq nəticə ilə 4-cü yerə çıxmışdır. O, 2-ci hərəkətdə təkanla qaldırmada 221- kq nəticə göstərmiş və iki hərəkətin cəmində 408 kq-la 5-ci yerlə kifayətlənmişdir.

Ümumiyyətlə, bu dünya çempionatında komandamızın çıxışını müvəffəqiyyətli hesab etmək olar, çünki 4 idmançımızdan heç biri «sıfır» qiymət almamış, əksinə, Nizami Paşayev və Alan Nahiyev isə ən yüksək nəticələr göstərmişdilər.

2005-ci il iyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaşda şəhər stadionun, oktyabrın 9-da Yardımlı istifadəyə verilən stadionun açılış mərasimində iştirak etmişdir.

2005-ci ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 213 medal qazanmışdır (Onlardan 62-i qızıl, 56-ı gümüş, 95-i bürünc)

2006-cı il yanvarın 22-də isə Moskva şəhərində Azərbaycanın «Neftçi» komandası öz gözəl mübarizə əzmini göstərərək, «Birlik Kuboku»nun sahibi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında Moskvada keçirilmiş «Birlik Kuboku» uğrunda turnirin qalibi «Neftçi» futbol klubunun rəhbərlərini və üzvlərini qəbul edərkən demişdir: «Yanvarın 22-də final yarışında futbolçularımız həm çox böyük peşəkarlıq, həm də böyük vətənpərvərlik, həm də istedad göstərərək bu kuboku qazandılar. Ondan əvvəlki mərhələdə, yarımfinal görüşündə çox vacib idi ki, rəqiblərimiz Ermənistan komandası olsun. Ancaq onlar bu oyundan qaçdılar, turniri tərk etdilər və deyə bilərəm ki, bizim futbolçularımızdan qorxaraq, biabırcasına vətənə döndülər. Mən bu hadisəni beynəlxalq mətbuat oqranlarmda da izləmişəm. Bu, bütün idmansevərlərdə hiddət hissi doğururdu. Çünki bir var meydançada uduzmaq, bir də var ki, qorxub qaçmaq. Mənim xatirimdədir, bir il bundan əvvəl biz sizinlə görüşmüşüdük. O vaxt da «Neftçi» qələbəyə çox yaxın idi. Final yarışında məğlub olmuşdu. Ancaq ondan əvvəlki mərhələdə Ermənistanın həmin komandasına çox inamlı zərbə endirmişdi. qələbə qazanmışdı və bizim hamımızın böyük bayramı idi. Bu gün də ikiqat bayramdır. Çünki bir tərəfdən, biz öz üstünlüyümüzü rəqiblərimizə yenidən göstərdik, digər tərəfdən, bunula bərabər, kuboku da əldə etdik. Bu, həm böyük idman naililiyyətidir, eyni zamanda sirr deyil ki, ölkəmiz üçün də böyük nailiyyətdir, bizim qələbəmizdir. Mən ümid edirəm ki, biz bütün sahələrdə bu qələbələri davam etdirəcəyik».

Yanvarın 30-da dövlət idarəetmə sistemindəki islahatların davamı kimi, gənclərlə iş, idman və turizm sahələrinin təkmiləşdirilməsi məqsədi ilə icraedici strukturlarda bəzi dəyişikliklər edildi. Ölkə rəhbərinin sərəncamı ilə turizm sahəsi mədəniyyət nazirliyinin tərkib hissəsi oldu, eyni zamanda Gənclər və İdman Nazirliyi yaradıldı.

2006-cı il aprelin 25-də Rusiyanın paytaxtı Moskvada «Olimpiyski» idman kompleksində ilk dəfə sərbəst və yunan-Roma növləri üzrə kişilərlə yanaşı, zərif cinsin nümayəndələri də mübarizə aparırdılar. 5 gün davam edən turnirdə 39 ölkədən 800-dən sox nümayəndə qatılmışdı. İdmançılardan qadın güləşində 100, yunan-Roma növündə 157, sərbəst növdə isə 135 güləşçi (cəmi 392) mükafatlar uğrunda yarışdılar.

60 kq-da yığmamız ilk medal sevincisini yaşayıb. Fuad Əliyev 1/8 finalda almaniyalı Marnett Heynzlə münasibətlərinə aydınlıq gətirib. Pəhləvanımız iki hissədə 3:4 hesabı ilə uduzsa da, növbəti hissəni 5:0 hesabı ilə öz xeyrinə başa vurub. 3-cü hissə isə Fuadın tam üstünlüyü ilə keçib (6:0). Fuad üçüncü yer uğrunda ukraynalı Aleksey Vakulekoya qalib gələrək, bürünc medala yiyələnib.

55 kq çəkidə güləşən Rövşən Bayramov da mükafatçılar sırasında yer alıb. Rusiya yığmasının debutantı Nazir Mankiyevi açıq-aşkar üstünlüklə məğlub edən Rövşən 1/4 finalda gürcü idmançısı ilə üz-üzə gəlib. Gərgin və dramatik keçən görüşün son saniyəsində pəhləvanımız 2 xal qazana bilib. Video təkrardan sonra qələbə təmsilçimizə verilb.

Yunan-Roma güləşi üzrə 1993-2001-ci illər ərzində Avropa çempionatında (qitə) 4 medal qazanıblar, o cümlədən 1 qızıl, 3 gümüş. Avropa çempionatı və birinciliyində 13 medal qazanıblar, o cümlədən 5 qızıl, 4 gümüş, 4 bürünc. Dünya çempionatında (tələbələr) 6 medal qazanıblar, o cümlədən 2 qızıl, 2 gümüş, 2 bürünc. Dünya birinciliyində 24 medal qazanıblar, o cümlədən 9 qızıl, 9 gümüş, 6 bürünc. Kiçik Olimpiya Oyunlarında 1 medal qaza ıb. Beynəlxalq turnirlərdə 15

medal qazanılıb, o cümlədən 5 qızıl, 7 gümüş, 3 bürünc. Yay Olimpiya oyunlarında 1 qızıl medal qazanıblar. Ümümiyyətlə, həmin illərdə – sərbəst güləş üzrə 91 medal, yunan-Roma güləşi üzrə 66 medal qazanıblar.

Bakıda keçirilən beynəlxalq turnirlər də nəzərə alınmaqla güləşçilərimiz 13 qızıl, 25 gümüş və 18 bürünc medala sahib olmuşlar. Hər il olduğu kimi, 2003-cü ildə də sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə idmançılarımız Avropa birinciliklərində uğurla çıxış etmiş, sərbəst güləş üzrə Makedoniyanın Skopye şəhərində keçirilən yeniyetmələrin Avropa birinciliyində 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmışlar.

Rusiya Federasiyasının Rostov şəhərində keçirilən yunan-Roma güləşi üzrə Avropa birinciliyində isə yeniyetmə pəhləvanlarımızın çıxışları 1 gümüş və 2 bürünc medala layiq görülüb.

21-27 avqustda İstanbulda keçirilmiş gənclərin dünya birinciliyində yunan Roma güləşi üzrə 17 yaşlı Rövşən Bayramov 50 kq çəki dərəcəsində hamıdan yaxşı nəticə göstərərək, birinci yerə yüksəlib.

Yunan-Roma üzrə Avropa çempionatında 33 ölkə arasında Azərbaycanın milli pəhləvanları 8-ci oldular.

Yarışda 28 ölkədən 200-dək idmançı (kişilər və qadınlar) iştrak etmişdir. Onlar 7 çəki dərəcəsində yarışmışlar. Azərbaycan 11 güləşçi ilə təmsil olunmuşdur.

**Gənclər və İdman naziri Azad Rəhimov mərasimdə çıxış edərək, Azərbaycanın mötəbər beynəlxalq yarışlar keçirilməsində zəngin təcrübəsi olduğunu, ölkədə idmanın inkişafı, onun maddi – texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm işlər görüldüyünü bildirdi.**

Nazir dedi ki, Azərbaycan idmanı öz inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır, idmançılarımızın bütün uğurları idmana və bədən tərbiyəsinə daim qayğı göstərmiş ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu öndərin bu sahədəki uzaqgörən siyasətini hazırda dövlətimizin başçısı Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev uğurla davam etdirir. Azərbaycan idmanının dünyada nüfuzunun artması, respublikamızın idman ölkəsinə çevrilməsi bunun nəticəsidir.

Azad Rəhimov indiki yarışların Azərbaycan paytaxtında keçirilməsi təşəbbüsünə görə Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının (FİLA) rəhbərliyinə təşəkkür etdi, idmançılara uğurlar arzuladı.

Ukraynalı Aleksandr Zaxarçukla görüşün son saniyələrində buraxdığı səhv üzündən çempion titulunu qazana bilmədi. Nəticədə Namiq Abdullayev Avropa çempionatının gümüş medalı ilə təltif olundu. Çinin Quançjyan şəhərində güləş üzrə dünya çempionatda təmsilçilərimizdən Rövşən Bayramov (55 kq) yunan-Roma güləşi yarışlarında gümüş medala sahib çıxıb. Sərbəst güləş üzrə yalnız Namiq Abdullayev bürünc medal qazanaraq, mükafatçılar sırasında yer alıb.



Bədii gimnastlarımız İzmirdə keçirilən beynəlxalq turnirdə və Deventerdə «Qran-pri» mərhələlərində uğurla çıxış ediblər. Türkiyədə gənclər arasında təşkil olunmuş yarışlarda Leyla Şamilova halqa ilə hərəkətlərdə (22,5 xal) gümüş, gürzlərlə təmrinlərin icrasında (21,775 xal) isə bürünc medal qazanıb. Digər təmsilçimiz Zülfiyyə Əliyeva çoxnövçülükdə 8-ci nəticəni göstərib (76,525 xal). Sentyabrın 24-də Rusiyanın paytaxtı Moskvada bədii gimnastika üzrə 22-ci Avropa çempionatında gimnastlarımız həm fərdi, həm də qrup hərəkətləri üzrə çıxış ediblər. Onlardan Zeynəb Cavadlı təmrinlərin icrasında finala çıxaraq 8-ci nəticəni göstərib. Eyla Şamilova iplə icra olunan hərəkətərin nəticəsinə görə 13-cü olub. Digər təmsilçilərimizdən Aliyə Qarayeva ip, halqa, gürz və lentlə hərəkətlərin ümumi nəticələrinə görə 6-cı, Anna Qurbanova 10-cu yerdə qərarlaşdılar. Qrup hərəkətləri üzrə komandamız isə 3 lent, 3 halqa, 2 gürz və çoxnövçülük üzrə yarışlarda 7-ci yeri tutub.

Xorvatiyanın Vinkovçi şəhərində hərbçilər arasında cüdo üzrə dünya çempionatında 35 ölkə cüdoçusunun iştirak etdiyi bu mötəbər yarışda ölkəmizi 10 idmançı təmsil etmişdir. Onlardan yalnız 81 kq çəki dərəcəsində güləşən Elxan Rəcəbli mükafatçılar sırasına düşərək, bürünc medalın sevincini duyub. Digər 3 idmançımız Pərvanə Ağacanova (48 kq), Elxan Məmmədov (90 kq) və Qədir Qədirov (100 kq) 5-ci yerlə kifayyətlənməli olublar.

Estoniyanın paytaxtı Tallində cüdo üzrə gənclər arasında Avropa birinciliyində 4 idmançımız qalib adı uğrunda mübarizə aparıb. Onlardan Şahanə Alməmmədova çempionatın gümüş medalına sahib çıxıb. Ümumi nəticədə qadın yığmamız komnda hesabında üçüncü olub. Oğlan cüdoçularımızdan isə Seymur Rzazadə bürünc medala layiq görülüb. Digər cüdoçumuz Teymur Əlixanov 5-ci yeri tutub.

Mərakeşdə boks üzrə gəncləçr arasında dünya çempionatında ölkəmizin idman şərəfini 11 boksçumuz qorumuşdur. Onlardan Rahib Nəcəfov (51 kq) və Famil Süleymanov (60 kq) bürünc medala layiq görülmüşdür. Sentyabrın 18-də Tailandın paytaxtı Banqokkda taekvondo kubokunda ölkəmizi 8 kişi və 2 qadın taekvondoçularımız təmsil etmişdir. Onlardan yalnız Elnur Amanov (58 kq) bürünc medal

qazanaraq, mükafatçılar sırasında yer ala bilmişdir. Strasburqda 1945-95-ci il təvəllüdlü stolüstü tennisçilərin «kiçik» Avropa çempionatında ölkəmizi təmsil edən Səbinə Əhmədova bürünc medal uğrunda mübarizədə portuqaliyalı rəqibinə məğlub olaraq, 4-cü yerdə qərarlaşıb. 1995-ci il təvəllüdlülərin yarışında mübarizə aparan digər idmançımız Rüstəm Əliyev isə turniri 10-cu piləda başa vurub. Rusiyanın Kalininqrad şəhərində universal döyüş üzrə VII dünya çempionatında 46 ölkənin 126 idmançısı iştirak etmişdir. Çempionatda ölkəmizin idman şərəfini 7 təmsilçimiz qorumuşdur. Onlardan Pərviz Əliyev (60 kq), Ramiz Məmmədov (65 kq), Nicat Tağıyev (70 kq) və Ceyhun Söhbətov (97 kq) bürünc medala layiq görülmüşdülər.

Belarusiyanın Brest şəhərində 64 xanalı dama üzrə gənclər, kadetlər, kiçik kadeilər və ümidlər arasında Avropa çempionatında Qitənin 8 ölkəsindən 125 damaçının qoşulduğu yarışda ölkəmizi Elşən Zeynalov (gənclər) və Aslan (kadedlər) təmsil etmişdilər. Yekun nəticələrə əsasən, ölkə çempionumuz Aslan 21 nəfər arasında 6-cı yerlə kifayətlənmişdir. Noyabr ayında Estoniyanın paytaxtı Tallində 100 xanalı dama üzrə keçirilən Avropa çempionatında 3-cü yerə layiq görülmüş Elşən Zeynalov isə bu dəfə nisbətən zəif çıxış edərək, ilk onluqda yer almışdır. Sentyabrın 2-də Sloveniyanın Boveç şəhərində kişilər və qadınlar arasında 100 xanalı dama üzrə Avropa çempionatında təəssüf ki, təmsillərimizdən heç biri uğurlu çıxışları ilə yadda qala bilməyib. Yekun nəticədə Fərhad Hüseynov 11 xala 43-cü, Emil Rüstəmov isə 9 xalla 40-cı pillədə yer almışdılar. Fransanın Bordo şəhərində veteran ağırlıq qaldıranlar arasında dünya çempionatında dünyanın 35 ölkəsindən 500-ə yaxın idmançının iştirak etdiyi turnirdə ölkəmizi 2 atletimiz - Akif Aliyev (56 kq) və Natiq Ağayev (105 kq) təmsil etmişdilər. Akif Aliyev 2 hərəkətin cəmində 170 kq qaldıraraq, çempionatın gümüş medalına layiq görülmüşdür. Digər nümayəndəmiz Natiq Ağayev isə yarışın gedişi zamanı xəstələndiyinə görə mübarizədən kənarda qalmışdır. Ukraynanın Xarkov şəhərində badminton turnirində ölkəmizi 4 idmançı təmsil etmişdir. Təəssüf ki, onlardan heç biri mükafatçılar sırasında yer ala bilməmişlər.

Sentyabrın 2-3-də Ukraynanın Odessa şəhərində qılıncoynatmanın sablya üzrə «Odessa kuboku» adlı beynəlxalq turnirində ölkəmizi 3 sablyaçımız təmsil etmişdir. Onlardan Səbinə Əmrahzadə 20-ci, Sevil Bunyatova və Aidə Ələsgərova isə müvafiq olaraq 22-ci və 24-cü yerlərdə qərarlaşmışlar. Türkiyənin İstanbul şəhərində qılıncoynatmanın sablya növü üzrə beynəlxalq turnirində ölkəmizin idman şərəfini 3



qız və 3 oğlan sablyaçımız qorumuşdur. Onlardan Səbinə Əmrahzadə gümüş, Sevil Bunyadova isə bürünc medala layiq görülmüşlər. Oğlan sablyaçılarımız isə heç bir mükafatçılar sırasına düşə bilməmişlər.

İsrailin Rişan Rezion şəhərində blits-şahmat üzrə dünya çempionatında dünya reytinqində 2728 xalla 11-ci pillədə qərarlaşan beynəlxalq qrossmeystrimiz Teymur Rəcəbov da iştirakçılar arsında olub. O, 15 turdan 10 xal toplayaraq, çempionatın bürünc medalına layiq görülüb. İstanbulda ənənəvi beynəlxalq şahmat festivalında birinci dəfə təşkil olunan yarışda 11 ölkənin 400-ə yaxın şahmatçısı iştirak etmişdir. Təmsilçilərimizdən Ayaz Məmmədov 9 turdan 8,5 xal toplayaraq, yeniyetmələr arasında birinci yeri tutub. İlahə Qədimova 31-ci, Eltas Səfərli 42-ci, Nicat Abbasov, Rauf Məmmədov və Türkan Məmmədyarova isə müvafiq olaraq, 44-cü yerləri bölüşdürüblər. Digər şahmatçılarımız isə yarışda daha təcrübəsiz çıxışları ilə yadda qalıbdır.

Sentyabrın 8-də və 10-da Bakı İdman Sarayında futzal üzrə ölkə sempionatımız «Araz» komandası iki dəfə Gürcüstan çempionatının qalibi «Liberiya-2003» ilə yoldaşlıq görüşü keçirib. Nəticədə «Araz» Gürcüstan çempionu üzərində 5:3 və 4:2 hesabları ilə qələbə qazanıb. Türkiyədə karatenin WKF növü üzrə beynəlxalq turnirdə 25 ölkə karateçilərinin mübarizə apardığı yarışda 12 döyüşçümüz gücləri nümayiş etdirib. 70 kq çəki dərəcəsində bürünc medala sahib çıxan Rafael Ağayev mütləq birincilikdə daha uğurlu nəticəyə imza atmışdı. Karateçimiz finalda meydan sahibi Gökhan Günüzə qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı. Ölkəmizin həndbol üzrə qadınlardan ibarət ABU klubu Rusiyada keçirilən MDB və Baltikyanı ölkələrin Peşəkar Liqasında qrupda yerli «Kubn», «Lada-2» və «Zvezda» komandaları ilə üz-üzə gəliblər. Nəticədə təmsilçilərimiz Peşəkar Liqada çıxışlarını 7-ci pillədə başa vurublar.

Senyabrın 10-da Hollandiyanın Essen şəhərində paralimpiyaçılar arasında atletika üzrə növbəti dünya çempionatında Azərbaycanın idman şərəfini 12 atletimiz qorumuşdur. Onlardan Oleq Panyutin DÇ-nin gümüş, Yuri Qonyak, Zeynidin Bilalov bürünc medala sahib çıxıblar. Digər paralimpiyaçılarımız Vladimir Zayets isə 4-cü yerlə kifayətlənib. O üç təkanla uzunluğa tallanma yarışlarında daha uğurlu çıxış edərək, bu növdə də ölkəmizə liseniya qazandırıb. Beləliklə, 5 atletimiz Pekin Paralimpiya Oyunlarına birbaşa lisenziya əldə edib.

Avqustun 23-dən sentyabrın 4-dək Bolqarıstanın Primorsko şəhərində gənclər arasında futbol üzrə «Neptun-2006» IV beynəlxalq turnirdə 7 ölkə futbolçularının mübarizə apardığı yarışda təmsilçi-

lərimiz iştirak etmiş, yığmamız 9 xalla 2-ci yerdə qərarlaşıb. Sentyabrın 6-da Tofiq Bəhrəmov adına Respublika stadionunda millimiz AÇ-2008-in seçmə mərhələsində ikinci oyununu keçirmişdir. Komandamız bu dəfə Qazaxıstan yığması ilə qarşılaşıb. Oyun 1:1 hesabı ilə başa çatıb. Türkiyədə alpinizm üzrə növbəti beynəlxalq yürüşdə 4 idmançıdan ibarət heyətimiz hündürlüyü 5137 metr olan Ağrı dağını fəth edərək, Azərbaycan bayrağını zirvəyə sancıb. Ölkəmizdə oktyabr ayında alpinizm üzrə daha bir beynəlxalq yürüşdə 11 təmsilçimizin qoşulduğu bu ekspedisiyada İran, Türkiyə və Gürcüstan alpinistləri də yer alıblar.

Kişilərdən ibarət həndbol üzrə DİNHK komandası Kuboklar kubokunda çıxış edib. Lüksemburqun «Lex» komandası ilə görüşdə təmsilçilərimiz məğlubiyyətlə (41:32) üzləşiblər. İkinci matçda da meydan sahibləri seviniblər. Bu dəfə komandamız rəqibə 4 top fərqi ilə (29:25) uduzub. Ölkəmizdə həndbol üzrə qadınlardan ibarət «Qarabağ» klubu Avropa Həndbol Federasiyasının kuboku uğrunda 2-ci görüşünü keçirib. Belarusda «Qorodniçanka» klubu ilə qarşılaşan həndbolçularımız 5 top fərqi ilə məğlubiyytlə üzləşiblər. Nəticədə Avropa kuboku yarışında 2-ci dəfə çıxış edən «Qarabağ» bu dəfə növbəti mərhələyə yüksələ bilməyib.

2006-cı il oktyabrın 15-21-də İdman Oyunları Sarayında boks üzrə Dünya Kuboku keçirilmiş və yığmamız III Dünya Kubokunda 3-cü oldu.

Noyabrın 3-6-da Yaponiyanın paytaxtı Tokioda avarçəkən idman növü üzrə IX dünya çempionatında 69 ölkənin 2000-ə yaxın karateçilərin iştirak etdiyi yarışda ölkəmizi 14 idmançı təmsil eib. Onlar uğurla çıxış edərək kumite yarışlarında 2 qızıl, 6 gümüş, 3 bürünc, kata yarışlarında isə 2 bürünc medal qazanıblar. Karateçilərimizin komanda kumite yarışarında qazancı 7 bürünc olub. Moskvada şahmat üzrə dünya çempionu Mixail Talın xatirəsinə həsr olunmuş turnirdə isə qrossmeysterimz Şəhriyar Məmmədyarov (2728) bütün görüşlərdə heç-heçəyə imza ataraq, 4,5 xalla yarış cədvəində 5-7-ci yerləri bölüşdürüb. Noyabrın 18-19-da isə Moskvada blits-turnirində ölkəmizin ən titulu şahmatçıları Şəhriyar Məmmədyarovla Teymur Rəcəbov 18 iştirakçı arasında yer alıb. Teymur ardıcıl qəəbələri ilə finişə 3-cü çatıb. Şəhriyar isə 17 xalla 12-ci olub. Şahmatçıar Teymur Rəcəbov Fransanın Kap D Ajole şəhərində keçirilən beynəlxalq turnirdə finalda 1,5:0,5 hesabı ilə ukraynalı Sergey Karyakini geridə qoyaraq qalib adını qazanmışdır. Noyabrın 6-da ABŞ-ın Lerk Corc



şəhərində peşəkar pouerliftinqçiərin WPC-WPO versiysi üzrə dünya çempionatlarında ölkəmizi dördqat Avropa çempionu, dünya çempionatının mükafatçısı Rüfət Ağayev təmsil etmişdir. O, çıxış etdiyi 110 kq çəki dərəcəsində 3-cü cəhdə 890 kq nəticə göstərərək, qızıl medala sahib olub. Pouerliftinq üzrə yığma komandamız Belçikanın Sent şəhərində keçirilən G versiyası üzrə dünya çempionatında ölkəmizi 6 nəfərlik heyət təmsil etmişdir. Onlardan 4-ü vətənə meallarla qayıtmışdır. Belə ki, penç-press üzrə Vüsal Mərdanov 262,5 kq-da, Namiq Cəfərov isə 210 kq-da gümüş medala sahib çıxıb. Nisbətən zəif nəticə göstərən Rüstəm Musayev 140 kq, Sərxan Əliyev 180 kq ağırlıq qaldıraraq, bürünc medalla kifayyətləniblər.

Rumıniyada qadın futbolçular arasında keçirilən qitə birinciliyində 4-cü seçmə qrupunda meydan sahibləri, bolqarıstanlılar və estoniyalılarla mübarizə aparan təmsilçilərimiz qarşıya qoyulan vəzifənin öhdəsindən gələ bilməyiblər. Nəticədə debut ilində 1 qələbə qazanan yığmamız qrupda 3-cü yeri tutmuşdur. Noyabrın 23-26-da Makedoniyanın paytaxtı Skopye şəhərində kikboksinq üzrə Avropa çempionatında 32 ölkədən 500-ə yaxın kikboksinqçinin iştirak etdiyi yarışlarda ölkəmizi 11 idmançı təmsil etmişdir. Onlardan Eduard Məmmədəov qızıl, Emil Kərimov, Nicat Hüseynov gümüş, Zaur Ələkbərov, Rail Rəcəbov isə bürünc medala layiq görülmüşdür.

Gimnastlarımız Dinarə Gimatova və Anna Qurbanova Rusiya və Xorvatiyada keçirilən beynəlxalq turnirlərdə qüvvələrini sınamışlar. D.Gimatova şəxsi çoxnövçülükdə 49,428 xalla fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Digər təmsilçimiz Anna Qurbanova isə yalnız Rusiya idmançılarına uduzaraq, turnirin ikincisi olub (dekabr 2006). Brestdə akrobatik gimnastika üzrə beynəlxalq turnirdə 7 ölkədən 18 cütlüyün iştirak etdiyi yarışda Azərbaycanı Ayla Əhmədova-Dinarə Abbasova cütlüyü təmsil etmişdir. Akrobatlarımız 84,86 xalla finala vəsiqə qazansalar da, cüzi bir səhv nəticəsində 26,47 xalla turnirin üçüncüsü oldular.

Beynəlxalq Gimnastika Federasiyası planetin 40 ən yaxşı bədii gimnastının yeni reytinq siyahısını açıqlayıb. Azərbaycan gimnastlarından ən yaxşı göstərici Dinarə Gimaiovadır. O, lentlə hərəkətlərində 31,85 xalla 13-cü yerdədir. Anna Qurbanova iplə hərəkətlərdə 14-cü (28,21 xal). Aliyə Qarayeva isə eyni alətdə 22-ci (9,8 xal) yerdədilər.

Afina Yay Olimpiya Oyunlarından sonra «həvəskar» statusunu «peşəkar»a dəyişən dəri əlcək ustası Əli İsmayılov, indi çoxillik təcrübəsi ilə yeni zəfərlər fəth etmək arzusundadır. Görəsən, əvvəllər

«Bürünc Əli» ləqəbi ilə tanınan idmançı, hazırkı karyerasında hansı ada sahib çıxacaq. Həvəskar Əlinin boksda ən böyük uğuru 1999-cu ildə ABŞ-ın Hyuston şəhərində təşkil olunmuş dünya çempionatında qazandığı burunc medalı karyerasının ən böyük uğuru sayılır. Çünki o yarışı vaxtilə planetin ən güclü boksçusu olmuş Məhəmməd Əlini də canlı izləyirdi. O, turnirdə Əlinin çıxışını bəyənmiş və adının Əli olduğunu bilib, çempionatdan sonra onunla görüşmüşdür. Bəs gəlin görək peşəkar boksla həvəskar arasında başlıca fərqlər nədir?

-Həvəsar boksda mübarizə, hərəsi 2 dəqiqə olmaqla, 4 raund çəkir. Peşəkarlarda isə hissələrin sayı 12-yə çatır. Bunun döyüş vaxtı da bir dəqiqə çoxdur. Həvəskarda nokdaun ayaq üstündə də açılırsa, peşəkarlarda idmançının 2 dizi rinqin döşəməsinə dəyməyincə, hakim döyüşün davam etməsinə icazə verir. Bundan əlavə, peşəkarlarda dəbilqədən istifadəyə yol verilmir. Mübarizə zamanı əlcəklər bir rəngdə, rəqiblərin bədəni isə çılpaq olmalıdır. Hazırda Əli 6-8-raundluq döyüş üzərində işləyir. 5-6 qarşılaşmadan sonra sayı artıracağaq.

Ötən ilin oktyabrında idman nazirliklərimiz arasında bağlanan müqavilə idman və gənclərlə iş sahəsində ölkələrimizin birgə fəaliyyətinin müəyyənləşdirərək, qarşılıqlı əməkdaşlıq üçün daha möhkəm zəmin yaradıb.

Martın 29-da Belarusun yüksək səviyyəli dövlət nümayəndə heyəti tərkibində Azərbaycanda rəsmi səfərdə olan həmin ölkənin idman və turizm naziri Aleksandr Qriqorov Azərbaycan və Gənclər və İdman Nazirliyində olub. Nazir müavini İsmayıl İsmayılov qonağı səmimi sözlərlə salamlayaraq, ölkələrimiz arasında dostluq və qardaşlıq, eləcə də idman əlaqələrinin yüksək səviyyədə oduğunu bir daha vurğuladı və iki ölkə nazirlikləri arasında 2007-2008-ci illər üçün əməkdaşlıq proqramının əhəmiyyətini qeyd etdi. Proqramın məqsədi bədən tərbiyəsi və idman sahəsində faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün kompleks tədbirlər həyata keçirilməsidir. Proqram çərçivəsində 2008-ci ildə Pekində keçiriləcək XXIX Yay Olimpiya Oyunlarına hazırlıq, bədən tərbiyəsi və idman sahəsindəki dövlət idarəetmə orqanları, idman təmayüllü təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, idman, tibb, dopinqə qarşı mübarizə və digər sahələrdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, hər iki ölkədə keçirilən tədbirlərdə nümayəndə heyətlərinin qarşılıqlı iştirakını nəzərdə tutur.

2006-cı il idman ictimaiyyəti bu bayramı böyük təntənə ilə qeyd etmişdir. Bu il də «Bədən tərbiyəsi və idman günü»nü ölkəmizdə, xüsusən Bakı şəhərində geniş formada bayramsayağı təşkil edilmiş və keçirilmişir. Bayram günü ümummilli lider, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş (12 mərhələ) kütləvi qaçış keçirilmişdir. Start Fəxri Xiyabandan verilmiş, estafetin qaçışı kesçirilmişdir. Startı Fəxri Xiyabanda verilmiş estafetin finişi Gənclik meydanında T.Bəhramov adına Respublika stadionu qarşısında olmuşdur. Həmin tədbirə Akademiyamızın atletika kafedrasının və «İdman klubunun» rəhbərliyi altında 4 komanda buraxılmışdır. 43 komandanın yarışdığı estafetin qalibi Azərbaycan Dövlət Bədən tərbiyəsi və İdman Akademiyasının atletləri olmuşlar. “Təhsil” Respublika İdman Mərkəzi ikinci, Hərbi Dəniz Qüvvələrinin komandası isə üçüncü yeri tutmuşdur. Fərəhli haldır ki, tədbirdə veteranlardan ibarət komanda da iştirak etmiş və 43 komanda arpasında 13-cü yeri tutmuşdur.

2006-cı il Avropa çempionatı (mayın 1-dən 7-dək Polşanın Vladislavovo şəhərində) ağır atletika üzrə kişilərin 85-ci, qadınların 19-cu Avropa çempionatında ölkəmiz 8 idmançı ilə təmsil olunmuşdur.

Komandamızın heyətində kifayət qədər perspektivli idmançılar yer alsa da, onlardan yalnız 94 kq çəki dərəcəsində çıxış edən ikiqat dünya çempionu Nizami Paşayev uğurlu çıxışı ilə yadda qalıb.

Yığmamızın kapitanı birdənqaldırmada 180 kq ağırlıq qaldıra bilməsə də, sonradan 186 kq çəki onun üçün asan olub. İdmançımız bu çəkiyə sonradan 3 kq əlavə edib. Lakin onun cəhdi bu dəfə uğursuz olub. Bu cəhd Paşayevin Avropa çempionu olmasına mane olmayıb. Təkanla qaldırmada əvvəlcə 214 kq-da çətinlik çəkən ikiqat dünya çempionu ikinci cəhddə 216 kq-ı başı üzərinə qaldıraraq, qitə çempionluğunun sevincini yaşayıb. İki hərəkətin cəmində 402 kq-ın öhdəsindən gələn Nizami Paşayev 1-ci, polyak Simon Koletski isə 2-ci yeri (394 kq) tutublar. Rusiyalı Andrey Demonov 393 kq-la bürünc medala yiyələnib. Yekun nəticədə 1 qızıl medal qazanan komandamızın Polşa səfərini uğurlu saymaq olar, çünki bu çəki dərəcəsində çıxış edən 25 idmançının siyahısında ölkəmizin təmsilçisi birinci pillədə yer alıb. Xatırladaq ki, Nizami Paşayev bundan əvvəl Qətərin paytaxtı Dohada keçirilən dünya çempionatında özü üçün ikiqat dünya çempionluğunu təmin etmişdir.

2006-cı il (28.10 - 4.11) dünya çempionatı Dominikan Respublikası. Komandamız dünya çempionatında 8 idmançı ilə iştirak etmişdir.

Respublikanın yığma komanda üzvləri 2006-cı il dünya çempionatına ciddi hazırlıq mərhələsi keçmişdilər, XXIX Olimpiya Oyunlarına lisenziya qazanmaq imkanları olduğunu nəzərə alsaq, koman-

danın bu çempionatda müvəffəqiyyətli çıxışının böyük əhəmiyyəti var idi.

Komanda heyətinə ən perspektivli və təcrübəli olan idmançılar daxil edilmişdi.

Yığma komandanın ən nəticəli idmançısı, üçqat dünya və ikiqat Avropa çempionu N.Paşayev 2006-cı ilin Avropa çempionatında qan analizində dopinq qəbul etməsi aşkarlandığı üçün kontrol nəzarətindən keçə bilmədiyindən nəticəsi ləğv edilmiş və yarışlarda 2 illik çıxış etmək hüququndan məhrum olunmuşdur.

Məlikov Asif 62 kq çəkidə çıxış etmişdir. Bu çəkidə 40 nəfər iştirakçı olmuşdur.

Asif birdən qaldırma hərəkətində birinci yanaşmada 115 kq nəticə göstərmiş, sonrakı 2-ci və 3-cü yanaşmalarda 120 kq çəkini qaldıra bilməmişdir. Təkanla qaldırma hərəkətində isə 140, 142 kq qaldırmış və 145 kq çəkinin öhdəsindən 3-cü yanaşmada da gələ bilməmişdir. Beləliklə o, iki hərəkətin cəmində 257 kq nəticə göstərməklə 26-cı yerə çıxmışdır.

Bayramov Əfqan 69 kq çəkidə çıxış etmişdir. Bu çəki dərəcəsində 32 idmançı iştirak etmişdir.

Əfqan birdən qaldırma hərəkətində 125, 130 kq qaldırmış, 3-cü yanaşmada isə 135 kq çəkini qaldıra bilməmişdir. O, təkanla qaldırma hərəkətində 171 kq çəkini qaldırmış, 175 kq çəkini isə 2-ci və 3-cü yanaşmalarda qaldıra bilməmişdir. Nəticədə idmançı iki hərəkətin cəmində 301 kq göstərməklə 8-ci yerə çıxmışdır. Bu çəkidə çıxış edən ikinci idmançımız Məmmədov Asif birdən qaldırma hərəkətində 130 kq və təkanla qaldırmada 159 kq nəticə göstərməklə 8-ci yerə çıxmışdır. Bu idmançının ilk dəfə belə yüksək miqyaslı yarışda çıxış etməsini nəzərə alsaq göstərdiyi nəticəni qənaətbəxş hesab etmək olar.

Mirzəyev Turan 77 kq çəkidə çıxış etmişdir. Bu çəki dərəcəsində 51 idmançı iştirak etmişdir. Turan birdən qaldırmada 142 və 146 kq və təkanla qaldırmada 175-181 kq nəticə göstərməklə iki hərəkətin cəmində 327 kq-la 16-cı yerə çıxmışdır. Turan özünün ən yüksək nəticəsini təkrar etmişdir.

Zairov İntiqamın çıxış etdiyi 85 kq çəki dərəcəsində 44 idmançı iştirak etmişdir. İntiqam birdən qaldırma hərəkətində 145-150 kq təkanla qaldırmada isə 180-186 kq nəticə göstərməklə 21-ci yerə çıxmışdır. İki hərəkətin cəmində 336 kq qaldırmaqla idmançı özünün ən yüksək nəticəsini təkrar etmişdir. Onun çıxışını yaxşı hesab etmək olar.



Bu çəkidə (85 kq) çıxış edən ikinci idmançımız Abdullayev Zaur birdən qaldırmada 141 kq, təkanla qaldırma hərəkətində isə 180 kq çəkini qaldırmağa cəhd etsə də, nəticəyə nail ola bilməmiş, «0» qiymət almışdır.

Naniyev Alanın çıxış etdiyi 105 kq çəki dərəcəsində 29 idmançı mübarizə aparmışdır. Alan iki əllə birdən qaldırmada 182 kq və təkanla qaldırma hərəkətində 215-218 kq nəticə göstərməklə iki hərəkətin cəmində 400 kq qaldıra bilmişdir. İdmançı özünün ən yüksək nəticəsindən 8 kq az çəki göstərməklə V yerə çıxmışdır.

2006-cı ilin avqust ayında veteran ağırlıqqaldıranlarımız Fransanın Bordo şəhərində keçirilən dünya çempionatında iştirak etmişdilər. Dünyanın 35 ölkəsindən 500-ə yaxın idmançının iştirak etdiyi turnirdə ilk dəfə ölkəmizi iki idmançı – idman ustası, ölkə çempionu Akif Aliyev (56 kq, MOİK) və Natiq Ağayev (105 kq DİN İC) təmsil etmişdilər. Akif Aliyev yarışda birdənqaldırmada 80 kq, təkanlaqaldırmada isə 90 kq ağırlığı başı üzərinə qaldırıb. O, iki hərəkətin cəmində 170 kq qaldıraraq, çempionatın gümüş medalına layiq görülüb. Digər nümayəndəmiz Natiq Ağayev isə yarışın gedişi zamanı xəstələndiyənə görə mübarizədən kənarda qalıb.

Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Patrik Hikey Bakıya gəlmişdir. O, səfər çərçivəsində Milli Olimpiya Komitəsi, eyni zamanda Gənclər və İdman Nazirliyinin rəhbərliyi ilə görüşlər keçirmişdir.

2006-cı il martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İmişli şəhərində "MKT-Araz" futbol klubunun stadionun açılış mərasimində, həmin il aprelin 12-də Zaqatalada Olimpiya İdman Kompleksininin açılışında, avqustun 8-də Lənkəran şəhərində "Xəzər-Lənkəran" futbol klubunun stadionunun açılışında, oktyabrın 31-də Gəncə Olimpiya İdman Kompleksininin üzgüçülük hovuzunun açılış mərasimində, noyabrın 1-də Gədəbəydə istifadəyə verilmiş idman kompleksinin açılış mərasimində iştirak etmişdir.

2006-cı ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 287 medal qazanmışdır (Onlardan 81-i qızıl, 73-ü gümüş, 133-ü bürünc)

2007-ci il fevralın 23-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tələbə və tələbə təşkilatlarının başçılığı ilə Xocalı soyqırımınan əlaqədar şəhidlərin xatirəsinə həsr edilmiş atıcılıq idman növü üzrə respublika ali təhsil ocaqları arasında yarış keçirilmişdir. Yarış Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının

binasında yerləşən tirdə keçirilmişdir. Yarışın baş hakimi Tədbiqi İdman Növləri kafedrasının müdiri dosent Yavuz Eminbəyli rəhbərlik etmişdir.

Turnirin açılışında Gənclər və İdman Nazirin müavini İntiqam Babayev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru prof. Ağacan Abiyev, Elm və Təhsil şöbəsinin müdiri Firudin Qurbanov tələbə və tələbə təşkilatlarının iş sektorunun müdiri Elşən Hüseynov, Azərbaycan DBTİA-nın idman işləri üzrə prorektoru prof. Dilqəm Quliyev, Akademiyanın Gənclər Təşkilatının Sədri Yusif Babanlı və 100-ə yaxın idmançı iştirak etmişdir.

Yarışda 24 təhsil ocağından ibarət 60-dan yuxarı idmançı iştirak etmişdir .

Yarışda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası 126 xal qazanaraq I yeri, Rəssamlıq Akademiyası 113 xalla II yeri, Azarbaycan Pedaqoji Universitetinin komandası isə 96 xalla III yeri tutmuşlar.

Yarışda I-III yerləri tutan komandalar Nazirliyin hədiyə və diplomları ilə təltif olunmuşdur.

Təkcə 2007-ci ildə dövlət büdcəsindən bədən tərbiyəsi və idmanın təşkili bölməsi üzrə 6 milyon manat pul ayrılıb. Ondan 4 milyon yarım xərclənib.

Obyektlərin layihələşdirilməsi, tikintisi və təmiri üzrə isə Nazirlik üçün ayrılan vəsait cəmi 58.864.000 manat təşkil edir. Ondan 3.357.400 manat xərclənib.

2007-ci ilin iyul ayında Turkiyənin Trabzon şəhəirndə I Qara dəniz oyunlarında atletlər 4 qızıl, 1 bürünc medal qazanıblar. Həmin ili Ostrava (Çexiya) şəhərində keçirilən yeniyetmələr arasında dünya çempionatında Ramil Quliyev 200 m. məsafəyə qaçışda 20,72 san. nəticə göstərərək, II yerə layiq görülmüş və ölkəmizə Pekin Olimpiyadasına ilk lisenziyanı qazandırmışdır. İyul ayının 21-dən 28-dək Serbiyanın paytaxtı Belqrad şəhərində Avropa Yeniyetmələrinin IX Olimpiya Festivalı keçirildi. Olimpiya Festivalında Avropanın 49 ölkəsindən 3230 nəfər idmançı və rəsmi nümayəndə heyəti ilə iştirak etdi. Olimpiya Festivalının 11 idman növü üzrə keçirilən bu yarışlarda iştirak edən 49 ölkədən 29-u komanda idman növlərində də təmsil olundu.

İyulun 23-dən 27-dək Belqradın 32710 tamaşaçı yeri olan məşhur «Partizan» stadionunda keçirilən 675 nəfərin iştirak etdiyi atletika



üzrə yarışlarda Azərbaycan komandasını məşqçilərdən Tofiq Əliyev və Nazim israfilovun rəhbərliyi ilə 10 atletimiz təmsil edirdi.

Bu yarışda komandamıza ilk ızıl medalı 100 metr məsafəyə qaçışda Ramil Quliyev qazandırdı. İlk medalın qazanılması komandamızda yüksək əhval-ruhiyyə yaratdı Azərbaycan komandasının ikinci qızıl medalı üçtəkanla uzununa tullanma yarışlarında Ənvər Zeynalzadə qazandırdı. O, bu yarışda 15,56 m nəticə ilə ən yüksək kürsəyə qalxdı. İyulun 26-da 200 metr məsafədə keçirilən yarışda yeniyetmə atletimiz Ramil Quliyev bu məsafəni 20,98 saniyəyə qaçaraq, özünün sayca 2-ci, komandamızın isə 5-ci qızıl medalını qazandırdı. AYOF-2007-də 2-ci qızıl medal qazanan Ramil Quliyev ölkəmizdə Pekin-2008 Olimpiadasına ilk lisenziya qazanan atletdir. Beləliklə, Avropa Yeniyetmələrinin IX Olimpiya Festivalının proqramına daxil olan atletika idman növü üzrə yarışlarında iştirak edən 48 ölkədən 29-u medal qazananlar sırasında yer aldı. Bu ölkələr arasında Azərbaycan 3 qızıl medal qazanaraq Rusiya və Latviya ölkələrindən sonra üçüncü yeri tutmuşdur. Sentyabr ayının 7-də isə Bakı şəhərində keçirilən Federasiya kubokunda Ruslan Abbasov 100 m. məsafəyə qaçışda 10,28 san. nəticə göstərərək, Pekin Olimpiyadasına lisenziya qazanmışdır.

2007-ci il sentyabrın 17-də Prezident sarayında Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının prezidenti Rafael Martinetti qəbul etmişdir.

Dövlətimizin başçısı sərbəst və Yunan-Roma güləşi üzrə dünya çempionatının ölkəmizdə keçirilməsinin əhəmiyyətinə toxunaraq, bütün Azərbaycanda idmanın inkişafının və bu sahədə beynəlxalq əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev son illər ərzində ölkəmizdə idman infrastrukturunun sürətli inkişafından, onlarca yeni, bütün müasir standartlara cavab verən idman komplekslərinin inşa edilməsindən danışdı.

Rafael Martinetti Azərbaycanda güləş üzrə keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil etdiyini vurğuladı və Prezident İlham Əliyevə bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. O, ölkəmizdə idmana göstərilən böyük diqqəti yüksək qiymətləndirirdi və Azərbaycanda gənəcləri, onların təhsilinin inkişaf istiqamətlərində görülən böyük işləri maraqla izlədiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanda güləşin inkişafında və beynəlxalq əlaqələrin genişləndirilməsində xidmətlərinə görə Rafael Martinettiyə «Şöhrət» ordenini təqdim etdi.

2007-ci-ci illərdə Azərbaycan idmançıları 1853 medal, o cümlədən 601 qızıl, 514 gümüş, 738 bürünc medal qazanmışlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il fevralın 15-də Prezident sarayında «Xəzər-Lənkəran» futbol klubunun üzvlərini qəbul edən zaman demişdir: «Hər bir idman növündə qazanılan uğur məni çox sevindirir. Xüsusilə futbolda. Çünki biz hamımız çox istəyirik ki, Azərbaycanda futbol daha da sürətlə inkişaf etsin və futbolçularımız bütün beynəlxalq yarışlarda yaxşı nəticə göstərə bilsinlər. Əminəm ki, gələcəkdə də bu sahə daha da sürətlə inkişaf edəcək və sizin bu kubok yarışında qazandığız uğur, əlbəttə ki, Azərbaycanda futbolun tərəqqisinə güclü təkan verməlidir.

Çox gərgin mübarizədə, çox güclü rəqiblərlə üzləşərək siz, çox gözəl oyun nümayiş etdirdiniz. Mən final oyununa baxmışam və çox gərgin mübarizədə siz kuboku qaza bilmisiniz və bütün Azərbaycan xalqına sevinc bəxş etmisiniz. Xüsusilə Lənkəran sakinlərinə. O da çox vacibdir ki, «Birlik kuboku»nun qalibi paytaxt komandası deyil, Azərbaycanın gözəl güşəsi olan Lənkəran təmsil edən komandanın futbolçularıdır. Bu onu göstərir ki, Azərbaycanın regionlarında da çox sürətlə iş gedir, bütün sahələr inkişaf edir. Mən çox sevinirəm ki, məhz bölgədən olan komanda həm Azərbaycan çempionatında yüksək nəticələr göstərir, hə də beynəlxalq yarışlarda böyük qələbə qazanır. Bəlkə də Lənkəranı tanımayan, adını eşitməyən insanlar artıq bilirlər ki, Azərbaycanın belə bir şəhəri var və o şəhərin komandası MDB-dən və Baltikyanı ölkələrdən olan bütün başqa komandalardan daha güclüdür».

2007-ci il mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tovuzda Olimpiya İdman Kompleksinin, həmin günü Qazaxda Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmiş, avqustun 23-də Neftçala şəhər şahmat məktəbində olmuşdur.

2007-cı ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 452 medal qazanmışdır (Onlardan 166-i qızıl, 177-i gümüş, 169-u bürünc).

2007-ci ildə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkeyin, 2008-ci ildə isə Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqun Azərbaycana səfəri Milli Olimpiya Komitəsinin dünya miqyasında böyük nüfuza malik olmasından xəbər verir. Olimpiya



Hərəkatının ən ali beynəlxalq hərəkatının rəhbərləri Azərbaycanda idman sahəsində görülən işlərdən danışarkən Milli Olimpiya Komitəsinin fəaliyyətinə yüksək qiymət vermiş, Olimpiya Hərəkatı və idmanın inkişafında Azərbaycanın model ölkə olmasını və buradakı təcrübənin başqa ölkələrdə yayılmasının vacibliyini qeyd etmişlər.

2008-ci il ildə təşkil edilən Yeniyetmələrin VI Respublikası Oyunları 11 idman növü üzrə keçirilib. Oyunlar 1994-1995-ci illər təvəllüdlü yeniyetmələr arasında komanda idman növləri üzrə keçirilmişdir.

Ölkəmizdə bədən tərbiyəsi, idmanın kütləviliyi və Olimpiya Hərəkatının genişlənməsi sahəsində əhəmiyyətli rol oynayan Olimpiya Qaçış Günü Afina Olimpiadasından ötən sonrakı illərdə də Milli Olimpiya Komitəsinin yaxından iştiarkı ilə dəfələrlə keçirilmişdir. Bu idman bayramında həm paytaxtımızın, həm də Gəncə şəhərindən olan minlərlə idmansevər həvəslə iştirak etmişlər.

Bakı İdman Sarayında yeniyetmələr arasında sərbəst güləş üzrə 20 Yanvar şəhidi, idman ustası Müşfiq İsayevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib. 12-13 yanvar 2008-ci ildə 9-cu dəfə keçirilən turnirdə 7 ölkənin 140 yeniyetmə güləşçisi 10 çəki dərəcəsində qüvvəsini sınayıb. Təmsilçilərimiz 5 qızıl, 5 gümüş və 7 bürünc medal qazanaraq, komanda hesabında birinci olublar.

Bakı İdman Sarayında 22-23 mart 2008-ci ildə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr oluunmuş karate üzrə beynəlxalq “Prezident kuboku” turniri keçirilib. Turnirdə 23 ölkədən 130-a yaxın kimano ustası qüvvəsini sınayıb. Yığmamız 5 qızıl, 2 gümüş və 7 bürünc medalla komanda hesabında birinci olub.

29-30 mart 2008-ci ildə Mngəçevir “Kür” təlim-məşq bazasında avarçəkmə üzrə beynəlxalq yarış keçirilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-illiyinə həsr olunmuş “Prezident kuboku”nda idmançılarımızla yanaşı, İran və Gürcüstan avarçəkənləri də yarışıblar. Təmsilçilərimiz turnirdə 6 qızıl medala layiq görülüblər. Həmin ilin 22 aprel -5 may tarixdə paytaxtımızda. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 85-illiyinə həsr olunmuş FİDE-nin şahmat üzrə ilk Qran-pri yarışları keçirilib. Dünyanın 12 aparıcı şahmatçısının iştirak etdiyi yarışda Vüqar Həşimov 8 xalla 1-ci yeri tutub Digər qrossmeystrimizdən Şəhriyar Məmmədyarov 5-ci Teymur Rəcəbov 8-ci yerlə kifayyətlənib. 11-12 may ayında ilk dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında cüdo üzrə 31-ci ənənəvi beynəlxalq

turnir keçirilib Yerli cüdoçularla yanaşı, 5 ölkədən 139 idmançı da qalib adı uğrunda mübarizə aparıblar. Təmsilçilərimiz turnirdə uğurlu çıxış edərək 12 qızıl, 11 gümüş və 22 bürünc medal əldə edərək komanda hesabında 1-ci olublar. 24-25 may ayında Bakı İdman Sarayında taekvondo üzrə "Azərbaycan-open" beynəlxalq turniri keçirilib. Yarışda 18 ölkədən 200-ə yaxın taekvondoçu öz ustalığını nümayiş etdirib. 2 gün davam edən yarışda təmsilçilərimiz 3 qızıl, 5 gümüş və 12 bürünc medal qazanıblar. Yekun nəticələrə əsasən, kişi və qadın komandalarımız ümumilikdə 2-ci yeri tutublar. Noyabrın 23-29-da Heydər Əliyev adına İdman-konsert Kompleksində hərbçi boksçular arasmda 52-ci dünya çempionatı keçirildi. 6 gün davam edən dünya çempionatında Azərbaycan idmançıları ilə yanaşı, Türkiyə, Ukrayna, ABŞ, Barbados, Belarus, Bolqarıstan, Əlcəzair, Fransa, Hindistan, İtaliya, Konqo, Qvineva, Latviya, Misir, Niderland, Özbəkistan və Sloveniyanın 120 boksçusu da qalib adı uğrunda mübarizə aparmışlar.

Fevralın 6-da Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev Jak Roqqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. BOK-un prezidenti H.Əliyev fondu, "Musado" taekvondo mərkəzi, Otüstü Hokkey Kompleksi ilə tanış olmuşdur. Həmin gün MOK-un inzibati binasında Jak Roqqun səfərinin yekunu ilə bağlı mətbuat konfransı keçirilmişdir.

2008-ci il yanvarın 17-də Ağdam rayonun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmişdir. Həmin ilin avqust ayının 22-də Azərbaycanda "Olimpiya Hərəkatı və İdman Muzeyinin yaradılması haqqında" Sərəncam imzalamışdır. fevralın 15 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Xəzər-Lənkəran" futbol klubunun üzvlərini qəbul etmişdir. Martın 3-də Samux rayon mərkəzində şahmat məktəbinin açılış mərasimi olmuşdur. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir. Martın 11-də Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Benyəlxalq Tennis Federasiyasının prezidenti Françesko Riççini və Rusiya Tennis Federasiyasının prezidenti Şamil Tarpişevi qəbul etmişdir. Martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul etmişdir. A. Espinos ölkəmizdə idmanın inkişafında yüksək xidmətlərinə görə, Ümumdünya Karate Federasiyasının fəxri 9-cu Dan dərəcəli diplomunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmişdir. Sentyabrın 4-də Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Prezidentinin xüsusi Olimpiya təqaüdünün məbləğinin artırılması haqqında Fərman imzalamışdır. Təqaüdün məbləği 750 manatdan 1000 manata qədər artırılmışdır. Sentyabrın 7-də Salyan İdman Kompleksinin açılış mərasimi keçirilmişdir. Açılış mərasimində Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir. Həmin tarixdə Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabad Olimpiya İdman Kompleksində tikinti işləri ilə tanış olmuşdur. Azrbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad Olimpiya İdman Kompleksinin açılışında demişdir: "Hər bir cəmiyyətin həyatında idmanın çox böyük rolu vardır. İdman həm ölkəyə şöhrət gətirir, həm də insanların fiziki cəhətdən sağlamlığına xidmət edir. Bu amillər idmanı ən cəlbedici və hər bir ölkədə çox mühüm yer tutan sahəyə çevirir. Azərbaycanda idmana münasibət yüksək səviyyədədir. Ölkədə idmanın maddi-texniki bazası ildən ilə möhkəmlənir. Eyni zamanda bu, idmançılarımız beynəlxalaq yarışlarda daha uğurla çıxış etməsinə zəmin yaradır. Hər il idmançılarımız beynəlxalq yarışlarda yüzlərlə qızıl, gümüş, bürünc medallar qazanırlar. Dünya, Avroa çempionatlarında Azərbaycanın bayrağı qaldırılır, dövlət himni səslənir. Azərbaycanın idman şöhrəti yüksəlir. Təsadüfi deyil ki, beynəlxaq Olimpiya Qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır, burada idmana olan münasibəti başqa ölkələrə də örnək, nümunə kimi göstərirlər. Bu da ondan irəli gəlir ki, Azərbaycanda dövlət səviyyəsində idmana çox böyük dəstək var, əməli, praktik işlər görülür. Azərbaycan Milli Olimpiya Komitəsi də bu sahədə fəallığı ilə seçilir. Bu fəallığın aşkar hiss olunduğu istiqamətlərdən biri də yeni idman obyektlərinin, demək olar ki, bütün bölgələri əhatə etməsidir.

Respublikamızda tikilib istifadəyə verilən Olimpiya İdman Komplekslərinin sayı sürətlə artır. Komplekslər ölkənin bütün regionlarını əhatə edir və ayrı-ayrı rayonlarda bu cür idman qurğularının tikilməsi və təməlqoyma işləri də davam edir".

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci ilin sentyabr – oktyabr aylarında Salyan, Qax, Qəbələ, Oğuz, Kürdəmir, Tovuz, Qusar, Biləsuvar Olimpiya İdman Komplekslərinin açılış mərasimində iştirak etmişdir.

Aprel ayının 12-dən 20-dək Bakı Otüstü Hokkey Kompleksində otüstü hokkey üzrə Olimpiya Seçmə Turniri keçirildi. Yarışın açılış matçında İspaniya və Belarus hokkeyçiləri qarşılaşdılar. İspaniyanın üstünlüyü şəraitində keçən matçda Priney təmsilçiləri 4:0 hesabı ilə

qələbə qazandılar. Növbəti matçda Ukrayna və Keniya yığmaları mübarizə apardılar. Ukraynalılar rəqiblərinin qapısından 6 cavabsız top keçirdilər.

8 gün davam edən turnirin qalibi adına İspaniya hokkeyçiləri layiq görüldülər. Onlar finalda Azərbaycan yığmasını məğlub edərək qızıl medalla yanaşı, Pekin-2008-ə lisenziya da qazandılar. Bakıda 6 ölkənin iştirak etdiyi Olimpiya Seçmə Turnirinin nəticələri göstərdi ki, Olimpiya Oyunlarında iştirak etmək üçün yarışan komandalar arasında zəif rəqib yoxdur. Belə ki, gərgin mübarizə şəraitində keçən qrup oyunlarından sonra aprelin 20-də Olimpiya Seçmə Turnirinin final oyünları keçirildi. Əvvəlcə 5-ci yerin sahibi müəyyənləşdi. Qrup mərhələsində 1 dəfə də fərqlənməyən Keniya millisi bu dəfə də qol vura bilmədi. 5-ci yer uğrunda qarşılaşmada Belarus yığması ilə qüvvəsini sınayan Afrika təmsilçisi keçirdiyi son matçda da uduzaraq 6-cı yerdən yuxarı qalxa bilmədi. Üçüncü yer uğrunda görüşdə Ukrayna və Çili hokkeyçiləri üz-üzə gəldilər. Xatırladaq ki, komandaların ilk oyununda avropalılar qalib gəlmişdilər. Bu oyunda da ukraynanılar qələbəyə yaxın idilər. Lakin ikinci hissədə onların inamsız oyunu rəqibi ruhlandırdı və 1:0 hesabı ilə fasiləyə üstün yollanan Ukrayna millisi ikinci hissədə fərqlənə bilmədi. Bundan məharətlə istifadə edən cənubi amerkalılar rəqib qaısından 2 top keçiriərək bürünc medala sahib oldular.

Bu oyun Azərbaycan yığmasının üzvləri üçün əsil sınaq idi. Çünki Mançesterdə təşkil edilən Avropa çempionatının final mərhələsindən sonra təlim-məşq toplanışına başlayan yığmanın qarşısına Pekin-2008-ə lisenziya qazanmaq məqsədi qoymuşdu Qeyd edək ki, Avropa çempionatı ərəfəsində milliyə koreyalıları cəlb edən pakistanlı baş məşqçisi yığmanın veteranlarını əsas komandadan uzaqlaşdırmışdı. Lakin asiyalıların komandamıza gəlişi, demək olar ki, heç nəyi dəyişmədi. Gözlənildiyi kimi, Olimpiya Seçmə Turnirində əsas rəqibimiz sayılan İspaniya yığması hər iki matçda (qrup mərhələsində və finalda) hokkeyçilərimizi məğlub etməkdə çətinlik çəkmədi. Qrup mərhələsində idmançılarımızı 4 dəfə mərkəzə dəvət edən ispaniyalılar finalda da qələbəni əldən vermədilər. Onlar bu dəfə komandamıza 3:2 hesabı ilə qalib gələrək, qızıl medal qazandılar.

2008-ci ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 550 medal qazanmışdır. Onlardan 205-i qızıl, 141-i gümüş, 204-ü isə bürüncdür. Bu medallrdan 137-si Olimpiya, 423-ü isə qeyri-Olimpiya növlərində əldə edilmişdir. Azərbaycan idmançıları 51



dünya, 73 Avropa və 120 beynəlxalq turnirlərdə iştirak etmişlər. Bütün bunlar ölkədə idmanın sürətli inkişafının göstəricələri kimi diqqəti cəlb edir.

2008-ci ilin iyun ayında Bakıya səfər etmiş Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) rəsmləri, AƏOH prezidenti Karlos Qonsalves, vitse-prezidentlər Manfred Lammer və Erdoğan Aripinar Azərbaycan Milli Olimpiya Komitəsinin, İdman Federasiyalarının ili ilə, idman qurğularının müasir texniki imkanları ilə tanış olmuşlar. Qonaqlar respublika idman cəmiyyəti ilə görüşmüş, Azərbaycan DBTİA-da və MOK-da Ədalətli Oyunlar Hərəkatının inkişaf və təbliğinə dair mühazirələr oxumuşlar.

2008-ci il oktyabr ayının 1-3-də Kiprin Nikosiya şəhərində AƏ-un 14-cü Konqresi keçirilmişdir. 14-cü Konqresin idmanın aktual prpoblemlərinə həsr edilmiş seminarlarında müxtəlif ölkələrdən olan mütəxəssislərlə fikir mübadiləsi aparan nümayəndə heyətimiz respublikamızda gənclərin fiziki və mənəvi tərbiyəsinə dövlətin xüsusi diqqəti olduğunu bildirmişlər.

2008-ci ildə Dünya və Avropa çempionatlarında medal qazanmış idmançılara 69,35 min, onların məşqçilərinə 34,45 min, yığma komandanın baş məşqçilərinə 10,80 min manat məbləğində pul mükafatı verilmişdir.

**2004-2008-ci illərdə ümumrespublika üzrə bədən tərbiyəsi –sağlamlıq və idman işi**

| № | Təşkilatın adı | İllər üzrə | | |
|---|---|---|---|---|
| | | 2004 | 2008 | Cəmi: |
| 1. | Bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı o cümlədən qızların sayı | 539582 | 542601 | 1082183 |
| 2. | İnkişaf etdirilən idman növlərinin sayı | 853 | 767 | 1620 |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Bədən tərbiyəsi və idmanın inkişafı ilə məşğul olan təşkilatların ümumi sayı<br>O cümlədən:<br>a) bədən tərbiyəsi kollektivləri<br>b) idman cəmiyyətləri federasiyaları<br>c) İdman federasiyaları | 853<br><br><br>651<br>138<br><br>64 | 767<br><br><br>529<br>174<br><br>64 | 1620<br><br><br>1180<br>312<br><br>128 |
| 4. | Uşaq-gəncləri idman məktəblərinin sayı | 204 | 204 | 408 |
| 5. | İxtisaslaşdırılmış Olimpiya Ehtiyyatları UGİM-nin sayı | 17 | 19 | 36 |
| | UGİM və İOEUGİM-də məşğul olanların ümumi sayı:<br>O cümlədən qızlar | 107524<br><br>18709 | 119848<br><br>24841 | 227372<br><br>43550 |
| 7. | Məşqçi-müəllimlərin sayı | 4593 | 4280 | 8873 |
| 8. | Bədən tərbiyəsi və idman kadrlarının sayı | 12420 | 15422 | 27842 |
| | Yekun: | 685608 | 709516 | 1395124 |

**2004-2008-ci illərdə ümumrespublika üzrə bədən tərbiyəsi –sağlamlıq və idman işinin qrafiki**






Cədvəldən göründüyü kimi ümumrespublika üzrə bədən tərbiyəsi – sağlamlıq və idman işləri illər üzrə artması – yenə də dövlətin bədən tərbiyəsi və idmana göstərdiyi hədsiz qayğının təsdiqedici amildir.

2009-cu il Azərbaycan idmanı üçün çox uğurulu olmuşdur. 2009-cu ildə 84 idman növü üzrə 449 respublika yarışı keçirilmiş və 100.000-ə yaxın idmançı bu yaşlarda iştirak etmişdir. 12 kompleks spartakiada və 61 kütləvi idman tədbirində isə 25 mindən çox idmançı iştirak etmişdir. Avropa və dünya çempionatlarında və müxtəlif beynəlxalq turnir və yarışlarda iştirak etmiş və yüksən nailiyyətlər əldə etmişlər. Məsələn, Fərid Mansurovun həmin ili 2 qat dünya çempionu olması, beş cüdoçumuz Ermənistandan 5 medal gətirməsi və Azərbaycan himnini Yerevanda səsləndirməsi bu böyük bir tarixi hadisədir.

2009-cu ildə Linyanoda (İtaliyada) veteran cüdoçularımızın ilk Avropa çempionatında Fərhad Rəcəbli (100 kq), Məhəmməd Müslümzadə (+100 kq) və Zülfüyyə Hüseynova (78 kq) qızıl medala sahib çıxıblar. Kişnyovda (Moldova) "Çelenc Trofi" turnirində Azərbaycanın kişi həndbolçuları yığması üçüncü yeri, Əbu Dabidə (BƏƏ) cüdoçuların qran-pri yarışında Elxan Rəcəbli (81 kq) və Elxan Məmmədov (90 kq) bürünc medal, Seulda (Koreya) ağır atletlərin dünya çempionatında Nizami Paşayev iki hərəkətin cəmində 387 kq nəticə ilə (birdənqaldırmada) 177 kq+ təkanlaqaldırmada 210 kq) gümüş mükafata layişq görülüb.

Həmin ili Banqalorda (Hindistan) paralimpiyaçı atletlərin dünya çempionatında Oluxan Musayev ağırlıqqaldırmada birinci, Hüseynov Həsənov uzunluğa tullanmada ikinci yeri tutublar. Sidneydə (Avstraliy) veteranların birinci Olimpiya Oyunlarında keçmiş Avropa və dünya çempionu, MOK-in 50 yaşlı savuşu Akif Aliyev 1950-1959-cu illər təvəllüdlü ağır atletlərin yarışında 175 kq (80+95 kq) nəticə ilə zirvəyə qalxaraq ilk idmançımız oldu.

2009-cu ildə bədii gimnastlarımızın qələbələri xüsusi ilə seçilir. Təkcə noyabr-dekabr aylarında beynəlxalq turnirlərdə Belçikada 10 mükafat (4 qızıl, 4 gümüş və 2 bürünc) qazanılıb. Çoxnövçülükdə Lalə Yusifova birinci, Aişə Mustafayeva üçüncü yeri tutub. Lalə həmçinin halqa və topla hərəkətlərdə qızıl, iplə bürünc medala sahib çıxıb. Aişə gürzlə qalib gəlib, top, halqa və iplə ikinci olub. Sloveniyada Anna Qurbanova 5 medal qazanıb (çoxnövçülükdə, eləcə də ip, halqa və

topla qızıl, lentlə gümüş). Padderbornda (Almaniya) Yekaterina Prokopenko 1996-1997-ci illər təvəllüdlərin yarışında ikinci, Aliyə Paşayeva, İradə Əhədzadə, Mənsurə Mehdiyeva və Mədinə Həsənovadan ibarət qrup komandası isə üçüncü olub. Qadın akrobatlar Ayla Əhmədova və Dilarə Sultanova cütlüyünün Polşadakı qələbəsi isə ötən dövrün ən ümidverici nəticələridir.

Dohada (Qətər) bobildinq üzrə dünya çempionatında Azərbaycanı təmsil edən Həmid Rza Kəşani (90 kq) bürünc mükafata layiq görülüb.

Antaliyada (Türkiyə 23 yaşadək cüdoçuların qitə çempionatında Ramilə Yusibova (63 kq) bürünc medal qazanıb. Seulda 2009-cu ildə atletika üzrə ölkədaxili 11 yarış keçirilib. Azərbaycan Atletika Federasiyası ilə birgə təşkil olunmuş ölkə çempionat və birinciliklərində, kubok yarışlarında bütövlükdə idmançı iştirak edib. Atletikanın ayrı-ayrı proqramları üzrə 11 nəfər İU, 15 nəfər İUN, 17 nəfər isə I dərəcəsi normativini yerinə yetirib.

Bölgələrdə fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərində idmanın bu növü üzrə stptistik hesablamalara görə, 1954 nəfər məşğul olanlarla 135 məşqçi-müəllim çalışır (Naftalan -56 idmançı məşğul olur, 7 məşqçi-müəllim çalışır. Şuşa- 94 (24 qız). 6 məşqçi-müəllim, Sumqayıt -81 (39 qız), 6 məşqçi-müəllim, Gəncə-347 (49 qız), 21 məşqçi-müəllim, Naxçıvan MR-da 349 (112 qız), 12 məşqçi-müəllim, Füzuli – 174, 13 məşqçi-müəllim, Şəmkir- 296 (63 qız), 17 məşqçi-müəllim, Gədəbəy-56 (7 qız), 6 məşqçi-müəllim, Astara- 172 (20 qız), 17 məşqçi-müəllim, Xaçmaz- 154 (42 qız), 13 məşqçi-müəllim, Neftçala - 175 (39 qız), 17 məşqçi-müəllim, Bakıda isə 5 saylı İOEUGİM-də, «Təhsil» RİM, Bakı RYİUM, «Məhsul» KKİC, «Ümid» İK, «Neftçi» İSM-də atletika bölmələri fəaliyyət göstərir.

Respublika yığma komandası il ərzində 10 təlim-məşq toplanışında və 11 beynəlxalq turnirdə iştirak etmişdir. Milli yığma komandanın 29 üzvü və ölkəmizə dəvət olunmuş 5 atlet beynəlxalq yarışlarda respublikamızın idman şərəfini qorumuşlar. Onlara Ramil Quliyev, Valentin Bulıçev, Teymur Abbasov, Gülnarə Məmmədova, Mürad İbadullayev və digərlərini göstərmək olar. Beynəlxalq yarışlarda çıxış edən idmançılarımız yüksək nailiyyətlər əldə etməklə bərabər, ölkə rekordlarını da təzələmişlər. Belə ki, 19-27 yanvarda Rusiyanın Volqoqrad şəhərində keçirilmiş «Qubernator kuboku» beynəlxalq turnirində iştirak edən yığma komandamızın üzvü Ramil Quliyev 60 metrə qaçışda proqramında 6.68 san. nəticə ilə I yeri tutmşu və bununla da



20 yaşadək idmançılar arasında Azərbaycan rekordunu yeniləmişdir. Digər idmançımız Gülnarə Məmmədova mayın 8-dən 12-dək Çexiyada keçirilən «Praqa marafonu»nda iştirak etmiş və 2s.44 dəq. 45san, nəticə ilə 636 nəfər arasında 11-ci yeri tutumşdur. Bu nəticə yeni Azərbaycan rekordudur.

2009 - cu il iyul ayında Serbiyanın Novm Sad şəhərində yüngül atletika üzrə gənclər arasında keçirilən Avropa çesmpionatında 10 min metr məsafəyə qaçışda yığmamızın üzvü Hayle İbrahimov 30,06,64 dəqiqə nəticə göstərərək birinci yerə layiq görülmüşdür. N.İbrahimov 5000 m məsafədə 14.01.19 dəqiqə nəticə göstərərək birinciliyi əldən verməyib.

100 m məsafəyə qaçışda ümumdünya universiadasının qalibi Ramil Quliyev final mərhələsində məsafəni 10,16 saniyəyə dəf etməklə gümüş medalın sahibi olub.

R.Quliyev 200 m. məsafədə Avropa çempionatlarının rekordu olmuşdur. Xatırladaq ki, 2009-cu il ümumdünya universiadasında 200 metri 20,04 saniyəyə qaçmaqla gənclərin Avropa rekordunu təzələmişdi. Novi Sadda isə sprint məsafəni 20,33 saniyəyə qaçıb.

Komandamızda ikinci gümüş medalın sahibi isə 1500 m məsayəyə qaçışda Layes Abdullayeva qazanıb. Layes özündən irəli ancaq rusiyalı Darya Yaçmenyovanı (4.14..64 dəqiqə) buraxıb. İdmançımızın nəticəsi 4.16.63 dəqiqə olub.

Layes Abdullayeva 3000 m məsafəyə maneələri dəf etməklə qaçışda ikinci nəticə göstərib. Beləliklə, komandamız 6 medalla ümumi hesabda Avropa Avropa çempionatında beşinci yerə layiq görülüb.

Ramil Quliyev 11-24 avqustda Almaniyanın paytaxtı berlində keçirilmiş dünya çempionatındakı çıxışı ilə də ona olan etimadı doğrultmuşdur. O, 200 m. məsafəyə 4-cü cığırda qaçaraq, 21.12.nəticə ilə II yeri tutmuş və növbəti mərhələyə-yarımfinala keçmişdir. Yarımfinalda atletimiz 2-ci cığırda 20.28 nəticə ilə 4-cü olmuşdur. Bu onun finala keçməsi üçün kifayət etmişdir. Finalda Ramil 20.61 san. nəticə ilə 7-ci yeri tutmuşdur. Avropa qitəsini finalda Ramil Quliyev və fransız David Alerte təmsil etmişlər. Ramil Fransız idmançısını qabaqlamaqla qitə üzrə ən yüksək nəticə əldə etmişdir.

20 yaşadək idmançılar arasında Ramil düynada reytinqə görə I yerdədir. O, Avropada böyüklər və 2 yaşadək idmançılar arasında da I yerdə qərarlaşıb.

Yığma üzvlərindən Ramil Quliyev 200m., Ruslan Abbasov 100., 200., Hayle İbrahimov 5000 m., və 10000 m., layeş Abdullayeva 3000

m. məsafəyə manialərlə qaçış Mare İbrahimova 5000 m., 10000 m. və marafon qaçış proqramlarında, Teymur Abbasov və Kamran Cəlilov üç təkənla tullanma proqramlarında London Olimpiya Oyunlarına namizəd idmançılardır.

Məşğələlərin məzmunu ixtisaslaşmadan, yəni yüngül atletikanın hansı növü üzrə yarışlara hazırlaşmağınızdan asılıdır. İdman alətləri atanlar əsas diqqəti fiziki gücünü artırmağa, tullananlar sıçrayış və çeviklik keyfiyyətlərini inkişaf etdirən hərəkətlərə daha çox fikir verir, sprinterlər isə mümkün qədər çox qaçırlar.

2009-cu ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 619 medal qazanmışdır. Onlardan 247-si qızıl, 177-si gümüş, 195-i isə bürüncdür.

2010-cu il aprelin 2-də Belarusiyanın paytaxtı Minskdə ağır atletika üzrə kişilərin 89-cu, qadınları isə 23-cü Avropa çempionatı keçirilmişdir. Avropa çempionatında bolqarıstanlı baş məşqçi Yanko Rusevin rəhbərliyi altında idmançılarımız 4 ağır atletlə təmsil olunmuşdur (Zülfüqar Süleymanov - 62 kq, Sərdar Həsənov - 69 kq, Rövşən Fətullayev - 94 kq).

62 kq çəki dərəcəsində ölkəmizi təmsil edən ağır atletimiz Züfüqar Süleymanov Avropa çempionatının bürünc mükafatına layiq görülüb. Birdənqaldırmada 132 kq, təkanla 162 kq çəkini başı üzərinə qaldırıb. İki hərəkətin cəmində Zülfüqar 294 kq nəticə göstərib.

Bu çəki dərəcəsində türkiyəli Erol Bilgin 304 kq (139 kq+165 kq) nəticə ilə qızıl medal əldə edib. Rumınıyalı Antoniu Buciyə isə 300 kq (135+165) başı üzərinə qaldıraraq gümüş medala layiq görülüb.

69 kq çəki dərəcəsində çıxış edən digər həmyerlimiz Sərdar Həsənov Avropa çempionatında 302 kq (135 kq+167 kq) nəticə göstərərək 5-ci yerə çıxmışdır. Həmin çəkidə rumınıyalı ağırlıqqaldıran Ninel Nikulesku 333 kq nəticə ilə (153-180) qızıl medala layiq görülüb. Rövşən Fətullayev gümüş medal qazanmışdır (94 kq. 75+215=390).

2010-cu il fevralın 6-da Bakı Olimpiya-İdman Kompleksində Azərbaycan atletika tarixində özünəməxsus yeri, idmanın bu növündə tanınmış simaların yetişməsində xidmətləri olan əməkdar idman ustası, əməkdar məşqçi Aleksandr Antipovun xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib.

Antipov 3 təkanla tullanmada nəticəsi (17,33) son 20 ildə təzələnməyən Azərbaycan rekordçusu, Vasif Əsədovun, Məmməd Axundovun, paralimpiyaçı Oleq Panyutin məşqçisi olub. Ölkəmizin



yüngül atletləri onun xatirəsinə hər il ənənəvi beynəlxalq yarışlar keçirirlər. Həmin yarışda keçirilən sonuncu turnirdə yerli idmançılarla yanaşı, Rusiya və Gürcüstan 50-dən çox atlet iştirak etmişdir.

Beynəlxalq Atletika Federasiyasının planına daxil edilmiş turnirin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Gənclər və İdman Nazirinin müavini İsmayıl İsmaıylov ölkəmizdə yüngül atletlərin idmanın inkişafı haqqında məlumat verdi. Nazir müavini əlavə edib ki, ötən il idmançılarımızın qazandıqları 619 medal arasında yüngül atletlərimizin mükafatları da az deyil.

Turnirdə gənclər, kişi və qadın idmançılar mübarizə aparıblar. Gənclərin 3 təkanla tullanma yarışında Azərbaycan idmançısı Rəhim Rüstəmov ən yüksək nəticəyə nail olub. İkinci nəticə rusiyalı Anatoli Yeqorova məxsus olub. Bu növdə turnirin 3-cü mükafatı yerli idmançı Teymur Əsədova nəsib olub.

Uzununa tullanmada Fariz Vəliyev birinci yeri tutub, Rəhim Rüstəmov gümüş, Teymur Əsədov bürünc medallarının sahibi olublar.

2010-cu ilin iyul ayında Kanada şəhərində keçirilən yeniyetmələrin dünya birinciliyində çəkic tullayan Dmitri Marşin və 4 uzaq məsafəyə – 3000 m məsafəyə qaçışda Layes Abdullayeva, Gözyaşın Səfərova, Tilahun Əliyev və Hayle İbrahimov 3-cü yeri tutmuşlar.

2010-cu il avqustun 1-də İspaniyanın Barselona şəhərində atletika üzrə Avropa çempionatı keçirilib. Atletlərimiz bu yarışda yığma komandanın baş məşqçisi Məhərrəm Sultanzadənin rəhbərliyi altından çıxış ediblər. Təmsilçilərimiz çəkicatma, stiplçez (manealərlə 3 min metr məsafəyə qaçış), 5 min metr məsafəyə qaçış və marafon yarışlarında qüvvələrini sınayıblar. Atletlərimizdən Hayle İbrahimov 5000 metr məsafəyə qaçışda üçüncü yeri tutub. Digər təmsilçilərimiz Layeş Abdullayeva isə 3000 metr məsafəyə stiplçezlə qaçışda altıncı yerlə kifayətlənib.

2010-cu ilin mart ayında «Sərhədçi» İdman Olimpiya Mərkəzində gənc boksçuların «İpək Yolu» beynəlxalq turinirində Əlczair, Gürcüstan, Ruminiya, Rusiya, Türkiyə, Qazaxıstan və Özbəkistan boksçuları da mübarizə aparıblar. 11 çəki dərəcəsində 100-dən çox idmançılarımız iştirak edərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Komada hesabında 8 qızıl, 4 gümüş və 5 bürünc medalla yerli boksçular 1-ci olublar. Türkiyə 3 qızıl, 3 gümüş, bürünc medalla 2-ci, Qazaxıstan 2 gümüş və 2 bürünclə 3-cü olublar.

Sombatayda (Macarıstan) «Qızıl qran-pri» seriyasından yunan-Roma güləşi turnirində Həsən Əliyev (60 kq) qızıl, Rövşən Bayramov

(55 kq) gümüş medal qazanıblar. Debresendə (Macarıstan) bədii gimnastika yığmamız (Ceyla Quliyeva, Stefani Trayanova, Anastasiya Prasolova, Nigar Abdüsəlimova, Cəmilə Hüseynova və Nigar Mirzəyeva, Cəmilə Hüseynova və Nigar Mirzəyeva) dünya kuboku uğrunda mübarizənin çoxnövçülük yarışında iki ip və üç lentlə hərəkətlərdə üçüünücü yeri tutub. Tixunda (Meksika) Aydın Bəhməlov (78 kq) gənc taekvondusularının dünya çempionatının qalibi adını qazanıb. 73 kq-da Səbuhi İsmayılzadə 6-cı yeri tutmaqla yeniyetmə və gənclərin Sinqapurda keçiriləcək birinci Olimpiadasına vəsiqə əldə edib. Portimauda (Portulaliyada) bədii gimnastların dünya kuboku mərhələsində Aliyə Qarayeva iştirak etdiyi 3 finaldan ikisində medal qazanıb. O, topla hərəkətlərdə 2-ci, iplə 3-cü yeri tutub. Kolamatda (Yunanıstan) bədii gimnastların dünya kuboku uğrunda yarışında Ailiyə Qarayeva lentlə hərəkətlərdə gümüş medala layiq görülüb. Ceyla Quliyeva, Stefani Trayanova, Anastasiya Prasolova, Nigar Abdüsəlimova, Cəmilə Hüseynova və Nigar Mirzəyeva, Cəmilə Hüseynova və Nigar Mirzəyeva və Aelitva Xələfovadan ibarət qrup komandası soxnövçülüyün iki hərəkətin cəminə görə yarışda 3-cü nəticə göstərib. Həmin ili Buxarestdə (Ruminiya) bədii gimnastların «İrina Delyanu kuboku» yarışında yeniyetmələrin mübarizəsində Lalə Yusifova, Jalə Qaratova və Ayşə Mustafayevadan ibarət kollektiv 2-ci yeri tutub. Fərdi finallarda Lalə Yusifova topla 1-ci, halqa ilə 2-ci, Jalə Qarayeva gürzlə 2-ci, Ayşə Mustafayeva iplə 3-cü nəticə göstərib. Pa-de-Kaledə Fransa da Ceyla Quliyeva, Stefani Trayanova, Anastasiya Prasolova, Nigar Abdüsəlimova, Nigar Mirzəyeva, Cəmilə Hüseynova və Aelitva Xələfovadan ibarət bədii gimnastika qrupu çoxnövçülükdə qalib gəlib. Sonra halqa, iplə hərəkətlərin finalında 3 medal əldə olunub və komanda hesabında ölkəmiz birinci olub. Bişkekdə (Qırğızıstan) «Novruz-2010» turnirində Azərbaycan basketbolçuları bütün rəqiblərini, o cümlədən həlledici görüşdə ev sahiblərini 85:63 hesabı ilə məğlub edərək, baş mükafatı qazanıblar. Dortmundda (Almaniya) güllə atıcılarının turnirində İradə Aşumova pnevmatik tapançadan atəş proqramında 383 xalla qalib gəlib.

2010-cu il aprelin 10-dan 13-dək Azərbaycan Voleybol Federasiyasının (AVF) idman zalında SSRİ-nin əməkdar məşqçisi Şamil Şamxalovun xatirəsinə həsr olunmuş qadın voleybolçuların turniri keçirilib. Turnirdə Bolqarsıtan seçmə komandası da müsabiqədənkənar iştirak edib. Finalda «Azərreyl»i 3:2 hesabı ilə üstələyən «Rabitə» qalib gəlib. 3-cü yeri «Lokomotif»i 3:1hesabı ilə məğlub edən



«İqtisadçı» tutub. Bakıda aprelin 18-dən 23-dək uşaq şahmatçıların ənənəvi «Makkabi» turnirində 9 ölkənin 36 şahmatçısı mübarizə aparıb. Turnirdə 12 yaşlı Zaur Abbasov 7 mümkün xaldan 6-nı toplayaraq qalib gəlib.

San Antoniada (ABŞ) paralimpiyaçı üzgüçülərin Şimali Amerika açıq birinciliyində Natalya Filina bir qızıl, iki gümüş və iki bürünc medal qazanıb. Sankt-Peterburqda (Rusiya) bədii gimnastların dünya kubuoku yarışında yeniyetmələrdən ibarət qrup komandamız 3-cü yeri tutub. Moskvada (Rusiya) «Dinamo» idman sarayında güc strukturlarının cüdo üzrə birinci Avropa çempionatında ölkəmiz bürünc medal qazanıb. Antalyada (Türkiyə) paralimpiyaçı güllə atıcıların Dünya Kubokunda 10 metr məsayəyə prevmatik tapançadan atəş proqramında Əkbər Muradov kişilərin yarışında bürünc, Yelena Taranova isə qadınların arasında gümüş medal qazanıb. Yekaterinburqda (Rusiya) «KES-Basket» Məktəb Basketbol Liqasının final yarışlarında Azərbaycanın yeniyetmə oğlanlar yığması keçdiyi 5 oyunun hamısında qalib gəlib. Renat Urazayev turnirin ən yaxşı oyunçusu seçilib. Tehranda (İran) taekvondoçuların 22-ci «Fəct» turnirində Elvin Məmmədov (74 kq) finalda erməni rəqibi Levon Paşabezyana qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Samir Aydınov (54 kq) 2-ci, Ramin Əzizov (80 kq) 3-cü yerə çıxıb. «Verder» (Bremen) klubunun şərəfini qoruyan Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov və Vüqar Həşimov Almaniya komanda çempionatının gümüş medalını qazanıblar. Madriddə (İspaniya) beynəlxalq turnirdə üç kişi və iki qadın karateçidən ibarət heyətin mübarizə apardığı qarışıq komanda kumite yarışı təmsilçilərimizin qələbəsi ilə başa çatıb. Mettsdə (Fransa) keçirilmiş beynəlxalq şahmat turnirində Fərid Abbasov 6 xalla 2-ci yeri tutub. «Təhsil» Respublika İdman Mərkəzinin məktəblilərdən ibarət komandası Yunanıstanın Saloniki şəhərində keçirilmiş şahmat üzrə məktəblilər arasında Avropa çempionatında uğurla çıxış edib. Ölkəmizi təmsil edən şahmat yığmamız imumilikdə 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanaraq, ümumi hesabda 24 komanda arasında 1-ci yerə çıxıb.

Bütün ölkəmizdə olduğu kimi, respublikamızda da çox inkişaf etmiş idman növlərindən biri atletikadır. Əgər bir neçə il bundan əvvəl idmanın bu növü üzrə respublikamızda göstərilən yüksək nəticələr ikinci və hətta üçüncü dərəcəli idmançı normasına bərabər idisə, indi idmançılarımızın nəticələri nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Hazırda respublika rekordları birinci dərəcəli idmançı və idman ustası

normalarına bərabərdir. Bu, yüngül atletikanın xalq kütlələri arasında kütləvi şəkilə inkişaf etməsi nəticəsində mümkün olmuşdur.

2010-cu il sentyabr ayının 17-26-sında Türkiyənin Antalya şəhərində kişilərin 71-ci, qadınıların isə 21-ci dünya çempionatı keçirilmişdir. Türkiyədə keçirilən dünya çempionatı 2012-ci ildə Londonda təşkil olunacaq Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyırdı. Azərbaycanın milli komandasına rəhbərlik edən bolqarıstanlı məşqçi Yanko Rusevin Antalyaya göndərdiyi 10 ağır atletdən heç biri fəxri kürsədə yer ala bilməyib. Ağırlıqqaldıranlarımızdan dördü 30-cu Yay Olimpiya Oyunlarına lisenziya qazanmışlar. Onlardan, Zairov İntiqam (94kq) (175+211) =386, 7-ci yer, Həsənov Sərdar (69 kq) (145+175)=320, 8-ci yer, Bayramov Əfqan (69 kq) (135+171)=306, 15-ci yer, Mirzəyev Turan (77kq) (138+184) =322, 16-cı yer, Nəbiyev Nailxan (85kq) (152+186)=338, 21-ci yer, Elmar Əliyev (56kq) (95+127)=222 kq, 28-ci yer, Silviya Angelova (48kq) (67+82)=149, 22 yer, Tornike Kokaya (105 kq) (145+185)=330 kq ağırlıq qaldıraraq 33–cü yerə layiq görülmüşlər. Azərbaycan yığması yekunda kişilər komanda hesabında 16-cı, qadınlar isə 45-ci yerə layiq görülüb.

Milli Aviasiya Akademiyasının İdman Kompleksində 2010-cu ilin dekabrın 5-də kosiki karate idman növü üzrə Azərbaycanın açıq çempionatında Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan və Moldova yığmaları da iştirak edib. Komanda hesabında Azərbaycan 1-ci, Rusiya 2-ci, Ukrayna 3-cü olub. Bakı İdman Sarayında Əməkdar məşqçi Abbas Ağalarovun xatirəsinə dekabrın 15-dən 20-nə kimi keçirilmiş boks üzrə 38-ci beynəlxalq turnirdə Rusiya Ukrayna, Gürcüstan, Qazaxıstan, İrlandiya və Çindən olan idmançılar da iştirak ediblər.

Azərbaycan Dövlət İqtisad Universmtetində (AzDİU) bu ali təhsil ocağının 80-illiynə həsr olunmuş və dekabrın 4-də yekunlaşan blits üzrə şahmat turnirində qrossmeyster Şəhriyar Məmmədyarov qalib gəlib, Rauf Məmmədov 2-ci, Eltas Səfərli 3-cü yeri tutub. Qızların yarışında Zeynab Məmmədyarova 1-ci olub. Kiyevdə (Ukrayna) Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalında 1995-1997-ci ilər təvəllüdlü sərbəst güləşçilərin Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş 2-ci turnirdə Azərbaycan yığması komanda hesabında 1-ci yerə çıxıb. Omskda (Rusiya) bədii gimnastların Qorenkova memorialı turnirində Anna Qurbanova qızıl medala layiq görülüb. Minskdə (Belarus) atletlərin turnirində Dmitri Marşin çəkic atanların yarışında 3-cü nəticə göstərib. Kaliningradda (Rusiya) gimnastların turnirində 8 yaşlı Vəfa Həsənzadə 2-ci yerə yüksəlib və «Miss qrasiya» adına sahib çıxıb. İlahə Məmmədova (2001-ci il təvəllüdlü) və Nilufət Niftaliyeva (1998-ci il təvəllüdlü) yarışı 3-cü yerdə başa vurublar. Varşavada (Polşa) sürətli şahmat üzrə Avropa çempionatında Vüqar Həşimov 10,5 xal toplayaraq gümüş mükafat qazanıb. Medmada (Rusiya) şəhərində universal döyüşçülərin dünya çempionatında Azərbaycan yığması 10 medalla (1 qızıl, 4 gümüş, və 5 bürünc) 2-ci yeri tutub.



2011-ci il noyabr ayında Bakıda bədii gimnastların 17-ci açıq Azərbaycan və Bakı çempionatında Gürcüstan, Rusiya, Özbəkistan və Ukraynanın təmsilçiləri də çıxış ediblər. 6 yaş qrupu (1995-1997, 1998, 1999, 2000, 2001 və 2002-ci il)üzrə keçirilən turnirdə Darya Sorokina (2002-ci il Azərbaycan), Leyli İbrahimova (2001-ci il, Azərbaycan), Jalə Piriyeva (2000-ci il Azərbaycan), Aleksandra Telegina (1999-cu il Rusiya), Viktoriya Sitnikova (1998-ci il, Ukrayna) və Anastasiya Mulmina (1995-1997-ci illər, Ukrayna) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. 2000-2003-cü il təvəllüdlü idmançılardan ibarət qrup komandaların mübarizəsində Respublika Kompleks İdman Məktəbinin komandası 1-ci, «Spartak-1» 2-ci, «Neftçi» isə 3-cü olub.

Sarayevoda (Bosniya və Hersoqovina) 23 yaşadək cüdoçuların Avropa çempionatında İlqar Müşkiyev (60 kq) bürünc medal qazanıb. Zaqrebdə (Xorvatiya) bədii gimnastların turnirində Anna Qurbanova mütləq qalib olub. Aressoda (İtaliya) bədii gimnastların ölkə klub çempionatının ikinci turunda «Ritmika» komandasının heyətində çıxış edən Aliyə Qarayeva lentlə kompozisiyaya görə iştirakçılar arasında ən yüksək nəticə göstərib, klubu isə «A2»seriyasında ümumi hesabda 3-cü yeri tutub. Pesaroda keçirilən üçüncü turda isə o, iplə hərəkətlərdə ən yaxşı nəticə göstərib və komandası yekunda 3-cü olub. «A1» seriyasında isə «Komense» klubunun şərəfini qoruyan Anna Qurbanova Aressoda keçirilən ikinci tur çərçivəsində halqa ilə 2-ci yeri tutub.

Daşkənddə (Özbəkistan) samboçuların dünya çempionatında Elçin Mailov (52 kq) qızıl medal qazanıb, İslam Qasımov (57 kq) gümüş, Elnur Əhmədov (62 kq) və Elməddin Əhmədov (82 kq) isə bürünc medala layiq görülüblər. Odessada (Ukrayna) karateçilərin Avropa çempionatında Orxan Süleymanov fullkontaktda qızıl, yarımkontaktda bürünc medala sahib çıxıb. Moskvada (Rusiya) şahmatçıların blits üzrə dünya çempionatında qrossmeyster Teymur Rəcəbov 38 mümkün xaldan 24 xal toplayaraq gümüş medal qazanıb. Ərbəbildə (İran) budo döyüş növü üzrə Avrasiya kubokunda Rəşad

Məlikov (45 kq), Emin Cəfəorli (50 kq) 2-ci yeri tutublar. Millimiz yekunda 3-cü yerə layiq görülüblər. Stralsundda (Almaniya) peşəkar boks yarışında «Sarı gəlin» xalq mahnısının sədaları altında rinqə çıxan Azad Əzizov Panasiya Boksçular Assosiasiyasının «müvəqqəti çempionu titulu uğrunda döyüşün 6-cı raundunda nokaut qələbə ilə erməni Kaxaber Avetisyanı məğlub edib».

2010-cu ildə Azərbaycan idmançıları Avropa və Dünya Kuboku yarışlarında 675 medal qazanmışdır. Onlardan 226-sı qızıl, 202-si gümüş, 247-i isə bürüncdür.

2011-ci ilin yanvar ayından başlayaraq Respublika Bədən Tərbiyəsi Mərkəzinin təşkilatçılığı ilə VI Respublika Spartakiadası keçirilməyə başlayıb. Təhsil Nazirliyi, və Gənclər və İdman Nazirliyinin birgə qərarına əsasən, Azərbaycan Respulikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunan ənənəvi spratakiada yarışları uşaqlar arasında bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olmaq, uşaqların fiziki cəhətdən sağlam böyüməsinə, onların idmanla daim məşğul olmasına zəmin yaratmaq məqsədilə keçirilib. Dörd mərhələdə keçirilən iştirakçılar futbol, basketbol, voleybol, stolüstü tennis, həndbol, yunan-Roma güləşi, atletika idman növləri üzrə qüvvələrini sınayıblar.

2011-ci ilin yanvar-fevral aylarında spartakiada yarışlarının I mərhələsi çərçivəsində məktəbdaxili turnirlər keçirilib. Burada beş idman növü üzrə V-IX sinif şagirdləri, o cümlədən ilk-peşə ixtisas təhsili müəssisələri şagirdlərindən 85 min nəfər mübarizəyə qoşulub. Bu mərhələdə ümumtəhsil və ilk-peşə ixtisas təhsil müəssisələrinin şagirdləri 850 komandanın tərkibində (15400 nəfər) qüvvəsini sınayıb. May ayından başlayaraq, yarışlarda III mərhələ-zona mərhələsi təşkil edilib. Turnir 10 zonada keçirilib. Ümumilikdə 75 rayon daxil olmaqla zona yarışlarında 13500 nəfər iştirak edib ki, onlardan da 5935 nəfəri qızlardır. Spartakiada çərçivəsində keçirilən Bakı, Şamaxı, Mingəçevir, Zaqata, Qusar, Cəlilabad,, Qazax, SAbirabad rayonları üzrə zona yarışlarında yüzlərlə şagird iştirak edib.

İlin əvvəlindən oktyabr ayına kimi davam edən spartakiada yarışlarında şəhərlər arasında ümumi komanda hesabında Bakı şəhər Təhsil İdarəsi fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Bölgələrdən isə Sumqayıt və Mingəçevir şəhərlərinin komandaları, müvafiq olaraq, ikinci və üçüncü yerlərə layiq görülmüşlər. Rayonlar arasında keçirilən yarışlarda isə ümumi komanda hesabında Cəlilabad Rayon Təhsil Şöbəsi birinci, Sabirabad Rayon Təhsil Şöbəsi ikinci,



Qazax və Qusar Rayon Təhsil Şöbələrinin təmsilçiləri isə, öz aralarında üçüncü yeri bölüşdürüblər.

2011-ci ilin may Kazanda (Rusiya) 23 yaşına qədər gənc qılıncoynadanların Avropa çempionatında qızların sablya növündə komanda yarışında yığmamız bürünc medala sahib olub. Minskidə (Belarus) gənclərdən ibarət bədii gimnastika qrup komandası (Lalə Yusifova, Ayşə Mustafayeva, Mənsurə Bağıyeva, Siyanə Vasilyeva, Aynur Cabarlı və Səbinə Qaratova) 27-ci Avropa çempionatında beş iplə hərəkətlərdə bürünc medal qazanıb. Ankarada (Türkiyə) Dünya Uşaq Olimpiadasında cüdoçulardan Leyla Əliyeva (36 kq) və Hidayət Heydərov (55 kq) fəxri kürsünün yüksək pilləsinə qalxııblar. Pəhləvanlar 50 xalla komanda hesabında 2-ci olublar.

2011-ci ilin iyun ayında Bakı şəhərində 17 yaşadək futbolçulardan ibarət komandalar arasında ilk dəfə keçirilən "Caspian Cub" beynəlxalq turnirində Türkiyə, Özbəkistan, Qırğızıstan, İspaniya, Gürcüstan, Qazaxıstan və Tacikistan yığmaları da mübarizə aparıblar, "Dalğa Arena"da keçirilən final qarşılaşmasında Türkiyə komandası İspaniya millisinə oyundan sonra vurulan penaltilər seriyasında qalib gələrək (4:3), baş mükafata sahib çıxıb. 3-cü yer uğrunda matcda Azərbaycan yığması Gürcüstanı penaltilər seriyasında (3:0) məğub olub.

Bakıda "Sərhədçi" Olimpiya İdman Mərkəzində iyunun 25-26-da kempo-karate və kobu-do üzrə dünya çempionatı keçirilmişdi. Çempionatda dünyanın 16 ölkəsindən 100-dən çox döyüşçü iştirak etmişlər. Komanda hesabında Azərbaycan 1-ci, Rusiya 2-ci, Gürcüstan 3-cü yerə layiq görülməşlər.

Həmin ilin iyün ayında Kottonerada (Malta) yeniyetmə cüdoçuların Avropa çempionatında İsgəndər Talışinski (55 kq) gümüş, Elburus Zamanov (55 kq), Rəşad Rufullayev (60 kq), Hüseyn Rəhimli (66 kq) və Firudin Dadaşov (73 kq) bürünc medal qazanıblar. Bratislavada (Slovakiya) otüstü hrkkey üzrə kişilər arasında keçirilən Avropa çempionlar Kuboku yarışlarının "Çelenc IV" turnirində "Akkord" kulubu qalib gəlib. Komanda Sloveniya "Moravski Teplise"sinə (10:2), Türkiyə "Qaziantep Polisgücü"nə (4:2), Slovakiya "Raca"sına (3:0) qalib gəlib, finalda isə Bolqarıstan "NSA"sından üstün olub (6:2). Tallində (Estoniya) cüdoçuların Dünya kubokunda İlqar Mişkiyev (60 kq) qızıl, Nicat Şirəlizadə (60 kq) bürünc medal əldə ediblər. Hamburqda (Almaniya) akademik avarçəkənlərin dünya kubokunun II mərhələsində Natalya Mustafayeva 2, Aleksandr Aleksandrov 1

olimpiya təsnifatı xalı əldə ediblər. Zrenyanində (Serbiya) gənc güləşçilərin Avropa çempionatında yunan-Roma güləşçilərimizdən Vilayət Qəhrəmanlı (50 kq) və Eldəniz Əzizli (55 kq) qızıl, Rövşən Tağıyev (60 kq) gümüş, Rəsul Gunayev (66 kq) bürünc medal qazanıblar. Sərbəsi güləşçilərimiz Məhəmməd Müslümov (66 kq) və Aslan Dzebişov (120 kq) gümüş, Qalib Əliyev (55 kq) bürünc medala yiyələniblər. Yığmamız komanda hesabında 3-cü olublar. San Pauluda (Braziliya) cüdoçuların dünya kubokunda Kifayyət Qasımova (57 kq) gümüş İlqar Mişkiyev (66 kq), Elmar Qasımov (100 kq) və Ramilə Yusubova (63 kq) bürünc medal qazanıblar. Kruşvisada (Polşa) yeniyetmə akademik avarçəkənlərin Avropa çempionatında Boris Yotov birnəfərlik qayıqla 2 km məsafəyə yürüşdə gümüş medal qazanıb.

Pratoda ( İtaliya) bədii gimnastların ənənəvi turnirində 15 yaşlı Lalə Yusifova ənənəvi turnirdə çoxnövçülükdə 2-ci nəticə göstərib. İstanbulda (Türkiyə) bədii gimnastların turnirində 1998-ci il təvəllüdlü Ləman Dadaşlı lentlə hərəkətlərdə 1-ci, topla 2-ci yeri tutub. 11 yaşlı Ruqiyyə Səttarova iplə qalib gəlib, topla 2-ci nəticə göstərib. 2001-ci il təvəllüdlü Leyli İbrahimova topla və çoxnövçülükdə 2-ci yerə çıxıb. 10 yaşlı Nurlanə Bağırova iplə 2-ci nəticə göstərib. 9 yaşlı Ləman Hacıyeva iplə və əlavə əşyasız çıxışlarda 1-ci, həmyaşıdı Məlahət Abdullayeva iplə 2-ci yerə layiq görülüblər. 2003-cü il təvəllüdlü Nigar Əliyeva və 7 yaşlı Lalə Kramarenko 3-cü nəticə göstəriblər.

2011-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətərin paytaxtı Dohada keçirilmiş klublararası dünya çempionatının qalibi – qadınlardan ibarət «Rabitə» voleybol klubunun üzvlərini qəbu edərək dedi: - Mən sizi ürəkdən salamlayıram və böyük qələbə münasibətilə təbrik edirəm. «Rabitə» voleybol komandası dünya çempionatında böyük uğur əldə edərək çempion adını qazanmışdır. Bu, böyük qələbədir. Sizin qələbənizdir. Azərbaycan idmanının qələbəsidir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Mən bilirəm ki, «Rabitə» komandası dünya miqyasında çox güclü komanda kimi özünü artıq təsdiq etmişdir. Keçən Avropa Çempionlar Liqasında final mərhələsinə gəlib çatmışdır. Bu qələbə isə bir daha komandanın gücünü göstərir və bizim hamımızı ürəkdən sevindirir.



**Azərbaycan «Rabitə» voleybol klubunun mükafatlandırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

«Rabitə» voleybol klubu Qətərin paytaxtı Doha şəhərində keçirilmiş qadın voleybol klubları arasında dünya çempionatının qalibi olmuşdur. Azərbaycan Respublikası Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan «Rabitə» voleybol klubuna 500 (beş yüz) min manat məbləğində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşdirməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 oktyabr 2011-ci il

2011-ci il noyabrın 3-də Yunanıstanın Porto Karrasda kişi və qadın komandaları arasında şahmat üzrə Avropa çempionatı keçirilmişdir. Kişilərdən ibarət milli şahmat komandamız Avropa çempionatının gümüş medalını qazanmışdır. Fərəhli haldır ki, kişilərdən ibarət milli şahmat komandamız Avropa çempionatlarında son üç qitə birinciliyinin üçqat mükafatçısı olmuşdur. Azərbaycan yığması 2007-ci ildən bəri ardıcıl üç Avropa çempionatında medal qazanmışdır.

Son üç Avropa çempionatında 2007-ci il. 1-ci yerə Rusiya, 2-ci yerə Ermənistan, 3-cü yerə Azərbaycan; 2009-cu ildə 1-ci yerə Azərbaycan, 2-ci yerə Rusiya, 3-cü yerə Ukrayna; 2011-ci ildə isə 1-ci yerə Almaniya, 2-ci yerə Azərbaycan və 3-cü yerə Macarıstan komandası layiq görülmüşdür. Göründüyü kimi, təkcə Azərbaycan hər üç çempionatda medal qazanmağa nail olmuşdur.

Porto Karrasda komandamızın medal mübarizəsində əsas rəqibləri Rusiya və Ermənistan yığmalarını, eləcə də keçmiş dünya çempionu Vaselin Topalovun başçılıq etdiyi Bolqarıstan komandasını məğlubiyyətə uğratması çox şeydən xəbər verir. Əgər Azərbaycanlı qrossmeysterlər 2010-cu ilin yanvarında Türkiyənin Bursa şəhərində keçirilmiş dünya çempionatında və elə həmin ilin sentyabr-oktyabr aylarında Xantı-Mansiyskidə (Rusiya) 39-cu Ümumdünya Olimpia-

dasında ermənilərə 2,5-1,5 hesabı ilə qalib gəlib, ötən yay Çin Xalq Respublikasının Ninbo şəhərində təşkil edilən dünya çempiolnatında onlarla heç-heçə (2:) oynamışdılarsa, Yunanıstanda təmsilçilərimizin Ermənistan komandası üzrərində qələbəsi hesabda daha böyük üstünlüklə ifadə olunmuşdur 3:1. Sonuncu Avropa çempionatında Məmmədyarovun üçüncü taxtada 9 mümkün xaldan 7 xal toplayaraq (5 qələbə və 4 heç-heçə) çempionatın ən məhsuldar oyunçusu olduğunu da bir daha məmnuniyyətlə xatırlaya bilərik.

2011-ci il noyabrın 5-dən 13-dək Parisdə keçirilmiş ağır atletika üzrə lisenziya xarakterli dünya çempionatında iştirak etmiş Azərbaycan idmançıları 5 lisenziya, 1 rekord və 1 bürünc medal qazanmışlar.

Disneylenddə kişilərin yarışında 81 ölkədən 327 idmançı, qadınlarda isə 53 ölkədən 231 idmançı mübarizə aparırdı.

Azərbaycan idmançılarından 56 kq yarışan Valentin Xristov 31 nəfər arasında dünya çempionatında 3-cü yerə layiq görülmüşdür. 17 yaşlı Valentin Xristov birdən qaldırmada 122 kq, təkanla isə 154 kq (ümumi 276 kq) çəkini qaldırmışdır.

V. Xristov bir kiçik medal da təkanla qaldırmada qazandı. Sevindirici haldır ki, 154 kq çəkini qaldırmaqla o, 1000-ci dünya rekordunu sahibi oldu. *Bu ona «Eleiko» firmasının təsis etdiyi və dəyəri* 3300 avro olan ştanq qazandırdı. Ən əsası isə, bu nəticə komandamızın lisenziya aktivinə 23 xal əlavə etdi.

Azərbaycan yığma komandası 93 xal toplayaraq ümumi hesabda 4-cü oldu. Lakin ötən il Antaliyada keçirilmiş dünya çempionatında qazandığı 69 xalla, ölkəmiz son iki dünya çempionatının nəticəsinə əsasən, 162 xalla 12-ci yeri tutdu. Bu isə London Olimpiyadasına 5 lisenziya deməkdir.

2011-ci ilin noyabr ayında londonda paralimpiyaçılar arasında cüdo üzrə Avropa çempionatında Azərbaycan idmançılarından Bayram Mustafayev 66 kq çəki dərəcəsində finalda Rusiya idmançısının asanlıqla məğlubiyyətə uğradaraq, ölkəmizə ilk qızıl medalı qazandırıb. İkiqat paralimpiy çempionu İlham Zəkiyev (+100 kq) çemipionatın qızıl medalını qazanıb. Zakir Müslimov (100 kq ikinci, Kərim Sərdarov (90 kq) üçüncü olublar.

2011-ci il oktyabrın 16-22-də İtaliyanın Kataniya şəhərində qılıncoynatma üzrə dünya çempionatı keçrildi. Dörd idmançı ilə təmsil olunan milli komandamız ölkəmizi layiqincə təmsil etdi. Səbinə Mikina qrup mərhələsində keçcidiy bütün görüşləri qələbə ilə başa vurdu. Prey-offda Mikina panamalı, polşalı, yunan rəqiblərini məğlubiyyətə uğradaraq, ¼ finalda çıxış etmək hüququ qazandı. Bu mərhələdə onun rəqibi çox güclü idi. Səbinə, sonradan dünya çempionu titulu qazanan rusiyalı Sofi Velikayaya 9:15 hesabı ilə uduzdu. Rusiyalı həlledici qarşılaşmada ikiqat Olimpiya çempionu amerikalı idmançı Zaqunisi çətinliklə məğlub edərək, dünya çempionu adını qazandı. Yekunda Minika dünya çempionatını 122 idmançı arasında 8-ci pillədə başa vurdu və dünya reytinqində 375 idmançı arasında 52-ci yerdən 24-cü yerə yüksəldi. Digər idmançımız Aidə Ələsgərovanın da nəticəsi çox uğurlu alındı. Qrup mərhələsində Fransa, Qazaxıstan, Gürcüstan, Braziliya və Polşa idmançılarına qalib gələn Aida pley-offun turunda da uğur qazandı. Türkiyəni təmsil edən ukraynalı Kravçuku da məğlub edən həmyerlimiz, ardıcıl 7 qələbədən sonra növbəti mərhələdə çox güclü texniki və fiziki göstəricilərə malik olan polşalı rəqibi Joziyaka minimal hesabla məğlub oldu. Aida dünya reytinqində 375 idmançı sırasında 107 yerdən 60-cı sıraya yüksəldi.

Digər iki idmançımız Sevil və Sevinc Bünyatova bacılarının nəticələri isə nisbətən zəif alındı. Dünya çempionatında Sevil 60-cı, Səvinc isə 77-ci yerə layiq görüldülər.

Yuliya Nelyubova isə dünya çempionatında şpaqa növündə 5 qələbədən sonra Çin idmançısına məğlub olaraq, 155 idmançı arasında 55-ci yeri tutdu. Nəticədə Azərbaycan komandası qılıncoynatma üzrə dünya çempionatında 24-cü olan komanda 4-cü yerə layiq görülmüşdür.

Karatenin çoxnövçülük üzrə yığma komandamız 2011-ci il noyabrın 18-dən 20-nə qədər keçirilən Avropa çempionatında iştirak edib. Ukraynanın Odessa şəhərində keçirilən turnirdə komandamız baş məşqçi Siyavuş Bayramovun rəhbərliyi ilə yığmamızın heyətində gənclər və yeniyetmələr və böyüklərdən ibarət idmançılarımız 11 ölkədən 14 komanda iştirak edib. 346 idmançının iştirak etdiyi yarışı yüksək səviyyədə keçirən idmançımız Taleh Əkbərov (91+kq) bütün rəqiblərini məğlub edərək Avropa çempionu adına layiq görülüb. Qeyd edək ki, idmançımızın mübarizə apardığı çəkidə 7 döyüşçü çıxış edib.

Türkiyənin İstanbul şəhərində keçirilən budo döyüş növləri üzrə dünya çempionatında 41 gölkənin idmançıları mübarizə aparıblar. Budonun fri-kontakt və semi-kontakt növü üzrə keçirilən yarışda Azərbaycan yığması da iştirk edib. Bu dünya çempionatında təmsilçilərimiz 29 qızıl, 5 gümüş və 3 bürünc medal qazanıblar. Yarışın yekununa, əsasən ümumilikdə 37 medal qazanan Azərbaycan yığması ko-

manda hesabında birinci, Höllandiya ikinci, Türkiyə millisi isə üçüncü olub.

Türkiyənin Antalya şəhərində yeniyetmələr, gənclər və böyüklər arasında qarışıq döyüş növləri sənətləri üzrə Avropa çempionatında yığma komandamız da iştirak etmişdir. Yeniyetmələr arasında keçirilən yarışda Toğrul Osmanov birinci, Fərid Səfərli isə ikinci yerə layiq görülüb. Gənc idmançılarımızdan dördü qızıl, üçü gümüş biri bürünc medala layiq görülüb. Avropa çempionatında böyüklər arasında keçirilən qarşılaşmada isə Arif Mustafayev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Federasiyanın prezidenti Süleyman Məmmədli daha yaxşı çıxış edərək hər iki növdə qızıl medala layiq görülüb.

Londonda XXX Yay Olimpiya Oyunlarına hazırlıq məqsədilə sərbəst güləş, yunan-Roma güləşi və qadın güləşi üzrə keçirilən test yarışlarında 48 kq-da Mariya Stadnik Rusiya və Ukrayna idmançılarını məğlub edərək finala çıxıb. Həlledici görüşdə qadın güləşçilərimiz Almaniya təmsilçisinə qalib gələrək, çempion olmuşdur. 55 kq-da Yuliya Ratkeviç bürünc, Cəbrayıl Həsənov, Əsgər Əlyev Yunan-Roma güləşçilərimiz Rövşən Bayramov bürünc, Saman Təhmasibi (84 kq), Şərif Şərifov (84 kq) qızıl medal qazanmışlar.

Dekabrın 7-də İngiltərənin paytaxtı Londonda 2012-ci il Londan Yay Olimpiya Oyunları qabağı müxtəlif idman növləri üzrə test turnirlərdə ölkəmizi ağıratletika idman növü üzrə İntiqam Zairov 94 kq çəki dərəcəsində birdənqaldırmada 171 kq, təkənqaldırmada isə 206 kq qaldırmışdır. İki hərəkətin cəmində 377 kq nəticə ilə ağırqaldıranımız çempion olmuşdur. Həmin yarışda qadın idmançılarımzdan Yuliya Dovqal 255 kq nəticə göstərərək qızıl medal qazanmışdır.

Dekabrın 10-da «Sərhədçi» Olimpiya İdman Mərkəzində Ümumdünya Boks Seriyasının (WSB) 4-cü turun görüşündə Azərbaycanın «Baku Fires» və Almaniyanın «Leipzig Leopads» komandaları qarşılaşıblar. «B» qrupunun liderlərinin matçında «Baku Fires» klubu möhtəşəm qələbə qazanıb 5:0.

2011-ci il dekabrın 11-də Şərur Olimpiya İdman Kompleksində xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş karate üzrə «Naxçıvan open» İçigeki beynəlxalq turniri keçirilib. Turnirdə Azərbaycan, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Almaniya idmançıları iştirak ediblər.

Turnirin finalına çıxan Naxçıvan idmançısı Mübariz Ağamalıyev qazaxıstanlı rəqibi Rəşad Əliyevi məğlub edərək birinci yeri



tutub. İdmançımız beynəlxalq turnirin kubok və qızıl medalı ilə təltif olunub

Böyüklər arasında «Naxçıvan open» beynəlxalq turnirində Naxçıvan idmançısı birinci, Qazaxıstan və Türkiyə təmsilçiləri isə müvafiq olaraq, ikinci və üçüncü yerləri tutublar.

Bü gün ürəyində vətən sevgisi olan hər bir kəs yaxşı başa düşür ki, İlham Əliyevin təşəbbüsü ilə təkcə Bakıda deyil, ölkənin qalan regionlarında da Olimpiya İdman-Sağlamlıq Komplekslərinin tikilib istiyadəyə verilməsi xalqımızın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətdir. Bu məqsədlə xüsusi proqram hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Artıq 31 Olimpiya İdman Kompleksləri tikilib idmançıların istifadəsinə verilmişdir. Bu, kütləvi idmanın inkişafına yeni təkan verəcəkdir.

## FƏSİL IV

## MÜSTƏQİLLİYİMİZ DÖVRÜNDƏ AZƏRBAYCAN İDMANÇILARININ YAY OLİMPİYA OYUNLARINDA ÇIXIŞLARININ TƏHLİLİ (1992-2008)

Sovet İttifaqı dağıldıqdan sonra bölgədə yaranan xaos və anarxiya şəraitində digər sahələr kimi idman da günbəgün tənəzzülə doğru gedirdi. Vəziyyət hətta o yerə çatmışdı ki, dünya və qitə miqyaslı yarışlara çıxarmaq üçün güclü idmançılar tapmaq qeyri-mümkün idi. Vəziyyət bu cür davam etsəydi vaxtilə öz qələbələri ilə dünyaya səs salmış Azərbaycan idmançıları və ölkə idmanının aqibəti daha da pisləşəcəkdi.

1993-cü ilin 15 iyununda xalqın çağrışına səs verərək ikinci dəfə hakimiyyətə qayıdan xalqımızın ümummilli lideri Heydər Əliyevin xususi diqqəti və qayğısı sayəsində başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü il iyulun 29-da dediyi kimi: "**Bütün görülən işlər onu göstərir ki, yeganə düzgün siyasət Heydər Əliyevin siyasətidir. Bu siyasət Azərbaycanı 1993-cü ildəki xaosdan, anarxiyadan, parçalanmadan xilas etdi. Bu siyasət bizə imkan verdi ki, çətin bir şəraitdə, - bilirsiniz ki, bölgədə vəziyyət o qədər də sadə deyil, - bir milyon qaçqın köçkünü olan ölkədə belə böyük nəticələr əldə etmək**".

Heydər Əliyev Azərbaycanda Olimpiya Hərəkatının genişlənməsinin də təşəbbüskarı və ilhamçısı oldu. 1994-cü ilin aprelində ölkə başçısı Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samaranççı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rananı, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu qəbul etdi. Qəbulda Azərbaycanda Olipiya Hərəkatının vəziyyəti və onun inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi apardı.

Bir əsrdən çox tarixi olan müasir Olimpiya Oyunları bu gün dövrümüzün ən nüfuzlu, mötəbər və geniş təmsil olunmuş idman təbdiridir. Müasir dünyada hər hansı ölkənin Olimpiya Hərəkatındakı iştirakı, idmançılarının Olimpiya Oyunlarında göstərdikləri nəticələr həmin ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də



ümumi inkişaf səviyyəsini nümayiş etdirən, onun beynəlxalq nüfuzuna təsir edən göstəricisi kimi qiymiətləndirilir. Milli, irqi və dini mənsubiyyətindən asılı olmayaraq, milyonlarla insanı bir yerə toplaya bilən Olimpiya Oyunları həm də qarşılıqlı anlaşma əlaqələrinin, dünyada sülhün və əmin-amanlığın möhkəmləndirilməsi işinə xidmət edən güclü vasitə hesab olunur. Olimpiya hərəkatının böyük əhəmiyyətini dərk edən dünya ölkələri ilbəil onun sıralarını artırmışlar.

Azərbaycan idmançıları uzun illər ərzində Olimpiya Oyunlarında iştirak etmiş və olimpiya idman növlərinin bir çoxunda yüksək göstəricilərə nail olmuşlar.

Məlum həqiqətdir ki, 1951-ci ildə keçmiş SSRİ-də Olimpiya Komitəsi yaranmış və tezliklə BOK-un üzvlüyünə qəbul edilmişdir. Bundan sonra Sovet idmançıları Olimpiya oyunlarına buraxılmışlar. SSRİ yığma komandasının tərkibində Azərbaycan idmançıları da mübarizəyə qoşulduqlarından, XV Olimpiya Oyunlarından başlayaraq bu mötəbər yarışlar haqqında daha geniş məlumat verilməsi məqsədəuyğundur.

**Ümumiyyətlə, Azərbaycan idmançıları Yay Olimpiya Oyunlarında (1952-2008) 14 dəfə iştirak etmiş, 46 medal qazanmışlar. Bunlardan 16-sı qızıl 14-ü gümüş, 16-si isə bürünc mükafatdır. Həmin Oyunlarda ölkəmizi cəmi 184 idmançı təmsil etmişdir.**

1896-cı ildə Afinada I Olimpiya Oyunları cəmi 14 ölkənin iştirakı ilə keçirilmişdisə, 2008-ci ildə Pekində təşkil edilmiş Olimpiya Oyunlarda artıq 204 ölkə iştirak etmişdir. Azərbaycan idmançıları 1952-ci ildən etibarən Olimpiya Oyunlarında iştirak etməyə başlayaraq, 1992-ci ilə kimi əvvəl SSRİ, sonra isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar.

Bu dövr ərzində Azərbaycan idmançıları 10 Olimpiadada çıxış edərək, 12 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışlar. Müstəqilliyimiz dövründə isə 16 medal qazanmılar: Bunlardan 4-ü qızıl, 3-ü gümüş, 9-cu isə bürüncdür.

**Azərbaycan idmançıların Yay Olimpiya Oyunlarında qazandıqları medalların dinamikası (1952-2008)**

| Dövr | Oyunlar | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|---|
| SSRİ | Yay Olimpiya oyunları | 10 | 11 | 6 | 27 |
| Müstəqil Dövlət Birliyi | Yay Olimpiya oyunları | 2 | | 1 | 3 |
| Müstəqillik | Yay Olimpiya oyunları | 4 | 3 | 9 | 16 |
| | | 16 | 14 | 16 | 46 |

**Azərbaycan idmançıların Yay Olimpiya Oyunlarında qazandıqları medalların qrafiki (1952-2008)**




Cədvəldən göründüyü kimi SSRİ dövründə atletlərimiz (doqquz Oimpiya Oyunlarında) cəmi 27 medal qazanmışlarsa, müstəqilliyimiz dövründə isə (dörd Olimpiya Oyunlarında) 16 medal qazanmışlar.

1996-cı il fevralın 2-də H.Əliyev Azərbaycan Respublikasının Prezidenti 2-ci dəfə seçildikdən sonra ölkədə idmana münasibət dəyişdi. Azərbaycan Respublikası gənclərinin birinci forumu keçirilmişdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin ötən onillik fəaliyyətini nəzərdən keçirdikdə onu zamanca bərabər, lakin görülmüş işin həcmi və sanbalına görə bir-birindən kəskin fərqlənən iki beşilliyə bölmək mümkündür. Görülmüş işlərin xronologiyası da bunu əyani sübut edir. Birinci dövrdə Olimpiya Hərəkatı öyrənilməmiş, onun beynəlxalq miqyasdakı rolu dəyərləndirilməmiş, heç bir təşəbbüskarlıq göstərilməmişdi. Fəaliyyət yalnız Beynəlxalq və qitə Olimpiya Komitələrinin bəzi tədbirlərində iştirakla məhdudlaşdırılmışdı. Nəinki ölkədən kənarda, hətta respublikada Azərbaycan Milli Olimpiya Komitəsinin varlığı hiss olunmurdu.

Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətinin birinci beşilliyində görülmüş işlər, ümumiyyətlə, lazımi səviyyədə qurulmamışdı və qənaətbəxş sayıla bilməzdi. İşdə əsaslı dönüş yaratmaq tələb olunurdu. Milli Olimpiya Komitəsinin 1997-ci ilin 31 iyulunda keçirilmiş növbəti Baş Məclisi Komitənin yeni idarə heyətini müəyyənləşdirdi. İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Komitənin fəaliyyət istiqamətləri müəyyənləşdirildi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətinin birinci beşilliyində görülmüş işlər, ümumiyyətlə, lazımi səviyyədə qurulmamışdı və qənaətbəxş sayıla bilməzdi. İşdə əsaslı dönüş yaratmaq tələb olunurdu. Milli Olimpiya Komitəsinin 1997-ci ilin 31 iyulunda keçirilmiş növbəti Baş Məclisi Komitənin yeni idarə heyətini müəyyənləşdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Komitənin fəaliyyət istiqamətləri müəyyənləşdirildi.

MOK ölkənin beynəlxalq idman nüfuzunu artırmaq, mötəbər idman yarışlarını təşkil edib keçirməyə qadir olduğunu sübut etmək sahəsində ciddi iş görməyin vacibliyini ön plana çəkdi. Bunun üçün birinci növbədə beynəlxalq əlaqələri qüvvətləndirmək, beynəlxalq yarış və turnirlər təşkil etmək tələb olunurdu.

1997-ci ildən başlayaraq, ölkəmizdə Olimpya Hərəkatını sürətlə inkişaf etdirmək və onun Beynəlxalq Olimpiya Hərəkatına daha fəal qoşulmasını təmin etmək məqsədilə həyata keçirilən tədbirlər qısa müddət ərzində öz müsbət nəticələrini verdi.

Azərbaycan prezidenti Heydər Əliyevin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və olimpiya təşkilatlarında da böyük əks-sədaya səbəb oldu. 1997-ci ildə Milli Olimpiya Komitələri Assosiasiyasının Baş Məclisində Azərbaycan Prezidenti Heydər Əliyev Olimpiya hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət adamlarına verilən **"Olimpiya ləyaqəti"** mükafatı ilə təltif edildi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı Prezidenti İlham Əliyev MOK-un Prezidenti seçildikdən sonra Azər-

baycan idmanının böyük uğurları başladı və ölkə idmanı özünün intibah dövrünə qədəm qoydu.

İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərir. Dövlət başçısının diqqət və qayğısının nəticəsi kimi Azərbaycan idman ölkəsinə çevrilir, beynəlxalq arenada nüfuz və mövqeyini gücləndirir. Milli Olimpiya Komitəsinin fəaliyyəti aydın göstərir ki, gənclərin və yeniyetmələrin mənəvi və estktik tərbiyəsinin formalaşması onların əxlaqına, davranışına, kollektiv və cəmiyyətə inteqrasiyasına da güclü təsir edir. Sağlamlıq mənbəyi olan idmanın dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində mühüm amil olması inkaredilməz bir həqiqətdir. Onun Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi respublikamızda idmanın maddi-texniki bazasını gücləndirməsi, idmançılarımızın beynəlxalq yarışlarda uğurla çıxış etməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. O, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti olduğu 15 il ərzində özünün bu sahədə də yüksək vətənə varis, torpağa bağlılıq, yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərir. İlham Əliyev özünün yorulmaz və gərgin əməyi sayəsində az vaxt içərisində Azərbaycan idmanını ayağa qaldırmış, ona dünya şöhrəti qazandırmışdır. İlham Əliyev yetkin və uzaqgörən bir siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da bütün xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı Ümumxalq hərəkatına çevirmək xətti yeridir. Bu onun dərin və uzaqgörən siyasi təfəkkürə malik olduğunu göstərməklə yanaşı, vətənpərvər kimi, doğma xalqına da nə qədər dərindən bağlı olduğunu sübut edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: Azərbaycanda həmişə çox yüksək idman potensialı mövcud olmuşdur. İdmançılarımız xüsusən təkbətək döyüş növlərində öz uğurları ilə şöhrət qazanmışlar. Əgər Azərbaycanda ictimai-siyasi sabitlik olmasaydı, təbii ki, belə turnirlərin, yarışların keçirilməsi, uğurların qazanılması da qeyri-mümkün olacaqdı. Azərbaycanın ən böyük sərvəti ondadır ki, Heydər Əliyevin rəhbərliyi altında son 14 ildə ölkədə sabitlik, ictimai-siyasi asayiş hökm sürür. Bu, xalqımız, ictimaiyyətimiz üçün ən böyük sərvətdir, ən böyük qazancdır. Əlbəttə, belə bir rahat, sakit şəraitdə hər bir idman tədbirini, digər tədbirləri keçirmək mümkündür. Buna görə də 1997-ci ildə Olimpiya Komitəsinə rəhbərliyə başladığım zaman əsas məsələ idmançılarımızın yaşayışı və məşq etməsi üçün normal şəraitin yaradılması idi. Bir çoxları Bakını tərk edir, başqa komandalarda çıxış edirdi. Bu əlbət ki, məni narahat



edirdi. Buna görə də mən dərhal bildirdim ki, idmançılarımız üçün elə şərait yaratmağa çalışacağam ki, onlar bizim milli komandada çıxış etsinlər. Mənim bu çağırışım eşidildi.

Xaricə gedənlərin bir çoxu qayıtmağa başladı, cavanlarda isə inkişaf üçün stimul yarandı. Çünki stimul olmadan nə idmanda, nə də bir başqa sahədə yüksək nəticələr əldə etmək mümkün deyil.

Azərbaycan Olimpiya Komitəsinin prezidenti kimi məni sevindirən bir məqam da var. Bu da idmanın kütləviliyidir. Bu, Azərbaycanda artıq geniş vüsət alıbdır. İdmanla məşğul olmaq istəyən uşaqlarımızın, yeniyetmələrimizin sayı günü-gündən artır. Bu o deməkdir ki, Azərbaycanda gözəl, fiziki cəhətdən sağlam yeni nəsil yetişir. İdmanla məşğul olan uşaqlar artıq xoşagəlməz hallara yol verməzlər. Onlar idman bölmələrində tərbiyə olunurlar. Fiziki cəhətdən də mənəvi cəhətdən də güclənirlər. Bu, bizə, ölkəmizə imkan verəcək ki, Azərbaycanın gələcək nəsli də mənəvi və fiziki cəhətdən sağlam olsun.

Beynəlxalq toplantılarda və dövlətlərarası danışıqlarda ölkəmizi ləyaqətlə təmsil edən, böyük təşkilatçılıq məktəbi və siyasi məktəb keçən İlham Əliyev yeni vəzifədə də özünü layiqincə doğruldacağına şəksiz əmin idi. Elə də oldu. 1999-cu il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin II Baş Məclisində çıxış edən İlham Əliyev rəhbərlik etdiyi qurumun məramını açıqlayaraq dedi: **«Azərbaycanın Olimpiya Hərəkatı dünya miqyasında ön mövqelərə çıxartmaq, bütün mötəbər yarışlarda idmançılarımızın respublikamızı layiqincə təmsil etməsi üçün imkan yaratmaq MOK-un başlıca məqsədi və vəzifəsidir»**. MOK-un missiyası Azərbaycanda Olimpiya Hərəkatına rəhbərlik etməkdir. MOK-un əsas məqsədi Olimpiya Xartiyasına müvafiq qaydada öz ölkəsində Olimpiya Hərəkatını inkişaf və müdafiə etməkdir. Cənab İlham Əliyevin MOK prezidenti seçilməsindən bu günə kimi ölkəmizin idman həyatında çoxlu möhtəşəm, yadda qalan hadisələr olub. İndi Azərbaycan dünya idmanının sayılıb-seçilən məkanı sayılır. Çox mühüm beynəlxalq idman yarışlarının Bakıda keçirilməsinə nail olması, bu yarışlarda şəxsən iştirak edərək böyük həyacan və intizar içərisində gənclərimizin qələbələrini izləməsi, qələbə sevinci zamanı isə son dərəcə sadəliklə, ürək açıqlığı ilə bütün Azərbaycan gəncliyinə qaynayıb-qarışması, qələbə bayrağımızın qaldırılması zamanı sonsuz qürur keçirməsi İlham Əliyevin bitib-tükənməyən vətən sevgisindən, doğma xalqa nə qədər sıx bağlı olmasından xəbər verir. Fikirimizcə, xalqa bu qədər sıx bağlılıq, yurdu sevmək, sadəlik, milli təəssübkeşlik, gənclərə göstərdiyi qayğı və mehribanlıq

İlham Əliyevi siyasi mübarizədə daha uca zirvələrə qaldıracaqdır. **"Mən özümü o zaman qalib hesab edəcəyəm ki, Azərbaycanın dövlət himni Sidneydə səslənəcək"**-bu sözləri İlham Əliyev 15 il bundan əvvəl demişdi. Həqiqətən ən böyük qələbəni idmançılarımız Sidney Olimpiadasında əldə etdilər. Onlar 2 qızıl və bir bürünc medal qazanaraq 199 ölkə olimpiyaçılar arasında 33-cü yeri tutdular. Bu, doğrudan da misli görünməmiş zəfər idi.

1997-ci ildən bəri, on beş il ərzində bir çox müvəffəqiyyətlərə nail olmuşuq. Həm beynəlxalq meydanda Azərbaycan böyük rəğbət qazanıb, həm də BOK və AOK ilə yaxşı münasibətlərimiz vardır. Bizi dəstəkləyir, işimizi qiymətləndirirlər. Məsələn, BOK-un prezidenti cənab Jak Roqq konfransların birndə açıq şəkildə demişdir ki, «**Azərbaycanda idman sahəsində və Olimpiya hərəkatında iş elə təşkil edilmişdir ki, başqa ölkələr bundan nümunə götürməlidir**». Bundan yüksək qiymətləndirməni təsəvvürə gətirmək mümkün deyil.

Mən Azərbaycan idmanını çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan idmanı dünya idman aləmində öz layiqli yerini, yüksək yerini tutubdur. Zənnimcə, biz təkcə regionda yox, Avropada da ön sıralarda gedirik. Azərbaycanın idmanı yaşayır, inkişaf edir və bundan sonra daha da inkişaf edəcəkdir.

Mən bütün idmançılarımıza rəğbət bəsləyirəm. Onlardan heç birini o birilərindən ayırmamışam, indi də ayırmıram. Hətta idman ictimaiyyəti arasında «Ən yaxşı idmançı» adı üzrə hər il keçirilən sorğuda da heç kimin adını çəkmirəm. Çünki onlardan heç birini o birindən seçməyə haqqım yoxdur və bunu etmək də istəmirəm. Mənimçün onların hər biri əzizdir. Mən on beş ildir ki, onlarla işləyirəm, ünsiyyətdəyəm.

Beynəlxalq Olimpiya Komitəsi bəşər tarixinin yeni əsrinin, yeni minilliyinin başlanması münasibətilə öz ölkələrində Olimpiya Hərəkatının inkişafına, olimpiya ideyalarının rəvas verən, onu dəstəkləyən dövlət başçılarını təbrik etmək üçün xüsusi orjinal hədiyyə hazırlamışdı. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançın Milli Olimpiya Komitəsinin prezidenti sabiq İlham Əliyevə ünvanladığı məktubda göstərilirdi ki, Beynəlxalq Olimpiya Komitəsi 2000-ci il münasibətilə Azərbaycan dövlətinin başçısına məşhur heykəltəraş Naq Arnoldinin «**2000-ci ilin Olimpiya qapıları**» adlı **əsərini hədiyyə etmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: **"Müstəqilliyi şərtləndirən müxtəlif amillər var. Həm müstəqil siyasət**



**aparmaq imkanlarımız, güclü iqtisadiyyat, güclü sosial siyasət, ölkəmizdə sabitliyin, əmin-amanlığın bərqərar olunması, Azərbaycanda təhlükəsizliyin təmin olunması-yalnız belə şəraitdə idmanın inkişafı mümkündür. Kasıb ölkələrdə, problemlərlə üz-üzə qalan ölkələrdə idman, adətən, sürətlə inkişaf etmir, Ümumiyyətlə, idmanın inkişafı hər bir ölkənin potensialının əlamətidir, onun təzahürüdü. Təsadüfi deyil ki, Azərbaycan – dinamik inkişaf edən ölkə, çox sürətlə inkişaf edən ölkə və iqtisadi artım baxımından son üç il ərzində dynyada birinci yerdə olan ölkə güclü idman imkanlarına da malikdir".**

Xalqımızın ümummilli lideri Heydər Əliyev MOK-un 10 illiyinə həsr olunmuş yubleydə əminliklə bildirdi: **"Mən inanıram ki, Milli Olimpiya Komitəsi bu gün burada etdiyi vədləri yerinə yetirəcək, Afina Olimpiya Oyunlarına daha çox və yuksək səviyyəli idmançılar hazırlayıb aparacaqdır. Oradan Azərbaycana yeni medallar gətirəcəkdir".**

Müstəqilliyimiz dövründə Azərbaycan idmançılar Yay Olimpiya Oyunlarında 19 medal qazanmışlar (onlardan, 6 qızıl, 3 gümüş, 10 bürünc).

Qeyd: Azərbaycan idmançıları 1992-ci ildə müstəqil dövlətlərin birləşmiş komandasının tərkibində iştirask edərək 3 medal qazanmışdır (onlardan: 2 qızıl, 1 bürünc).

**Müstəqilliyimiz dövründə Azərbaycan idmançılarının Yay Olimpiya Oyunlarında qazandıqları medalların dinamikası (1992-2008)**[1]

| Olimpiada Şəhər, Təqvim | Ölkələrin sayı | İdman növü | İdmançıların sayı | Yer | Qızıl | Gümüş | Bürünc | Cəmi: |
|---|---|---|---|---|---|---|---|---|
| 1992 (XXV, Barselona) | 169 | 4 | 5 | | 2 | | 1 | 3 |
| 1996 (XXVI, Atlanta) | 197 | 10 | 23 | 61 | | 1 | | 1 |
| 2000 (XXVII, Sidney) | 199 | 10 | 31 | 34 | 2 | | 1 | 3 |
| 2004 (XXVIII, Afina) | 202 | 12 | 38 | 37 | 1 | | 4 | 5 |
| 2008 (XXIX, Pekin) | 204 | 12 | 44 | 39 | 1 | 2 | 4 | 7 |

**Müstəqilliyimiz dövrün Azərbaycan idmançılarının Yay Olimpiya Oyunlarında qazandıqları medalların qrafiki (1992-2008)**




[1] Quliyev D. "Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixi". Dərslik. "RİZA" MMC-nin mətbəəsi. Bakı, 2004. 220 səh.



Cədvəldən gönündüyü kimi, ümumiyyətlə, XXVI Yay Olimpiya Oyunlarında – **1** medal qazanmışdır (1 gümüş, 197 ölkə arasında – 61-ci yeri ); XXVII Yay Olimpiya Oyunlarında **3** medal qazanmışdır (2qızıl, 1 bürünc, 199 ölkə arasında - 34 yeri); XXVIII Yay Yay Olimpiya Oyunlarında **5** medal qazanmış (1 qızıl, 4 bürünc, 202 ölkə arasında – 37 yeri); XXIX Yay Olimpiya Oyunlarında **7** medal qazanmışdır (1 qızıl, 2 gümüş, 4 bürünc, **204** ölkə arasında – 39 yeri tutmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "**Olimpiya oyunları yeganə yarışdır ki, ölkələr öz aralarında açıq şəkildə rəqabət aparırlar, Digər sahələrdə rəqabət özünü o qədər də büruzə vermir. Məsələn, əgər biz müxtəlif ölkələrin iqtisadiyyatına nəzər salsaq, demək çox çətin olar ki, hansı daha qabaqdadır. Yaxud da digər sahələrdə. Amma idmanda hər şey açıq-aydın görünür. Olimpiya Oyunları təgcə idman yarışı deyil, həm də böyük siyasətdir**".

## XXV OLİMPİYA OYUNLARI (1992. Barselona)

Barselona-İspaniyanın şimal-şərqində yerləşir. Kataloniya vilayətinin və eyni adlı əyalətin inzibati mərkəzidir. Aralıq dənizi sahilində limandır. Dəniz, hava, dəmir yolu və avtomobil yolları qovşağı var. Əhalisi 1,6 mln. (1970).

İspaniyanın mühüm iqtisadi mərkəzi və ən iri sənaye şəhəridir. Toxuculuq, elektrometallurgiya, maşınqayırma (gəmi, avtomobil və lokomotivqayırma, dəzgahqayırma və s.), elektrotexnika, kimya, yeyinti, sement, ağac emalı və s. sənaye müəssisələri, universitet, bir neçə ali məktəbi var. Beynəlxalq əhəmiyyətli ticarət mərkəzidir.

Azərbaycan idmanı tarixinə çox əlamətdar hadisə kimi daxil olan Barselona Olimpiadası-92-ni bu gün iki səbəb üzündən xatırlatmağa ehtiyac var.

Dörd il əvvəl Seulda daha tez-tez səslənmiş SSRİ-nin himni Barselonada Olimpiya Oyunlarında ifa olunmamışdır.

36 il ərzində Olimpiadalarda ən qüdrətli qüvvə olmuş Sovet İttifaqı daha mövcud deyildi. Albervildə Qış Olimpiadasında olduğu kimi, Barselonada da 12 keçmiş sovet respublikasının atletləri müstəqil dövlətlərin birləşmiş komandasını yaratmışdılar. Ona görə də indiki Oyunlar yaxın keçmişlə müqayisədə ən fərəhli oyunlar ola

bilərdi. İndi olimpiadalar əsl Olimpiya idealına yaxınlaşır. Yəni tamaşaçılar hansı ölkəni təmsil etmələrindən asılı olmayaraq, ən yaxşı atletləri alqışlayırlar.

Barselonada XXV Olimpiya Oyunlarının açılışı 25 iyul 1992-ci ildə olmuşdur. İlk dəfə olaraq Olimpiadada Azərbaycanın üçrəngli bayrağı da dalğalanmışdır.

Müstəqil Azərbaycan nümayəndələrinin iştirakı ilə cüdo, qılınc oynatma (rapira), stend atıcılığı və idman gimnastikası yarışları keçirilmşidir. Həmin Oyunlarda dörd idmançımıza ilk dəfə olaraq, müstəqil Azərbaycanın nümayəndələri kimi olimpiadada iştirak etmək xoşbəxtliyi nəsib olmuşdur. Olimpiya Oyunları 183 Milli Olimpiya Komitəsini özünə cəlb etmişdir.

Azərbaycan idmanı tarixinə çox əlamətdar hadisə kimi daxil olan Barselona Olimpiadası-92-ni bu gün iki səbəb üzündən xatırlatmağa ehtiyac var. Müasir Olimpiya oyunlarının, demək olar ki, bir əsrlik tarixi ərzində ilk dəfə olaraq Olimpiya oyunları üzərində müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı dalğalanmış, Dövlət himni səslənmişdir. (Barselonada XXV Olimpiya oyunlarının açılışı 25 iyul 1992-ci il)

Müstəqil Azərbaycan nümayəndələrinin iştirakı ilə cüdo, qılınc oynatma (rapira), stend atıcılığı və idman gimnastikası yarışları keçirilmşidir. Həmin oyunlarda dörd idmançımıza ilk dəfə olaraq müstəqil Azərbaycanın nümayəndələri kimi olimpiadada iştirak etmək xoşbəxtliyi nəsib olmuşdur. Olimpiya oyunları 183 Milli Olimpiya Komitəsini özünə cəlb etmişdir. XXV Olimpiya Oyunlarında iki qızıl və bir bürünc medal qazanılmışdır.

XXV Olimpiya Oyunlarında cüdoçu Nazim Hüseynov, gimnast Valeri Belenki qızıl medal almışlar. Qılınc oynadan İlqar Məmmədov və stend atıcısı Valeri Timoxin isə öz imkanlarından aşağı səviyyədə çıxış etmişlər.

## XXVI OLİMPİYA OYUNLARI (1996 Atlanta)

Atlanta əsası 1883-cü ildə (vətəndaş müharibəsi illərində) general Vilyam Şermak tərəfindən qoyulmuş ABŞ şəhəridir. 1968-ci ildə Atlanta şəhəri İngiltərə kralı III Georqun şərəfinə adlandırılmş Corciya ştatının mərkəzi elan edilmişdir. Corciya ştatına xalq arasında "piçsteyt", yəni "şaftalı" ştatı deyirlər.



Atlanta dəniz səviyyəsindən 308 metr hündürlükdə yerləşir. Əhalisi 3,5 mln. (şəhər ətrafı ilə). Bütün dünyada məşhur olan "Coka-Cola" Atlantanın rəmzidir.

XXVI yay Olimpiya Oyunları 1996-cı ildə iyulun 19-dan avqustun 4-dək ABŞ-ın Atlanta şəhərində keçirilmişdir. Burada 197 ölkənin, 11224 idmançısı (bunların qırx faizi qadınlardan ibarət idi) idmanın 31 növü üzrə gərgin mübarizə aparmışlar.

İyulun 19-da burada Olimpiada-96 Oyunlarının- ümumdünya idman bayramının təntənəli açılış mərasimi oldu.

Stadiona toplanmış 85 min tamaşaçı XX əsrin ən məşhur idmançısı, dünyanın görkəmli boksçusu Məhəmməd Əlini ayaq üstə salamlamışlar. Parkinson xəstəliyinə mübtəla olmasına baxmayaraq, bu idmançı Olimpiya məşəlini yandırmağa özündə qüvvə tapmış və məşəli titrək əlləri ilə Olimpiya camına yaxınlaşdırmışdır.

ABŞ-ın prezidenti Bill Klinton 17 gün davam edəcək Olimpiya Oyunlarını rəsmi şəkildə açmışdır.

Respublikamızın bədən tərbiyəsi və idman tarixində ilk dəfə olaraq, ən güclü idmançılarımız müstəqil dövlətimizi təmsil etmək üçün ABŞ-ın Atlanta şəhərində XXVI Yay Olimpiya Oyunlarında iştirak etmişlər.

XXVI Yay Olimpiya Oyunlarında komandamızın tərkibində Namiq Abdullayev, Arif Abdullayev, Elşad Allahverdiyev, Məhəmməd İbrahimov, Məhəmmədsalam Hacıyev, Davud Məhəmmədov (sərbəst güləş), Tahir Zahidov, Vilayət Ağayev (yunan-Roma), Nazim Hüseynov, Zülfiyyə Hüseynova (cüdo), Ədalət Məmmədov, İlham Kərimov (boks), Valeri Timoxin (stend atıcısı), İradə Haşımova (tapançadan atəş açma), Emil Cəbrayılov (suya tullanma), Emil Quliyev (üzgüçülük), Aleksey Fatyanov, Arif Axundov, Vaqif Əsədov, Elvira Cabbarova (yüngül atletika), Tofiq Heydərov, Asif Məlikov (ağırlıq qaldırmaq), Elxan Məmmədov (qılıncoynatma) da var idi. İdmançılarla bərabər Atlanta şəhərinə onların 11 nəfər məşqçisi də yola düşmüşdür: Rövşən Umudov (sərbəst güləş), Faiq Həbibov (yunan-Roma güləşi), Rauf Cabbarov (boks), Ağayar Axundzadə (cudo), Hafiz Cəfərov (stend atıcılığı), Bəxtiyar Ağaxanov (suya tullanma), Vahid Nəzərov (ağır atletika), Tərlan Həsənov (cüdo üzrə baş məşqçi), Aleksandr Romanov (yüngül atletika üzrə yığma komandanın baş məşqçisi), Yaşar Məmmədov (qılıncoynatma), Yaqub Məmmədov (sərbəst güləş).

Atlanta Olimpiadasında Azərbaycan bayrağını XXV yay Olimpiya Oyunlarının qalibi Nazim Hüseynov aparmışdır.

Azərbaycan öz idmançılarını Atlanta şəhərində keçirilən Olimpiya Oyunlarına böyük ümidlərlə yola saldıqdan sonra hamımız qəlbən arzu edirdik ki, Olimpiya Oyunlarının mükafatlarından müstəqil Azərbaycan Respublikasına da pay düşsün.

Lakin mükafat-medal qazanmaq üçün böyük ustalıq, dözüm və dəyanət nümayiş etdirmək lazımdır. Təəssüf ki, Olimpiadanın ilk günlərində müxtəlif Olimpiya növü yarışlarında çıxış etmiş idmançılarımız bu keyfiyyətləri göstərə bilməmişlər.

Nəhayət, həsrətlə gözlədiyimiz gün gəlib çatmışdır: Olimpiadanın sərbəst güləş üzrə final görüşündə bolqarıstanlı Valentin Dmitrov-İordanov 52 kiloqramadək çəkidə Azərbaycan pəhləvanı Namiq Abdullayevlə görüşmüşdür.

Yeddi dəfə dünya çempionu Dmitrov - İordanov görüşdə liderlik etmiş, lakin əsas vaxtın qurtarmasına 3 saniyə qalmış Namiq fənd işlədərək hesabı bərabərləşdimişdir-3:3.

Əlavə vaxtda bolqar güləşçisi mübarizədən daim yayınaraq Namiqə fənd işlətməyə imkan verməmişdir. Belə anlardan birində, güləşçilər xalçadan kənara çıxarkən hakim fit vermişdir. Namiq rəqibini buraxmış, lakin bolqar onu parter vəziyyətinə salmışdır. Buna görə də tamamilə ədalətsiz olaraq, Bolqarıstan pəhləvanına xal verilmişdir.

Azərbaycan Respublikası idmançılarının müstəqil komanda kimi çıxış etdikləri ilk Olimpiya Oyunlarının ölkəmizin nümayəndəsinə təqdim etdiyi ilk gümüş medal. Bu medalın sahibinin, dünyanın ən mahir sərbəst güləşmə ustalarından biri Namiq Abdullayevin adı isə Olimpiya Oyunları tarixinə həmişəlik yazıldı.

Ümumiyyətlə, müqayisə üçün qeyd edək ki, Olimpiya Oyunlarında iştirak edən 197 milli komandadan yalnız 79-u medal qazana bilmişdir. Azərbaycan Milli Olimpiya komandası medalçı komandalar arasında 61-ci yeri tutmuşdur. 120-yə yaxın ölkə komandası Olimpiya Oyunlarında öz vətənlərinə medal qazanmadan-əliboş qayıtmışlar. Azərbaycan MDB ölkələri arasında 7-ci yeri tutmuşdur.

Olimpiadada ən yaxşı nəticəni ABŞ komandası göstərib. Onların payına 101 medal düşüb ki, bunların 44-ü qızıldır.

Sonrakı yerləri isə Rusiya (63), Almaniya (55), Çin (50) tuturlar. Keçmiş SSRİ respublikalarından Ukrayna (23), Belarus (15), Qazaxıstan (6) uğurla çıxış ediblər.



1996-cı ildə dünyada ən mötəbər idman yarışları sayılan Olimpiya oyunları idman tarixində əlamətdar olmuşdur. İyulun 19-dan avqustun 4-dək ABŞ-ın Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiadası müasir Olimpiya oyunlarının 100 illiyinə təsadüf etmişdir.

Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikası beynəlxalq aləmdə bütün sahələrdə olduğu kimi, idman hərəkatında da ilk addımlarını atır. İndi respublikamız Beynəlxalq Olimpiya Komitəsinin (BOK) tam hüquqlu üzvüdür. Ölkəmizin tarixində ilk dəfə olaraq idmançılarımız suveren Azərbaycan Respublikasının bayrağı altında Olimpiya oyunlarında iştirak etmişdir. BOK-un sabiq Prezidenti cənab Xuan Antonio Samarançın Azərbaycana səfəri zamanı dövlətimizin başçısı Heydər Əliyev qonağı qəbul edərək bildirmişdir ki, indi Olimpiya hərəkatı ölkəmizdə kütləvi hal almışdır.

Respublikamızın indiki çətin vəziyyətinə baxmayaraq, ölkəmizin rəhbərliyi idmançılarımızın Olimpiya oyunlarında iştirakına böyük diqqət və qayğı göstərir. 1995-ci ilin fevralında Prezident Heydər Əliyevin «1996-cı ildə Amerika Birləşmiş Ştatlarının Atlanta şəhərində keçiriləcək XXVI Yay Olimpiya oyunlarına hazırlıq haqqında» sərəncamına əsasən xüsusi təşkilat komitəsi yaradılmışdır.

Ölkəmizin idmançılarının da XXVI yay Olimpiya oyunlarına yola düşməsi ərəfəsində – iyunun 29-da Zuğulbadakı «Gənclik» kompleksində Azərbaycan Prezidenti Heydər Əliyev demişdir ki, «XXVI Yay Olimpiya oyunları dünyanın bütün ölkələrini maraqlandırır, idmançıları burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, Olimpiya oyunlarında təmsil olunsun. Keçmiş dövrlərdə Azərbaycanın ayrı-ayrı nümayəndələri Ümumdünya Olimpiya oyunlarında təmsil olunmuşlar. Bəziləri yüksək nailiyyətlər əldə etmişlər. Eyni zamanda Azərbaycan tam müstəqil olmadığına görə keçmişdə Sovetlər İttifaqının ümumi komandasında Azərbaycanın idman ustaları istənilən qədər, istənilən miqdarda heç vaxt təmsil olunmamışdı.

Müstəqil respublikamızdan bizim 23 nəfər nümayəndəmiz gedir və onlar orada təmsil olunmaq, iştirak etmək hüququ alıblar. Bu sadəcə nümayəndə heyəti deyil, bir neçə nəfər istəyirsən təyin et, müəyyən et, göndər. Dünyada yeganə haldır ki, bu toplantıya, dünya səviyyəli görüşə gedən nümayəndə hey'əti nə dövlət, nə xalq tərəfindən təyin oluna bilməz. Olimpiya oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmasa, Azərbaycan dövləti, Azərbaycan Prezidenti də nə qədər çalışsa, o nailiyyəti əldə etməyən adam yığma komandanın tərkibinə düşə

bilməz. Bu onu göstərir ki, müstəqillik bütün sahələrlə yanaşı Azərbaycan xalqının, gənclərimizin idman, fiziki hazırlıq sahəsində də imkanlarını açır, geniş nümayiş etdirir.

İlk dəfədir ki, dünya Olimpiya oyunlarınada müstəqil Azərbaycan yığma komandası iştirak edir. Mən heç şübhə etmirəm ki, gələn Olimpiya oyunlarınada Azərbaycan yığma komandası bundan çox kifayətcə daha yüksək olacaqdır. Çünki xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardır. Fiziki sağlamlıq xalqımıza, millətimizə xas olan xüsusiyyətlərdir.

İndi isə xalqımızın, millətimizin bu imkanlarını dünyada nümayiş etdirmək fürsəti almışıq. Bü böyük hadisə, böyük nailiyyətidir. Şəxsən mən bununla fəxr edirəm. Hesab edirəm ki, Azərbaycanın hər bir vətəndaşının fəxr etməyə haqqı var. Sizin üzərinizə böyük məsuliyyət düşür. Bu məsuliyyət özünüz bu işi müvəffəqiyyətlə başa çatdırmalısınız. Bunu özünüz yaxşı dərk edirsiniz və güman edirəm ki, hər birinizin ürəyi hər gün bu fikirlə doludur. Ona görə də biz sizi xeyir-dua ilə yola salırıq. Bu gün Azərbaycan xalqı adından sizə xeyir-salamat gedib Atlanta şəhərinə çatasınız, orada öz idman məharətinizi nümayiş etdirə Azərbaycanın bayrağını yüksəklərə qaldıra bilərsiniz. Sizin imkanlarınız var və ümidvaram ki, buna nail olacaqsınız.

Azərbaycan Respublikasının idmançıları Olimpiya oyunlarına da müstəqil olaraq ilk dəfə çıxış edirlər. Əgər Olimpiya oyunlarında 197 ölkənin nümayəndə iştirak ediblərsə, belə halda Azərbaycan Respublikası komandasının əldə etdiyi nailiyyətlər hesab edirəm ki, çox dəyərli nailiyyətlərdir. Bu gümüş medal Olimpiya oyunlarınada Azərbaycan Respublikasının iştirakında ilk uğurlu addımdır. Amma bu medal bütün komandanın, Azərbaycan idmançılarınm medalıdır. Mən Namiq Abdullayevi xüsusi təbrik edirəm, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da idmanla məşğul olacaqsınız və dörd ildən sonra növbəti Olimpiya oyunlarında bundan da yüksək nailiyyətlər əldə edəcəksiniz.

Olimpiya oyunlarının nəticəsi haqqında Əbülfəz Qarayevin verdiyi məlumatlar çox əhəmiyyətlidir. Həqiqətən, əgər keçmiş zamanlarda Azərbaycan idmançıları Sovetlər İttifaqının spartakiadasında 10-11-ci yerləri tuturdularsa indi həmin respublikalar Olimpiya oyunlarında iştirak etdiyi bir zamanda yeddinci yer tutmuşsunuz. Bu böyük nailiyyətdir. Bizim Gənclər və İdman Nazirliyini təbrik edirəm. Məşqçilərinizi təbrik edirəm. Hesab edirəm ki, sizi yola saldığım vaxt verdiyimiz tövsiyyələrə sadiq olmusunuz və arzularımızı, ümidlərimizi



doğrutmusunuz. Hesab edirəm ki, reallığa görə sizin nailiyyətləriniz görkəmli nailiyyətlərdir.

Azərbaycan bayrağı Olimpiya oyunlarında dalğalanıbdır. Ona görə də hesab edirəm ki, siz və sizinlə birlikdə bütün idmançılar, Azərbaycan Gənclər və İdman Nazirliyi ölkəmizdə idmanın, onun bütün növlərinin inkişaf etməsi, yayılması, gənclərin idmana daha yaxından qoşulması üçün bundan sonra da ciddi məşğul olmalıdır.

Mən bu barədə sizdən təklif gözləyirəm və əmin ola bilərsiniz ki, lazımi sərəncamlar veriləcək, qərarlar qəbul olunacaq və bunun üçün də lazımi vəsait ayrılacaqdır».

XXVI Yay Olimpiya Oyunlarında xarici ölkələrin milli Olimpiya komandalarının tərkibində çıxış edib, müvəffəqiyyət qazanmış Azərbaycan idman məktəbinin yetirmələrinin nəticələri ilə tanış olaq.

1. İlqar Məmmədov-qızıl medal, qılıncoynatma, Rusiya (komanda hesabında)
2. Malik Bəyləroğlu-gümüş medal, boks, Türkiyə
3. Zəfər Quliyev-bürünc medal, yunan-Roma güləşi, Rusiya.
4. Kamandar Məcidov-4 cü yer, yunan-Roma güləşi, Belorusiya.
5. Vüqar Orucov-4-cü yer, sərbəst güləş, Rusiya.
6. Nazim Əlicanov-sərbəst güləş, Moldova.
7. Valeri Belenki-gimnastika, Almaniya.
8. Valentina Popova-stolüstü tennis, Çexiya.
9. Natiq Bağırov- V yer, cüdo, Belorusiya.
10. İbad Əhmədov-yunan-Roma güləşi, Belorusiya.

XXVI Olimpiya Oyunlarının bağlanış mərasimində Azərbaycan Respublikasının bayrağını Namiq Abdullayev aparırdı. Bu da çox ürəkaçan, fərəh gətirən bir hadisə idi. Olimpiya Oyunlarında biz hələ çox çıxışlar edəcəyik. Lakin bu hadisə hamının ürəyində, idman tarixinin səhifələrində həmişəlik qalacaqdır. Çünki bu Olimpiadada-ABŞ-ın Atlanta şəhərində müstəqil Azərbaycanın Olimpiya yığma komandası ilk dəfə çıxış edirdi. Bu faktın özü böyük əhəmiyyətə malik olan bir hadisə idi.

## XXVII YAY OLİMPİYA OYUNLARI (2000. Sidney)

Sidney Avstraliya İttifaqında şəhərdir. Yeni Cənubi Uels ştatının inzibati mərkəzidir. 1788-ci ildə salınmışdır. Ölkənin ticarət-ma-

liyyə və iri sənaye mərkəzi, mühüm nəqliyyat qovşağı, limanı var. Əhalisi 3 mln nəfərdən çoxdur (şəhər ətrafı ilə). Maşınqayırma, metallurgiya, elektrotexnika, kimya, neft emalı, toxuculuq, yeyinti, poliqrafiya və başqa sənaye sahələri, universitetlər fəaliyyət göstərir.

Dörd il əvvəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Atlantaya yola düşən idmançılarımızla Zağulbadakı "Gənclik" Beynəlxalq Turizm Mərkəzində görüşmüşdür. Bu ənənə Sidney Olimpiyadası ərəfəsində də təkrar olundu.

25 avqust 2000-ci ildə XXVII Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan idmançılarının yolasalma mərasimində Azərbaycan prezidenti Heydər Əliyev demişdir: "Yay Olimpiya Oyunları XX əsrin son Olimpiya Oyunlarıdır. Olimpiya Oyunları hər dəfə bəşəriyyətdə əlamətdar hadisə kimi qiymətləndirilmişdir. Ancaq XX əsrə yekun vuran və bu əsrdə beynəlxalq Olimpiya hərəkatının nə qədər əhəmiyyətli olduğunu nümayiş etdirən XXVII Sidney Yay Olimpiya Oyunları olacaqdır.

Biz bu gün böyük iftixar hissi keçiririk ki, Azərbaycan bir müstəqil dövlət kimi, Dünya birliyinin bərabər hüquqlu üzvü kimi, bu Olimpiya Oyunlarında iştirak edəcək və ölkəmizin müstəqilliyini, azadlığını, suverenliyini bir daha nümayiş etdirəcək, Azərbaycan milli bayrağını qaldıracaq, milli himni səsləndirəcəkdir.

Olimpiya Oyunlarında Azərbaycanın bilavasitə müstəqil olaraq iştirak etməsi xalqımızın azadlığının, ölkəmizin müstəqilliyinin bəhrəsidir və müstəqil Azərbaycan dövlətinin son illərdə əldə etdiyi nailiyyətlərin böyük bir hissəsidir.

Mən sizi, Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan milli komandasının üzvlərini, ölkəmizin bütün idmançılarını, gənclərini bu hadisə münasibətilə ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan idmançıları XXVII Yay Olimpiya Oyunlarında böyük uğurlar qazanacaq və Azərbaycanın şan-şöhrətini daha da yüksəldəcəklər".

XXVII Yay Olimpiya Oyunları 15 sentyabr-1 oktyabr 2000-ci il tarixində uzaq Avstraliyanın Sidney şəhərində keçirilmişdir. Burada 199 ölkədən 11600 idmançı, 30 idman növü üzrə 301 dəst medal uğrunda mübarizə aparmışdır.

Ötən Olimpiadada 198 ölkə arasında 61-ci olan Azərbaycan, bu dəfə 199 ölkə arasında 34-cü yeri, Avropa ölkələri arasında 23-cü, MDB ölkələri arasında isə beşinci yeri tutdu. Bu əsl qələbə idi.



XXVII Yay Olimpiya Oyunlarındakı çıxışları bütövlükdə uğurlu saymaq olar. Stend atıcısı Z.Meftaxətdinova, sərbəst güləşçi N.Abdullayev qızıl, boksçu V.Ələkbərov isə gümüş medal qazanmışlar.

## XXVIII YAY OLİMPİYA OYUNLARI (2004-Afina)

1896-cı ildə birinci Olimpiya Oyunlarının keçirildiyi Afina-2004-cü il avqustun 13-dən 29-dək yenə Olimpiya Oyunlarının paytaxtına çevrilmişdir. Planetimizdə ən nüfuzlu yarışların rəmzi, Olimpiya məşəli bu dəfə yer kürəsinin beş qitəsində 33 şəhəri dolaşaraq uzun bir yol qət etmişdir.

XXVIII Yay Olimpiya Oyunlarına hazırlığa başlamış 130 idmançıdan 38 nəfəri Oyunlarda iştirak etmək şərəfinə nail ola bilmişlər Onlardan 36 nəfəri lisenziya, iki nəfəri isə (üzgüçülük idman növü üzrə Beynəlxalq Federasiyasının qərarı ilə xüsusi) – buraxılışla (vayld-kart) Oyunlarda iştirak etmək hüququ qazanmışlar.

Beləliklə, respublikamız XXVIII Yay Olimpiya Oyunlarında idmanın 12 növü üzrə ( ağır atletika, boks, bədii gimnastika, cüdo, sərbəst güləş, yunan-roma güləşi, qılıncoynatma, taekvando, üzgüçülük, stend və güllə atıcılığı idman növləri) 38 idmançı ilə təmsil olundu. XXVII Sidney Olimpiya Oyunları ilə müqaisədə bu Oyunlarda ölkəmiz 3 yeni idman növü- bədii gimnastika, taekvando və qılıncoynatma və 7 nəfər çox idmançı ilə Olimpiya yarışlarına qatılmışdı.

Azərbaycan milli Olimpiya komandası 1 qızıl və 4 bürünc medal qazanaraq, 202 iştirakçı dövlət arasında medalların sayına görə 37-ci, keyfiyyətinə görə isə 50-ci yeri tuta bilmişdir.

Ümumiyyətlə, 38 idmançımızdan 16-sı Oyunlarda 1-10-cu yerləri ( I-1 nəfər, III-4 nəfər, IV-2 nəfər, V-6, VI-1,VII-1, VIII-1 nəfər) tutaraq, yenə də ölkəmizin idman şərəfinin yüksəklərdə olmasına nail ola bilmişlər.

Bu naliyyətlərin əldə olunmasında komandamızın ən gənc idmançılarından biri, yunan-Roma güləşçisi Fərid Mansurovun və onun məşqçiləri Elçin Cəfərov və Əliqulu Həsənoğlunun əməyi xüsusi ilə deyd olunur. Dünyanın ən güclü güləşçiləri üzərində inamla qələbə qazanan idmançımız, final görüşünü də yüksək səviyyədə keçirərək, Olimpiya Oyunlarının çempionu adına və qızıl medala layiq görüldü.

Oyunların bürünc mükafatını qazana bilmiş atıcı qızlarımız İradə Aşumova (güllə) və Zemfira Meftaxətdinova (stend), boksçu-

larımız Fuad Aslanov (51 kq) və Ağasi Məmmədov (57 kq), onların məşqçiləri Vladimir Lunyov, Hafiz Cəfərov, Məmməd Eyvazov və Vaqif Kazımovun əməkləri nəticəsiz qalmadı.

2000-ci Sidney Olimpiadasında komandamız 2 qızıl və 1 bürünc medal qazanaraq 202 iştirakçı dövlət arasında 37-ci, qızıl medala görə isə 50-ci yeri tutdular. Afina Yay Olimpiadasında isə Azərbaycan idmannçıları yalnız bir qızıl (Fərid Mansurov) və 4 bürünc medala (İradə Aşumova, Zemfira Meftaxetdinova, Fuad Aslanov və Ağasi Məmmədov) sahib olmuşlar. İdmannçılarımızdan 16 nəfəri dünyanın ən güclü 8 olimpiyaçısı sırasında mövqe tutdu. O cümlədən, 1-ci yer - 1 nəfər, 3-cü yer -4 nəfər, 4-cü yer - 2 nəfər, 5-ci yer - 6 nəfər, 6-cı yer-1 nəfər, 7-ci yer 1 nəfər, 9-cu yer 4 nəfər, 10-cu yer-1 nəfər.

Sidney Olimpiadasında Avropa dövlətləri arasında komandamız keyfiyyətə görə 26-cı, saya görə 22-ci, MDB dövlətləri arasında keyfiyyətə görə 8-ci, saya görə 5-ci, İslam ölkələri arasında isə keyfiyyətə görə 5-ci, saya görə 4-cü yerləri tutmuşlar.

Artıq 2004-cü ilin Olimpiadası sona çatmışdır. Əgər dövlətlər əldə edilən medalların sayına görə yarışsaydılar, onda «qızıl» ABŞ, «gümüş» Rusiya, «bürünc» isə ÇXR komandalarına verilməli idi. 16 gün ərzində, 28 idman növü üzrə 301 dəst mükafat uğrunda mübarizə aparmışdır. 202 dövlətin idmançıları bu yarışlarda iştirak etmişlər. Beləliklə, amerikalılar 103, rusiyalılar – 92, çinlilər isə 63 medal qazanmışlar. Qızıl medalların ümumi sayına görə yenə də ABŞ (35 qızıl), Çin Xalq Respublikası (32 qızıl) və Rusiya (27 qızıl) komandaları irəlidədir.

1896-cı ildə Afinada I Olimpiya Oyunları cəmi 14 ölkənin iştirakı ilə keçirilmişdisə, 2008-ci ildə Pekində təşkil edilmiş Oyunlarda artıq 204 ölkə iştirak etmişdir. Azərbaycan idmançıları 1952-ci ildən etibarən Olimpiya Oyunlarında iştirak etməyə başlayaraq, 1992-ci ilə kimi əvvəl SSRİ, sonra isə Müstəqil Dövlətlər Birliyinin yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Bu dövr ərzində Azərbaycan idmançıları 10 Olimpiadada çıxış edərək, 12 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışlar. Keçmiş SSRİ yığma komandasının tərkibində Azərbaycan idmançıları 9 Olimpiya Oyunlarında (1952-1988) iştirak etmiş, 27 medal qazanmışlar: Bunlardan 10-nu qızıl, 11-ri gümüş, 6-sı isə bürünc medalıdır.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə ölkəmizin Olimpiya hərəkatında yeni bir dövrü başladı. 1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması və onun Beynəlxalq Olimpiya Komitəsi



tərəfindən tanınması Azərbaycana müstəqil bir dövlət kimi öz idman potensialını tam nümayiş etdirmək imkanı verdi. 1996-cı ildə Atlantada ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının üç rəngli bayrağı altında çıxış edən milli Olimpiya komandasının göstərdiyi nəticə uğurlu sayıla bilər. Gənc Azərbaycan Respublikası 197 ölkənin iştirak etdiyi bu Oyunlarda 61-ci yeri tutdu.

1997-ci ildən başlayaraq, ölkəmizdə Olimpya hərəkatını sürətlə inkişaf etdirmək və onun Beynəlxalq Olimpiya hərəkatına daha fəal qoşulmasını təmin etmək məqsədilə həyata keçirilən tədbirlər qısa müddət ərzində öz müsbət nəticələrini verdi. Azərbaycan idmançılarının 29-cu Yay Olimpiya Oyunlarına hazırlığının daha yüksək səviyyədə, mütəşəkkil formada təşkil və təmin edilməsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı «29-cu Yay Olimpiya Oyunlarına hazırlıq haqqında» sərəncamı əsas zəmin yaratmış oldu (24.07. 2006-cı il).

Xatırladaq ki, Atlanta Olimpiadasında 78.000, Sidney Oyunlarında isə 75.665 könüllü vardı. Afina-2004-də isə könüllü xidmət etmək istəyənlərindən 160.000-dən çox ərizə qəbul edilmişdir. Ərizə göndərənlərin 55%-i qadın, 45%-i isə kişi olmuşdur. Namizədlərin 78%-nin yaşı 35-dən aşağıdır. Ən çox ərizə ABŞ, İspaniya və Almaniyadan daxil olmuşdur.

Hazırlıq dövründə namizəd-idmançılarımız bu idman növləri üzrə 201 rəsmi beynəlxalq yarışlarda və Olimpiya lisenziyalı turnirlərdə iştirak edərək 36 lisenziya əldə etmişlər.

Üç idman növü üzrə (voleybol-qadınlar, taekvando və boks) Olimpiya lisenziyalı beynəlxalq yarışlar 2004-cü ildə Bakı şəhərində keçirilmişdir. Bu yarışlarda 2 boksçumuz və 1 taekvandoçumuz lisenziyaya sahib olmuşlar.

XXVIII Yay Olimpiya Oyunlarına hazırlığa başlamış 130 idmançıdan 38 nəfəri Oyunlarda iştirak etmək şərəfinə nail ola bilmişlər. Onlardan 36 nəfəri lisenziya ilə, iki nəfəri isə üzgüçülük idman növü üzrə Beynəlxalq Federasiyasının qərarına əsasən xüsusi-buraxılışla (vayld-kart) Oyunlarda iştirak etmək hüququ qazanmışlar.

Beləliklə, respublikamız XXVIII Yay Olimpiya Oyunlarında idmanın 12 növü üzrə (ağır atletika, boks, bədii gimnastika, cüdo, sərbəst güləş, yunan-Roma güləşi, qılıncoynatma, taekvando, üzgüçülük, stend və güllə atıcılığı) 38 idmançı ilə təmsil olundu. XXVII Sidney Olimpiya Oyunları ilə müqaisədə bu dəfə ölkəmiz 3 yeni idman növü-bədii gimnastika, taekvando və qılıncoynatma, eləcə də 7 nəfər

çox idmançı ilə Olimpiya yarışlarına qatılmışdı.

Azərbaycan milli Olimpiya komandası 1 qızıl və 4 bürünc medal qazanaraq 202 iştirakçı dövlət arasında medalların sayına görə 37-ci, keyfiyyətinə görə isə 50-ci yeri tuta bilmişdir.

Ymumiyyətlə, 38 idmançımızdan 16-sı Oyunlarda 1-10 yerləri ( I-1 nəfər, III-4 nəfər, IV-2 nəfər, V-6, VI-1,VII-1, VIII-1 nəfər) tutaraq, yenə də ölkəmizin idman şərəfi ləyaqətlə qorumuşlar.

## XXIX YAY OLİMPİYA OYUNLARI (2008-Pekin)

XXIX Pekin Yay Olimpiya Oyunlarına Azərbaycan idmançılarından 41-i lisenziya, 3-ü isə güzəştli vəsiqə qazanmışdır.

Azərbaycan Olimpiya yıgma komandası Pekində 12 idman növü üzrə 44 idmançı ilə iştirak etmişdir. 29-cü Yay Olimpiya Oyunlarına hazırlıq üç mərhələdə keçmişdir. 2005-ci ili əhatə edən 1-ci mərhələdə Afina Oyunlarının nəticələri təhlil edilib, 2-ci mərhələdə ölkəmizdə həyata keçirilən olimpiya idman bazaları müəyyən olunub, 3-cü mərhələdə yüksək səviyyəli idmançıların hazırlanmasına başlanılıb. 2007-2008-ci illərdə isə Pekin Olimpiya Oyunlarına əsas lisenziyalar qazanılıb.

Pekin Yay Olimpiya Oyunlarına hazırlıq üçün ayrılan vəsait artırılmışdır. Belə ki, Atlantada keçirilən Olimpiya Oyunlarına hazırlıq üçün 425 min manat, Sidney Olimpiya Oyunlarına hazırlıq üçün 545 min manat, Afina Olimpiya Oyunları üçün 700 min manat vəsait xərclənmişdisə, Pekin Olimpiadasına hazırlıqda bu rəqəm 3 milyon 150 min manat təşkil edib.

2005-ci ildən başlayaraq və bu ilin 7 ayında idmançılarımız beynəlxalq yarışlarda 467 medal qazanıb. Bədii gimnastika növündə də sürətli inkişaf gedir. Bədii gimnastlarımız ilk dəfə qrup hərəkətlərində Pekinə vəsiqə qazanıblar.

Azərbaycan ilk dəfədir ki bədii gimnastika üzrə qrup yarışlarında, atçılıqda və uşu üzrə nümunəvi çıxışlarda təmsil olunmuşdur.

XXIX Yay Olimpiya Oyunlarında iştirak edən 44 idmançıdan 12-si ikinci dəfə Olimpiya Oyunlarına qatılmış, 32 idmançı isə ilk dəfə belə mötəbər idman tədbirlərində iştirak etmişdir.

Ölkəmizdə Olimpiya hərəkatı getdikcə inkişaf edir. Azərbaycanda 40 Olimpiya İdman Kompleksi artıq istifadəyə verilib, 10-u isə tikilir. 2007-ci ildə Azərbaycanda 36 beynəlxalq yarış keçirlib. Fərəhli



haldır ki, ötən il Azərbaycan Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb.

Nəhayət, Azərbaycan idmançılarından ibarət nümayəndə heyəti XXIX Yay Olimpiya Oyunlarında iştirak etmək üçün Çinin paytaxtı Pekinə yola düşmüşlər.

Heydər Əliyev adına beynəlxalq hava limanında onları Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse–prezidenti Çingiz Hüseynzadə, bir sıra idman federasiyalarının rəhbərləri və idmansevərlər təntənə ilə yola salmışdılar. Nümayəndə heyətinin tərkibində avqustun 8–də start götürmüş Pekin Olimpiadasında çıxış edən idmançıların böyük hissəsi, o cümlədən, güləşçilər, boksçular, atletlər, üzgüçülər yer almışdılar. 147 nəfərlik nümayəndə heyətinin tərkibində idmançı qismində 16 güləşçi, 2 boksçu, 2 atlet və 2 üzgüçü yer almışdı. 6 cüdoçu, 5 ağırlıqqaldıran, 1 stend atıcısı və 1 çapar qabaqcadan Pekinə yollanmışlar. 8 bədii gimnastımız və 1 taekvondoçumuz isə avqustun 16-a nəzərdə tutulan növbəti çarter reysi ilə Pekinə yollanmışlar. Belə ki, ağır atletlər Nizami Paşayev-94 kq, Turan Mirzəyev-69 kq, Əfqan Bayramov - 69 kq, İntiqam Zairov 85kq., Sərdar Həsənov; Ramil Ouliyev - 200 m. qaçış; Ruslan Abbasov -100 m. qaçış (atletika:); Fərdi yarışlar: Aliyə Qarayeva, Dinara Gimatova; Qrup hərəkətləri üzrə komanda: Vəfa Hüseynova, Anna Bityeva, Anastasiya Proslova, Valeriya Yeqay, Alina Tryopina, Dina Qorina (bədii gimnastika); Elnur Məmmədli - 73 kq, Ramil Qasımov-66 kq, Mehman Əzizov-81 kq, Elxan Məmmədov-90 kq, Mövlud Mirəliyev-100 kq, Kifayət Qasımova-57 kq (cüdo); Fərid Mansurov-66 kq, Rövşən Bayramov -55 kq, Vitali Rəhimov-60 kq, İlqar Abdulov-74 kq, Anton Botev-84 kq, Şalva Qadabadze-120 kq (Yunan – Roma); Camsulvara Camsulvarayev-74 kq, Emin Əzizov-66 kq, Namiq Sevdimov-55 kq, Zəlimxan Hüseynov-60 kq, Novruz Temzezov-84 kq, Xetaq Qazyumov-96 kq, Əli İsayev-120 kq, Mariya Stadnik-48 kq, Olesiya Zamula-63 kq, Komarova Yelena (55) (Sərbəst güləş); Samir Məmmədov-51 kq; Şahin İmranov-57 kq (boks); Rəşad Əhmədov-80 kq (taekvondo); Camal Rəhimov- konkur (atçılıq idmanı); Oksana Hətəmxanova 100 m. brass üsulu ilə Tural Abbasov-50 m. Sərbəst üsul ilə (üzgüçülük) vayld – kart alınıb; Zemfira Meftaxatdinova – (stend atıcılığı) vayld-kart alınıb.

Azərbaycan prezidenti İlham Əliyev Pekin Olimpiya Oyunlarının təntənəli açılış mərasiminə rəsmi dəvət olunmuşdur.

Avqustun 10-da Çin Xalq Respublikasının paytaxtı Pekində -

"China World Hotel"də XXIX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü" keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

XXIX Yay Olimpiya Oyunlarında 204 ölkə arasında Olimpiya yığma komandamız 39-cu yeri tutmuşdur (1 qızıl, 2 gümüş, 4 bürünc) 7 medal qazanmışdır. XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları medalların sayına görə 27-ci, keyfiyyətinə görə 39-cu, Avropa ölkələri arasında 20-ci, İslam ölkələri arasında isə 3-cü yeri tutmuşdur.

Fərəhli haldır ki, 2008-ci il Pekin Yay Olimpiya Oyunlarmda Azərbaycan cüdoçusu Elnur Məmmədli qızıl medal qazanmışdır. Qeyd edək ki, Elnur Məmmədli keçirdiyi 5 görüşün 5-ni də təmiz qələbə ilə başa vurmuş, cüdo ustası Olimpiya Oyunlarının qızıl medalını qazanaraq Azərbaycan cüdo tarixində 16 il öncə, 1992-ci il Barselona Olimpiadasında Nazim Hüseynovun göstərdiyi parlaq nəticəni təkrarladı.

Xatırladaq ki, Olimpiya Oyunlarının tarixində ilk dəfədir ki, yunan-Roma güləşi üzrə 2 gümüş medal qazanılmışdır.

Pekin Yay Olimpiya Oyunlarının mükafatçıları: Məmmədli Elnur Çingiz oğlu – (73 kq) cüdo – qızıl, Bayramov Rövşən Cənnət oğlu – (55 kq) yunan-Roma –gümüş, Rəhimov Vitali Məcidoviç- (60 kq) yunan-Roma – gümüş, Mirəliyev Mövlud Mustafa oğlu- (100 kq) cüdo-bürünc, Qazyumov Xetaq Ruslanoviç – (96kq) sərbəst güləş-bürünc, Stadnik Mariya Vasilyevna- (48 kq) sərbəst güləş-bürünc; İmranov Şahin Səlim oğlu- (57 kq) boks –bürünc.

Fərəhli haldır ki, Azərbaycan ilk dəfədir ki, XXIX Yay Olimpiya Oyunlarında bədii gimnastika üzrə qrup yarışlarında nümunəvi çıxışlarda təmsil olunmuşdur. XXIX Yay Olimpiya Oyunlarında Aliyə Qarayeva bədii gimnastika üzrə (fərdi çoxnövçülük) VI yerə. Vəfa Hüseynova, Anna Bityeva, Anastasiya Proslova, Valeriya Yeqay, Alina Tryopina, Dina Qorina VII yerə layiq görülmüşlər (qrup yarışları üzrə komanda).

Maraqlıdır ki, Pekin Yay Olimpiya Oyunlarında 204 ölkədən 10500 idmançı iştirak edib, 302 medal qazanılıb, 36 dünya rekordu qeydə alınıb, 350 idmançı Çin mənşəli ad götürüb, 4500 dopinq-testdən 4 mini müsbət nəticələnib.

Azərbaycanda Olimpiya Oyunlarına göstərilən böyük diqqətin nəticəsidir ki, ölkəmiz dünyada idman ölkəsi kimi tanınır. Bu, həm də Azərbaycanın qüdrətini, imkanlarını təzahür etdirir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev demişdir: «Azərbaycan Olimpiya Oyunları keçirmək üçün bütün imkanlara malikdir». Elə məhz buna görə də Azərbaycan 2020-ci ildə Olimpiya Oyunlarını keçirmək təşəbbüsü ilə çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsi kimi 2007-ci il sentyabrın 26-da Bakı şəhərinin XXXI Yay Olimpiya və XV Paralimpiya Oyunlarının keçirmək üçün namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirləri həyata keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzalamışdır.

Respublikamızda 2020-ci ilin Yay Olimpiya Oyunlarına ev sahibliyi üçün namizədliyinin irəli sürülməsi bir daha təsdiq edir.

**1896-2008-ci illər yay olimpiya oyunlarının tarixini, yerini və nəticələrini əks etdirən cədvəl**

***Olimpiadaların tarixindən***

| Olimpiada | Şəhər | Təqvim | Ölkələrin sayı | İdman növü | Medalların sayı | İdmançıların sayı |
|---|---|---|---|---|---|---|
| I | Afina | 6 - 15 aprel 1896 | 14 | 9 | 43 | 245 |
| II | Paris | 20 may - 28 oktyabr 1900 | 26 | 12 | 85 | 1225 |
| III | Sent-Luis | 1 iyul – 23 noyabr 1904 | 13 | 10 | 88 | 687 |
| IV | London | 27 aprel - 31 oktyabr 1908 | 22 | 17 | 110 | 2035 |
| V | Stokholm | 5 may – 22 iyul 1912 | 28 | 13 | 102 | 2547 |
| VI | Berlin | I Dünya müharibəsinə görə keçirilməyib | | | | |
| VII | Antverpen | 23 aprel - 12 sentyabr 1920 | 29 | 19 | 158 | 2668 |
| VIII | Paris | 4 may – 27 iyul 1924 | 44 | 18 | 126 | 3092 |
| IX | Amsterd | 17 may - 12 avqust | 46 | 16 | 109 | 3014 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | am | 1928 | | | | |
| X | Los-Ancelos | 30 iyul - 14 avqust 1932 | 37 | 15 | 117 | 1408 |
| XI | Berlin | 1 - 16 avqust 1936 | 49 | 19 | 129 | 4066 |
| XII | Tokio | II Dünya müharibəsinə görə keçirilməyib | | | | |
| XIII | London | II Dünya müharibəsinə görə keçirilməyib | | | | |
| XIV | London | 29 iyul - 14 avqust 1948 | 59 | 17 | 136 | 4099 |
| XV | Helsinki | 19 iyul – 3 avqust 1952 | 69 | 17 | 149 | 4925 |
| XVI | Melburn | 22 noyabr - 8 dekabr 1956 | 68 | 17 | 151 | 3342 |
| XVII | Roma | 25 avqust - 11 sentyabr 1960 | 83 | 17 | 150 | 3346 |
| XVIII | Tokio | 10 - 24 oktyabr 1964 | 93 | 19 | 163 | 5140 |
| XIX | Mexiko | 12 - 27 oktyabr 1968 | 112 | 19 | 172 | 5530 |
| XX | Münhen | 26 avqust - 11 sentyabr 1972 | 121 | 21 | 205 | 7123 |
| XXI | Monreal | 17 iyul – 1 avqust 1976 | 92 | 21 | 198 | 6028 |
| XXII | Moskva | 19 iyul – 3 avqust 1980 | 80 | 21 | 203 | 5217 |
| XXIII | Los-Ancelos | 28 iyul - 12 avqust 1984 | 140 | 21 | 221 | 6797 |
| XXIV | Seul | 17 sentyabr - 5 oktyabr 1988 | 159 | 23 | 237 | 8465 |
| XXV | Barselona | 25 iyul – 9 avqust 1992 | 169 | 25 | 257 | 9364 |
| XXVI | Atlanta | 19 iyul – 4 avqust 1996 | 197 | 31 | 735 | 10788 |
| XXVII | Sidney | 15 sentyabr - 1 oktyabr 2000 | 199 | 40 | 928 | 11116 |
| XXVIII | Afina | 13 avqust-29 avqust 2004 | 202 | 37 | 929 | 10882 |
| XXIX | Pekin | 08 avqust- 24 avqust 2008 | 204 | 39 | 302 | 10500 |



**Azərbaycan idmançılarının SSRİ yığma komandası tərkibində yay olimpiya oyunlarında iştirakı və əldə etdikləri medallar (1952-1992)**

| Adı və soyadı, idman növü | İştirakçıların sayı | Medallar | | | Tutduğu yer |
|---|---|---|---|---|---|
| | | Qızıl | Gümüş | Bürünc | |
| **XV 1952 Helsinki (Finlandiya)** | | | | | |
| R.Q.Məmmədbəyov (sərbəst güləş) | 1 | | 1 | | 2 |
| İ.H.Dadaşov (sərbəst güləş) | 1 | | | | 8 |
| CƏMI: | 3 | | 1 | | |
| **XVI 1956 Melburn (Avstraliya)** | | | | | |
| Y.S.Konovalov (atletika) (4x100) | 1 | | 1 | | 2 |
| CƏMI: | 1 | | 1 | | |
| **XVII 1960 Roma (İtaliya)** | | | | | |
| Y.S.Konovalov (atletika) (4x100) | 1 | | 1 | | 2 |
| E.Saltsin (vaterpol) | 1 | | 1 | | 2 |
| CƏMİ: | 2 | | 2 | | |
| **XVIII 1964 Tokio (Yaponiya)** | | | | | |
| V.Amineyev (beşnövçülük) | 1 | 1 | | | 1 |
| I.V.Rıskal (voleybol) | 1 | | 1 | | 2 |
| Z.Bortkeviç (vaterpol) | 1 | | | 1 | 3 |
| N.Kuznetsov (vaterpol) | 1 | | | 1 | 3 |
| A.Ə.İbrahimov (sərbəst güləş) | 1 | | | 1 | 3 |
| CƏMI: | 5 | 1 | 1 | 3 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **XIX 1968 Mexiko (Meksika)** | | | | | |
| İ.V.Rıskal (voleybol) | 1 | 1 | | | 1 |
| V. S.Lantratova (voleybol) | 1 | 1 | | | 1 |
| CƏMI: | 3 | **2** | | | |
| **XX 1972 Münhen (Almaniya)** | | | | | |
| İ.V.Rıskal (voleybol) | 1 | 1 | | | 1 |
| A.O.Kornelyuk (atletika) | 1 | | 1 | | 2 |
| CƏMI: | 3 | **1** | 1 | | |
| **XXI 1976 Monreal (Kanada)** | | | | | |
| R. M.Şabanova (həndbol) | 1 | 1 | | | 1 |
| L. Y.Şubina (həndbol) | 1 | 1 | | | 1 |
| I.V.Rıskal (voleybol) | 1 | | 1 | | 2 |
| CƏMI: | 3 | **2** | 1 | | |
| **XXII 1980 Moskva (SSRİ)** | | | | | |
| L. M. Savkina (həndbol) | 1 | 1 | | | 1 |
| V. Yakuşa (avarçəkmə) | 1 | | 1 | | 2 |
| V.Pereverzev (avarçəkmə) | 1 | | 1 | | 2 |
| G.Kryuçkin (avarçəkmə) | 1 | | 1 | | 2 |
| T. İ. Şvıqanova (otüstü xokkey) | 1 | | | 1 | 3 |
| CƏMİ: | 5 | **1** | 3 | 1 | |



| | | | | | |
|---|---|---|---|---|---|
| **XXIV 1988 Seul (Cənubi Koreya)** | | | | | |
| İ.Y.Məmmədov (qılıncoynatma) | 1 | 1 | | | 1 |
| B.N.Koretski (qılıncoynatma) | 1 | 1 | | | 1 |
| İ.Ronamaryov (futbol) | 1 | 1 | | | 1 |
| A.Lukyanov (avarçəkmə) | 1 | | 1 | | 2 |
| V.Yakuşa (avarçəkmə) | 1 | | | 1 | 3 |
| E.İ.Quseva (həndbol) | 1 | | | 1 | 3 |
| M.İ.Allahverdiyev (yunan-Roma) | 1 | | | | 4 |
| S.Kinyagin (avarçəkmə) | 1 | | | | 4 |
| A. Korikov-avarçəkmə) | 1 | | | | 6 |
| R.Kazantsev-avarçəkmə) | 1 | | | | 6 |
| A.Lipski (avarçəkmə) | 1 | | | | 6 |
| İ.Vısotski (avarçəkmə) | 1 | | | | 6 |
| S. Smırnov (avarçəkmə) | 1 | | | | 6 |
| V.İ.Popova (stolüstü tennis) | 1 | | | | 6 |
| S .Titov (avarçəkmə) | 1 | | | | 7 |
| V .Romanişin (avarçəkmə) | 1 | | | | 7 |
| CƏMİ: | 18 | **3** | 1 | 2 | |
| **XXV 1992 Barselona (İspaniya)** | | | | | |
| N.Q.Hüseynov-(cüdo) | 1 | 1 | | | 1 |
| V.V.Belinki-(gimnastika) | 1 | 1 kom | | Şəxsi | 1kom şəxsi |
| CƏMİ: | 5 | **2** | | 1 | |

**Müstəqillik dövründə azərbaycan idmançılarının yay olimpiya oyunlarinda iştirakı və əldə etdikləri medallar (1996-2008)**

| Adı və soyadı, idman növü | İştirakçıların sayı | Medallar | | | Tutduğu yer |
|---|---|---|---|---|---|
| | | qızıl | gümüş | bürünc | |
| **XXVİ 1996 Atlanta (ABŞ)** | | | | | |
| N.Y. Abdullayev (sərbəst güləş) | 1 | | 1 | | 2 |
| M.S. İbrahimov (sərbəst güləş) | 1 | | | | 5 |
| Ə.A. Məmmədov (boks) | 1 | | | | 5 |
| Z.Y. Hüseynova (cüdo) | 1 | | | | 7 |
| M. Hacıyev (sərbəst güləş) | 1 | | | | 8 |
| A.Y.Abdullayev (sərbəst güləş) | 1 | | | | 10 |
| V. Ağayev (yunan-Roma) | 1 | | | | 10 |
| İ.S.Aşumova (idman pistoleti) | 1 | | | | 10 |
| CƏMİ: | 23 | | 1 | | |
| **XXVII 2000 Sidney (Avstraliya)** | | | | | |
| Z.Ə.Meftahətdinova (stend atıcılığı) | 1 | 1 | | | I |
| N.Y.Abdullayev (sərbəst güləş) | 1 | 1 | | | I |
| V.M. Ələkbərov (boks) | 1 | | | 1 | 3 |
| R.C Xairov (boks) | 1 | | | | 5 |
| R. Səlimov (cüdo) | 1 | | | | 5 |
| Z.Y. Hüseynova (cüdo) | 1 | | | | 7 |
| E.M. İsmayılov (cüdo) | 1 | | | | 7 |
| Ş.Əfəndiyev (sərbəst güləş) | 1 | | | | 7 |
| N.S. Eyvazov (yunan-Roma) | 1 | | | | 7 |
| E.D.Süleymanov (ağırlıqqaldırma) | 1 | | | | 8 |
| T.S.Mirzəyev (ağırlıqqaldırma) | 1 | | | | 9 |
| CƏMİ: | 31 | **2** | | 1 | |
| **XXVIII 2004 Afina (Yunanıstan)** | | | | | |
| F.Mansurov (yunan- | 1 | 1 | | | I |
| V. Rəhimov (yunan- | 1 | | | | 14 |
| V. Aslanov (yunan- | 1 | | | | 17 |
| R.U. Ağayev (sərbəst | 1 | | | | 5 |
| N.Y. Abdullayev (sərbəst güləş) | 1 | | | | 14 |
| E.N. Əsgərov (sərbəst | 1 | | | | 12 |
| E. Aslanov (sərbəst | 1 | | | | 15 |
| A.Y. Abdullayev (sərbəst güləş) | 1 | | | | **İ.etməyib** |
| A. A. Məmmədov (boks) | 1 | | | 3 | |
| F.A. Aslanov (boks) | 1 | | | 3 | |
| R. M. Hüseynov (boks) | 1 | | | | 5 |
| R. C. Xairov (boks) | 1 | | | | 5 |
| V. M. Ələkbərov (boks) | 1 | | | | 5 |
| C. İ. Tağıyev (boks) | 1 | | | | Yersiz. |
| Ə. Ş. İsmayılov (boks) | 1 | | | | Yersiz. |
| Ş. S. İmranov (boks) | 1 | | | | Yersiz. |
| C. Abiyev (boks) | 1 | | | | Yersiz. |
| T. S. Mirzəyev (ağırlıqqaldırma) | 1 | | | | 4 |

| | | | | | |
|---|---|---|---|---|---|
| A. Naniyev | 1 | | | | 6 |
| Ə. Səmədov (ağırlıqqaldırma) | 1 | | | | 15 |
| A. M. Məlikov (ağırlıqqaldırma) | 1 | | | | 13 |
| N. X. Paşayev (ağırlıqqaldırma) | 1 | | | | Yersiz. |
| M. A. Əzizov (cüdo) | 1 | | | | 5 |
| M. M. Mirəliyev (cüdo) | 1 | | | | 5 |
| E. .M. İsmayılov (cüdo) | 1 | | | | Yersiz. |
| R. A. Əhmədov | 1 | | | | 4 |
| N. V. Paşayev | 1 | | | | |
| A. Qurbanova (bədii gimnastika) | 1 | | | | 14 |
| Z Ə. Meftahətdinova (stend atıcılığı) | 1 | | | 3 | |
| İ.. S. Aşumova (güllə | 1 | | | 3 | |
| M. Lapina (atletika) | 1 | | | | 46 |
| T. Qasımov (atletika) | 1 | | | | 71 |
| D. İbrahimov (atletika) | 1 | | | | 48 |
| Ə. Şükürov (atletika) | 1 | | | | 66 |
| S. Voçkov (atletika) | 1 | | | | İ.etməyib |
| N. Filina (üzgüçülük) | 1 | | | | 44 |
| S. Dyaçkov (üzgüçülük) | 1 | | | | 67 |
| Y. Jemayeva | 1 | | | | 7 |
| CƏMİ: | 38 | 1 | | 4 | |
| **XXIX 2008 Pekin (Çin)** | | | | | |
| Nizami Paşayev (ağır | 1 | | | | |
| Turan Mirzəyev(ağır | 1 | | | | |
| Əfqan Bayramov (ağır | 1 | | | | |
| İntiqam Zairov (ağır | 1 | | | | |



| | | | | | |
|---|---|---|---|---|---|
| Sərdar Həsənov (ağır | 1 | | | | |
| Ramil Ouliyev (atletika) | 1 | | | | |
| Ruslan Abbasov | 1 | | | | |
| Aliyə Qarayeva (bədii gimnast) | 1 | | | | |
| Dinara Gimatova (bədii gimnast) | 1 | | | | |
| Vəfa Hüseynova (bədii gimnast) | 1 | | | | |
| Anna Bityeva (bədii gimnast) | 1 | | | | |
| Anastasiya Proslova (bədii gimnast) | 1 | | | | |
| Valeriya Yeqay (bədii gimnast) | 1 | | | | |
| Alina Tryopina (bədii gimnast) | 1 | | | | |
| Dina Qorina (bədii gimnast) | 1 | | | | |
| Elnur Məmmədli (cüdo) | 1 | | | | |
| Ramil Qasımov (cüdo) | 1 | | | | |
| Mehman Əzizov (cüdo) | 1 | | | | |
| Elxan Məmmədli (cüdo) | 1 | 1 | | | 1 |
| Mövlud Mirəliyev (cüdo) | 1 | | | 3 | 3 |
| Kifayət Qasımova (cüdo) | 1 | | | | |
| Fərid Mansurov (Yunan - Roma) | 1 | | | | |
| Rövşən Bayramov (Yunan - Roma) | 1 | | 2 | | 2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Vitali Rəhimov (Yunan – Roma) | 1 | | 2 | | 2 |
| İlqar Abdulov (Yunan – Roma) | 1 | | | | |
| Anton Botev (Yunan – Roma) | 1 | | | | |
| Şalva Qadabadze (Yunan – Roma) | 1 | | | | |
| Camsulvara Camsulvarayev (Sərbəst/g) | 1 | | | | |
| Emin Əzizov (sərbəst güləş) | 1 | | | | |
| Namiq Sevdimov (sərbəst güləş) | 1 | | | | |
| Zəlimxan Hüseynov (sərbəst güləş) | 1 | | | | |
| Novruz Temzezov (sərbəst güləş) | 1 | | | | |
| Xetaq Qazyumov (sərbəst güləş) | 1 | | | 3 | 3 |
| Əli İsayev (sərbəst güləş) | 1 | | | | |
| Mariya Stadnik (sərbəst güləş) | 1 | | | 3 | 3 |
| Olesiya Zamula (sərbəst güləş) | 1 | | | | |
| Komarova Yelena (sərbəst güləş) | 1 | | | | |
| Samir Məmmədov (boks) | 1 | | | | |
| Şahin İmranov (boks) | 1 | | | 3 | 3 |
| Rəşad Əhmədov (Taekvondo) | 1 | | | | |



| | | | | | |
|---|---|---|---|---|---|
| Camal Rəhimov (Atçılıq idmanı) | 1 | | | | |
| Oksana Hətəmxanova (üzgüçülük) | 1 | | | | |
| Tural Abbasov (üzgüçülük) | 1 | | | | |
| ZemfiraMeftahətdinova (Stend atıcı.) | 1 | | | | |
| **Cəmi:** | **44** | **1** | **2** | **4** | |

## QIŞ OLİMPİYA OYUNLARININ TARİXİNDƏN

**Qış İdman Növləri Federasiyası** – Müsqəqilliyimiz dövründə Qış İdman Növləri Federasiyası 1992-ci ildə yaradılmış və həmin ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Federasiyanın ilk prezidenti Əliyev Hüseyn seçilmiş, baş katibi isə Lyudmila Moiseyeva olmuşdur. 1993-cü ildən BF üzvüdür. Hazırda federasiyanın prezidenti Xəlilov İsgəndər Ağasəlim oğludur.

**1998-ci il fevralın 7-dən 22-nə dək 16** gün Yaponiyanın Naqano şəhərində XVIII qış Olimpiya oyunları keçirildi. XVIII Olimpiya oyunlarında rekord sayda Azərbaycan Respublikasının nümayəndə heyəti var idi. 70-dən artıq yarışlara gələn idmançıların sayı indiyədək keçirilən qış olimpiadalarındakılara müqayisə edildməzdi.

Onların sayı minlərlə idi. Oyunların proqramına salınmış idman növləri də əvvəlki qış olimpiya oyunlarındakından çox oldu – (15) növ. Təbii ki, bu daha bir rekorda "yol açdı". Naqanoda idmançılar 68 komplekt medal uğrunda mübarizə apardılar. Naqanoda beş idmançımızın gedişi ilə sübüt etdi ki. Azərbaycanın qış idman növlərində də nümayəndəsi var idi. Üstəlik də qış olimpiadaları tarixində daha üç ölkə, o cümlədən Azərbaycan Respublikası da ilk dəfə oyunların mükafatları uğrunda mübarizə aparan komandaların arasında olmuşlar.

İdmançılarımızın dördü nüfuzlu yarışlar sayılan fiqurlu konkisürmədə çıxış etmiş, İqor Paşkeviç-fiqurlu konkisürmədə, kişilərin tək yarışında 28 iştirakçı arasında ümumi hesabda 21,5 xalla 16-cı yeri, Yuliya Voqobyova-fiqurlu konkisürmədə, 26 iştirakçı arasında qadınların tək yarışında ymumi hesabda 9,0 xalla 16-cı yeri, İnqa Rodinova, Aleksandr Aniçenko-fiqurlu konkisürmə, cütlərin yarışlarında 20 iştirakçı arasında ümumi hesabda 22,5 xalla 18-ci yeri tutmuşlar.

X.A.Samaranc bağlanış mərasimində dedi: "Qədimdən bəri həmişə olimpiada keçirilərkən müharibələr dayandırılırdı və bu gün də, dünya kataklizlər dövrü yaşadığı bir zamanda Naqanondakı oyunlar müharibənin başlamasının qarşısını aldı. Mən istərdim ki, gələn əsrdə dünya ixtilaflardan, böhranlardan, müharibələrdən azad olsun və Olimpiya Oyunları bütün dünyada sülh bərqərar olan şəraitdə keçsin!".

**XIX Qış Olimpiya Oyunları 2002**-ci ilin fevralında ABŞ-ın Yuta ştatının paytaxtı Solt Leyk Sitidə keçirildi. Azərbaycan ikinci dəfə Qış



Olimpiya oyunlarının iştirakçısı oldu. Olkəmiz iki idman növü, **konkisürmə və dağ xizəyi** üzrə üç yarışda təmsil olundu, Azərbaycan idmançıları Sergey Rilov kişilər arasında fiqurlu konkisürmə üzrə, fiqurlu konkisürmənin idman rəqsləri yarışında Kristina Frezer və İqor Lukanin, dağ xizəyinin slalom növünüdə ölkəmizi Elbrus İsakov təmsil etdi. Azərbaycan idmançılarından fiqurlu konkisürən Sergey Rilov yarışlara ilk atıldı.

28 ölkənin idmançılarının iştirak etdiyi bu yarışda atletimiz imkanlarından aşağı səviyyədə çıxış edərək 24-cü yeri tutdu.

Fiqurlu konkisürmənin idman rəşsləri yarışlarında iştirak edən Azərbaycan idmançıları Kristian Frezer və İqor Lukanin qısa, məcburi və sərbəst çıxışlarından sonra 32 ölkənin nümayəndələri arasında 17-ci yeri tutdular. Bu, hələ gənc olan idmançılarımız üçün uğurlu nəticə sayıla bilər. Elbrus İsakov slalom yarışında birinci cəhddə məsafənin yarısını keçə bildi. İdmançımız növbəti döngələrdən birində yarış xəttindən kənara çıxdığına görə yarışı dayandarmalı oldu. Bu oyunlarda oynanılmış 78 dəst medal 25 ölkənin nümayəndələri arasında bölüşdürüldü.

**XX Qış Olimpiya oyunları – 2006**-cı il fevralın 10-26 tarixdə İtaliyanın Turin şəhərində keçirilmişdir. Olimpiadada 84 ölkədən 2500 idmançı 15 idman növündə iştirak etmişdir. Ölkəmizi bu Olimpiadada iki idmançı təmsil etmişdir. Freyzer Kristin və Lukanin İqor. Onlar buz üstə rəqs idman növündə çıxış etmişlər və öz növlərində 77,4 xal toplayaraq 17-ci yeri tutmuşlar. Buz üstə rəqs idman növündə birinciliyi Rusiya idmançıları əldə etmişlər.

XX Qış Olimpiya oyunlarında iştirak etmiş 84 ölkədən yalnız 26-sı medal qazanmışdır. Medal sayına görə cədvələ Almaniya başçılıq etmişdi. Onlar cəmi 29 medalı qazanmışdır (onlardan 11 qızıl, 12 gümüş və 5 bürünc). Amerikalılar isə 25 medal qazanmışdır: (onlardan 9 qızıl, 9 gümüş, və 7 bürünc), Rusiya isə 22 medal qazanmışdır: (onlardan – 8 qızıl, 6 gümüş, 8 bürünc), Latviya isə 1 bürünc medal qazanaraq sonnuncu yəni 26-cı yeri tutumuşdur.

İdman ictimaiyyəti ilə görüşdə yeni nazir geniş spektrli məsələlərə bənzər-fərqli yanaşma üsullarından, yeni strukturun fəaiyyətinin anna xəttindən söz açdı. Qarşıdakı dövrü əsasən 2008-ci il Olimpiya Oyunlarına hazırlıq kimi dəyərləndirən nazir A.Rəhimov, həm də idmanın elmi-metodik əsaslarının, baza vahidlərinin möhkəmləndirilməsinə diqqət çəkdi. Nazirliyin yeni strukturuna isə antidopinq və futbol sektorlarının da əlavə edildiyi qeyd olundu.

XX Qış Olimpiya Oyunları – 2006-cı il fevralın 10-26 tarixində İtaliyanın Turin şəhərində keçirilmişdir. Azərbaycan bu yarışlarda 3-cü dəfəydi ki, təmsil olunurdu. Olimpiadada 84 ölkədən 2500 idmançı 15 idman növündə iştirak etmişdir. Ölkəmizi bu Olimpiadada iki idmançı təmsil etmişdir. Freyzer Kristin və Lukanin İqor. Onlar buz üstə rəqs idman növündə çıxış etmişlər və öz növlərində 77,4 xal toplayaraq 19-cu yeri tutmuşlar. Buz üstə rəqs idman növündə birinciliyi Rusiya idmançıları əldə etmişlər. («İdman» qəzeti, 9 yanvar 2007-ci il)

XX Qış Olimpiya oyunlarında iştirak etmiş 84 ölkədən yalnız 26-sı medal qazanmışdır. Medal sayına görə cədvələ Almaniya başçılıq etmişdi. Onlar cəmi 29 medalı qazanmışdır (onlardan 11 qızıl, 12 gümüş və 5 bürünc). Amerikalılar isə 25 medal qazanmışdır: (onlardan 9 qızıl, 9 gümüş, və 7 bürünc), Rusiya isə 22 medal qazanmışdır: (onlardan – 8 qızıl, 6 gümüş, 8 bürünc), Latviya isə 1 bürünc medal qazanaraq sonnuncu yəni 26-cı yeri tutmuşdur. Növbəti Qış Olimpiya oyunları isə 4 ildən sonra Kanadanın Vankuver şəhərində keçiriləcəkdir.

## AZƏRBAYCAN MİLLİ PARALİMPİYA KOMİTƏSİ

Fiziki qüsurlu vətəndaşların idman maraqlarını təmsil edən ictimai qrum. 09 fevral 1996-cı ildə təsis olunmuşdur 1996-cı ildən Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) məşvərətsi, 1999-cu ildən tam hüququ üzvüdür. Fəaliyyətinin ən əsas məqsədi dörd ildə bir dəfə Olimpiaya oyunları ilə parelel keçirilən (2 həftə sonra) Paralimpiya oyunlarında fiziki qüsurlu idmançılardan ibarət milli komandanın iştirakını təmin etməkdir.

İlk dəfə olaraq müstəqilliymiz dövründə X Yay Paralimpiya Olimpiya Oyunlarında iki idman növündə iştirak edən iki idmançı ilk onluğa daxil olmuşlar. 2000-ci Sidney XI Yay Parolimpiya Oyunlarında üç idman növündə 7 idmançıdan bir qızıl, bir gümüş medal qazanmış, beşi isə ilk onluqda yer tutmuşlar. Bu oyunlarda ölkəmiz komanda hesabmda 123 ölkə arasında 47-ci yerə çıxmışdır. 2004-cü il Afina Yay Paralimpiya Oyunlarında ölkəmizdən dörd idman növündə 11 idlmançı təmsil olunmuşdur. Komandamız iki qızıl, bir gümüş, bir bürünc medal qazanmış, dörd idmançımız ilk onluğa daxil olmuşlar.



Komanda hesabında Azərbaycan 136 ölkə arasında 45-ci yeri tutmuşlar.

- G.A.İsmayılov – (pauerliftinq, 90kq), Sidney-2000 XI Yay Paralimpiya Oyunlarında I yer;
- Y.İ.Taranova (güllə atıcılığı,tapança, 10 m və 50 m), Sidney-2000 XI Yay Paralimpiya Oyunlarında gümüş ; 2004-Afina XII Yay Olimpiya Oyunlarında III yer, bürünc medal;
- İ.Ə.Zəkiyev (Cüdo), Afina-2004 XII Yay Paralimpiya Oyunlarında I yer;
- O.V.Panutin (atletika, uzunluğa tullanma), Afina-2004 XII Yay Paralimpiya oyunlarında I yer;

**Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (AMPK)** təsis konqresi keçirilmişdir. 9 fevral 1996-cı ildə keçirilən bu konqresdə İlqar Rəhimov AMPK-nın ilk prezidenti seçilmişdir. Azərbaycanın əlil vətəndaşlarının idman maraqlarını təmsil edən ictimai qurum kimi AMPK 1998-ci ildən Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) tam hüquqlu üzvüdür və bu qurumun təşkilatçılığı və rəhbərliyi ilə keçirilən bütün mötəbər idman tədbirlərində Azərbaycanı təmsil edir.AMPK eyni zamanda İPC-nin üzvü olan ayrı-ayrı əlillik qrupları üzrə beynəlxalq idman komitələrinin ( İBSA; IWAS ; CP- İSRA; INAS-FID və s.) və Avropa Paralimpiya Komitəsinin (EPC) üzvü kimi bu mötəbər qurumların da keçirdiyi tədbirlərdə ölkəmizi təmsil edir.AMPK-nın təşkilati rəhbərliyi altında iştirak etdikləri 1996-cı il Atlanta 10-cu, 2000-ci il Sidney 11-ci və 2004-cü il Afina 12-ci Yay Paralimpiya Oyunlarında, Dünya və Avropa çempionatlarında, beynəlxalq lisenziya yarışlarında Azərbaycan paralimpiyaçıları yüksək nəticələr göstərmişlər. Azərbaycanda paralimpiya hərəkatı dövlətin qayğısı ilə əhatə olunmuşdur. Bu qayğının əsası Ümummilli Liderin ölkəmizə rəhbərliyi illərində qoyulmuş və paralimpiyaçıların sevimlisi İlham Əliyevin MOK prezidenti (1997-ci ildən) və dövlət başçısı (2003-cü ildən) kimi fəaliyyəti dövründə davam etdirilərək daha yüksək səviyyəyə qaldırılmışdır. 17-21 may 2007-ci ildə Azərbaycanın cüdoçuların möhtəşəm qələbəsi ilə başa çatan,təşkilati cəhətdən müvafiq beynəlxalq idman komitəsi rəhbərliyinin, hakimlərin və iştirakçı Avropa ölkələri nümayəndə heyyətlərinin hədsiz razılılığı ilə yaddaşlara həkk olan cüdo paralimpiya idman növü üzrə lisenziya xarakterli 10-cu İBSA Avropa çempionatı kimi mötəbər yarışın ilk dəfə ölkəmizdə, Bakı şəhərində keçirilməsi, Azərbaycanda idmanın inkişafında xid-

mətləri olan paralimpiyaçılardan İlham Zəkiyevin, Oleq Panyutinin, Zeynidin Bilalovun, Yelena Taranovanın, Əhməddin Rəcəblinin, Müsəddiq Vaqifin, Vitaliy Sotnikovun,Sergey Təhməzovun,Afiq Süleymanovun və Ziyadxan Kərimovun Azərbaycan Respublikasının yüksək dövlət mükafatları ilə təltif olunması və nəhayət Ümumilli Liderin göstərişi ilə tikintisi başlanan,əlillər üçün atletika, üzgüçülük, cüdo, pauerliftinq, qolbol, voleybol, basketbol, güllə atıcılığı, futbol, kamandan oxatma və digər idman növləri üzrə bölmələrin fəaliyyət göstərəcəyi Paralimpiya İdman Kompleksinin 2008-ci ildə Sumqayıt şəhərində istifadəyə verilmiəsi dövlət qayğısının real təzahürləridir. 2006-cı ildən AMPK-nın Naxçıvan Muxtar Respublikası Regional Komitəsi fəaliyyət göstərir. AMPK-nın tərkibində idman, tibb, dopinq nəzarəti, sosial məsələlər, dövlət və ictimai qurumlarla əlaqələr və s. daimi komissiyalar da fəaliyyət göstərir.

## PEKİN – 2008. PARALİMPİYA

### Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XIII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının əlil idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Azərbaycan Respublikasının əlil idmançılarını və onların məşqçilərini Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən XIII Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə qərara alıram:

1. XIII Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlil idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

– birinci yeri tutan hər bir idmançıya 200 min manat, onun məşqçisinə isə 100 min manat;

– ikinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə isə 50 min manat;

– üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə isə 25 min manat.



2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 avqust 2008-ci il

### Azərbaycan Prezidenti İlham Əliyevin Paralimpiya İdman Kompleksinin açılış mərasimində çıxışı

Bu mərkəz imkan verəcək ki, siz istənilən vaxt məşq edəsiniz, burada yarışlar keçirmək mümkündür. Mən xatırlayıram, bir neçə il bundan əvvəl belə bir təklif irəli sürülmüşdü ki, paralimpiyaçılar üçün xüsusi bir idman mərkəzi yaradılsın. Azərbaycanın inkişafı, maddi imkanlarımızın artması nəticəsində indi biz istənilən layihəni həyata keçirə bilərik. Əlbəttə, çalışırıq ki, idmançılar və paralimpiyaçılar üçün bütün lazımi şəraiti yaradaq. Bu gün mənə verilən məlumata görə, bütün MDB məkanında ilk dəfədir ki, paralimpiyaçılar üçün xüsusi və çox yüksək səviyyədə, yüksək dünya standartlarına uyğun şəkildə idman mərkəzi tikilibdir.

Bir də deyirəm ki, mən bu gün bu mərkəzlə tanış olarkən bir daha gördüm ki, məşq etmək, yarışların keçirilməsi üçün burada bütün şərait, bütün imkanlar var. Əminəm ki, siz bu idman mərkəzindən çox səmərəli şəkildə istifadə edəcək və öz hazırlıq səviyyənizi daha da yüksəkdə saxlayacaqsınız. Bütövlükdə Azərbaycanda idman infrastrukturunun inkişafı üçün çox böyük səylər göstərilir.

Ölkəmizin istənilən bölgəsində müasir komplekslər, böyük Olimpiya kompleksləri, idman meydançaları tikilir. Azərbaycanda idmanın inkişafı üçün lazımi maddi-texniki baza möhkəmlənir, güclənir və biz bunun nəticələrini idmançılarımızın uğurlu çıxışlarında, beynəlxalq yarışlarda əldə etdiyimiz qələbələrdə, xüsusilə, çox gərgin şəkildə keçməsinə baxmayaraq, Olimpiya Oyunlarında görürük. Olimpiya Oyunları dünyanın ən birinci idman yarışıdır və bizim idmançılarımız çox böyük uğurlar qazanmışlar, Vətənə qələbələrlə, medallarla qayıtmışlar.

Siz də öz həyatınızı idmana həsr etmisiniz. Sizin həyatınızda idman çox böyük bir yer tutur. Mən çox şadam ki, biz Azərbaycanda belə gözəl mərkəzin yaranmasına nail ola bilmişik.

Əlbəttə ki, idman həyatı asan deyil. İdmanda yüksək nəticə əldə etmək üçün çox böyük işlər görülməlidir və idmançılar öz həyatını idmana, məşqlərə həsr edirlər. Sizin üçün bu, bəlkə də, ikiqat ağırdır. Paralimpiyaçıların idmana olan sədaqəti və xüsusilə Azərbaycan paralimpiyaçılarının uğurları və beynəlxalq yarışlarda iştirakı böyük qəhrəmanlıqdır.

Azərbaycan dövləti sizin bu səylərinizi çox yüksək qiymətləndirir və qiymətləndirməlidir. Məhz buna görə maksimum dərəcədə çalışırıq ki, sizin üçün lazımi şəraiti yaradaq. O cümlədən, belə gözəl idman mərkəzinin tikintisi bunu bir daha sübut edir.

Mən çox şadam ki, Azərbaycanda Paralimpiya Komitəsi fəaliyyətini genişləndirir və ümumiyyətlə, Paralimpiya Oyunlarında iştirak edən idmançıların sayı artır. Bizim Paralimpiya Oyunlarında nəticələrimiz də hər dəfə daha da böyük olur. Keçən dəfə, Afinada Paralimpiya oyunlarında dörd medal qazanılmışdır. Onlardan ikisi qızıl, biri gümüş, biri bürünc medal idi. Yəni bu, böyük göstəricidir, böyük nailiyyətdir və biz buna çox sevinirik. Hamımız yaxşı bilirik ki, Olimpiya Oyunları dünyanın nəinki ən mötəbər idman yarışıdır, hətta bəlkə də, dünyanın diqqətini cəlb edən birinci dərəcəli tədbirdir. Paralimpiya Oyunları, təbii ki, Olimpiya Oyunlarının bir növ kölgəsində qalır. Ancaq biz elə etməliyik ki, bu oyunlara da diqqət azalmasın və dövlət, idmanın inkişafına cavabdehlik daşıyan qurumlar və şəxslər Azərbaycanda paralimpiya hərəkatının inkişafı üçün öz səylərini davam etdirməlidirlər.

Biz bu barədə çox danışa bilərik, amma ən yaxşı sözlərdən daha yaxşı bizim gördüyümüz işlərdir və bu gözəl Paralimpiya kompleksinin timsalında biz Azərbaycanda son illər ərzində bu sahədəki işlərin nəticəsini də görürük. Mən əminəm ki, siz bu kompleksdən Pekin Paralimpiya Oyunlarına hazırlıq baxımından da səmərəli şəkildə istifadə edəcəksiniz, baxmayaraq ki, artıq bir neçə gündən sonra siz yola düşəcəksiniz. Əminəm ki, sonrakı dörd illik dövr ərzində peşəkarlığınızı yüksək səviyyədə saxlamaq üçün burada bütün imkanlar var, bütün şərait var. Onu da demək istəyirəm ki, Azərbaycan dövləti paralimpiyaçıların mükafatlandırılması üçün lazımi tədbirlər görür və görəcəkdir. Keçən dəfə biz bunu etdik. İndi isə bu gün mən Sərəncam imzalamışam və Sərəncama əsasən Paralimpiya Oyunlarında yüksək nəticələr qazanan idmançılara pul mükafatı veriləcəkdir. Birinci yer üçün 200 min manat, ikinci yer üçün 100 min manat, üçüncü yer üçün isə 50 min manat vəsait veriləcəkdir. Mən hesab etmirəm ki, bu, böyük bir stimuldur. Ancaq bu, sizin fəaliyyətinizə dövlət tərəfindən verilən qiymətdir və əminəm ki, ədalətli bir qərardır.

Sizin hamınızı bu gözəl idman mərkəzinin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və Pekində uğurlar, qələbələr arzulayıram.

XIII Yay Paralimpiya Oyunlarında iştirak edəcək Azərbaycan yığma komandası 2008-ci il sentyabrın 1-də Pekinə yola düşmüşdür.

Xatırladaq ki, Azərbaycan yığması Paralimpiya Oyunlarında idmanın cüdo, atletika, atıcılıq, ağırlıqqaldırma növlərində 18 idmançı ilə təmsil olunmuşdur

Pekinə 18 idmançı ilə yollanmış Azərbaycan komandası vətənə 10 medalla dönmüşdür. +100 kq çəkili cüdoçuların yarışında təmsilçimiz İlham Zəkiyev və küreatma yarışlarında mübarizə aparan Oluxan Musayev Pekin Paralimpiya Oyunlarının qızıl medalını qazandılar. Digər cüdoçularımız Tofiq Məmmədov (90 kq), Kərim Sərdarov (100 kq) və 3 təkanla uzun məsafəyə tullanma yarışlarında mübarizə aparan Ziynəddin Bilalov uğurlu çıxış edərək, Paralimpiya Oyunlarının gümüş medalın layiq görülmüşdür.

60 kq çəki dərəcəsində cüdoçuların yarışında mübarizə aparan Ramin İbrahimov, uzunluğa tullanma yarışlarında mübarizə aparan atletimiz Oleq Panyutin, 3 təkanla tullanma yarışlarında Vladimir Zayets, 100 metr məsafəyə qaçışda Vüqar Mehdiyev və 400 metr məsafəyə qaçışda Rza Osmanov XIII Pekin Paralimpiya Oyunlarının bürünc medal ilə təltif edilmişdir. Paralimpiya Oyunlarında ölkəmizin aktivinə 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazandıran sonra cüdo komandamız Avropa ölkələri arasında ilk mövqedə qərarlaşıb.

Beləliklə, Pekində 2 qızıl, 3 gümüş, 5 bürünc olmaqla, cəmi 10 medal qazanan Azərbaycan komandası ümumi hesabda 38-ci yeri tutdu. XII Afina Yay Paralimpiya Oyunlarında 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanan komandamız, Pekin Paralimpiya Oyunlarında medalların sayını ikiqat artıraraq, Azərbaycan Paralimpiya tarixində rekorda imza atdılar və Azərbaycan idmanının inkişaf səviyyəsini bir

daha nümayiş etdirdilər. Azərbaycanda idmançılara yaradılan yaxşı şərait, təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, idmançıların hazırlanması üçün görülən böyük işlər, Azərbaycanda əlillərin idmana cəlb olunmasına, Paralimpiya Hərəkatının yaranmasına və nəhayət, belə yüksək nəticənin əldə olunmasına gətirib çıxardı. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə XIII Yay Paralimpiya Oyunlarında əldə edilmiş nəticələrə görə qızıl medal qazanmış hər bir idmançıya 200 min manat, onun məşqçisinə 100 min manat, gümüş medal qazanmış idmançıya 100 min manat, məşqçisinə 50 min manat, bürünc medal qazanmış idmançıya 50 min manat , onun məşqçisinə isə 25 min manat məbləğində mükafat ayrılıb

Müstəqilliyimiz dövründə Olimpiya Oyünlarında qazanılmış medalların əsas səbəbi, İdman-Sağlamlıq Komplekslərinin tikilib istiyadəyə verilməsi dövlətimizin bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğısının təzahürüdür.



## TƏLƏBƏLƏR ÜÇÜN HAZIRLANMIŞ NÜMUNƏVİ TEST SUALLARI

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi neçənci ildə yaranıb?
1991
1992
1993
1994
1995

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi neçənci ildə Ədliyyə Nazirliyindən rəsmi qeydiyyatdan keçmişdir?
1991
1992
1993
1994
1995

Barselona Yay Olimpiya Oyunlarında (XXV,1992) Azərbaycan idmançılarından neçə idmançı iştirak etmişdir?
4
5
6
9
3

Barselona Yay Olimpiya Oyunlarında (XXV, 1992) Azərbaycan idmançıları neçə idman növü üzrə iştirak etmişdir?
3
4
5
6
7

Xalqımızın ümummilli lideri Heydər Əliyev İslandiyanın paytaxtı Reykyavik şəhərində «Olimpiya ləyaqəti» mükafatına neçənci ildə layiq görülmüşdür?
1994

1995
1996
1997
1998

Xalqımızın ümummilli lideri Heydər Əliyev ilk dəfə dünya və Avropa miqyaslı yarışlarda nəticə göstərmiş idmançıları neçənci ildə qəbul etmişdir?
1991
1992
1993
1994
1995

Xalqımızın ümummilli lideri Heydər Əliyev «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiqi» haqqında neçənci ildə sərəncam vermişdir?
1995
1996
1997
1998
1999

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 255 saylı sərəncamına əsasən «Bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramı» neçənci ildə təsdiq edilmişdir?
1996
1997
1998
1999
2000

Yeniyetmələrin II Respublika Oyunları neçənci ildə keçirilmişdir?
1996
1997
1998
1999
2000



Bakıda keçirilən Avropa Olimpiya Komitəsinin toplantısı neçənci ildə keçirilmişdir?
1997
1998
1999
2000
2001

1993-cü ildə İstanbulda yunan-Roma üzrə keçirilən Avropa çempionatında kim qızıl medal qazanmışdır?
Azad Əliyev
Natiq Eyvazov
Rövşən Hacıyev
İlham Abbasov
Rövşən Bayramov

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neçənci ildə «Olimpiya Ordeni» ilə təltif olunmuşdur?
1999
2000
2001
2002
2004

Azərbaycanın «Neftçi» komandası neçənci ildə «Birlik Kubokunun sahibi olmuşdur?
2002
2003
2004
2005
2006

Qətərin paytaxtı Doha şəhərində keçirilmiş qadın voleybol klubları arasında dünya çempionatında «Rabitə» voleybol klubu neçənci ildə qalib olmuşdur?
2007
2008
2009
2010
2011

Yerevanda keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatının qaliblərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neçənci ildə qəbul etmişdir?

2005
2006
2007
2008
2009

Respublika müstəqillik qazandıqdan sonra ilk dəfə neçənci ildə futbol idman növü üzrə Azərbaycan və Türkiyə arasında beynəlxalq yarış keçirilmişdir?

1992
1993
1994
1995
1996

Bakıda keçirilən futbol idman növü üzrə dünya çempionatında Azərbaycan-İsveçrə 1:0 hesabı ilə neçənci ildə qalib gəlmişdir?

1994
1995
1996
1997
1998

1997-ci ildə Bakıda keçirilmiş rus daması üzrə V dünya çempionatında kim çempion adını qazanmışdır?

Xosrov Abdullayev
Yzeyir Abdullayev
Əli Vəliyev
Cahangir Ömərov
Əlisultan Əliyev

Atlanta Yay Olimpiya Oyunlarında (XXVI, 1996) Azərbaycan idmançılarından neçə idmançı iştirak etmişdir?

21
23
25



27
30

Atlanta Yay Olimpiya Oyunlarında (XXVI, 1996) Azərbaycan idmançıları neçə idman növü üzrə iştirak etmişdir?

9
10
13
14
15

Atlanta Yay Olimpiya Oyunlarında (XXVI, 1996) Azərbaycan idmançılarından medal qazanan kim olmuşdur?

Zemfira Meftahəddinova
Arif Abdullayev
Namiq Abdullayev
Zylfiyyə Hüseynova
Elçin Məmmədov

Sidney Yay Olimpiya Oyunlarında (XXVII, 2000) Azərbaycan idmançılarından neçə idmançı iştirak etmişdir?

29
30
31
32
33

Sidney Yay Olimpiya Oyunlarında (XXVII, 2000) Azərbaycan idmançıları neçə idman növü üzrə iştirak etmişdir?

8
9
10
11
12

Sidney Yay Olimpiya Oyunlarında (XXVII, 2000) sərbəst güləş üzrə qızıl medal qazanan kim olmuşdur?

Elşad Allahverdiyev
Arif Abdullayev

Namiq Abdullayev
Şamil Əfəndiyev
Davud Məhəmmədov

Xalqımızın ümummilli lideri Heydər Əliyev beynəlxalq yarışlarda yüksək nailiyyətlər göstərmiş idmançıları və onların məşqçilərini neçənci ildə qəbul etmişdir?
1994
1995
1996
1997
1998

Afina Yay Olimpiya Oyunlarında (XXVIII, 2004) Azərbaycan idmançılarından neçə idmançı iştirak etmişdir?
36
37
38
39
40

Afina Yay Olimpiya Oyunlarında (XXVIII, 2004) Azərbaycan idmançıları neçə idman növü üzrə iştirak etmişlər?
10
11
12
13
14

Pekin Yay Olimpiya Oyunlarında (XXIX, 2008) Azərbaycan idmançıları neçə idman növü üzrə iştirak etmişlər?
10
11
12
13
14
15



Pekin Yay Olimpiya Oyunlarında (XXIX, 2008) Azərbaycan nümayyəndəsi neçə idmançı iştirak etmişlər?
39
40
41
42
44

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən rəsmən neçənci ildən tanınıb?
1991
1992
1993
1994
1995

Azərbaycan Respublikası Gənclər və İdman nazirliyi neçənci ildə yaranmışdır?
1991
1993
1994
1995
1996

Azərbaycan Milli Paralimpiya Komitəsi neçənci ildə yaranıb?
1993
1994
1996
1997
1998

Azərbaycan paralimpiyaçıları XI Paralimpiya Oyunlarında neçənci ildə iştirak etmişlər?
1996
1997
1998
1999
2000

«İdman Jurnalistlər Assosiasiyası» neçənci ildən fəaliyyət göstərir?
1993
1994
1995
1996
1997

«Olimpiya dünyası» qəzeti neçənci ildən fəaliyyət göstərir?
2000
2001
2003
2004
2005

«Olimpiya jurnalı» neçənci ildən fəaliyyət göstərir?
1995
1996
1997
1998
1999

Azərbaycan DBTİA-nın «İdmançı» qəzeti neçənci ildən fəaliyyət göstərir?
1995
1996
1997
1998
1999

XXVIII Yay Olmapiya Oyunlarının çempionu kim olmuşdur?
V.Rəhimov
F.Mansurov
A.Aslanov
R.Bayramov
A.Ağayev



Azərbaycan idmançılarından neçə nəfər Yay Olimpiya Oyunlarında qızıl medal qazanmışdır? (1992-2008)
7
5
6
7
8

Azərbaycan idmançılarından neçə nəfər Yay Olimpiya Oyunlarında iştirak etmişdir (1992-2008)?
139
140
141
145
151

Azərbaycan Respublikasının Bədən Tərbiyəsi və İdman Haqqında Qanunu ilk dəfə neçənci ildə təsdiq edilmişdir?
1996
1997
1998
1999
2000

Müstəqilliyimiz dövründə ilk dəfə dövlət tərəfindən «Şöhrət» ordeni ilə kim təltif olunmuşdur?
Namiq Abdullayev
Muxtar Dadaşov
Nazim Hüseynov
Sabir Hüseynov
Muxtar Dadaşov

Azərbaycan Respublikasında Dövlət tərəfindən İdman fondu neçənci ildə yaranmışdır?
1995
1996
1997
1998
1999

Müstəqil Azərbaycanda ilk dəfə Bədən Tərbiyəsi və İdman Günü neçənci ildə qeyd olunmuşdur?
5 mart 2003
5 mart 2004
5 mart 2005
5 mart 2006
5 may 2007

Xalqımızın ümummilli lideri Heydər Əliyev türkiyənin «Nərgiz TB» televiziya kanalının keçirdiyi rəy sorğusunda neçənci ildə «İnsan haqları və ilin dövlət Adamı mükafatına layiq görülmüşdür»?
1995
1996
1997
1998
1999

Neçənci ildə Beynəlxalq Olimpiya Komitəsi İlham Əliyevi Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi tanıyıb?
1992
1997
1998
1999
2000

Azərbaycan idmançıları neçənci ildə Qış Olimpiya Oyunlarında iştirak ediblər?
1997 (XVII)
1998 (XVIII)
1999 (XIX)
2000 (XX)
2001 (XXI)

MOK-un prezidenti İlham Əliyevin sədrliyi ilə MOK İcraiyyə Komitəsinin ilk iclası neçənci ildə ildə keçirilib ?
1997
1998
1999
2000
2001



MOK-un prezidenti İlham Əliyev ölkəmizin tanınmış idmançıları ilə ilk dəfə neçənci ildə görüş keçirib?
1996
1997
1998
1999
2000

Bakıda Yeniyetmələrin I Respublika Oyunlarının final mərhələsinin yarışları neçənci ildə keçirilmişdir?
1994
1995
1996
1997
1998

Azərbaycanın yeniyetmə idmançıları Moskvada keçirilmiş Ümumdünya Yeniyetmələr Oyunlarında neçənci illərdə iştirak etmişlər?
1994
1995
1996
1997
1998

Azərbaycan idmançıları Danimarkanın Esbyorq şəhərində keçirilmiş Avropa Yeniyetmələrinin Olimpiya Günlərində neçənci ildə iştirak etmişlər?
1995
1996
1997
1998
1999

Bakıda yeniyetmələr arasında boks üzrə Avropa çempionatı neçənci ildə keçirilmişdir?
1995
1996
1997

1998
1999

Bakıda Yeniyetmələrin II Respublika Oyunlarının final mərhələsinin yarışları neçənci ildə keçirilmişdir?
1996
1997
1998
1999
2000

Azərbaycan Milli Olimpiya Akademiyası neçənci ildə yaranıb?
1997
1998
1999
2000
2001

Bakıda Yeniyetmələrin I Respublika Oyunlarının final yarışları neçənci ildə keçirilib?
1997
1998
1999
2000
2001

Bakıda Olimpiya İdman Kompleksi ilk dəfə neçənci ildə istifadəyə verilib?
1999
2000
2001
2002
2003

MOK-un inzibati binası neçənci ildə istifadəyə verilib?
1999
2000
2001
2002
2002



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70-illik yubley mərasimi neçənci ildə keçirilmişdir?
2000
2001
2002
2003
2004

Azərbaycan sərbəst güləş üzrə yığma komandası neçənci ildə, hansı şəhərdə dünya kubokunu qazanmışdır?
2003 (Almaniya)
2004 (Bakı)
2005 (Fransa)
2006 (İtalya)
2007 (Türkiyə)

Bakıda Yeniyetmələrin IV Respublika Oyunlarının final mərhələsi neçənci ildə təşkil edilmişdir?
2000
2001
2003
2004
2005

Bakıda yeniyetmələrin V Respublika Oyunlarının final mərhələsinin təntənəli açılışı mərasimi neçənci ildə keçirilmişdir?
4 fevral 2004
2 mart 2005
5 may 2006
4 iyun 2007
5 iyul 2007

Neçənci ildə «Turizm haqqında» Azərbaycan Respublikası Qanununu qəbul edilmişdir?
27 iyul 1999
15 may 1998
13 fevral 2000
12 iyun 2001
10 mart 2002

Bakıda ilk dəfə sərbəst güləş üzrə Avropa çempionatı neçənci ildə keçirilmişdir?
2000
2001
2002
2003
2004

Olimpiya xartiyası neçə bölmədən ibarətdir?
3 bölmə
4 bölmə
5 bölmə
6 bölmə
7 bölmə

Dama üzrə kişilər və qadınlar arasında dünya çempionatı neçənci ildə keçirilmişdir?
5-22 fevral 1997
1-12 mart 1998
4-23 aprel 1999
1-4 aprel 2000
4-12 iyun 2001

Sambo üzrə kişilər arasında Avropa çempionatı neçənci ildə keçirilmişdir?
Mart 1997
Aprel-may 1998
İyun 1999
avqus 2000
sentyabr 2001

Avropa Olipiya Komitəsinin Texniki Komissiyasının iclası neçənci ildə keçirilmişdir?
2000 - mart
2001 - fevral
2002 – aprel
2003 - may
2004 - iyun



Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin yığıncağı neçənci ildə keçirilmişdir?
6 aprel 2001
11 iyun 2002
6 avqust 2003
9 sentyabr 2004
10 oktyabr 2005

Bodibildinq üzrə kişilər arasında Avropa çempionatı neçənci ildə keçirilmişdir?
1-3 aprel 2000
4-7 may 2001
4-11 aprel 2002
2-13 may 2003
5-17 iyun 2004

Şahmat üzrə 20 yaşa qədər oğlanlar arasında Avropa çempionatı neçənci ildə keçirilmişdir?
1-14 iyun 2001
14-28 iyul 2002
13-24 iyul 2002
19-24 avqus 2003
11-27 sentyabr 2004

Şahmat üzrə 20 yaşa qədər oğlanlar və qızlar arasında dünya birinciliyi neçənci ildə keçirilmişdir?
21 iyun -4 iyul 2003
12-23 avqust 2004
1-13 sentyabr 2005
4-12 oktyabr 2006
12-26 noyabr 2007

Bədii gimnastika üzrə Dünya Kubokunun mərhələ yarışı neçənci ildə keçirilmişdir?
6-7 iyul 2002
9-10 avqust 2003
10-11sentyabr 2004
2-4 oktyabr 2005
5-7 noyabr 2006

Gənclər, İdman və Turizm Nazirliyi neçənci ildə ləğv **edilmişdir?**
2006-cı il yanvarın 30-da
2006-cı il fevralın 14-də
2006-cı il martın 14-də
2007-ci il aprelin 13-də
2008-ci il mayın 19-da

Mehriban xanım Əliyeva neçənci ildə Azərbaycan **Gimnastika** Federasiyasının prezidenti seçilmişdir?
2002-ci ilin oktyabrında
2003-cü ilin sentyabrında
2002-cü ilin fevralında
2001-ci ilin avqustunda
2000-ci ilin fevralında

Cüdo üzrə Avropa birinciliyi neçənci ildə keçirilmişdir?
12-14 iyul 2002
22-24 avqust 2003
19-21 sentyabr 2004
10-18 iyun 2001
05-10 oktyabr 2000

Müsəlman Ölkələri Qadın Həmrəyliyi Şurasının İdarə **Heyətinin** iclası neçənci ildə keçirilmişdir?
4-5 aprel 2001
6-7 iyun 2002
2-3 noyabr 2003
5-6 dekabr 2004
1-2 yanvar 2005

Yeniyetmələr arasında boks üzrə VI dünya çempionatı **neçənci** ildə və harada keçirilmişdir?
2005 – (London)
2006 - (Moskva)
2007 - (Bakı)
2008 - (Türkiyə)
2099 – (Helsinki)



Azərbaycan Həmkarlar İttifaqları Assosiasiyası «AHİTA» neçənci ildə yaranıb?
1992
1993
1994
1995
1996

Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roq neçənci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının fəxri doktoru seçilmişdir?
1996
1997
1998
1999
2000

Bakıda Boddibildinq üzrə Avropa çempionatı neçənci ildə keçirilmişdir?
1997
1998
1999
2000
2001

Bakıda yeniyetmələr arasında boks üzrə dünya çempionatı neçənci ildə keçirilmişdir?
1997
1998
1999
2000
2001

«Olimpiya dünyası» qəzetinin birinci sayı neçənci ildə çapdan çıxmışdır?
1997
1998
1999
2000
2001

XIX Qış Olimpiya Oyunları neçənci ildə keçirilmişdir?
1998
1999
2000
2001
2002

Bakı şəhərində sərbəst güləş üzrə 45-ci Avropa çempionatı neçənci ildə keçirilmişdir?
1998
1999
2000
2001
2002

Bakı şəhərində sərbəst güləş üzrə keçirilən 45-ci Avropa çempionatında kim qızıl medal almışdır?
Arif Abdullayev
Elman Əsgərov
Nazim Əlicanov
Namiq Abdullayev
Əsgərxan Novruzov

Bakıda «Nə? Harada? Nə vaxt? intellektual oyunları və «Breynrinq» üzrə ilk dünya çempionatı neçənci ildə keçirilmişdir?
1998
1999
2000
2001
2002

Naxçıvan Olimpiya İdman Kompleksinin təntənəli açılışı neçənci ildə olmuşdur?
1998
1999
2000
2001
2002



Moskvada keçirilən yunan-Roma güləşi üzrə dünya çempionatında ölkəmizi təmsil edən Fərid Mansurov neçənci yeri tutmuşdur?
I
II
III

Naxçıvan Olimpiya İdman Kompleksində 20 yaşına qədər şahmatçılar arasında keçirilən dünya çempionatı hansı ildə keçirilmişdir?
1999
2000
2001
2002
2003

Tailandda keçirilmiş boks üzrə dünya çempionatında ölkəmizin idman tarixində boks üzrə ilk dünya çempionu kim olmuşdur?
Tofiq Əhmədov
Ruslan Xairov
Rövşən Hacıyev
Ağası Məmmədov
Vüqar Ələkbərov

Bakıda bədii gimnastika üzrə 27-ci dünya çempioğnatı neçənci ildə keçirilib?
2001
2002
2003
2004
2005

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Xəzər-Lənkəran» futbol klubunun üzvlərini neçənci ildə qəbul etmişdir?
2002
2003
2006
2007
2008

Avropa Ədalətli Oyunlar Komitəsinin Baş Assambleyasının və XV Konqresi Azərbaycanda neçənci ildə keçirilmişdir?
2004
2005
2006
2007
2008

**Qeyd:** Göstərilən sualların yalnız biri düzgündür.



## ƏDƏBİYYAT


1. Abiyev A. Xalqın mənəvi və fiziki inkişafının qayğıkeşi. «Adiloğlu» nəşriyyatı. Bakı, 2005. 130 səh.
2. Abiyev A., Quliyev D., «Helsinkidən başlayan yol». Bakı. 2002, 93 səh.
3. Azərbaycan fəallar yığınacağının materialları. 21 iyun 1974-cü il. 27 səh.
4. «Azərbaycan qəzeti»,27 iyul 1994-cü il. 24 dekabr 1997-ci il.
5. "Azərbaycan müəllimi" qəzeti, 15 iyun 1999-cu il.
6. «Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı». Bakı, 2004.
7. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin xüsusi buraxılış bülleten jurnalı. № 01(01). 2009 mart.
8. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin hesabatı. (2004). Bakı, 2004, 72 səh.

Rəhmanov C., Fərzəliyev M., Rəhimov N., Quliyev D. «Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi 15 il». Bakı. 2007, 461 səh.

8.İbrahimov N.. «Müstəqil Azərbaycanın gələcəyi gənclərindir». Azərbaycan nəşriyyatı. Bakı. 1996. 134 səh.

9.«İdman» qəzeti. 1960-2006-cı illər.

10.Quliyev D. «Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi». Bakı. 2004. 224 səh.

11.Quliyev D. «Azərbaycan idmanının dünəni və bu günü». Bakı. 2003.320 səh.

12.Quliyev D.Q. Qış Olimpiya Oyunları. Bakı. 1999, 80 səh.

13.Quliyev D.Q. «Sərbəst güləşçilərimiz Olimpiya oyunlarında». Bakı . «İşıq» nəşriyyatı.1992, 50 səh.

14.Quliyev D.Q. «Azərbaycan ulduzları Olmpiya oyunlarında». Bakı, Azərb.DBTİA-nın mətbəəsi. 1996. 55 səh.

15.«Olimpiya» jurnalı (1999-2011)

16.«Olimpiya dünyası» qəzeti (2000-2011)

17.Тотоонти И.Х. ВСЕ о вольной борьбе. Издательство «Проект.Пресс». 1997. 250 с.

## MÜNDƏRİCAT

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ........................ 3

Giriş ........................................................................................ 4

FƏSİL I
1991-1993-cü illərdə bədən tərbiyəsi və idmanın inkişafı ................ 8

FƏSİL II
1994-2003-cü illərdə bədən tərbiyəsi və idmanın inkişafı ................ 21

FƏSİL III
2004-2011-ci illərdə bədən tərbiyəsi və idmanın inkişafı ................ 91

FƏSİL IV
Müstəqilliyimiz dövründə Azərbaycan idmançılarının
Yay Olimpiya Oyunlarında çıxışlarının təhlili (1992-2008) ............ 150
*XXV Yay Olimpiya Oyunları (1992- Barselona)* .............................. 159
*XXVI Yay Olimpiya Oyunları (1996 - Atlanta)* ................................ 160
*XXVI I Yay Olimpiya Oyunları (2000 - Sidney)* .............................. 165
*XXVIII Yay Olimpiya Oyunları (2004 - Afina)* ................................ 167
*XXIX Yay Olimpiya Oyunları (2008 -Pekin)* .................................. 170
*Qış olimpiya Oyunlarının tarixindən* ............................................ 184
*Azərbaycan Milli Paralimpiya Komitəsi* ......................................... 186

Test sualları ........................................................................... 193

Ədəbiyyat ................................................................................ 213



**Dilqəm Quliyev**

**Müstəqil Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı (1991-2011)**

Bakı – Mütərcim – 2012

*Kitab "Mütərcim" Nəşriyyat-Ploqrafiya Mərkəzində səhifələnmiş və çap olumuşdur.*

Çapa imzalanıb: 21.08.2012.
Format: 60x84 1/16. Qarnitur: Times.
Həcmi: 13,5 ç.v. Tiraj: 150. Sifariş № 41.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Resul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru